Obstruktiv yuxu apnesi sindromu (OYAS), yuxu zamanı təkrarlanan yuxarı tənəffüs yolu tıxanmalarına bağlı olaraq, hava axınının azalması ya da tənəffüsün dayanması ilə xarakterizə edilən və tez-tez oksigen saturasiyasında azalma ilə birgə müşahidə olunan sindromdur [1]. Yaşlı nəsildə; qadında 1.2-2.5 % və kişidə 1-5% nisbətlərində olduğu təxmin edilir [2,3]. Aparılan tədqiqatlar zamanı OYAS xəstələrində birincili açıq bucaqlı qlaukoma (BABQ) prevelansı və həmçinin BABQ xəstələrində yuxu pozuntusu tənəffüs tezliyi prevelansının artdığı müşahidə olunmuşdur [4,5]. OYAS xəstələrində qlaukomatoz optik nevropatiyanın inkişaf səbəbi kimi təkrarlanan uzun müddətli apnelərə sekonder olaraq, optik sinir başı qan axını otorequlasiya pozuntusu, arterosklerozə və arterial qan təzyiqi dəyişikliklərinə sekonder, optik sinir qan axınının pozulması və təkrarlanan uzun müddətli hipoksinin bir başa optik sinirə ziyanı verməsi ilə nəticələndiyi qeyd olunmuşdur.

Qlaukoma retina qanqlion hüceyrələrinin degenerasiyası ilə xarakterizə olunan, inkişaf edən optik bir nevropatiya növüdür [6]. Qlaukoma xəstələrində görmə sahəsi defektləri inkişaf edənə qədər retina qanqlion hüceyrə (RQH) aksonlarının 40%-nin yox olduğu qeyd olunmuşdur.

Tədqiqatın **məqsədi** Obstruktiv yuxu apnesi sindromu olan xəstələrdə qlaukomatoz dəyişikliklərin öyrənilməsindən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqatın aparılmasına Ankara Universiteti Tibb Fakültəsi Döş Qəfəsi Xəstəlikləri Kafedrasının Yuxu Laboratoriyasında OYAS diaqnozu qoyulan 59 xəstə ,və 19 sağlam könüllü şəxsdən ibarət nəzarət qrupu cəlb edildi. Nəzarət qrupu OYAS simptom və əlamətləri baxımından sorğulanmış və bu simptom daşıyıcısı olmayan şəxslər qəbul edilmişdir. Bu şəxslər üzərində Ankara Universiteti Tibb Fakültəsi Göz Xəstəlikləri Kafedrasında dekabr-2012-iyul-2015-ci il tarixləri arasında qlaukoma olub-olmadığı araşdırıldı. Xəstələr apnea hipopniya indeksinə (AHİ) görə zəif, orta və ağır olmaqla 3 qrupa ayrıldılar. AHİ hesabı 5-15 arası olanlar zəif, 16-30 arası olanlar orta, 30-dan yuxarı olanlar ağır qrupa daxil edildi. Bu qruplaşmaya görə zəif qrupda 19 xəstə (37 göz), orta qrupda 16 xəstə (31 göz) və ağır qrupda 24 xəstə (47 göz) vardı. Xəstələrdə aşkar olunan sistemik xəstəliklər və OYAS müalicəsi üçün tətbiq olunan üsullar araşdırıldı. Ümumi poliklinikaya müraciət edən və hər iki gözün oftalmoloji müayinəsi zamanı patologiya aşkar olunmayan və anamneziyasında xoruldama, yuxuda tənəffüs dayanması və gündüz həddindən artıq yuxu halı olmayan 19 nəfərdən ibarət nəzarət qrupu yaradıldı.

Aşağıdakı xüsusiyyətlərə malik göstəricilər tədqiqata daxil edilməmişdir:

a) Göz daxili cərrahiyyə əməliyyatı keçirənlər
b) Gözdə zədə
c) Üveit xəstəliyi
d) Ailədə qlaukoma əlaməti daşıyıcısı olanlar
e) +4 D üzərində hipermetropiya və / və yaxud -5 D üzərində miopiya, astiqmat> ± 1.00 olması
f) Retinal xəstəliklər
g) Anamnezinde kardiovaskulyar xəstəlikləri olanlar
h) Həyatının hər hansı bir dövründə antiqlaukomatoz dərman istifadəsi
i) Hər hansı bir səbəblə retinal lazer edilmiş xəstələr
j) Mərkəzi apne olanlar
k) Optik nevropatiya

Bütün xəstələr oftalmoloji müayinədən keçdi. Gonyolens (OcularInstruments, Vashinqton, ABŞ) istifadə edilərək dörd kadranda iridokorneal bucaq dəyərləndirildi. Qoldmann aplanasion tonometr ilə göz daxili təzyiq (GDT) ölçüldü. Xəstələrin mərkəzi kornea qalınlığı pakimetriya cihazından (Ocuscan RXP Alcon ABŞ) istifadə olunaraq və ultrasəs müayinə metodu ilə müəyyən edildi. Bütün xəstələrə SITA standart 24-2 perimetriya

lizi (QHA) ilə xəstələrdə qanqlion hücrə kompleksi (QHK) dəyərləndirildi. Cirrus HD-OKT saniyədə 27 000 A-axtarış sürətinə malik olan spektral domain OKT cihazıdır. Ölçülmələrdə optik disk kub 200x200 müayinə protokolundan istifadə edildi. Optik disk kub optik disk və parapapillarretinal sahəni 6x6-mm2 (200x200 məlumatların nöqtəsi) bir sahədə göstərən qlaukoma müayinə protokoludur. Hərəkət artefaktı və ya siqnal gücü 6-dan daha az olan görüntülər bir daha təkrarlandı. Disk dəyərləndirməsi zamanı; rim sahəsi (RS), disk və vertikal C/D nisbətləri diqqətə alındı. Orta hesabla, siferblat və saat dial olaraq retina sinir lifi qatı (RSLQ) qalınlığı qeyd edildi. QHA proqramı ilə Makular cube 512x128 protokolu istifadə olunaraq qanqlion hüceyrə-daxili pleksiform təbəqə (QHDPT) nəzərdən keçirildi. Orta hesabla, minimum və sektoral (superior, inferior, superonasal, superotemporal, inferonasal, inferotemporal) QHDPT fovea ətrafında oval xalqa daxilində müayinələr aparıldı. Seqmentasiya səhvlərinin qarşısını almaq üçün siqnal gücü 6 və 6-dan yuxarı olan ölçmələr aparıldı.

Statistiki analiz. Məlumatlar SPSS for Windows 15 paket proqramında analiz edildi. Təyinedici statistikaların paylanması normal olan dəyişənlər üçün orta ± standart kənaraçıxma, paylanması normal olmayan dəyişənlər üçün (min-maks), nominal dəyişənlər isə hadisə sayı və (%) olaraq göstərildi. Qruplar arasında orta cəhətdən fərqin əhəmiyyəti t testi ilə orta dəyərlər cəhətdən əhəmiyyəti Mann Whitney testi ilə araşdırıldı. Nominal dəyişənlər Pearson Ki-metr və ya Fisher exact testi ilə qiymətləndirildi. Davamlı dəyişənlər arasındakı əlaqə araşdırılarkən paylanma normal olmadıqda SPEARMAN Korrelyasiya testi ilə, normal olduğunda isə PEARSON Korrelyasiya testi ilə qiymətləndirildi. Statistik təhlillərdə zəif, orta, ağır göstəricilər və nəzarət qrupunun sağ və sol gözləri öz aralarında bir-biriylə müqayisə edildi. Yenə bütün OYAS xəstələrinin sağ gözü nəzarət qrupunun sağ gözü, bütün OYAS xəstəsilərin sol gözü nəzarət qrupunun sol gözü ilə müqayisə edildi. Həmçinin qrupların sağ və sol gözləri öz aralarında müqayisə edildi. $P<0.05$ üçün nəticələr statistik olaraq uyğun hesab olundu.

Tədqiqatın nəticələri. Polisonografiyadan keçən 59 OYAS xəstəsi və 19 sağlam şəxsdən ibarət nəzarət qrupu tədqiqata cəlb olundu. AHi miqdarına görə OYAS xəstələri 3 qrupa ayrıldı: 1. qrupda AHİ miqdarı 5-15 arası olan zəif OYAS -lı 19 xəstə (32.20%) (37 göz), 2-ci qrupta AHİ miqdarı 16-30 arası olan orta OYAS -lı 16 xəstə (27.11%) (31 göz), 3-cü qrupda AHİ miqdarı 30-dan çox olan ağır OYAS -lı 24 xəstə (40.67%) (47 göz) vardı. OYAS -lı xəstələrin 34-ü (57.6%) kişi, 25-i (42.3%) qadın idi. Nəzarət qrupunun 6-sı (31. 5%) kişi, 13-ü (68.4%) qadın idi. Qruplara görə cinsiyyət bölüşdürmələri arasında statistik olaraq böyük fərq vardı ($p = 0.018$). Demoqrafik xüsusiyyətlər ətraflı şəkildə Cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

OYAS xəstələri və nəzarət qrupunun demoqrafik xüsusiyyətləri

	Zəif OYAS (N=19)	Orta OYAS(N=16)	Ağır OYAS(N=24)	Nəzarət (N=19)	P
Xəstənin sayı	19	16	24	19	
Göz sayı	37	31	47	38	
Qadın/Kişi	12/7	7/9	6/18	13/6	0,018
Yaş (il)	56,63±7,93	55,63±6,03	55,67±9,50	52.58±6.17	0.405
AHİ (saat)	8,63±2,69	22,31±6,30	66,21±28,96		0.000

Tədqiqata xəlb olunan xəstələrdə; ağır OYAS-lı qrupta 2 xəstənin 3 gözündə okular hipertonsiya (OHT) aşkar olundu. Hər iki xəstədə perimetriya və optik sinir analizləri normal olduğu üçün statiki analizlərə daxil edildilər. OYAS xəstələrində görülən OHT tezliyi 3.44% miqdarında aşkar olundu.

Cədvəl 2

Qruplararası görmə sahəsi parametrlərinin müqayisəsi

	Zəif OYAS(N=19)	Orta OYAS(N=16)	Ağır OYAS(N=24)	Nəzarət (N=19)	P
MD sağ göz	-1,86±1,61	-23,07±76,04	-2,05±1.92	-1,33±1.37	0.705
Sol göz	-2,40±2,53	-3,54±6,56	-2,39±2,00	-1,12±1.36	0,072
PSD sağ göz	2,87±1,72	2,94±2,49	2,48±0,98	1.80±0,45	0,051
Sol göz	2,93±1,97	3,31±2,83	2,06±0,65	1,86±0,73	0,033

Qeyd: MD=Orta deviasiya, PSD=Patern standart deviasiya; N=xəstənin sayı.

Görmə sahəsinin parametrlərindən MD və PSD müayinə edilərək statistik analiz edildi. Zəif, orta, ağır və nəzarət qrupu arasında MD baxımından sağ və sol gözlər arasında o qədərdə böyük fərq yoxdur ($p>0.05$). PSD orta hesabla; Zəif OYAS xəstəsilərin sağ gözündə 3.15±2.07, sol gözündə 2.93±1.97, orta OYAS xəstəsilərin sağ gözündə 2.94±2.49, sol gözündə 3.31±2.83, ağır OYAS xəstəsilərin sağ gözündə 2.48±0.98, sol gözündə 2.06±0.65 və nəzarət qrupunun sağ gözündə 1.80±0.45, sol gözündə 1.86±0.73 miqdarında aşkar edildi. Nəzarət qrupu ilə müqayisə edildikdə zəif OYAS xəstəsilərin sağ gözündə və orta OYAS xəstələrinin sol gözündə PSD

dəyərlərinin yüksək olduğu aşkar olundu (sırası ilə p=0.051, p=0.033) (Cədvəl 2). OYAS-lı xəstələrin 28-i (47.5%) continuous positive airway pressure CPAP müalicəsi almışdır. Nəzarət qrupundan fərqli olaraq sol gözündə CPAP istifadə olunmayan qrupda MD miqdarının çox olduğu müəyyən edildi (p = 0.054). PSD orta miqdarının sağ gözdə, CPAP istifadə edən və etməyən qrupda, nəzarət qrupuna görə daha yüksək olduğu müəyyən olundu (p = 0.007). Bununla bağlı olaraq Cədvəl 3-də geniş məlumat verilib.

Cədvəl 3

CPAP istifadə edilən və edilməyən şəxslərlə və nəzarət qrupu xəstələrinin müqayisəsi

	CPAP istifadə edən (N=28)	CPAP istifadə etməyən (N=31)	Nəzarət (N=19)	P
MD sağ göz	-1.78±1.49	-12.59±53.92	-1.33±1.37	0.594
sol göz	-2.34±1.79	-3.04±5.08	-1.12±1.36	0.054
PSD sağ göz	2.42±0.82	3.0±2.19	1.80±0.45	0.016, 0.014
sol göz	2.29±0.82	3.03±2.51	1.86±0.73	0.057

Qeyd: MD= Orta deviasiya; PSD=Patern standart deviasiya; N=xəstənin sayı

Bütün OYAS-lı xəstələrlə nəzarət qrupunun müqayisəsi zamanı sağ gözdə MD baxımından o qədərdə böyük fərq müşahidə olunmadı. Sol gözdə isə MD OYAS xəstələrində daha zəifdirr (p=0.013). PSD miqdarına nəzər yetirdikdə həm sağ həm də sol gözdə bütün OYAS xəstələrində nəzarət qrupundan fərqli olaraq bu miqdarın yüksək olduğu müəyyən edildi (sırası ilə p=0.002, p=0.032).

Cədvəl 4

Qruplar arası orta, minimum və kadranlara görə QHK-nın müqayisə edilməsi

	Zəif OYAS(N=19)	Orta OYAS(N=16)	Ağır OYAS(N=24)	Nəzarət(N=19)	P
QHK Sağ göz	n=18	n=15	n=23	n=19	
QHK (orta miqdar)	79.26±9.85	75.27±19.70	81.61±6.19	85.63±5.42	0.052
MQHK	67.68±23.30	69.47±25.55	76.48±10.71	82.26±6.36	0.063
Superior kadran	77.47±16.40	76.53±19.29	81.35±11.00	86.47±6.55	0.142
Superotemporal	79.21±22.31	74.33±21.13	80.65±7.09	82.63±6.8	0.593
İnferotemporal	82.00±15.86	74.47±21.51	82.87±5.94	85.32±5.68	0.063
inferior	79.06±8.17	75.80±17.92	80.30±7.51	85.95±5.61	0.029, 0.049
İnferonasal	77.94±11.69	74.33±19.60	78.52±16.99	86.47±5.31	0.037
Superonasal	79.58±9.88	76.80±20.65	82.43±8.65	86.74±5.84	0.163
Sol göz	n=19	n=16	n=24	n=19	
QHK (orta miqdar)	72.32±17.40	77.88±10.72	77.12±13.48	84.79±5.89	0.013
MQHK	65.05±22.12	67.63±23.43	65.92±23.65	82.16±6.33	0.010, 0.019, 0.004,
Superior kadran	71.11±20.16	76.94±15.57	77.92±17.63	85.58±7.26	0.058
Superotemporal	70.74±20.64	74.81±16.9	75.04±20.86	83.26±6.1	0.113
İnferotemporal	72.79±18.92	80.06±7.38	80.08±17.12	84.26±6.25	0.076
inferior	73.37±16.22	79.69±7.01	76.75±12.98	84.21±6.00	0.022
İnferonasal	72.42±17.07	79.31±9.06	113.92±183.66	84.68±5.26	0.019
Superonasal	72.89±17.42	76.13±16.60	77.92±15.61	86.63±5.72	0.011

Qeyd: QHK=Qanqlion hüceyrə kompleksi; MQHK=Minimum qanqlion hüceyrə kompleksi; N=xəstə sayı; n=göz sayı.

Orta hesabla QHK qruplar arasında sağ-sol gözlər öz daxilində müqayisə edildikdə zəif OSAS-lı qrupda, sol gözdə, nəzarət qrupundan fərqli olaraq aşağı olduğu müəyyən olundu (p=0.013). Minimum qanqlion hüceyrə kompleksinin (MQHK), sol gözdə, zəif, orta, ağır OYAS -lı qrupda, nəzarət qrupundan fərqli olaraq aşağı

olduğu aşkar edilmişdir (sırası ilə p=0.010, p=0.019, p=0.004). Daha ətraflı məlumatlar cədvəl 4-də göstərilmiştir. Kadranlara görə QHK müqayisə edilərkən: zəif qrupda sağ və sol gözdə inferior və inferonasalde nəzarət qrupundan fərqli olaraq aşağı olduğu müəyyən edilmişdir (sırası ilə P=0.029, p=0.022, p=0.037, p= 0.019). İnferonasalde zəif OYAS -lı qrupda sağ gözdə AHİ ilə müsbət korrelyasiya müəyyən olundu (r=0.594, p =0.007). Superonasalde zəif OYAS -lı qrupda, QHK sol gözdə, nəzarət qrupuna görə zəifdirr (p=0.011).Zəif qrupda sağ gözdə AHİ ilə müsbət korrelasiya mövcuddur (p=0.005, r=0.612). İnferior kadranda QHK ağır qrupda, sağ gözdə, nəzarət qrubundan fərqli olaraq zəifdir (p=0.049). Cədvəl 4-də ətraflı məlumat verilmişdir.

Orta hesabla QHK sağ gözdə CPAP istifadə olunan qrupda grupta nəzarət qrupu ilə müqayisə edildikdə aşağı olduğu müəyyən edilmişdir (p=0.021). Sol gözdə orta hesabla QHK, CPAP istifadə edən və istifadə etməyən qrupda nəzarət qrupuna nəzərən zəifdir (sırası ilə p=0.008, p=0.042). Minimum QHK-yə nəzər yetirdikdə sağ gözdə CPAP istifadə olunmuş OYAS xəstələrində nəzarət qrupundan fərqli olaraq zəifdir (p=0.039). Sol gözdə isə CPAP istifadə edən və istifadə etməyən qrupda nəzarət qrupuna nəzərən zəifdir (sırası ilə p=0.000, p=0.005). Kadranlara görə qruplararası QHK dəyərləndirməsi 5-ci cədvəldə göstərilmişdir.

Cədvəl 5

CPAP istifadə edən, istifadə etməyən və nəzarət qrubu xəstələri arasında orta, minimum və kadranlara görə QHK-nın müqayisə edilməsi

	CPAP istifadə edən N=28	CPAP istifadə etməyən N=31	Nəzarət N=19	P miqdarı
QHK Sağ göz				
Ortalama QHK	79.0±11.67	80.23±11.97	85.63±5.42	0.021
MQHK	73.50±15.07	72.50±19.97	82.26±6.36	0.039
Superior kadran	79.08±14.35	80.47±12.31	86.47±6.55	0.094
Superotemporal	78.27±12.19	80.97±16.85	82.63±6.8	0.323
İnferotemporal	79.88±12.26	81.70±16.54	85.32±5.68	0.059
inferior	78.15±11.89	79.17±11.01	85.95±5.61	0.005. 0.022
İnferonazal	75.5±18.66	78.70±13.62	86.47±5.31	0.006. 0.041
Superonazal	80.31±12.63	80.30±13.63	86.74±5.84	0.136
Sol göz				
Ortalama GKH	75.11±13.79	76.39±14.76	84.79±5.89	0.008, 0.042
MQHK	63.36±24.68	68.58±20.91	82.16±6.33	0.000. 0.005
Superior kadran	74.21±19.41	76.58±16.72	85.58±7.26	0.033
Superotemporal	71.43±22.69	75.55±16.38	83.26±6.1	0.061
İnferotemporal	79.54±15.80	76.10±16.09	84.26±6.25	0.047
inferior	76.00±12.30	76.87±13.66	84.21±6.00	0.005
İnferonazal	107.50±170.27	76.42±14.87	84.68±5.26	0.010
Superonazal	75.29±17.14	76.29±15.84	86.63±5.72	0.010. 0.013

QHK=Qanqlion hüceyrə kompleksi; MQHK=Minimum qanqlion hüceyrə kompleksi; N=xəstə sayı; n=göz sayı.

Tədqiqatın nəticələrinin müzakirəsi. Apardığımız tədqiqatlar zamanı zəif, orta və ağır xəstələrin sağ gözünü nəzarət qrupunun sağ gözü, zəif, orta, ağır xəstələrin isə sol gözünü nəzarət qrupunun sol gözü ilə müqayisə etdik. Tədqiqatımızda OYAS-lı qrup ilə nəzarət qrupu arasında həm sağ, həm də sol gözdə orta deviasiya miqdarında heç bir fərq yoxdur (p=0.705, 0.072). Nəzarət qrupu ilə müqayisə edilərkən orta qrupda sol gözdə, zəif qrupda isə sağ gözdə PSD miqdarında yüksək fərq olduğu müəyyən olundu (sırası ilə p=0.033, p=0.051). AHİ ilə korrelasiya aşkar olunmadı. Tsanq və yoldaşlarının OYAS xəstələrində görmə sahəsi indekslərini dəyərləndirdikləri təcrübələrində 41 OYAS xəstəsi qrupunda görmə sahəsi meyarlarından MD və PSD miqdarında nəzarət qrupuna nəzərən artım müşahidə etmişdilər (7). Batisse və yoldaşları 27 OYAS xəstəsində standart görmə sahəsinin normal olmasına baxmayaraq mavi-sarı rəngli görmə sahəsindəki defektlərinin və MD miqdarının AHİ ilə əlaqədar olduğunu bildirmişlər (8). Xin və yoldaşlarının 119 OYAS xəstəsi ilə bağlı apardıqları təcrübə zamanı MD miqdarının ağır qrupda nəzarət qrupuna və orta OYAS -lı qrupa

nəzərən aşağı, PSD dəyəri isə yenə ağır və orta qrupda nəzarət qrupuna nəzərən isə yüksək olduğu müəyyən olunmuşdur (9). Yenə eyni işdə AHİ ilə MD miqdarı arasında mənfi, AHİ ilə PSD arasında isə müsbət korrelyasiya aşkar edilmişdir. Mütəxəssislər bu nəticəni uzun müddətli intermitant hipoksiya və simpatik uyğunlaşma pozuntusu ilə əlaqələndirmişdilər.

OYAS-ın qlaukoma üçün risk faktoru olabiləcəyini göstərən tədqiqatları yayınlanmışdır. Bundan əvvəl də OYAS xəstələr arasında həyata keçirilən təcrübələr zamanı qlaukoma prevelansının 2% ilə 27% arasında fərqlilik göstərdiyinə dair əldə olunan məlumatlar yayınlanmışdır. Apardığımız tədqiqat zamanı 59 OYAS xəstəsinin 2-nə (3.44%) okular hipertansiyon diaqnozu qoyulmuşdur.

Kerqoat və yoldaşları retina qanqlion hüceyrələrinin, xüsusilə anormal perfuziya və azalmış oksigen saturasiyasına qarşı həssas olduğunu bildirmişdilər (10). Aparılan tədqiqatlara nəzər yetirdikdə OYAS xəstələrində qanqlion hüceyrə kompleksini dəyərləndirən heç bir tədqiqata rast gəlmədik. Biz də tədqiqatımızda OYAS xəstələrində QHK-də baş verən dəyişiklikləri nəzərdən keçirtdik. Qruplar arasında orta hesabla QHK baxımından elə də böyük fərqə rast gəlmədik. QHK isə sol gözdə, hər üç qrupda nəzarət qrupundan fərqli olaraq sol gözdə QHK miqdarının minimum olduğu məlum olmuşdur. CPAP istifadə edən (n = 28) və istifadə etməyən (n = 31) xəstələrlə nəzarət qrupunu müqayisə etdikdə sağ gözdə orta hesabla QHK, CPAP istifadə edənlərdə nəzarət qrupundan fərqli olaraq aşağı miqdarda müəyyən olundu (p = 0,021). Nəzarət qrupundan fərqli olaraq CPAP istifadə edən və etməyən xəstələrin sol gözündə orta hesabla QHK-nin aşağı olduğu müəyyən olundu (p = 0.008, p = 0,042). Minimum QHK-də sağ gözdə CPAP istifadə edən xəstələrdə, sol gözdə isə CPAP istifadə edən və etməyən xəstələrdə nəzarət qrupundan fərqli olaraq aşağı olduğu müəyyən olundu (sırası ilə p=0,039, p=0,000, p=0,005).

Kadranlara əsasən qiymətləndirdiyimiz zaman sağ gözdə QHK inferior və inferonasal kadranda CPAP istifadə edən və istifadə etməyən xəstələrdə incə olduğu müəyyən olundu (sırası ilə p = 0,005, 0,022, 0,006, 0,041). Sol gözdə QHK; superior, inferotemporal, inferior və inferonasalde CPAP istifadə edən xəstələrdə nəzarət qrupundan fərqli olaraq incə olduğu müəyyən olundu ((sırası ilə p = 0,033, 0,087, 0,005, 0,010). Superonasal kadran, sol gözdə QHK, CPAP istifadə edən və istifadə etməyən xəstələrdə nəzarət qrupundan fərqli olaraq incə olduğu müəyyən olundu (sırası ilə p = 0,010, 0,022).

OYAS xəstələrində hipoksiya və hiperkapninin səbəb olduğu vazodilatasiya, intrakranial təzyiqi artıraraq serebral perfuziya və optik sinirin qan dövranına mənfi təsir edir (pozur). Bu mexanizm vasitəsi ilə OYAS xəstələrində retina sinir lifi təbəqəsi və QHK-də baş verən incəlməni izah etmək olar. Ağır və orta qrupda simptomlar daha aydın olduğu üçün ümumilikdə bu qrupa daxil olan xəstələr Qulaq Burun və Boğaz və yaxud Döş Qəfəsi Xəstəliklərinə daha çox müraciət edirlər. Vaxtında aparılan CPAP müalicəsinin retinaya müsbət təsiri ola bilər. Zəif qrupa daxil olan xəstələr isə simptomlar daha az olduğu üçün həkimə nadir hallarda müarciət edirlər və nəticədə müalicə olunmayan xəstəliyin müddəti daha da uzanır. Zəif xəstələrdə müalicəsiz müddətin uzanması retina qanqlion hüceyrələrinin daha da həssas olmasına gətirib çıxarır.

Nəticədə Obstruktuv Yuxu Apne Sindromu daşıyıcısı olan xəstələr OHT-yə və yaxud qlaukomaya meyilli olurlar. Bu səbəbdən xəstələr qlaukomanın inkişafı baxımından nəzarət altında saxlanılmalı və bununla bağlı olaraq Döş Qəfəsi Xəstəliklər və Qulaq, Burun və Boğaz Xəstəlikləri mütəxəssislərinə də məlumat verilməlidir.

ƏDƏBIYYAT

1. Turaçlı M.E. Açık açılı glokomların epidemiyolojisi ve risk faktörleri // Türkiye Klinikleri Oftalmoloji Dergisi. 2004, c.13, s.1-6.
2. Friedman D.S,. Wolfs R.C.W., O'Colmain B.J. et al. Prevalence of open-angle glaucoma among adults in the United States // Arch Ophthalmol (Chicago, Ill 1960), v.122(4), p.532-8.
3. Bourne R.R.A. Sukudom P., Foster P.J. et al. Prevalence of glaucoma in Thailand: a population based survey in Rom Klao District, Bangkok // Br J Ophthalmol. 2003, v.87(9), p.1069-74.
4. Wikins L.W&. Duane's Ophthalmology. 2002.
5. Quigley H.A., Vitale S. Models of open-angle glaucoma prevalence and incidence in the United States // Invest Ophthalmol Vis Sci., 1997, v.38(1), p.83-91.
6. Weinreb R.N., Khaw P.T. Primary open-angle glaucoma // Lancet. 2004, v.22, p.1711-20.
7. Tsang C.S.L., Chong S.L., Ho C.K., Li M.F. Moderate to severe obstructive sleep apnoea patients is associated with a higher incidence of visual field defect // Eye (Lond), 2006, v.20(1), p.38-42.
8. Batisse J-L., Vix J, Swalduz B., Chave N., Mage F. Sleep-related breathing disorders and normal or high-tension glaucoma: 35 patients with polysomnographic records // J Fr Ophtalmol., 2004, v.27(6 Pt 1), p.605-12.
9. Xin C., Zhang W., Wang L. et al Changes of visual field and optic nerve fiber layer in patients with OSAS // Sleep Breath, 2015, v.19(1), p.129-34.
10. Kergoat H., Hérard M-E., Lemay M. RGC sensitivity to mild systemic hypoxia // Invest Ophthalmol Vis Sci., 2006, v.47(12), p.5423-7.

Резюме

Глаукоматозные изменения у больных с обструктивным апноэ сна

А.П.Абдуллаев

Целью исследования явилось изучение глаукоматозных изменений у больных с обструктивным апноэ. В исследование вошли 59 больных с этой патологией, поступившие Медицинский факультет Университета Анкара. В группу сравнение вошли 19 больных.

Summary

Glaucomatous changes in patients with obstructive sleep apnea

A.P.Abdullayev

The aim of the study was to investigate glaucomatous changes in patients with obstructive sleep apnea. The study included 59 patients with this pathology, received the Faculty Medical University of Ankara-tete. In the comparison group included 19 patients.

Daxil olub: 10.03.2016

AÇIQ VƏ LAPAROSKOPİK XOLESİSTEKTOMİYAYA MƏRUZ QALAN XƏSTƏLƏRDƏ BƏZİ İLTİHABİ VƏ NEYROENDOKRİN REAKSİYALARIN XÜSUSİYYƏTLƏRİ

H.B. İsayev, B.D. Haqverdiyev

M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi. Bakı

Açar sözlər: açıq və laparoskopik xolesistektomiya,operasion travma,iltihabi və neyroendokrin cavab reaksiyası

Ключевые слова: открытая и лапароскопическая холецистэктомия,операционная травма, ответная нейроэндокринная и воспалительная реакция.

Key words: laparoscopy, cholecystectomy, neuroendocrine and inflammation response.

Daşlı xolesistlərdə laparoskopik xolesistektomiya (LXE)geniş vüsət almışdır. LXE zamanı əməliyat kiçik dəri kəsiklərindən 3-4 troakar deşiyinin açılması ilə qarın boşluğuna girilməsini nəzərdə tutur ki, bundan sonra xəstələrdə postoperasion gediş açıq əməliyatlara nisbətən daha əlverişli tərzdə gedərək qısa müddətdə sağalma ilə nəticələnir [1,2].

LXE zamanı böyük kəsik aparılmadığından xəstənin orqanizmasında açıq əməliyatın səbəb olduğu katabolik reaksiyalar azalmış olur [3,4]. Ümumiyyətlə cərrahi müdaxilə stres dolu bir travmadır və belə hallar iltihabi cavabın işə düşməsinə səbəb olur [5,6].

Travmaya məruz qalan istənilən orqanizm həmin təsirə dözmək və onu aradan qaldırmaq məqsədi ilə bir sıra cavablar ortaya çıxarır. Travmatik stresə düşən orqanizmdə ortaya çıxan neyroendokrin və iltihabi cavab travmaya dözməyə və həyatı davam etməyə yönələn bir sıra aktivləşmə prosesi olub, stress hormonlarının yüksələn səviyyəsi ilə düz mütənasiblik təşkil edir. Travmanın növünə və ağırlığına görə həmin cavablar fərqlilik göstərirlər [7,8].

Eyni məqsəd güdən açıq və laparoskopik xolesistektomiya fərqli ağırlıqda travma törədə bilən müalicə üsullarıdır. Həmin 2 cərrahi üsulun yarada bildiyi neyroendokrin və iltihabi reaksiyaları müqayisə etməklə fərqli ağırlıqda olan travmaların yaratdıqları cavabları müqayisə edərək, laparoskopik üsulun nə qədər yararlı olmasını obyektiv tərzdə qiymətləndirmək mümkün olmasını düşünürük.

Fiziologiyadan bilirik ki, adrenokortikotrop hormon (AKTH) travmaya cavab olaraq yüksəlir. Ağrı, qorxu və həyəcan hissi, vazopressin, angiotenzin 3, xolesistokinin, vazooktiv intestinal peptid, ketaxolaminlər və proinflamator sitokinlərin hamısı travma nəticəsində AKTH-nin ifrazında yer alan mediatorlardır [9,10].

İnsan bədənində fiziolojik stressdən azad olmaqda kortizol əsas rol oynayır; travmanın növündən və ağırlığından asılı olaraq kortizolun səviyyəsi artır. Eyni zamanda kortizol qaraciyərdə qlikoneogenezi aktivləşdirməklə yağ və əzələ toxumasında insulinə qarşı dirənc yaradır; əzələ toxumasında zülalların dehidratasiyasına və laktat infrazına səbəb olur [11,12].

Sağlam şəxslərdə insulin hepatik qlükogenezisi, qlikolizi, hüceyrəyə qlükozanın daxil olmasını, lipogenezi və zülal sintezini artırarak qlobal anabolik təsir göstərir. Daha sonrakı etaplarda insulin səviyyəsinin normada qalması və ya artmasına baxmayaraq periferiyada insulinə dirənc artdığından davamlı hiperqlisemiya mövcud olur [13,14].

Kəskin faza zülalları qaraciyərdə sintezlənən və infeksiya, travma, neoplazma zamanı səviyyələri dəyişən zülal qrupudur. Buraya C- reaktiv zülal (CRZ), zərdab amiloidi –A, fibrinogen və antiximotripsin alfa- 1 daxildir.

CRZ səviyyəsində artım iltihab yönlü sitokin interleykin -6 (İl-6) – nin iştrakı ilə baş verir [15,16].

İL– 6 cərrahi müdaxilə sonrası baş verən iltihabın kəskin fazasının mərkəzində yer alır [17].

İL– 6 hepatositlərdə kəskin faza zülallarının (o cümlədən CRZ-nin) ifraz olunmasını oyadır və bununla bərabər bədən hərarətinin yüksəlməsinə səbəb olur [18].

Ədəbiyyatda İL–6 və CRZ-nin səviyyələri isə cərrahi travmanın ağırlığı arasında uyğunluq olduğu barədə məlumatlar vardır [19].

Travmaya uğramış bir insan vücudunun travmaya cavabı travmanın ağırlığından asılı olaraq ortaya çıxır [20].

Digər tərəfdən eyni travmaya müxtəlif insanlarda reaksiya fərqlidir. Cərrahi travmaya sistemik stress cavabını neyroendokrin və iltihabi reaksiyalar yaradır. Neyroendokrin və iltihabi cavablar əməliyat əsnasında cərrahi travmanın böyüklüyü, xəstənin fərdi xüsusiyyətləri kimi faktorlarla bərabər verilən anesteziya və dərmanlardan da asılıdır [21]. Ona görə də tədqiqatlarımızda hər 2 qrup arasında qeyd edilən faktorların nə qədər fərqli olmasını təyin etməyə çalışmışıq.

Tədqiqatın material və metodları. Tədqiqatlar xroniki daşlı xolesistiti olan 30 xəstə üzərində aparılmışdır. Xəstələr hərəsində 15 nəfər olmaqla 2 qrupa bölünmüşlər (A və B). Qruplarda xəstələrin yaşa, cinsə və bədən çəkisinə görə bölünməsi təxminən eyni idi.

A qrupu xəstələrə açıq üsulla, B-qrupunda isə laparoskopik üsulla xolesistektomiya yerinə yetirilibdir.

Hər 2 qrupda istər anesteziologi, istərsə də cərrahi briqada eyni olmaqla 30 xəstənin hamısına eyni tipli ümumi inhalyasion narkoz verilibdir.

A qrupunda açıq xolesistektomiya klassik Koxer kəsiyindən (15-16 sm. uzunluğunda) yerinə yetirilibdir.

B qrupunda isə laparoskopik xolesistektomiya 2 ədəd 10 mm-lik və 2 ədəd 5 mm-lik kəsiklərdən istifadə etməklə, kisəni 4 sm-lik kəsikdən xaric etməklə Şimali Amerika üsulundan istifadə etməklə aparırdıq.

Hər 2 qrupda neyroendokrin və iltihabi reaksiyaya aid analizlər əməliyatdan əvvəl, əməliyatdan sonra keçən 4 və 24 saatda təyin edirdik; bu zaman venoz qanda ACTH, kortizol, insulin, CRZ və İL-6 səviyyələrini təyin edirdik.

Analizlər oral qidalanma alınmadan götürülürdü.

AKTH-ın təyini üçün qanı bir sınaq şüşəsinə, kortizol, insulin və İl -6 üçün 2-ci sınaq şüşəsinə alırdıq. AKTH plazmada immunometrik üsulla (Diaqnostics Products Corporadion, USA) ölçülürdü; kortizol, insulin və İL-6-nın səviyyələri də eyni üsulla təyin olunurdu.

CRZ-nin səviyyəsini immunoturbidimetrik testi ilə (Dade Behrinq, Almanya) ilə təyin edirdik.

Alınan nəticələr Fridman variasion analizi və Mann Whitney- in " U " testi ilə statistik işlənmişdir.

Alınan nəticələrin müzakirəsi. B qrupunda (LxE) heç bir xəstədə konversiya olunmadan öd kisəsi xaric olundu; hər iki qrupda xəstələrin hamısında əməliyyat və əməliyyatdan sonrakı gediş fəsadsız keçdi. A qrupunda olanlar 5 –ci gün, B-qrupunda olanlar isə 2 –ci gün evə yazıldılar.

AKTH səviyyəsinin təyinində A qrupunda əməliyatdan əvvəl, 4 və 24 saat sonrakı göstəricilər arasında statistik olaraq dürüst fərq qeyd olunurdu: (4 saat-p 0.007; 24 saat –p<0,035). Fəqət B qrupunda AKTH - ın təyin edilən 3 göstəricisi arasında fərq mövcud deyildi (p>0,05).

Hər 2 qrupun AKTH göstəricisini müqayisə edikdə əməliyatdan əvvəlki səviyyələr biri – digərindən fərqlənmirdi (P > 0,05). Amma əməliyatdan sonra keçən 4 saatda təyin edilən AKTH səviyyələri arasında qruplarda dürüst fərqlilik aşkar olundu (p>0,007); bu fərqlilik 24 saatda alınan analizlərdə mövcut deyildi

Kortizolun səviyyəsinin təyinində A qrupunda əməliyatdan əvvəl və sonrakı (4 və 24 saat) səviyyələr arasında statistik aşkar fərq qeyd etdik (p>0,05).

B qrupunda (LxE) əməliyatdan əvvəl və 4 saat sonra təyin edilən kortizol səviyyəsində fərq qeyd olunurkən (p>0,007), əməliyatdan sonra keçən 24 saatda təyin edilən səviyyə arasında statistik olaraq fərq qeyd olunmadı.

Hər 2 qrupda kortizolun 3 momentli təyininin nəticələrini müqayisə edərkən fərqlilig görünmədi (p>0,05).

İnsulin təyinində A qrupunda əməliyatdan əvvəl və əməliyatdan 4 saat sonra təyin edilən göstəricilər arasında fərq təyin olunmadı (p>0,05); amma ilkin göstərici ilə əməliyatdan 24 saat sonra olan göstəricisi arasında fərq mövcud idi. İkinci qrupda da eyni vəziyyətlə qarşılaşdıq. Qruplar arasında göstəriciləri müqayisə edərkən də statistik olaraq fərqlilik təyin olunmadı .

CRZ- nin göstəricilərində A qrupunda əməliyatdan əvvəl və 4 saat sonrakı təyin olunan səviyyələr arasında ciddi fərqlilik yox idi; bununla belə ilkin göstərici ilə əməliyatdan 24 saat sonrakı səviyyə arasında fərq aşkar olundu. B qrupunda da eyni vəziyyət təyin olundu. Qruplar arasında CRZ-nin göstəricilərini müqayisə etdikdə 24 saat sonrası göstəricilər arasında fərqliliyin olması ortaya çıxdı .

İnterleykin- 6 göstəricilərinin təhlilində A və B qrupunda əməliyatdan əvvəl və 4 və 24 saat sonra təyin olunan səviyyələr arasında statistik olaraq fərq təyin edildi(müvafiq olaraq p<0,007 və 0,005).

Qruplar arası müqayisədə İL6 –nın göstəriciləri arasında əməliyatdan əvvəlki səviyyələrdə fərq olmadığı halda, əməliyatdan 4 və 24 saat sonra təyin olunan göstəricilər arasında fərqlilik qeyd olundu (p<0,011 və 0,019).

Beləliklə aparılan müayinələrdə fərqli cərrahi metodla yerinə yetirilən xolesistektomiyaya məruz qalan xəstələrdə orqnizmin mövcud travmaya qarşı iltihabi cavabının təyinində İL-6 və onun induksiyası sayəsində dəyişən CRZ-nin göstəricilərini nəzərə aldıq. Nəticədə İL-6-nin səviyyəsi açıq xolessistektomiyaya nisbətən LxE-də daha çox azalması qeyd olundu.

Hər 2 qrup arasında əməliyatdan 24 saat sonra təyin edilən CRZ- göstəricilərində fərq var idi. Ümumilikdə açıq əməliyyat zamanı orqanizmin iltihabi reaksiyasının daha yüksək olduğunu təstiq edə bildik. Eyni fikri neyroendokrin reaksiya barəsində də söyləmək mümkündür. Deyilənləri yekunlaşdıraraq aşağıdakı nəticələrə gəlmək mümkündür:

1.Xroniki daşlı xolesistlərdə tədbiq edilən açıq cərrahi üsul laparoskopik üsulla müqayisədə orqanizmin iltihabi və neyroendokrin reaksiyalarını daha çox yüksəldir.

2.Laparoskopik xolesistektomiya açıq üsulla yerinə yetirilən xolesistektomiyaya nisbətən neyroendokrin və iltihabi reaksiyalara daha zəif təsir etməklə bərabər xəstələrin əməliyatdan sonrakı dövrün müddətini ciddi səviyyədə azaldır.

ƏDƏBİYYAT

40.Галлингер Ю.И., Карпенкова В.И., Амелина М.А. Результаты лапароскопической холецистэктомии // Эндоскопическая хирургия, 2002, № 2, с. 25

41.Paşayev K.R. Laparoskopik xolesistektomiyanın ağırlaşmaları və onların profilaktikası/Avtoreferat diss t.u.f.d... Baki-, 2010.- 21 s.

42.Həsənov Ə.B. Cərrahiyyə əməliyyatları və digər travmaların orqanizmə immundepressiv təsiri // Azərbaycan tibb jurnalı, 2006, № 4, s.68-71

43.Новиков М.А., Стефашин С.Н. Опыт лапароскопической холецистэктомии в лечении острого холецистита // Эндоскопическая хирургия, 2000, №. 2, с. 47

44.Traynor C., Hall G.M. Endocrine and metabolic changes during surgery: anaesthetic implications.Br J Anaesth. 1981, v. 53, p.153-60

45.Wilmore D.W., Long J.M., Mason A.D. et al. Stress insurgical patients as a neurophysiologic reflex response. Surg Gynecol Obstet. 1976; 142: 257-69

46.Lin E., Calvano S.E., Lowry S.S. Systemic responceto injury and metabolic support. In: Brunicardi C., Andersen D.K., Billiar T.R., Dunn D.L., Hunter J.G., Pollock R.E., eds. Schwartz's Principles ofSurgery. 8 th ed. The McGraw-Hill CompaniesInc; 2005. p.3-4

47.Wigmore S.J., McMahon A.J., Sturgeon C.M. et al.Acute-phase protein response, survival and tumour recurrence in patients with colorectalcancer // Br J Surg., 2001, v.88, p.255-60.

48.Ohzato H., Yoshizaki K., Nishimito N. et al.Interleukin-6 as a new indicator of inflammatory status: detection of serum levels of interleukin-6and C-reactive protein after surgery // Surgery,1992, v.111, p.201-9

49.Cruickshank A.M., Fraser W.D., Burns H.J. et al.Response of serum interleukin-6 in patientsundergoing elective surgery of varying severity // Clin Sci, 1990, v.79, p.161-5

50.Aydyn O., Aldemir M., Tacyyldyz Y. ve ark. Perioperatif ibuprofen tedavisinin cerrahi stres uzerindeki hormonal ve metabolik etkileri // UlusTravma Derg, 2002, v.8, p.6-10

51.Karayiannakis A.J., Makri G.G., Mantzioka A. et al. Systemic stress responseafter laparoscopic or open cholecystectomy: arandomized trial // Br J Surg., 1997, v.84., p.467-71

52.Jakeways M.S., Mitchell U., Hashim I.A. et al. Metabolic and inflammatory responses after open or laparoscopic cholecystectomy // Br J Surg, 1994, v.81, p.127-31

53.Chambrier C., Chassard D., Bienvenu J. et al.Cytokine and hormonal changes after cholecystectomy.Effect of ibuprofen pretreatment // Ann Surg, 1996, v.224, p.178-82

54.Halter J.B., Pflug A.E., Porte D. Mechanism of plasmacatecholamine increases during surgical stress in man // J Clin Endocrinol Metab, 1977, v.45, p.936-44

55.Kehlet H. The stress response to surgery: releasemechanisms and the modifying effect on painrelief // Acta Chir Scand Suppl, 1989, v.550, p.22-8

56.Chernow B., Alexander H.R., Smallridge R.C. et al. Hormonal responses to graded surgical stress // Arch Intern Med, 1987, v.147, p.1273-8

57.Marana R., Margutti F., Catalano G.F. et al. Stress responses to endoscopic surgery // Curr OpinObstet Gynecol. 2000. v.12, p.303-7

58.Mansour M.A., Stiegmann G.V., Yamomoto M. et al. Neuroendocrine stress response after minimally invasive surgery in pigs // Surg Endosc, 1992, v.6, p.294-7

59.Joris J., Cigarini I., Legrand M. et al. Metabolic and respiratory changes after cholecystectomy performedvia laparotomy or laparoscopy // Br JAnaesth, 1992, v.69, p.341-5

60.Christensen N.J., Hilsted J., Hegedus L. et al.Effects of surgical stress and insulin on cardiovascular function and norepinephrine kinetics // Am J Physiol, 1984, v.247, p.29-34.

Резюме

Особенности некоторых восполительных и нейро-эндокринных реакций у больных с желчекаменной болезни оперированных открытым и лапароскопическим методами

Г.Б. Исаев, Б.Д.Ахвердиев

Целью исследования являлись определение влияния лапароскопической и открытой методов холецистэктомии на нейроэндокринной и воспалительные реакции организма. 30 пациентов, перенесших холецистэктомию разделены на две группы (Группа А: открытой холецистэктомии, Группа В: лапароскопическая холецистэктомия) у которых в крови были изучены уровни АКТГ, кортизола, инсулина, С-реактивный белок (СРБ) и интерлейкина -6 (IL-6) в предоперационном периоде, в 4 и 24 часов послеоперационного периода. У больных с хронической желчекаменной болезни открытый метод холецистэктомии по сравнение с лапароскическим методом усиливает противовосполительную и нейроэндокринную реакции организма. Лапароскический метод наряду с незначительным влиянием на противовосполительную и нейроэндокринную реакции организма, так же способствует уменьшению срока постоперационного периода и спопсобствует относительно быстрой реаблитации оперированных больных. Лапароскопическая холецистэктомия уменьшает ответной реакции острой фазы, но не вызывает большую разницу в отношении нейроэндокринной изменения по сравнению с обычным открытым холецистэктомии.

Summary

A prospective investigation of the inflammatory and neuroendocrine responses in laparoscopic and open cholecystectomy

H.B.Isayev, B.D.Hakverdiyev

The study aims to determine the effect of laparoscopic and open cholecystectomy on the methods of neuroendocrine and inflammatory reactions. 30 patients undergoing cholecystectomy divided into two groups (Group A: open cholecystectomy, Group B: Laparoscopic cholecystectomy) in which ACTH levels were studied in blood cortisol, insulin, C-reactive protein (CRP) and interleukin -6 (IL-6) preoperatively, 4 and 24 hours postoperative. In patients with chronic cholelithiasis open method of cholecystectomy compared with laparoskicheskim method enhances the anti-inflammatory and neuroendocrine reactions. Laparoskichesky method along with little influence on the anti-inflammatory and neuroendocrine reactions, also helps to reduce the period of post-operative period and relatively fast spopsobstvuet reablitatsii operated patients. Laparoscopic cholecystectomy reduces the acute phase response, but does not cause a big difference in respect of the neuroendocrine changes compared to conventional open cholecystectomy.

Daxil olub: 30.03.2016

DƏNİZ GƏMİÇİLƏRİ ARASINDA ƏLİLLİK VƏ ƏLİLLƏRİN TİBBİ TƏMİNATI

S.A.Hacızadə

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Açar sözlər: əlillik, dəniz gəmişliyinin işçiləri, tibbi təminat

Ключевые слова: инвалидность, работники морского пароходства, медицинское обеспечение

Keywords: disability, steamship line workers, health care

Tibbi, iqtisadi və sosial ağırlığına görə əlillik problemi bütün ölkələrdə diqqət mərkəzindədir [1-10]. Müəyyən olunmuşdur ki, əlilliyin səbəbləri əhalinin yaşından, məşğulluğundan, yaşadığı regionun səciyyələrindən asılı dəyişir. Belə ki, Azərbaycanda stabil olaraq əlilliyin əsas səbəbləri arasında birinci 5 yeri qandövranı və əsəb sistemi, hiss orqanları xəstəlikləri, travmalar, həzm və tənəffüs orqanları xəstəlikləri tuturlar [1]. Azərbaycan dəmiryolçuları arasında ilkin əlillik səbəbləri əsasən qan dövranı sistemi xəstəlikləri (35%), travmalar (20%), xroniki böyrək çatışmamazlığı (20%), göz xəstəlikləri (10%), şəkərli diabet (10%) ilə bağlıdır [3].

Sənayedə çalışanların əlilləşmə səbəblərinin əhalinin əlilləşmə səciyyələrindən fərqlənməsini neftçilər nümunəsində də izləmək olur [5]. Azərbaycan iqtisadiyyatının mühüm sahəsi olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşlarının əlilliyi barədə elmi əsaslandırılmış məlumat yoxdur.

Tədqiqatın məqsədi. Xəzər dəniz gəmiçiləri arasında əlilliyin səciyyələndirilməsi və əlillərə tibbi yardımın qiymətləndirilməsi.

Tədqiqatın material və metodları. Müşahidə vahidi kimi tibbi sosial ekspertizasının nəticələrinə görə əlilliyi təsbit olunmuş şəxs götürülmüşdür. 2011-2015-ci illərdə qeydiyyatda olan 59 ilkin və 345 ümumi əlillik hadisələrinin məlumatları (xəstələrin tibbi kartları, tibbi sosial ekspertizası komissiyalarının sənədləri) araşdırılmışdır.

Əlilliyin nozoloji səbəbləri "Xəstəliklərin Beynəlxalq Təsnifatının" 10-cu baxışının (XBT-10) sinifləri və rubrikaları ilə kodlaşdırılmışdır. Əlilliyin səviyyəsi 10 min orta illik işçiyə görə hesablanmışdır. Əlillər yaşa və əlilliyin ağırlıq dərəcəsinə görə qruplaşdırılmışdır. Toplanmış məlumatlar keyfiyyət əlamətlərinin təsviri statistikası metodları ilə işlənmişdir. Göstəricilərin 95 % etibarlılıq intervalı (t=1,96) hesablanmışdır [11].

Alınmış nəticələr. 2011-2015-ci illərdə əlillərin 17,1%-i ilkin əlillər olmuşdur. Bütün əlillərin az qismi 40 yaşa qədər (11,3%), böyük əksəriyyəti 55-64 yaş intyervalında (53,6%) olan şəxslərdir. Əksər əlillərə II qrup (70,1%) əlillik dərəcəsi verilmişdir, I və III qrup əlillərin xüsusi çəkiləri müvafiq olaraq 10,1 və 19,8% təşkil etmişdir. İlkin və ümumi əlilliyin 2011-2015-ci illərdəki səviyyəsi barədə məlumatlar 1-ci cədvəldə əks olunmuşdur. Göründüyü kimi ilkin əlillik 2011-2015-ci illərdə 4,0±1,4-8,0±2,0‰ intervalında dəyişmiş və dəyişiklik statistikdrüst deyildir (p>0,05). Beşillik dinamika əsasən düzxətlidir. Düzxətli reqressiya tənliyinin aproksimasiyası orta səviyyədədir (y=0,8x+3,5; R^2=0,5248; y-əlilliyin səviyyəsi, x- illərin sıra nömrəsi). Amma 4 dərəcəli polinominal reqressiya tənliyi ($y=0,7083x^4-8,1667x^3+32,042x^2-48,583x+28$; R^2=1,0) dinamikanı 100% dəqiqliklə ifadə edir. İlkin əlilliyin beş illik orta xronoloji səviyyəsi 5,9±1,7 ‰ (95% etibarlılıq intervalı 2,5 – 9,3 ‰) təşkil edir.

Cədvəl 1

Dəniz gəmiçiləri arasında əlilliyin dinamikası (10000 nəfərə görə)

İllər	İlkin əlillik	İlkin əlilliyin 95% etibarlılıq intervalı	Ümumi əlillik	Ümumi əlilliyin 95% etibarlılıq intervalı
2011	4,0±1,4	1,2 – 6,8	25,5±3,6	18,3 – 32,7
2012	5,0±1,6	1,8 – 8,2	28,0±3,7	20,6 – 35,4
2013	7,5±1,9	3,7 – 11,3	33,0±4,1	24,8 – 41,2
2014	5±1,6	1,8 – 8,2	35,0±4,2	26,6 – 43,4
2015	8±2,0	4 – 12,0	25,5±3,6	18,3 – 32,7
Orta xronoloji	5,9±1,7	2,5 – 9,3	29,4±3,8	21,8 – 47,0

Əlilliyin ümumi səviyyəsi 25,5±3,6- 35,0±4,2 ‰ intervalında dəyişmiş və müşahidə müddətində statistik dürüst dəyişməmişdir. Göstəricinin beşillik xronoloji orta səviyyəsi 29,4±3,8‰ (95% etibarlılıq intervalı 21,8-47,0‰) təşkil etmişdir.

Cədvəl 2

Dəniz gəmiçilərinin əlillik səbəblərinin nozoloji strukturu (cəmə görə %)

Əlilliyin əsas nozoloji səbəbləri (XBT-10)	İlkin əlillik n=59	Ümumi əlillik n=345	Ümumi və ilkin əlillərin nisbəti
Yenitörəmələr	11,9±4,2	4,4±1,1	2,14
Şəkərli diabet	3,4±2,4	2,3±0,8	4,00
Ruhi pozuntular	3,4±2,4	5,8±1,3	10,0
Sinir sistemi xəstəlikləri	3,4±2,4	10,4±1,6	18,0
Korluq və zəifgörmə	1,7±1,7	1,2±0,6	4,0
Qan dövranı sistemi xəstəlikləri	49,2±6,5	49,9±2,7	5,93
Tənəffüs orqanları xəstəlikləri	1,7±1,7	2,9±0,9	10,0
Həzm orqanları xəstəlikləri	3,4±2,4	4,1±1,1	7,0
Xroniki böyrək çatışmazlığı	3,4±2,4	4,4±1,1	7,5
Travmaların nəticələri	10,2±3,9	5,2±1,2	3,0
Digər xəstəliklər	8,3±3,6	9,4±1,6	6,6

Əlillərin əlilliyinin nozoloji səbəblərinə görə bölgüsü 2-ci cədvəldə əks olunmuşdur. İlkin əlilliyin nozoloji səbəbləri arasında birinci yeri qan dövranı sistemi xəstəlikləri tuturlar (49,2±6,5%). Digər xəstəliklərin ilkin

əlilliyin səbəbləri arasında payı xeyli azdır, onlardan diqqəti cəlb edən iki qrupdur: yenitörəmələr (11,9+4,2%; 2-ci yer) və travmalar (10,2±3,9%; 3-cü yer). Şəkərli diabet, ruhi pozuntular, sinir sistemi, tənəffüs orqanları, həzm orqanları xəstəlikləri, xroniki böyrək çatışmamazlığı ilkin əlilliyin səbəbləri arasında nisbətən az paya malikdirlər (hər biri 3,4%). Korluq və zəif görmə ilə bağlı əlillik hadisəsinin xüsusi çəkisi 1,7% təşkil edir.

Ümumi əlillik hadisələrinin nozoloji səbəblərinin xüsusi çəkiləri ilkin əlilliyin nozoloji səbəblərinin xüsusi çəkilərinə xeyli yaxındır (cədvəl 2). Ümumi əlilliyin böyük əksəriyyəti (49,9±2,7%) qan dövranı sistemi xəstəlikləri ilə bağlıdır. Diqqəti cəlb edən nozoloji formaların ilkin və ümumi əlillik səbəbləri arasında reytinqinin fərqidir. Belə ki, ilkin əlilik səbəbləri arasında 2 və 3-cü yerləri yenitörəmələr və travmalar tuturlar. Bu səbəblərdən ümumi əlilliyin reytinqi müvafiq olaraq 6 və 5-dir. Ümumi əlilliyin səbəbləri arasında 2-ci yeri sinir sistemi xəstəlikləri və ruhi pozuntular tuturlar.

Bəllidir ki, ümumi əlillik ilkin əlillərin hesabına çoxalır, ölən və əmək qabiliyyətini bərpa edənlərin hesabına isə azalır. Ümumi və ilkin əlillik hadisələrinin nisbəti ilkin əlillik hadisələrinin kumulyasiyası prosesinin prioritetini əks etdirir. Bu göstərici də 2-ci cədvəldə verilmişdir.

Göründüyü kimi ümumi və ilkin əlillik hadisələrinin nisbəti yenitörəmələrlə (2,14), travmalarla (3,0), şəkərli diabetlə (4,0) və korluqla (4,0) bağlı kiçikdir, sinir sistemi xəstəlikləri (1,8), ruhi pozuntular (10) və tənəffüs orqanları xəstəlikləri ilə bağlı xeyli böyükdür. Bu da həmin xəstəliklərlə bağlı əlillərinin reabilitasiyası və sağqalma ehtimallarının fərqi ilə əlaqələndirilə bilər.

Qeydiyyatda olan əlillərin tibbi təminatının keyfiyyət səciyyələri barədə aldığımız məlumatlar 3-cü cədvəldə verilmişdir. Göründüyü kimi əlilliyin səbəblərindən asılı pasiyentlərin müşahidəsi zamanı adekvat olanların xüsusi çəkisi 5 - 25% intervalında dəyişmiş, orta hesabla 13,6% əlilin ambulator-poliklinika müşahidəsi adekvatdır. Bu onunla bağlıdır ki, əlillər Bakı şəhərinin ayrı-ayrı rayonlarında məskunlaşmışdır. Onların uzaq məsafələri qət edib gəmiçilik səhiyyə sisteminə müraciət etməsi çətindir. Ona görə də əlillərin stasionar müalicəsinə göndərilməsi zərurəti artır. Hospitallaşmanın adekvatlığı xeyli yüksəkdir (20-68.4%), orta hesabla 54,2% təşkil edir. Bütün növ tibbi təminat göstəricilərinə görə qeyri-qənaətbəxş durum yeni törəmələrlə bağlı əlil olmuş pasiyentlərdə müşahidə olunur. Əlillərin müayinə proqramları əksər hallarda tam deyil və vaxtında yerinə yetirilmir. Vaxtında həyata keçirilən müayinələrin xüsusi çəkiləri 19.4% təşkil edir, yalnız 25.8% hallarda müayinə proqramları mövcud standartlara uyğun gəlir.

Alınmış nəticələrin müzakirəsi. Azərbaycan Respublikasında 16 və yuxarı yaşlı əhali arasında ilkin əlilliyin xronoloji səviyyəsi 34‰ təşkil edir [1]. Bu göstəricinin xronoloji orta səviyyəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyin"də 5,9±1,7‰ – dir. Göründüyü kimi dəniz gəmiçiliyində işçilərin ilkin əlilləşmə ehtimalı 6 dəfədən çox azdır. Bu həm sağlam adamların işə götürülməsi, həm də gəmiçilərin sağlamlığının qorunması tədbirlərinin effektivliyi ilə bağlıdır. Dəmiryolçu kontingenti arasında ilkin əlillik 0,4, ümumi əlillik isə 1,12‰ olmuşdur [3].

Cədvəl 3

Əlillərin tibbi təminatının keyfiyyət səciyyələri

Əlilliyin əsas nozoloji səbəbləri	Müşahidələrin adekvatlılığı (%)	Müayinələrin vaxtında aparılması(%)	Müayinə proqramının tamlığı(%)	Hospitallaşmanın adekvatlığı (%)
Yenitörəmələr (n=15)	6,7	20,0	13,3	20,0
Şəkərli diabet (n=8)	25,0	25,0	37,5	50,0
Ruhi pozuntular (n=20)	5,0	5,0	5,0	50,0
Sinir sistemi xəstəlikləri (n=36)	11,1	19,4	22,2	66,6
Qan dövranı sistemi xəstəlikləri (n=172)	9,9	20,4	27,9	47,7
Travmalar (n=18)	11,1	16,7	50,0	66,7
Digər xəstəliklər (n=76)	19,7	14,5	23,7	68,4
Cəmi (n=345)	13,6	19,4	25,8	54,2

Dəmiryolçularla müqayisədə dəniz gəmiçilərinin ilkin əlilləşmə riski 15 dəfəyə qədər, ümumi əlilləşməsi riski isə 25 dəfəyə qədər yüksəkdir. Əlilliyin nozoloji səbəblərinin reytinqi və xüsusi çəkiləri də fərqlidir. Dəmiryolçuların əlilləşmə səbəbləri arasında qan dövranı sistemi xəstəlikləri, travmalar, göz xəstəlikləri, yenitörəmələr, xroniki böyrək çatışmazlığı, müvafiq olaraq 39,2; 21,4; 14,3; 10,7 və 7,1% olduğu halda gəmiçilər arasında bu göstəricilərin səviyyəsi müvafiq olaraq 49,2; 10,2; 1,7; 11,9 və 3,4% - dir. Göründüyü kimi, dəniz gəmiçilərinin əlilləşməsində qan dövranı sistemi xəstəliklərinin rolu nisbətən böyük, travmaların, göz xəstəliklərinin, xroniki böyrək çatışmazlığının rolu isə nisbətən kiçikdir.

Dəniz gəmiçiləri arasında əlilliyin səviyyəsi və onun nozoloji səbəbləri fərqli səciyyələrə malikdir. Bu səciyyələr birincili profilaktika tədbirlərinin priori-tet istiqamətlərinin seçimində nəzərə alınmalıdır.

Nəticələr: 1.Dəniz gəmiçiləri arasında işçilərin ilkin əlilləşmə ehtimalı nisbətən yüksəkdir (xronoloji orta səviyyə 5,9±1,7 ‰). 2.Əlilliyin nozoloji səbəbləri arasında prioritet yerləri qan dövranı sistemi xəstəlikləri, yenitörəmələr və travmalar tuturlar. 3.Dəniz gəmiçilərinin əlilləşmə riski və əlilliyin səbəblərinin reytinqi fərqli səciyyələrə malikdir ki, onları nəzərə almaqla birincili profilaktika tədbirlərinin prioritetləri müəyyən olunmalıdır.

ƏDƏBİYYAT

1. Eyvazov R.Q. İlkin əlilliyin yaş və regional xüsusiyyətləri // Sağlamlıq, 2010 №4, s.118-121
2. Агаева К.Ф. Мусабекова Г.Н. Сравнительная оценка динамики заболеваемости и инвалидности детей вследствие психических расстройств // Журнал неврологии и психиатрии им. С. С. Корсакова, 2012, Т.112 (NU), с.64-66
3. Агаев Ф.В., Гасанов Г.Ш., Багирова Р.Х. Эффективность реабилитационных мер у работников железнодорожного транспорта // Общественное здоровье и здравоохранения, 2012, №4, с. 39-41
4. Григорьев Ю.И. Ершов А.В. Первичная инвалидность детского населения Калужской области // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2012, №3, с. 8-11
5. Джавадов Ф.Г., Юзбашев Г.И. Некоторые медико-биологические особенности причин инвалидности среди нефтяников // Sağlamlıq, 2006, №3, s. 199-195
6. Рустамова Н.М. Комплексная оценка медико-социального груза инвалидности вследствие офтальмопатологии // Офтальмология Белорусии, 2011, №3, с.55-59
7. Пузин С.Н., Заволовская Л.И. Тангиева Х.И. Особенности динамики и структуры повторной инвалидности вследствие болезни органов дыхания в Республике Ингушетия // Здравоохранение Российской Федерации, 2010, №5, с 35-37
8. Allmark P., Machaczek K. financial capability, health and disability // BMC Public Helath. 2015, v.15. p.243
9. Marella M., Busija L., Islam F.A. at al. Field -testing of the rapid assessment of disability question-naire // BMC Public HElath, 2014, v.14, p.900
10. Bernitz B.K., Grees N., Randers M.J. et al.Young adults on disability benefits in contries//Scandinavian Journal of Public Health, 2013, 41, 3-26
11. Стентон Гланц . Медико-биологическая статистика . М.1999-459 с.

Резюме

Инвалидность среди работников морского пароходства и медицинское обеспечение инвалидов

С.А.Гаджизаде

Цель: Формирование характеристики инвалидности среди работников Каспийского Морского Пароходства и оценка медицинского обеспечения инвалидов. Сплошным охватом анализировать документы 59 первичных и 345 общих случаев инвалидности. Определена распространенность инвалидности в расчете на 10 тыс. среднегодовых работников и доля нозологических причин инвалидности. В 2011-2015 годах первичная (4,0-8,0‰) и общая (25,5-35,0‰) инвалидность была относительно стабильной. В структуре причин инвалидности преобладают болезни системы кровообращения (49,2±6,5%), доля остальных причин значительно меньше (11,9±4,2% новообразования, 10,2±3,9% травмы, 3,4±2,4% сахарный диабет, 3,4±2,4% хроническая почечная недостаточность). риск инвалидности среди работников морского пароходства сравнительно высок и нозологическая структура её причин имеет особенности (высокая доля болезней системы кровообращения, низкая доля травм, новообразований, болезней органов зрения).

Summary

Disability among steamship line workers and health care ensure of persons with disabilities

S.A.Hajizadeh

Formation of disability characteristics among employees of the Caspian Shipping Company and evaluation of medical support for people with disabilities. To analyze 59 primary and 345 general disability cases. Prevalence of disability among annually 10 thousand workers and share of nosological causes of disability have been determined. In 2011-2015 years primary (4,0-8,0‰) and general (25,5-35,0‰) disability cases have been relatively stable. Diseases of the circulatory system are dominate among causes of disability (49,2±6.5%), share of other reasons is significantly less (11,9±4,2% neoplasm, 10,2±3,9% traumas, 3,4±2,4% diabetes, 3,4±2,4% chronic renal failure). The risk of disabilities among employees of shipping company is relatively high and nosological structure of its causes has particular features (high rate of diseases of the circulatory system, lower rate of traumas, diseases of eye, neoplasm).

Daxil olub: 30.03.2016

GƏNCƏ ŞƏHƏRİNDƏ ƏHALİNİN QLAUKOMA İLƏ XƏSTƏLƏNMƏSİNİN DİNAMİKASI

T.F.Nəbiyev
Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Açar sözlər: dinamika, əhalinin xəstələnmə dərəcəsi, qlaukoma
Ключевые слова: динамика, заболеваемость населения, глаукома
Keywords: dynamics, incidence of the population, glaucoma

Tibbi sosial ağırlığı yüksək olan qlaukoma xəstəliyinin əhali arasında yayılmasının ən mühüm risk amillərindən biri demoqrafik qocalma, əhalinin yaş tərkibində ahıl insanların xüsusi çəkisinin çoxalmasıdır [1-4]. 40 yaşa qədər əhali arasında çox az müşahidə olunan qlaukoma 80 və yuxarı yaşlı əhalinin 15 %-də qeydə alınır [6-11]. Ona görə də əhalinin yaş tərkibinin dəyişməsi fonunda qlaukomanın əhali arasında yayılması ehtimalını proqnozlaşdırmaq aktual məsələ hesab edilir. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə son 25 il ərzində (1990-2014-cü illər) ölkə əhalisinin yaş tərkibinin dəyişməsi nəticəsində 70 və yuxarı yaşlı şəxslərin xüsusi çəkisi 2,8 – 4,4% intervalında tərəddüd etmişdir. 1990-cı ildə əhalinin 16,8%-i 50 və yuxarı yaşlı əhali olduğu halda 2014-cü ildə bu göstərici 21,3% təşkil etmişdir. Qlaukomanın digər risk amillərinin şərti stabilliyi fonunda belə ölkədə qlaukomanın demoqrafik qocalma ilə bağlı çoxalması obyektiv zərurətdir. Ona görə də qlaukoma ilə əhalinin xəstələnməsinin dinamikasını izləmək aktual elmi-praktik məsələdir.

Tədqiqatın məqsədi. Demoqrafik qocalma trendi nisbətən yuksək olan Gəncə şəhəri nümunəsində əhalinin qlaukoma ilə xəstələnməsinin dinamikasının səciyyələrini qiymətləndirmək.

Tədqiqatın materialları və metodları. Tədqiqat əhalinin müraciətlərinin məlumat bazasına əsaslandığına görə müşahidə ucdantutma metodu ilə retrospektiv aparılmışdır. Müşahidə vahidi 2011-2015-ci illərdə qeydiyyata alınmış ilkin və ümumi xəstələnmə hadisəsi olmuşdur. İlkin və ümumi xəstələnmə səviyyəsi 1000 nəfər orta illik əhalinin sayına nisbətən hesablanmışdır. Göstəricilərin orta xətası, 95% etibarlılıq intervalı (t=1,96) müəyyən edilmişdir. İldən-ilə xəstələnmə səviyyəsinin dəyişməsinin statistik dürüstlüyü Z meyarı ilə qiymətləndirilmişdir [5]. Göstəricilərin beş illik səviyyələri əsasında xronoloji orta xəstələnmə hesablanmışdır. Beş illik müşahidə müddətində xəstələnmə səviyyəsinin əsas trendi ən kiçik kvadratlar metoduna əsaslanan kompyuter proqramı ilə müəyyən edilərək riyazi modeli reqressiya tənliyi ilə ifadə edilmişdir.

Alınmış nəticələr. Gəncə şəhərində qlaukoma ilə ilkin xəstələnmələrin 2011-2015-ci illərdə səviyyəsi 1-ci cədvəldə verilmişdir. 2011-ci ildə kişi (0,64± 0,05‰) və qadın populyasiyasında (0,64±0,05‰) ilk dəfə qeydə alınmış qlaukoma hadisələri bir-birinə çox yaxın olmuş (p>0,05), ilkin xəstələnmənin populyasiyada səviyyəsi 0,65±0,04‰ təşkil etmişdir. 2015-ci ildə ilkin xəstələnmə göstəricisi (0,64±0,06‰ kişi populyasiyasında, 0,78±0,07‰ qadın populyasiyasında) 2011-ci ilin müvafiq göstəricisindən statistik dürüst fəqlənmir (p>0,05). İlkin xəstələnmənin xronoloji orta səviyyəsi kişi populyasiyasında 0,64‰, qadın populyasiyasında 0,72‰ təşkil etmişdir. Göründüyü kimi, müraciət məlumatlarına görə əhalinin ilkin xəstələnmə səviyyəsi 2011-2015-ci illərdə statistik dürüst dəyişməmişdir, qadın və kişi populyasiyalarının ilkin xəstələnmə ehtimalı bir-birinə yaxındır.

Əhalinin ümumi xəstələnmə səviyyəsinin dinamikası 2-ci cədvəldə əks olunmuşdur. 2011-ci ildə qlaukoma ilə ümumi xəstələnmə göstəricisi kişi (1,92± 0,11‰) və qadın (1,99±0,12‰) populyasiyalarında bir-birinə yaxın olmuşdur. Ümumi xəstələnmənin populyasiya səviyyəsi 1,96±0,08‰ təşkil etmişdir (95% etibarlıq intervalı 1,80-2,12‰). Sonrakı illərdə ümumi xəstələnmə səviyyəsi artmışdır və 2015-ci ildə kişi populyasiyasında 2,31±0,12‰ (95% etibarlıq intervalı 2,07-2,55‰), qadın populyasiyasında 2,33±0,12‰ (95% etibarlıq intervalı 2,09-2,57‰) təşkil etmişdir. Bütün müşahidə müddətində kişi və qadın populyasiyalarının ümumi xəstələnmə səviyyəsi bir-birindən statistik dürüst fərqlənməmişdir (p>0,05).

Təqvim illəri üzrə əhalinin qlaukoma ilə ümumi xəstələnmə səviyyəsi bir-birindən fərqlənir, statistik dürüst fərq 2011-ci illə müqayisədə 2014 və 2015-ci illərdə qeydə alınmışdır. Statistik dürüst artım həm kişi, həm qadın, həm də ümumi populyasiya səviyyəsində müşahidə olunmuşdur: 2011-ci ildə ümumi xəstələnmə kişi və qadın populyasiyasında müvafiq olaraq 1,92±0,11‰ və 1,99±0,12‰, 2015-ci ildə isə 2,31±0,12 və 2,33±0,12‰ (p<0,05). Beləliklə, ümumi xəstələnmə göstəricilərinə görə də kişi və qadın populyasiyaları bir-birindən statistik dürüst fərqlənmirlər. Ümumi xəstələnmələrin səviyyəsi ildən ilə artmağa meyllidir.

Cədvəl 1

Gəncə şəhərində qlaukoma ilə ilkin xəstələnmənin dinamikası (1000 nəfərə görə) Mötərizədə mütləq say verilmişdir.

İllər Kontingent	2011	2012	2013	2014	2015	Xronoloji orta
Bütün əhali	(207) 0,65±0,04	(214) 0,67±0,05	(222) 0,69±0,05	(227) 0,70±0,05	(234) 0,71±0,05	0,68
Kişi əhalisi	(100) 0,64±0,05	(103) 0,64±0,05	(107) 0,65±0,05	(109) 0,64±0,06	(104) 0,64±0,06	0,64
Qadın əhalisi	(107) 0,67±0,05	(111) 0,68±0,06	(115) 0,72±0,06	(118) 0,74±0,07	(130) 0,78±0,07	0,72

Cədvəl 2

Gəncə şəhərində qlaukoma ilə ümumi xəstələnmənin səviyyəsinin dinamikası (1000 nəfərə görə) Mötərizədə mütləq say verilmişdir.

İllər	2011	2012	2013	2014	2015	2016
Bütün əhali	(635) 1,98±0,08	(689) 2,14±0,08	(701) 2,18±0,08	(741) 2,28±0,08	(764) 2,32±0,08	2,18
Kişi əhalisi	(312) 1,92±0,11	(348) 2,16±0,12	(346) 2,15±0,12	(352) 2,17±0,12	(376) 2,3±0,12	2,14
Qadın əhalisii	(324) 1,99±0,12	(341) 2,12±0,12	(355) 2,20±0,12	(389) 2,40±0,12	(388) 2,33±0,12	2,21

Gəncə şəhəri əhalisi nümunəsində qlaukoma ilə ümumi xəstələnmənin 2011-2015-ci illərdə dəyişməsini aşağıdakı reqressiya tənliyi ilə ifadə etmək olar:

У (qadın populyasiyasında)=$-0,0183x^3+0,145x^2-0,2167x+2,088$ ($R^2=0,9582$); У(kişi populyasiyasında)= $0,0308x^3-0,2896x^2+0,8795x+1,302$ ($R^2=0,9934$)

Burada: У- qlaukoma ilə ümumi xəstələnmə səviyyəsi (‰); X-təqvim illərinin 2011-2015-ci illərdə ardıcıllıq nömrəsi; R^2-determinasiya əmsalı.

Təqvim ilində ümumi xəstələnmə əvvəlki illərdə ilkin xəstələnmə hadisələrinin nəticəsidir. Ona görə də ümumi və ilkin xəstələnmə göstəricilərinin nisbəti xəstəliyin əhali arasında toplanması (kumulyasiya olması) prosesini səciyyələndirir. 2011-ci ildə ümumi və ilkin xəstələnmə göstəricilərinin nisbəti kişi populyasiyası üçün 3,00; qadın populyasiyası üçün isə 2,97 təşkil etmişdir. 2015-ci ildə bu göstəricilərin səviyyəsi müvafiq olaraq 3,6 və 2,99 olmuşdur. Beş illik xronoloji ümumi və ilkin xəstələnmə göstəricilərinin nisbəti kişi populyasiyasında 3,34; qadın populyasiyasında 3,07 təşkil etmişdir.

2011-2015-ci illərdə qeydə alınmış qlaukoma diaqnozunun onun klinik formalarına görə bölgüsü 3-cü cədvəldə əks olunmuşdur. Göründüyü kimi bütün müşahidə müddətində xəstəliklərin böyük qismi açıq bucaqla ilkin qlaukomanın payına düşmüşdür (84,0; 80,5; 78,9; 77,4; 72,0%; xronoloji orta 79,4%). Qlaukoma ehtimalı (XBT-10-un H40.0 rubrikası) xəstəliklərin klinik formalarının strukturunda ikinci yerdə olsa da xeyli az paya malik olmuşdur (9,3; 11,9; 11,1; 11,7; 12,0%; xronoloji orta 11,3%). Digər formalı qlaukomaların xüsusi çəkiləri daha da az olmuş və müvafiq olaraq 2,8 – 5,2% qapalı bucaqlı ilkin qlaukomanın, 3,9 – 5,8% digər formaların payına düşmüşdür. Təqvim illəri üzrə qlaukoma diaqnozunun klinik formalara görə bölgüsü statistik dürüst dəyişməmişdir. ($\chi^2=8,2$; $\upsilon=15$; $p>0,05$).

Cədvəl 3

Xəstələrin qlaukomanın kliniki formalarına görə bölgüsü (cəmə görə)

İllər / Klinik formalar,kodlar	2011		2012		2013		2014		2015		2011-2015	
	n	%	n	%	n	%	n	%	n	%	n	%
H40.0 qlaukoma ehtimalı (hipertenziya)	59	9,3	82	11,9	78	11,1	87	11,7	92	12,0	398	11,3
H40.1Açıq bucaqlı ilkin qlaukoma	533	84,0	555	80,5	553	78,9	573	77,4	588	77,0	2802	79,4
H40.2 qapalı bucaqla ilkin qlaukoma	18	2,8	24	3,5	32	4,6	38	5,1	40	5,2	152	4,3
H40.3, H40.4, H40.5, H40.6, H40.9,H42 digər formalar	25	3,9	28	4,1	38	5,4	43	5,8	44	5,8	178	5,0
Cəmi	635	100	689	100	701	100	741	100	764	100	3530	100

Alınmış nəticələrin müzakirəsi. Qlaukomanın epidemioloji səciyyələri dünyada nisbətən yaxşı öyrənilsə də onun müraciət materialları əsasında ilkin və ümumi xəstələnmə səciyyəsi barədə məlumat azdır. Tədqiqatımızla adekvat müqayisə oluna bilən məlumatlar Rusiyanın Orenburq vilayəti üzrə nəşr edilmişdir [3]. Göstərilir ki, qlaukoma ilə ümumi xəstələnmə səviyyəsi 2009-2013-cü illərdə Rusiya Federasiyasında 9,18-11,9‰, Orenburq vilayətində isə 16,27-12,90‰ intervallarında dəyişmişdir. Rusiya Federasiyasında ümumi xəstələnmə səviyyəsi ildən-ilə artır və artımın əsas trendini əks etdirən tənliyin determinasiyası (R^2) 0,8975 təşkil edir. Qeyd olunan məlumatlarla müqayisədə Gəncə şəhərində əhali-nin qlaukoma ilə ümumi xəstələnmə səviyyəsi (2011-2015-ci illərdə 1,96-2,32‰) dəfələrlə aşağıdır. Bunun səbəbi həm Azərbaycan əhalisinin xəstələnmə riskinin azlığı, həm də müraciətlərinin qənaətbəxş olmaması hesab edilir. Rusiya əhalisinin demoqrafik qocalması daha intensivdir. Məlumatlarımızın oxşar cəhəti odur ki, həm Rusiyada, həm də ölkəmizdə qlaukomanın çoxalması tendensiyası mövcuddur. Beş illik intervalda ümumi xəstələnmə ölkəmizdə (Gəncə nümunəsində) 1,2 dəfə, Rusiyada (federal səviyyədə) 1,3 dəfə çoxalmışdır.

[3] Orenburq vilayətində qadın və kişilərin qlaukoma ilə ümumi xəstələnmə səviyyəsinin fərqli olmasını göstərsə də fərqin dürüstlüyünü sübut etməmişdir. Qadın və kişi populyasiyalarında qlaukoma ilə xəstələnmə hadisələrinin nisbəti bizim müşahidəmizdə 1,03, [3] müşahidəsində isə 1,12 təşkil etmiş və bir-birinə yaxın olmuşdur. Tədqiqatlarımızın oxşar aspektlərindən biri də qlaukomanın klinik formalara görə bölgüsünün bir-birinə yaxın olmasıdır: açıq bucaqlı ilkin qlaukoma müvafiq olaraq 79,4 və 70%, qlaukoma ehtimalı 11,3 və 8,2%, qapalı bucaqlı ilkin qlaukoma 4,3 və 4,8%.

Beləliklə, qlaukoma ilə xəstələnmənin müasir səciyyələrinə görə Azərbaycan populyasiyasının oxşar və fərqli xüsusiyyətləri mövcuddur ki, bunları xəstəliyin müalicə və profilaktikası sahəsində tədbirlərin seçimində nəzərə almaq zəruridir.

Nəticələr:

1. Azərbaycanda demoqrafik qocalma meyli fonunda əhali arasında qlaukoma ilə ilkin və ümumi xəstələnmə səviyyəsi çoxalır, dinamikanın əsas trendi yaxşı aproksimasiya olunan ($R^2 \geq 0,95$) polinominal reqresiya tənlikləri ilə ifadə olunur.
2. Qadın və kişi populyasiyasında qlaukoma ilə ilkin və ümumi xəstələnmə səviyyəsi bir-birindən statistik dürüst fərqlənmir.
3. Əhalinin qlaukoma ilə xəstələnməsinin nozoloji strukturunda əsas yeri açıq bucaqlı ilkin qlaukoma (79,4%) tutur, digər formaların xüsusi çəkiləri 4,3-11,3% intervalındadır.

ƏDƏBİYYAT

1. Воронина А.Е. Медико-социальные аспекты заболеваемости глаукомой в Оренбургской области. Автореферат дисс …канд.мед.наук.Оренбург, 2015, 23с.
2. Глаукома: Национальное руководство /Под редакцией Е.А.Егорова М.: ГЭОТАР-Медиа, 2013.824 с.
3. Либман Е.С., Рязанов Д.П., Калеева Э.В. Инвалидность в следствии нарушения зрения в России // V Российский офтальмологический форум. М., 2012, с.796-798
4. Рустамова Н.М. Возрастной риск первичной инвалидности вследствие глазных заболеваний в Азербайджане // Российский офтальмологиический журнал, 2012, том 5. №1, с. 65-68
5. Стентон Г. Медико-биологическая статистика. М.: Практика. 1999. 459 с.
6. Abdull M.M., Gilbert C.C., Evans J. primary open angle glaucoma in Northen Nigeria: stage at presentation and acceptance of treatment // BMC Ophthalmology, 2015, v.15, p.111
7. El-Assal., Foulds J., Dobson S., Sanders R. A comparative study of glaucoma referrals in Southeast Scotland: effect of the new general ophthalmic service contract, Eyecare integration pilot programme and NICE guidelines // BMC Ophthalmology, 2015, v.15, p.172
8. Glen F., Crabb D. Living with glaucoma: a qualitative study of functional implications and patients coping behaviors // BMC Ophthalmology, 2015, v.15, p.128
9. He J., Zou H., Lee R. et all. Prevalence and risk factors of primary open-angle glaucoma in city of Eastern China: a population- based study in Pudoug New district, Shanghai // BMC Ophthalmology. 2015. v.15. p.134
10. Kyari F., Entekume G., Rabiu M. et al. A population based survey of the prevalence and types of glaucoma in Nigeria: result from the Nigeria National blindnees and visual impairment survey // BMC Ophthalmology. 2015. v.15. p.176
11. NICE (National Institute for Health and care excellence) guideline. Clinical guideline. 2009. Nice.org.uk/guidance/cg85

Резюме

Динамика заболеваемости населения глаукомой в городе Гянджа

Т.Ф.Набиев

Целью исследования явилось оценка динамики заболеваемости населения глаукомой на фоне намеченного тренда демографического постарения. Использованы официальные материалы лечебно-профилактических учреждений за 2011-2015 годы. Рассчитана уровень первичной и общей заболеваемости (в ‰), статистическая ошибка и 95% доверительный интервал. Достоверность изменения показателей заболеваемости по годам оценена критерием Z. Основной тренд определен путем сглаживания годовых показателей методом наименьших квадратов. Составлен математический модель динамики заболеваемости. Уровень первичной и общей заболеваемости в течение 2011-2015 годов динамично увеличивается: от 0,65±0,04 до 0,71±0,05‰ и от 1,96±0,08 до 2,32±0,08‰. Заболеваемость женщин и мужчин друг от друга существенно не отличается. Динамика заболеваемости

мужчин ($y= - 0,0183x^3 + 0,145x^2 - 0,2167x + 2,088$; $R^2=0,9582$)

и женщин ($y= 0,0308x^3 - 0,2896x^2 + 0,8795x +1,302$; $R^2=0,9934$)

описывается хорошо аппроксирующими уравнениями.

На фоне демографического постарения населения наблюдается динамический рост первичной общей заболеваемости глаукомой.

Summary

Dynamics of the population morbidity of glaucoma in Gandja city

T.F.Nabiyev

Purpose of the reaserch was assessment of dynamics of the population morbidity of glaucoma against the planned trend of demographic aging. Official materials of treatment-and-prophylactic establishments for 2011-2015 are used. Level of primary and general morbidity (in ‰), the statistical mistake and 95% confidential interval is calculated. Change reliability of morbidity indicators by years is estimated by criterion of Z. The main trend is determined by smoothing of annual indicators by method of the smallest squares. It was made mathematical model of morbidity dynamics. Level of primary and general morbidity during 2011-2015 dynamically increases: from 0,65±0,04 to 0,71±0,05 ‰ and from 1,96±0,08 to 2,32±0,08 ‰. Morbidity of females and males from each other significantly doesn't differ. Morbidity dynamics of males ($y=-0,0183x^3+0,145x^2-0,2167x+ 2,088$; R2=0,9582) females ($y=0,0308x^3-0,2896x^2+0,8795x+1,302$; R2= 0,9934). it is described by good approximating equations. Against demographic aging of the population the dynamic growth of primary general morbidity of glaucoma is observed.

Daxil olub: 23.02.2016

PROFİLATİK MÜAYİNƏ ZAMANI AŞKAR EDİLMİŞ OTORİNOLARİNQOLOJİPROFILLI XRONİKİ XƏSTƏLİKLƏRİN DİNAMİKASI

H.M. Rüstəmova, O.M.Kərimova

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Açar sözlər: profilatik müayinə, otorinolarinqoloji, xroniki xəstəliklər, dinamika

Ключевые слова: профилактическое исследование, оториноларингология, хронические болезни, динамика

Key words: prevention treatment, otorhinolaryngology, chronic patients, dynamics

Ambulator-poliklinika müəssisələrinə müraciət xəstəliyin ağırlığından, gözlənilmədən başlanmasından və xəstənin sağlamlığına diqqətindən asılıdır [1]. Əksər hallarda pasiyentlər kəskin xəstəliklər və ya xroniki xəstəliklərin kəskinləşməsi ilə ambulator-poliklinika həkimlərinə müraciət edirlər. Ona görə də əhalinin xəstələnməsi barədə müraciətlərin nəticələri tam məlumatı əks etdirmir. Bunu nəzərə alaraq müraciətlər zamanı qeydə alınmış xəstəliklərlə yanaşı pasiyentlərin müraciətinə səbəb olmayan xəstəliklərin də aşkar olunması yolu ilə daha müfəssəl məlumat əldə etmək olur [2-5].

Tədqiqatın məqsədi əhalinin profilaktik müayinəsi təşkil olunduqdan sonra müayinə anında pasiyentdə olan otorinolarinqoloji profilli xroniki xəstəliklərin aşkar edilməsi.

Tədqiqatın material və metodları. Dispanser-profilaktik gəlişlərin hesablanmasında faktiki məlumatlar nəzərə alınmamışdır. Dispanser müşahidəsi tələb edən nozoloji forma üçün dövlət tərəfindən təsdiq olunmuş

gəlişlərin optimal sayı əsas götürülərək ümumi gəlişlərin sayı hesablanmışdır. Əhaliyə göstərilən otorinolarinqoloji profil üzrə stasionar tibb yardımını səciyyələndirmək üçün ucdantutma metodundan istifadə olunmuşdur. Statistik işləmə keyfiyyət əlamətlərinin analizi metodu ilə aparılmışdır [6].

Alınmış nəticələr və onların müzakirəsi. Pasiyentlərin profilaktik müayinəsində ilk dəfə aşkar olunmuş (müraciətlər zamanı qeydə alınmamış) xəstəliklər barədə aldığımız məlumatlar cədvəldə və şəkildə verilmişdir.

Göründüyü kimi orta hesabla hər 100 nəfərə görə 7,8-8,1 xroniki tonzillit, 2,5-2,6 xroniki otit, 1,6-2,0 xroniki farinqit, 1,0-1,1 xroniki rinit və digər xəstəliklər aşkar edilmişdir. Ümumən aşkar edilmiş bütün xroniki xəstəliklərin tezliyi hər 100 nəfərə görə 16,6±0,9 və 16,9±0,9 (müvafiq olaraq kişi və qadınlarda təşkil etmişdir. Qeyd edək ki, həkim otorinolarinqoloqa müraciətlər zamanı qeydə alınmış xəstələnmə göstəricisi (5,5 və 6,2 hər 100 kişi və qadına görə) profilaktik müayinələrdə aşkar olunan səviyyədən 3 dəfə azdır. Profilaktik müayinələrdə aşkar olunmuş xəstəliklərin tezliyi (hər 100 nəfərə görə) ayrı-ayrı yaş qruplarında 2,8±0,9 (5-14 yaş intervalında) 31,9±4,0 (55 və yuxarı yaş dövrləri) arasında dəyişir. Ümumi qanunauyğunluq odur ki, yaş artdıqca aşkar olunmuş xəstələnmə göstəricisinin səviyyəli dinamik artır. Yaş qruplarındakı fərq 35 yaşa qədər statistik dürüstdür, 35 yaşdan sonra ayırd edilmiş qruplarda göstəricinin səviyyəsi bir-birindən statistik dürüst seçilmir. Bütün yaş qruplarında kişi və qadın populyasiyalarının müvafiq göstəriciləri bir-birinə çox yaxındır (p>0,05).

Cədvəl

Profilaktik müayinə zamanı ilk dəfə aşkar olunmuş qulaq, burun və boğaz xəstəliklərinin yayılma səviyyəsi (hər 100 nəfərə görə)

Yaş	Cins	Say	Xroniki otit	Digər qulaq xəstəlikləri	Adenoidlər	Xroniki tonzilit
5-14	K	320	-	-	3 / 0,9	5 / 1,6
	Q	306	-	-	3 / 1,0	6 / 2,0
15-24	K	361	1 / 0,3	2 / 0,6	6 / 1,7	15 / 4,2
	Q	372	1 / 0,3	2 / 0,5	7 / 1,9	16 / 4,3
25-34	K	270	6 / 2,2	3 / 1,1	2 / 0,7	33 / 12,2
	Q	280	7 / 2,5	2 / 0,7	1 / 0,4	36 / 12,9
35-44	K	255	10 / 3,9	2 / 0,8	-	32 / 12,6
	Q	268	10 / 3,7	3 / 1,1	-	34 / 12,7
45-54	K	214	11 / 5,1	2 / 0,9	-	26 / 12,2
	Q	233	12 / 5,2	2 / 0,9	-	28 / 12,0
55+	K	135	11 / 8,2	5 / 3,7	-	10 / 7,4
	Q	154	12 / 7,8	6 / 4,0	-	11 / 7,1
Cəmi	K	1555	39 / 2,5	14 / 0,9	11 / 0,7	121 / 7,8
	Q	1613	42 / 2,6	15 / 0,9	11 / 0,7	131 / 8,1

Beləliklə, profilaktik müayinələr zamanı aşkar olunmuş yeni xəstələnmə hadisələrinin tezliyi müraciət zamanı qeydə alınan müvafiq göstəricidən xeyli çoxdur, pasiyentlərin yaşı artdıqca çoxalır və onun strukturunda əsas yeri xroniki tonzillit tutur. Digər xəstəliklərinin xüsusi çəkisi nisbətən azdır və biri-birinə yaxındır.

Xəstəliklərin yayılması barədə dolğun məlumat almaq üçün ən-ənəvi olaraq müraciət və profilaktik müayinə zamanı aşkar olunmuş xəstəlik hadisələrinin cəmindən istifadə olunur.

Bizim aldığımız məlumatlara görə xəstələnmənin ümumi səviyyəsi 100 nəfərə görə 22,7±0,7 olmuşdur. Göstəricinin etibarlıq interva l 95% dəqiqliklə 21,3-24,1 hadisə arasında tərəddüd edir. Yayılma səviyyəsinə görə birinci yerdə xroniki tonzillitdir, orta hesabla hər 100 nəfər əhaliyə 10,1±0,5 xəstələnmə hadisəsi düşür. Xroniki tonzillitin səviyyəsinin etibarlıq intervalı hər 100 nəfərə görə 9,1-11,1 arasındadır.

Cədvəlin ardı

Yaş	Cins	Say	Xroniki rinit	Burun ətrafı ciblərin xroniki iltihabı	Digər xəstəlik.	Yekun
5-14	K	320			1 / 0,3	9 / 2,8±0,9
	Q	306			2 / 0,7	11 / 3,6±1,1
15-24	K	361	2 / 0,6	1 / 0,3	2 / 0,6	31 / 8,6±1,5
	Q	372	2 / 0,5	1 / 0,3	3 / 0,6	33 / 8,9±1,5
25-34	K	270	4 / 1,5	2 / 0,7	3 / 1,1	59 / 21,9±2,5
	Q	280	5 / 1,8	3 / 1,1	4 / 1,4	62 / 22,1±2,5
35-44	K	255	4 / 1,6	2 / 0,8	4 / 1,6	61 / 23,9±2,7
	Q	268	4 / 1,5	2 / 0,8	4 / 1,5	63 / 23,5±2,6
45-54	K	214	3 / 1,4	3 / 1,4	3 / 1,4	56 / 26,2±3,0
	Q	233	4 / 1,7	2 / 0,9	4 / 1,7	60 / 25,8±2,9
55+	K	135	3 / 2,2	3 / 2,2	3 / 2,2	43 / 31,9±4,0
	Q	154	3 / 2,0	3 / 2,0	3 / 2,0	44 / 28,6±3,6
Cəmi	K	1555	16 / 1,0	11 / 0,7	16 / 1,0	259 / 16,6±0,9
	Q	1613	18 / 1,1	11 / 0,7	20 / 1,2	273 / 16,9±0,9



Şək. Profilaktik müayinə zamanı ilk dəfə aşkar olunmuş qulaq,burun və boğaz xəstəliklərinin yayılma səviyyəsi (100 nəfərə)

Xroniki tonzillitlərin əhalinin həkim otorinolarinqoloq tərəfindən müalicəsi aparılan patologiyalar arasında payı 44,5%-dir. Tezliyinə görə ikinci yerdə otitlər durur, onların tezliyi hər 100 nəfərə görə orta hesabla 3,1±0,3 təşkil edir (etibarlıq interval 2,5-3,7). Bu patologiyanın qulaq, burun və boğaz xəstəliklərinin həkim otorinolarinqoloqun təcrübəsində rast gəlinən formaları arasında payı 13,7%-dir.

Burunətrafı ciblərin iltihabları əhali arasında nisbətən az yayılmışdır. Bizim materiallara görə bu patologiyaların tezliyi 1,8±0,2 (hər 100 nəfərə görə etibarlıq intervalı 1,4-2,2), xüsusi çəkisi isə 7,9% olmuşdur.

Nəticə. Bakı şəhərində əhali arasında qulaq, burun və boğaz xəstəliklərinin əsaslandırdığımız metodologiya üzrə (terapevtik pediatrik və otorinolarinqoloji yardım tələb edən bütün müvafiq patologiyaları nəzərə almaqla) yayılması barədə aldığımız məlumatlara və onların interpertasiyasına görə aşağıdakı əsas nəticələrə gəlmək olar:

– Qulaq, burun və boğaz xəstəliklərinin ək

– sariyyəti (uşaqlarda 89,9%; yeniyetmələrdə 69,3% və yetkin yaşlı əhalidə 71,2%) yuxarı tənəffüs yollarının kəskin iltihabi prosesləri ilə bağlıdır və onların müalicəsi üçün ixtisaslaşmış həkim otorinolarinqoloq yardımına ehtiyac olmur.

– Həkim otorinolarinqoloqun müalicə obyekti olan xəstəliklərin ümumi yayılma səviyyəsini müəyyənləşdirmək üçün pasiyentlərin müraciətlərinin və profilaktik müayinələrinin nəticələrini nəzərə almaq vacibdir: hər 100 nəfər əhaliyə orta hesabla 22,7±0,7 qulaq, burun və boğaz xəstəlikləri düşür və onların nozoloji tərkibində 44,5% xroniki tonzillitlərin, 13,7%-i otitlərin, 7,9%-ini isə burun ətrafı ciblərin iltihabi xəstəliklərin payına düşür.

– Qulaq, burun və boğaz xəstəliklərinin kişi və qadın populyasiyasında yayılma səviyyəsi bir-birindən statistik dürüst fərqlənmir.

– Əhalinin yaşı qulaq, burun və boğaz xəstəliklərinin yayılmasında statistik dürüst rolu olan amillərdəndir, xəstələnmənin səviyyəsi yaş artdıqca çoxalır, çoxalma tempi əsasən 25 yaşdan sonra intensivləşir.

– Qulaq, burun və boğaz xəstəliklərinin yayılmasında ilin mövsümü, xüsusən iqlim şəraitinin dəyişməsi ciddi rol oynayır. Ayrı-ayrı nozologiyaların əksər hallarda yüksək səviyyəsi mart ayında qeydə alınır.

– Qulaq, burun və boğaz xəstəliklərinin müraciət materialları əsasında ümumi səviyyəsi hər 100 nəfərə görə 31,9±0,8, profilaktik müayinələrdə aşkar olunan yeni hadisələrin səviyyəsi isə 16,9±0,6 təşkil edir.

ƏDƏBİYYAT

1. Агаларова Л.С. Объем и характер амбулаторно-поликлинической помощи, оказываемой врачами общей практики и участковыми терапевтами городскому населению // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2007, №1, с. 26-29
2. Малов Н.И., Чураков В.И. Современные основы и методы планирования развития здравоохранения. М., 2004, 296 с.
3. Щепин О.П., Ларионов Ю.К., Пономарева Н.В. К вопросу о совершенствовании высокоспециализированной экстренной медицинской помощи // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2007, №4, с.38-40
4. Джафек Б.У., Старк Э.К. Секреты оториноларингологии СПб.: Невский диалект, 2001, с. 600-624.
5. Цымбал Д.Е., Свинарев М.Ю., Киричок И.В. Пути совершенствования и критерии эффективности оказания экстренной медицинской помощи новорожденным в Саратовской области // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2006, №6, с.43-46.
6. Стентон Г. Медико-биологическая статистика. М.: Практика. 1999. 459 с.

Резюме

Динамика хронических болезней оториноларингологического профиля при профилактическо-лечебных осмотрах

Г.М.Рустамова, О.М.Керимов

Целью исследовония явилось выявление во время больных оториноларингологического профиля при профилактическо-лечебных осмотрах. Было вычеслено количество общих визитов на основании количества оптимальных визитов, утвержденных государством для нозолигчесих форм, требующих диспансерного наблюдения. Расспротраненность болезней ухо, горла и носа в популяциях мужчни и женщин статистически не отличаются. Темп этих болезней растет среди больных старше 25 лет. В развитии этих болезней имеет большую роль изменение климатических условий. Высокая степень различных нозологий определяется в основном в марте месяце.

Summary

Dynamics of otorhinolaryngology profile for chronic patients detected during prevention treatment

H.M. Rustemova, O.M.Kerimova

Reseach object: otorhinolaryngology profile for chronic patients detected during prevention treatment of population. It was confirmed by government that optimal number of visits were considered the number of total

visits as for the requirement of nasopharyngeal forms for dispanser observation. There is no difference in statistic data for spreading ear, nose and throat deseases between male and female populations. The speading of ear, nose and throat deseases based on population age factor, the level of patients increase by age growth. mainly, the rate increases after 25 age intensively. The serious role affects the change of climate and seasons conditions for speading of ear, nose and throat deseases. The highest level of separate nasopharyngeal deseases was detected in March.

Daxil olub: 10.03.2016

UŞAQLARDA İNSULİNDƏNASILI ŞƏKƏRLİ DİABETDƏ HÜCEYRƏ İMMUNİTETİNİN ROLU

G.Ə. Əhmədov, A.A.Süleymanlı
Azərbaycan Tibb Universiteti, "II Uşaq xəstəlikləri" kafedrası, Bakı

Açar sözlər: uşaqlar, CD markerlər, şəkərli diabet.
Ключевые слова: дети, CD маркеры, сахарный диабет
Key words: children, CD markers, diabetes mellitus

İnsulindənasılı şəkərli diabet (İAŞD) xronik autoimmun bir xəstəlikdir. Autoimmun proses nəticəsində mədəaltı vəzin β-hüceyrələri destruksiyaya uğrayır [1]. Məlum olmuşdur ki , İAŞD beta hüceyrələrin T-hüceyrələr tərəfindən zədələnməsi nəticəsində yaranır. CD4+ və CD8+ hüceyrələri β-hüceyrələrdə destruktiv dəyişiklik yaradır. Eksperimental yolla CD4+ hüçeyrələrin sicanların qanına yeridilməsi onlarda tezliklə şəkərli diabetin yaranmasına səbəb olur. Bu zaman diabetogen CD4+ hüceyrələr β-hüceyrələrini anticisim kimi qəbul edir və onları zədələyir [2]. Öyrənilmişdir ki, şəkərli diabetin kliniki əlamətlərinin biruzə verməsindən bir müddət əvvəl qanda anticismlər, β- hüceyrələr qarşı autoreaktiv CD4+, CD8+ hüceyrələr yüksək olur. Onların erkən aşkar edilməsi diabetli xəstələrə vaxtında diaqnoz qoyulmasını, onun profilaktikasını aparmağa imkan yaradır [3]. İAŞD-də mədəaltı vəzi CD8+ T hüceyrələrin infiltarsiyasına və hücumuna maruz qalır. Bu hüceyrələr sitotoksik təsir edir. Bu təsirin nəticəsində β- hüceyrələrin tədricən sayı azalır və nəticədə hiperqlikemiya yaranır. Bu təsir nəticəsində bir ildən sonra β-hüceyrələrin 10%-i qalır [4]. Öyrənilmişdir ki, şəkərli diabet T limfositlərin mədəaltı vəzi infiltrasiyası ilə gedən bir xəstəlikdir. Lakin son zamanlar B limfositlərin də bu posesdə iştirakı öyrənilmişdir [5]. Diabetin klinik manifestasiyasından öncə orqanizmdə autoimmun proseslər gedir. Ola bilər ki, bu proses bir müddət ləngisin və xəstəlik yaranmasın. Lakin prosesin davamlı və dalğalar şəklində olması β- hüceyrələrin tam məhvinə gətirib çıxarır [6]. B limfositlər β-hüceyrələrin məhvində birbaşa deyil dolayısı ilə iştirak edir. Belə ki, onlar anticisimlər hazırlamaqla immun prosesləri aktivləşdirir, sitokinlərin sintezinə təsir etməklə CD4+ hüceyrələri də aktivləşdirirlər. B hüceyrələrin zəifləməsi və defisiti zamanı isə autoimmun diabetin yaranması ləngiyir [7,8]. Tədqiqatlar göstərir ki, CD4 (+) və CD8 (+) T-limfositlər şəkərli diabetin müxtəlif mərhələlərində əhəmiyyətli rol oynayır [9]. Mədəaltı vəzin β- hüceyrələrinin zədələnməsində CD8(+) T hüceyrələri birbaşa, CD4(+) T hüceyrələri isə dolayısı yolla iştirak edir [10]. Sitotoksik T hüceyrələr və ya CD8+ T hüceyrələr orqanizmdə dəyişikliyə uğramış hüceyrələri məhv edir. Onlar İL-10, adenozin və s. sitokinlər ifraz etməklə təsir göstərirlər. Eksperimental aparılan tədqiqatların birində məlum olmuşdur ki, bu hüceyrələr zəif afinlik qabiliyyətinə malik olan insulin molekullarının beta zəncirlərini aşkar edir və onları destruksiyaya uğradır, nəticədə diabetin yaranmasına gətirib çıxarır [11]. T-hüceyrələrin autoreaktivliyə görə yaddaşı uzun müddət saxlanılır və anticisimlərin stimulyasiyasından sonra artır [12]. Şəkərli diabetdə CD8(+) T hüceyrələrin rolu mühüm əhəmiyyət kəsb edir. Mədəaltı vəzidə hüceyrə spesifik-6-fosfatazaya oxşar katalitik protein –spesifik CD 8(+) T hüceyrələri toplanır və β- hüceyrələrin destruksiyasında aktiv iştirak edir. Bu hüceyrələr sonradan limfa düyünlərində toplanır və autoimmun prosesin gedişatını əks etdirir və daim şəkərli diabetli xəstələrin qanında aşkar edilir [13]. Bir sıra elmi işlərdən məlumdur ki, İAŞD T helper hüceyrələrin aktivləşməsi nəticəsində yaranan autoimmun bir xəstəlikdir. Bu prosesdə vitamin D-nin də rolu böyükdür. Viatmin D ilə immun sistem arasında əlaqə vardır və vitamin D immun sistemin requlyatoru rolunu görür [14].

Aparılan elmi tədqiqatın məqsədi ilk aşkarlanan və bir neçə il diabetlə xəstə olan uşaqlarda hüceyrə immuniteni öyrənmək və onların kalsium mübadiləsi arasındakı əlaqəni araşdırmaqdan ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Bu məqsədlə ilkin aşkarlanan 11, bir neçə il diabeti olan 30 və 15 nəfər sağlam uşaqda hüceyrə immunitetinin əsas immun markerləri öyrənilmişdir. İnsulinədənaslı şəkərli diabet diaqnozu klinik, laborator və instrumental müayinələr nəticəsində uşaqlara qoyulmuşdur. Uşaqlar 7-17 yaşlar arasında olmuşlar. Müayinə olunanlarda CD3+, CD4+, CD8+, CD19⁻, CD16⁻/56⁻ markerləri, immunorequlyator indeks (İRİ) CD4⁺/CD8⁺, ümumi kalsium, ionlaşmış kalsium və fosfor təyin edilmişdir.

İmmun müayinələri Azərbaycan Tibb Universitetinin «İmmunologiya» kursunun immunoloji laboratoriyasında, ümumi kalsium, ionlaşmış kalsium və fosfor isə 6 saylı uşaq' klinik xəstəxanasının laboratoriyasında təyin edilmişdir.

İmmunokompetent hüceyrələrin identifisə olunmuş membran markerlərinin monoklanal antitelləri (hüceyrə immunitetin göstəriciləri – T-limfositləri (CD3⁺), T-helper (CD4⁻), T-supressor (CD8⁻), Natural Killer (CD16/CD56⁻) və humoral immunitet göstəricisi olan B-limfositləri (CD19⁻)) axın sitometriya metodu ilə « Epics XL» («BEKMON COULTER Fransa») yoxlanılmışdır.

Nəticələri hazırlayarkən düz (FSC), yan (SSC) işıqlandırma metodundan və CellQuest («Becton Dickin Son», ABŞ) proqramından istifadə edilmişdir.

Statistik hesablamalar isə Statistika 13.0 (Dell Software, 2016) statistik proqramından istifadə olunmuşdur. Göstəricilərin paylanması qeyri bərabər olduğundan Kolmoqorov-Smirnov qeyri-parametrik üsuldan istifadə edilmiş. CD markerləri arasında fərq dürüstlüyü, korrelyasiya əlaqəsi öyrənilmişdir.

Nəticələrin müzakirəsi. Aşağıdakı 1-ci cədvəldə mətində istifadə olunan CD markerlərin qısaldılmış adları verilmişdir.

Cədvəl 1

CD markerlərin qısaldılmış adları

İmmun göstəricilərin qısaldılmış adları	İmmun göstəricilər
CD3+	T-limfosit, % CD3+
CD4+	T-helper, % CD4+
CD8+	T-supressor, % CD8+
CD19⁻,	B-limfosit, % CD19⁻
CD16⁻/56⁻	T-limfosit/killer, % CD16⁻/56⁻
İRİ, CD4⁻/CD8⁻	İmmunorequlyator indeks CD4⁺/CD8⁻

Cədvəl 2

İlkin aşkarlanan xəstələrin CD markerlərinin orta göstəriciləri arasındakı statistik etibarlılığı

Kontrol qrupu (n=15)		İlkin aşkarlanan şəkərli diabetli xəstələr (n=11)		Fərqlərin statistik etibarlığı
CD 8+	28,1±5,40	CD 8+	32,8±6,63	p<0,001
CD 19+	14,3±4,30	CD 19+	45,4±26,53	p<0,001

Cədvəl 3

Bir neçə il şəkərli diabelə xəstə olanların CD markerlərinin orta götəriciləri arasındakı statistik etibarlılığı

Kontrol qrupu(n=15)		Bir neçə il şəkərli diabelə xəstə olanlar (n=30)		Fərqlərin statistik etibarlığı
CD 8+	28,1±5,40	CD 8+	30,0±6,45	p<0,001
CD 19+	14,3±4,30	CD 19+	15,1±4,97	p<0,001
CD 16/56+	12,2±3,93	CD 16/56+	13,6±5,62	p<0,001
İRİ	1,44±0,38	İRİ	1,51±0,81	p<0,001

Cədvəl 4

İlkin aşkarlanan və bir neçə il şəkərli diabelə xəstə olanların CD markerlərinin orta götəriciləri arasındakı statistik etibarlılıq

İlkin aşkar olunan (n=11)		Bir neçə il şəkərli diabelə xəstə olanlar (n=30)		Fərqlərin statistik etibarlığı
CD 3+	60,4±4,05	CD 3+	71,9±9,14	p < 0,05
CD 4+	32,8±6,63	CD 4+	39,5±7,19	p < 0,05
CD 19+	45,5±26,53	CD 19+	13,6±5,63	p < 0,05
CD 16/56+	7,36±2,91	CD 16/56+	13,6±5,62	p < 0,05
İRİ	0,90±0,65	İRİ	1,51±0,81	p < 0,05

CD markerlərin orta göstəriciləri arasındakı statistik etibarlılıq aşağıdakı 2-ci cədvəldə verilmişdir. Aşağıdakı 3-cü cədvəldə isə bir neçə il şəkərli diabeti olan xəstələrin immun göstəriciləri ilə kontrol qrupu arasındakı statistik etibarlılığı göstərilmişdir.

3-cü cədvəldən göründüyü kimi, bir neçə il xəstə olanların CD 8+ və CD 19+ göstəriciləri ilə yanaşı olaraq bir necə il xəstə olanlarda CD 16/56+, İRİ arasında əlavə olaraq statistik etibarlıq aşkar edilmişdir.

Həm ilkin, həm də bir necə il xəstə olanların CD markerlrinin orta göstəriciləri arasındakı statistik etibarlığı isə aşağıdakı 4-cü cədvəldə verilmişdir.

Aparılan tədqiqatdan belə məlum olmuşdur ki, ilkin xəstələrin CD8+ markeri ilə kontrol qrupunun CD8+ (r=-0,76, p<0,05) və İRİ (r= +0,72, p<0,05) arasında korrelyasiya əlaqəsi mövcuddur. Bir neçə il xəstə olanlarda da CD8+ markeri ilə CD3+ arasında müsbət korrelyasiya əlaqəsi vardır (r= +0,60, p<0,05). Bir neçə il xəstə olanların CD8+ markeri ilə ilkin xəstələnlərin CD19+ arasında da müsbət əlaqə vardır (r= +0,66, p<0,05). Başqa bir korrelyasiya əlaqəsi isə bir necə il xəstə olanların CD 16/56+ markeri ilə həmin xəstələrin İRİ arasında aşkar edilmişdir (r= +0,67, p<0,05). Diabeti olan uşaqların kalsium və fosfor göstəriciləri ilə CD markerlər arasında isə korrelyasiya əlaqəsi aşkar edilməmişdir.

Beləliklə, gördüyümüz kimi CD markerləri arasında əhəmiyyətli əlaqələr və statistik etibarlılıq vardır.

ƏDƏBİYYAT

1. Jaberi-Douraki M., Pietropaolo M., Khadra A. Continuum model of T-cell avidity: Understanding autoreactive and regulatory T-cell responses in type I diabetes // J Theor Biol. 2015, v. , p.93-105.
2. Zhao Y., Scott N.A., Quah H.S. et al. Mouse pancreatic beta cells express MHC class II and stimulate CD4(+) T cells to proliferate.// Eur J Immunol., 2015, v.45(9), p.2494-503.
3. Boitard C. Pancreatic islet autoimmunity //Presse Med., 2012, v.41(12 P 2), p.636-50.
4. In't Veld P. Insulitis in human type 1 diabetes: a comparison between patients and animal models // Semin Immunopathol. 2014, v.36(5), p.569-79.
5. Hinman R.M., Cambier J.C. Role of B lymphocytes in the pathogenesis of type 1 diabetes. //Curr Diab Rep.. 2014, v.14(11), p.543.
6. Jaberi-Douraki M., Pietropaolo M., Khadra A. Predictive models of type 1 diabetes progression: understanding T-cell cycles and their implications on autoantibody release //PLoS One., 2014, v.9(4), p.93326.
7. O*Neill S.K., Liu E, Cambier J.C. Change you can B (cell) in recent progress confirms a critical role for B cells in type 1 diabetes // Curr Opin Endocrinol., 2009, v.16, p.293-8.
8. Cox S.L., Silveira P.A. Emerging roles for B lymphocytes in Type 1 diabetes //Expert Rev Clin Immunol., 2009, v.5, p.311-24.
9. Bilgic S., Aktas E., Salman F. et al. Intracytoplasmic cytokine levels and neutrophil functions in early clinical stage of type 1 diabetes //Diabetes Res Clin Pract., 2008, v.79(1), p.31-6.
10. Angstetra E., Graham K.L., Zhao Y. et al. An indirect role for NK cells in a CD4(+) T-cell-dependent mouse model of type I diabetes // Immunol Cell Biol., 202, v.90(2), p.243-7.
11. Wong F.S., Siew L.K., Scott G. et al. Activation of insulin-reactive CD8 T-cells for development of autoimmune diabetes //Diabetes, 2009, v.58(5), p.1156-64.
12. Ehlers M.R., Rigby M.R. Targeting memory T cells in type 1 diabetes // Curr Diab Rep., 2015, v.15(11), p.84.
13. Chee J., Ko H.J., Skowera A. et al. Effector-memory T cells develop in islets and report islet pathology in type 1 diabetes // J Immunol.,2014, v.192(2), p.572-80.
14. Morán-Auth Y., Penna-Martinez M., Badenhoop K. VDR FokI polymorphism is associated with a reduced T-helper cell population under vitamin D stimulation in type 1 diabetes patients //Steroid Biochem Mol Biol. 2015, v.48, p.184-6.

Резюме

Роль клеточного иммунитета при инсулинозависимом сахарном диабете у детей

Г.А. Ахмедов, А.А.Сулейманлы

В представленном статье изучен состояние клеточной иммунной системы при инсулинозависимом сахарном диабете у детей. Были выявлены существенные изменения клеточной иммунной системе у первично выявленных и повторно болеющих сахарным диабетом детей. Было выявлена достоверная разница между CD 8+, CD 19+, CD 16/56+, иммунорегуляторном индексе. А также была выявлена существенная связь между изучаемыми CD маркерами.

Summary

The role of cellular immunity in insulin-dependent diabetes mellitus in children

G.A. Ahmadov, A.A. Suleymanli

Aim is current study was to examine the status of the cellular immune system in insulin-dependent diabetes in children. There were revealed significant changes in the cellular immune system initially identified and long-suffering diabetes mellitus children. It was found a significant difference between CD8+, CD19+, CD 16/56+, immunoregulatory index. And there was also a significant relationship between the studied CD markers.

Daxil olub: 10.03.2016

FREQUENCY DISTRIBUTION OF PULMONARY TUBERCULOSIS

Ahmad Tauseef[1], A.V.Aliyev [2,3], R.A.Chobanov [2]

1.Department of Microbiology, Hazara University, Mansehra 21300, Khyber Pakhtunkhwa, Pakistan

2.Public Health and Healthcare Management Chair, Azerbaijan Medical University

3.Department of Lung Diseases, Guba District Central Hospital, Azerbaijan

Açar sözlər: vərəm, ağ ciyər vərəmi, ağ ciyər xəstəliyi, retrospektiv müaynələr

Ключевые слова: туберкулез, туберкулез легких, лёгочные заболевания, ретроспективное исследование.

Key words: tuberculosis, pulmonary tuberculosis, lung diseases, retrospective observational study.

Even in the 21st century the Tuberculosis (TB) is a socioeconomic and major public health issue on the surface of globe [1-4].

TB is a bacterial disease cause by *Mycobacterium tuberculosis* mainly infects the lungs (pulmonary TB) and also causes infection of other organs (extra-pulmonary TB) [5-7]. The TB is transmitted from person to person. The sputum smear microscopy is the cheap and fast method to diagnose the TB.

After the declaration of TB is a global emergency in 1993, the World Health Organization (WHO) started the DOTS programme to extend the TB control strategies with coordination of Nationals Tuberculosis Control Programme. DOTS programme globally accepted intervention for TB with target to achieve 84% case detection of all form of TB with 87% treatment success rate by 2015 [1, 8, 9]. In the year 2013, 9 million new cases of TB were reported along with 1.5 million deaths [10]. The disease burden is high in Asia and Africa.

The current study was design to assess the frequency distribution of PTB at Tehsil Head Quarter (THQ) Hospital Besham.

Material and methods. *Study setting.* Current study was conducted at Tehsil Head Quarter Hospital Besham Khyber Pakhtunkhwa, Pakistan. The hospital is serving the population of Besham and remote area of Besham. In the hospital, under the National Tuberculosis Control Programme (NTBCP) the DOTS clinic is operating in which the suspected patients are diagnosed for the presence of *Mycobacterium tuberculosis.*

Study population and duration. All the suspected PTB patients enrolled at THQ Hospital Besham during the period January-December 2013.

Study design and Data collection. A retrospective study was design. The data were collected from the TB patients register. Scio-demographic information of the patients was recorded including name, area, gender, age etc.

Inclusion criteria. The suspected PTB patients enrolled during (January-December 2013) at THQ Hospital Besham included in the current study.

Exclusion criteria. Those patients who enrolled in other government or private center were excluded from the current study. That patient who's diagnosed for EPTB also excluded.

Limitation of the study. Only the sputum smear microscopy was performed for the suspected pulmonary TB patients. No TB culture was performed. Hence we cannot assume the degree of resistance to anti-TB drugs.

Prevalence rate. Prevalence rate was determined by using the following formula. Prevalence rate = Total number of positive TB patients/Total number of suspected TB patients x 100.

Data analysis. The results were summarized in the form of frequency and percentages and then presented in tabulated form.

Statistical analysis. The obtained data was entered into Microsoft Excel sheet and applied appropriate statistical tests using the *PHStat2* software for *Windows*.

Ethical approval. Ethical approval was obtained from the concern authority of the hospital.

The results. A total of 247 suspected cases of PTB were diagnosed. Of the total cases 90 (36.44%) were PTB+ and 157 (63.56%) were PTB- (Table 1). High number of PTB+ cases 45 (50%) was recorded in age between 16-30 years (Table 2). On the other hand among the total cases 213 (86.23%) were diagnosed as new cases (Table 3). Majority of the patients 244 (98.79%) were treated with CAT-I (Table 4). Among the total studied cases, 158 (63.97%) completed treatment and 89 (36.03%) become cured (Table 5).

Table 1

Sex wise distribution of PTB +ve and PTB –ve patients, n(%)

TB types	Male	Female	Total
PTB +	30 (33.33)	60 (66.67)	90 (36.44)
PTB-	67 (42.68)	90 (57.32)	157 (63.56)
Total	97 (39.27)	150 (60.73)	247 (100)

Table 2

Age wise distribution of PTB +ve and PTB –ve patients

TB types	Sex	Age (years)					Total
		0-15	16-30	31-45	46-60	> 60	
PTB+	Male	2	16	4	7	1	30
	Female	3	29	18	9	1	60
PTB-	Male	38	16	7	2	4	67
	Female	24	44	15	6	1	90



Table 3

Enrollment of PTB patients

TB types	Types of PTB patients						
	New	Relapse	Treatment failure	Treatment after default	Transfer in	Others	No record
PTB+	78	1	0	0	0	9	2
PTB-	135	0	0	1	0	18	3
Total	213	1	0	1	0	27	5

Table 4
Treatment category of enrolled patients

TB type	Treatment category		Total
	CAT-I	CAT-II	
PTB+	87	3	90
PTB-	157	0	157
Total	244	3	247

Table 5
Treatment outcome of PTB +ve and PTB –ve patients

TB types	Treatment outcome					
	Cured	Treatment completed	Died	Failure	Defaulted	Transferred out
PTB+	89	1	0	0	0	0
PTB-	0	157	0	0	0	0
Total	89	158	0	0	0	0

Discussion. TB is considering a disease of poverty. The burden of TB is much higher in developing countries as compare to developed countries. Early diagnosis and proper treatment of TB is essential for control and elimination of disease. According to WHO (2012) 39.10% cases were sputum smear positive and 38.40% were sputum smear negative in Pakistan. It shows that the prevalence of TB is high among the population of Pakistan.

In our study, prevalence of PTB+ was reported 36.44% which is lower from the finding of others studies who reported high prevalence of PTB+ [11, 12].

Our results shows that female are more infected as compare to male patients. Others studies carried in different parts of the country shows high ratio of TB in female subject (11-23).

In term of age maximum number of PTB+ cases was reported in age between 16-30 years. According to the our early report 34.92% in age between 0-20 years and 33.9% in age 21-40 years, and 9.48% cases of PTB+ in age between 15-24 years [11]. Treatment category (CAT-I) is dominant in both cases of PTB+ and PTB-. A study conducted by Ayeno et al. [4] reported 17.3% cured, 63.5% completed treatment, 6.3% died, 2.7% failure, 2.7% default and 7.6% transfer out.

Conflict of interest and financial support. There is no conflict of interest regarding the publication of the paper. The financial support was declared none.

Acknowledgement. The author acknowledges the support of THQ Hospital Besham during collection of data and also thankful to Mr.Matiullah for their help during the current study.

REFERENCES

1. Ahmad T, Farooq M., Murtaza B.N., et all. Prevalence of tuberculosis in Dir Lower: an epidemiological descriptive study // Golden Research Thoughts, 2013, vol. 3, issue 5, p.1-3.

2. Aliyev A.V. Modern approaches to the problem of quality assessment TB care to the population. // Tashkent Medical Academy News (Uzbekistan), 2015, №3, p.130-133.

3. Aliyev A.V. Infection of the Children with Micobacterium Tuberculosis. Who Have a Territorial Contact with Tuberculosis Patients in Guba City of Azerbaijan / Proceedings of the International Conference "Modern Science: Problems, Prognoses and Solutions", 27.03.2014, Tbilisi, Georgia. // Black Sea Scientific Journal of Academic Research, 2014, v.11, issue 4, p.10-14.

4. Ayeno H.D., Regasa B.M., Lenjisa J.L., Umeta G.T., Woldu M.A. A Three Years Tuberculosis Treatment out Come at Adama Hospital of Medical College, South East Ethiopia, A Retrospective Cross-sectional Analysis. // International Journal of the Pharm and Bio Sciences, 2014, v. 2, issue 9, p.2347-4785

5. Ahmad T., Ahmad K., Rehman M.M. Tuberculosis is still a prevalent disease in population of District Dir Khyber Pakhtunkhwa Pakistan. // Global Vet., 2014, v.12, issue 1, p.125-128

6. Ahmad T., Ahmad K., Ullah N., et al. A short report on tuberculosis in district Dir Khyber Pakhtunkhwa Pakistan. // Rev. Prog., 2013, v. 1 (30), p.1-4.

7. Ayaz S., Tahira N., Khan S. et al. Pulmonary Tuberculosis: Still Prevalent in Human in Peshawar, Khyber Pakhtunkhwa. // Pakistan Journal of Life Soc. Sci., 2012, v.10, issue 1, p.39-41.

8. Ullah S., Shah S.H., Rehman A., et all. Extra Pulmonary Tuberculosis in Lady Reading Hospital Peshawar, NWFP Pakistan: Survey of Biopsy Results. // Journal of the Ayub Medical College Abbottabad, 2008, v.20, issue 2, p.43-46.

9. World Health Assembly Resolution WHO 67.1. Global Strategy and Targets for Tuberculosis Prevention, Care and Control after 2015.

10.Ahmad T., Ahmad K., Rehman M.M. Tuberculosis is still a prevalent disease in population of District Dir Khyber Pakhtunkhwa Pakistan. // Global Vet., 2014, v.12, issue 1, p.125-128.

11.Ahmad T., Jadoon M.A. Prevalence of sputum smear positive pulmonary tuberculosis at Dargai, District Malakand, Pakistan: A four year retrospective study". Egyptian Journal of Chest Disease and Tuberculosis, 2016.

12.Ahmad T., Jadoon M.A. Cross Sectional Study of Pulmonary Tuberculosis at Civil Hospital Thana, District Malakand Khyber Pakhtunkhwa, Pakistan. // World Journal of Zoology, 2015,v.10, p161-167.

Резюме

Частота встречаемости туберкулеза легких

Ахмад Таусеef, Алиев А.В. , Чобанов Р.Э.

Даже в XXI веке туберкулез (ТБ) является социально-экономической и серьезной проблемой общественного здравоохранения. Данное исследование проводился с целью оценки распределения частоты туберкулеза легких (ТЛ). Текущее ретроспективное исследование было проведено в январе-декабре 2013г. в Tehsil Head Quarter Hospital, в провинции Бешам, Пакистан. В общей сложности были диагностированы 247 случаев с подозрением на туберкулез легких. Из общего количества случаев 36.44% были бациллярные больные ТЛ и 63.56% были больные абациллярные. Большое количество случаев ТЛ 50% был зафиксирован в возрасте от 16-30 лет. С другой стороны, среди всех случаев 86.23% были диагностированы как новые случаи. Большинство пациентов 98.79% принимали CAT-1 категории лечения. Среди общего числа изученных случаев, 63.97% завершили лечение, и 36.03% были клинически вылечены.

Summary

Ağ ciyər vərəminin rastgəlmə tezliyi

Əhməd Tauseef, Ə.V. Əliyev, R.Ə.Çobanov

Ağ ciyər vərəmi əhalinin ictimai sağlamlığında və sosial bəla olaraq bütün dünyada aktualliğini qoruyub saxlayır. Ağ ciyər vərəminin rastgəlmə tezliyinin müəyyən etmək məqsədi ilə Pakistan İslam Respublikasının, Bəşam vilayətinin "Tehsil Head Quarter Hospital" xəstəxanasında, 2013-cü ilin noyabr-dekabr aylarında tədqiqatlar aparılmışdır. Tədqiqat obyekti olaraq 247 nəfər ağ ciyər vərəmi olan xəstə seçilmişdir. Xəstələrin 36.44%-i basillyar, 63.56%-i isə abasillyar ağ ciyər vərəmli olmuşdur. Aşkar olunmuş xəstələrin 50%-i 16-30 yaş arasında olmuşdur. Cəmi xəstələrin 86.23%-i ilkin aşkar edilmiş hallar olmuşdur. Xəstələrin 98.79%-i CAT-1 səviyyəli müalicə kursu almaqda olmuşdurlar. Xəstələrin 63.97%-i müalicəni bitirmiş, 36.3%-ində isə sağalma baş vermişdir.

Daxil olub: 17.03.2016

ДИАГНОСТИКА ИНТРАОПЕРАЦИОННЫХ ПОВРЕЖДЕНИЙ ВНЕПЕЧЕНОЧНЫХ ЖЕЛЧНЫХ ПРОТОКОВ С ИСПОЛЬЗОВАНИЕМ НОВЫХ ТЕХНОЛОГИЙ: РЕАЛЬНОСТЬ И ПЕРСПЕКТИВЫ

Г.Ф. Муслимов, М.М. Мамедов, Б.Т.Мамедов

Have been determined the development and exacerbation of inflammatory diseases of the periodontal tissues from professional athletes contribute to the deterioration of oral hygiene status and impaired functional status of local immunity against the background of intense physical stress. Clinical and laboratory studies to determine the impact of overtraining syndrome on oral health and the effectiveness of proposed drugs were conducted among professional athletes. Clinical signs of periodontal disease and preventive efficacy of drugs were identified with the help of IPI Silness – Loe və Мюллеман – Коуэлл hygiene and periodontal indices. According to results of study of periodontal tissues from professional athletes on the background of intensified training and increasing loads often undergo expressed pathological changes. Dynamic indices monitoring of the periodontal tissues in the oral cavity of surveyed athletes revealed prophylactic and therapeutic efficacy of herbal medicines - products based on propolis "Balzam granatoviy" during inflammatory periodontal disease.

Daxil olub: 22.04.2016

KALİPEROMETRİYA ÜSULUNUN PİYLƏNMƏ VƏ BƏZİ ANTROPOMETRİK GÖSTƏRİCİLƏRİN ÖYRƏNİLMƏSİNDƏ ROLU

S.S.Fərəcova
Ə.Əliyev ad.Az.DHTİ-nin Terapiya kafedrası, Bakı

Açar sözlər: FTO, melanokortin, antropometrik göstəricilər, kaliper.
Ключевые слова: FTO, меланокортин, антропометрические показатели, калиперометрия
Key words: FTO, melanocortin, anthropometric indicators, caliper

Piylənmə dünyada ən geniş yayılmış xəstəliklərdən biri olub, qeyri-infeksion "XXI əsr epidemiyası" hesab edilir. ÜST məlumatlarına görə Yer kürəsində əhalinin üçdə bir hissəsi (17%-ə yaxın qadınlar və 15%-ə yaxın kişilər) piylənmə daxil olmaqla, artıq bədən çəkisinə malikdir. Belə şəxslərin sayı hər 10 ildə 10% artır və ÜST proqnozuna görə bu temp davam etsə 2025-ci ilə kimi 300 milyon şəxs piylənmədən əziyyət çəkəcək [1,2].

Hazırda intraabdominal piy toxumasının müxtəlif müxtəlif metabolik xarakteristikası ilə birgə iki yarımtipi ayırd edilir: dərialtı (DPT) və visseral piy toxuması (VPT). Piylənmə arterial hipertenziya, hiperxolesterinemiya və insulinasılı şəkərli diabetlə müşayiət olunur. Tədqiqatçılar piylənməyə səbəb olan amillər arasında həyat tərzi və qidalanma (qidalanmanın gündəlik ritmi pozulduqda qidanın artıq kaloriliyi), eləcə də hipodinamiyaya (sərf edilən kaloriyə görə gündəlik fiziki yükün kifayət etməməsi) daha çox diqqət edirlər. Uzunmüddətli piylənmə tibbi ağırlaşma kimi xəstəlik və əlilliyə təkan verir. Xüsusən də visseral piy kütləsinin yığılması 2 tip şəkərli diabet, ürək-damar xəstəlikləri, insulinrezistentlik və dislipidemiya ilə assosasiyadadır [3,4].

Piy toxuması orqanizmin bütün toxumalarında müxtəlif miqdarda olur, onun paylanması isə cinsiyyət, yaş, etnik mənsubiyyət, fərdin genetik xüsusiyyətləri, fiziki aktivlik səviyyəsi, qəbul edilən qidaların xarakterindən asılıdır. Piylənmənin genetik xüsusiyyətləri müasir ədəbiyyatlarda geniş müzakirə olunur, buna səbəb isə iştahanın tənzimlənməsində iştirak edən bir neçə genin kəşfi olunması və həmin genlərdə mutasiyalar baş verdikdə meydana çıxan xəstəliklərin öyrənilməsidir [5,6]. Piylənmə geni FTO(fat mass and obesity-associated) insulin həssaslıq dərəcəsini müəyyən edir. FTO geninin piylənməyə təsiri mərkəzi mexanizmlər-hipotalamus tərəfindən nəzarət olunur və hipotalamus iştaha üzərində belə nəzarəti itirdikdə, piylənmə inkişaf edir [7]. FTO - α-ketoqlutaratdan asılı dioksigenaza fermentini kodlaşdırır və piy toxuması kütləsi və piylənmə ilə assosasiyadadır. Piy toxuması hesabına bədən kütləsinin artması insulinrezistentlik və ardınca da 2-ci tip ŞD-nin inkişafına təkan verir [8]. Məlum olmuşdur ki, artıq bədən çəkisi olan adamlarda FTO geni daşıyıcısı ilə HOMA-İR indeksinin yüksək qiyməti, triqliseridlərin, insulin və acqarına qlükozanın miqdarı arasında assosasiya var [9].

Başqa bir gen- MC4R geni melanokortin üç reseptor genindən biri olaraq, qida qəbulunun tənzimlənməsi və enerji sərf olunması yolu ilə, piy toxumasının paylaşmasına cavabdeh olur. Müəyyən olunmuşdur ki, leptinin miqdarı piy toxumasının həcminə mütənasibdir. Hipotalamusda (beynin ən qədim strukturu) leptin zülalı spesifik reseptor vasitəsi ilə (sinir ucu), insanda qida qəbulunu azaldan melanokortin ifrazını fəallaşdırır. Melanokortin geninin 150-dən artıq polimorfizm variantı müəyyən olunmuşdur. Reseptor liqandlarına aiddir α-MSQ, AKTQ, β-MSQ, və az dərəcədə γ-MSQ [10]. Mərkəzi sinir sisteminin leptin və melanokortin sistemi, həmçinin 4 tip melanokortin reseptoru, simpatik sinir sisteminin yüksək fəallığının və arterial hipertenziyasının realizasiyasında mərkəzi rol oynayır. MSQ 4 tip reseptorları əsasən zolaqlı cisimdə, hippokampda, baş beyin qabığında, badam cisimdə, talamus və hipotalamusda ekspressiya olunur [7]. Sübut edilmişdir ki, MC4-R genində mutasiya baş verirsə, erkən yaşlarında adamlarda ən çox rast gəlinən monogen piylənmə - ağır morbid piylənmə inkişaf edir [11]. Melanokortinlər MC4-R reseptoru ilə insulin sekresiyasını ingibisiya edir, ona görə də MC4-R genetik defekti olan adamlar ən çox da hiperinsulinemiyadan əziyyət çəkirlər, uşaqların isə həyatının elə birinci ilində hiperinsulinemiya inkişaf edir [12,13].

Doğrudur, piylənməsi olan pasientlər müxtəlif tərəzilərdən istifadə edirlər. Bədən çəkisini 50 q-a qədər dəqiqliklə ölçən tibbi tərəzilərdən tutmuş ta 180 kq –a qədər çəkini göstərən "Beurer Health Manager" (Almaniya) müasir tərəzisini göstərmək olar.

Hal-hazırda yeni, yüksək vizual texnologiyanın meydana çıxması həm bədəndə piy toxumasının ümumi miqdarı, həm də onun topoqrafik paylanması xüsusiyyətlərinin qiymətləndirilməsi imkanlarını genişləndirdi. Orqanizmdə piy toxumasının paylanması və onun miqdarını təyin etmək üçün çoxlu sayda metodlar mövcuddur. Bu metodlar ta qədimdən bu günə kimi get-gedə təkmilləşdirilir və klinik praktika üçün qısa müddət ərzində tez nəticə əldə etməyin üsulları axtarılır. Molekulyar səviyyədə bədən tərkibinin klassik iki komponentli ilk modelinə olan maraq get-gedə öz yerini toxuma səviyyəsinin etalon metodları- rentgenli kompyuter (KT) və maqnit-rezonans tomoqrafiyaya (MRT) verir. Bu metodlar DPT və VPT-ni birbaşa qiymətləndirməyə qadirdir. KT və MRT üçün L4-L5 fəqərəarası disk VPT-nin yüksək dəqiqiliklə ölçüldüyünü

göstərir. KT və MRT-nin istifadəsində əsas problemlərdən biri hərəki artefaktlardır. Bundan başqa, KT-nin aparılması şüa yüklənməsi ilə əlaqəlidir, ona görə də həmin metodun uşaq populyasiyasında öyrənilməsi, xüsusən də uzun müddət dinamikanın izlənilməsi üçün onun tətbiqini məhdudlaşdırır [14].

Lakin klinik praktikada qısa vaxt sərf etməklə tez nəticə əldə etməyin mümkün olduğu üsullar arasında antropometrik metodlar daha sadə, rahat və bir qədər ucuz başa gəldiyindən daha geniş yayılmışdır. Antropometrik metodlar əsasında bədənin həm ümumi ölçüləri (kütlə, uzunluq və bədən səthinin sahəsi), həm də skelet ölçüləri və ətrafların seqmentləri, eləcə də bədənin müəyyən hissələrində dəri-piy qatının qalınlığı ölçülür.

Piylənməsi olan xəstələrin müayinəsi zamanı Ketle indeksini, yəni bədən kütləsi indeksinin (BKİ) 30 kq/m^2 -dən çox olması ilə ölüm riskinin artması arasında əlaqəni təsdiqləyir. Məhz visseral piyin (VPT) artması bədən kütləsi indeksinə proporsionaldır və 2-ci tip şəkərli diabetin inkişafının prediktorudur. BKİ nəinki piylənmənin diaqnostik meyarıdır, həm də onunla assosasiyada olan xəstəliklərin inkişafının nisbi risk göstəricisidir [15].

Bədən kütləsi indeksindən başqa, visseral piylənmənin əsas göstəricilərindən biri də bel çevrəsinin (BÇ) ölçüsüdür. Kişilər üçün BÇ-nin norması >94 sm, qadınlar üçün >80 sm-dir (IDF-2005). KT-dən istifadə etməklə göstərilmişdir ki, kişilər üçün BÇ-nin 102 sm-dən çox və qadınlar üçün 87 sm-dən çox olduqda isə ürək-damar xəstəlikləri və ŞD tip 2 inkişafının yüksək riski aşkarlanır (ATP III-2005) [16]. Bel çevrəsi (BÇ) böyüklərdə VPT-ni dolayısı yolla qiymətləndirmək üçün istifadə olunsa da pediatrik praktikada mübahisəli olaraq qalır.

Bəzi müəlliflər belə hesab edirlər ki, daha dəqiq göstərici bel çevrəsinin bud dairəsinə olan nisbətidir (BÇ/BD). Bu nisbətin kişilərdə 0,95-dən çox və qadınlarda 0,85 sm-dən çox olması abdominal sahədə piyin patoloji toplanmasına yəni visseral piylənmənin üstün olmasına dəlalət edir [16]. BÇ/BD (bel çevrəsinin bud çevrəsinə nisbəti) koeffisienti və sagital diametr (pasient kürəyi üstə uzanmış vəziyyətində qarnının hündürlüyü) klinik praktikada bədəndə piy toxumasının paylanmasının qiymətləndirilməsi üçün istifadə edilən əlavə göstəricidir. BÇ və sagital diametr VPT-ni, BÇ/BD isə DPT-nin inkişaf dərəcəsini göstərir [14].

Ketle indeksi ilə müqayisədə fərdin köklüyünü xarakterizə edən daha etibarlısı orqanizmdə piyin faizlə miqdarıdır, belə ki, Ketle indeksinin yüksək qiyməti bədənin əzələ kütləsinin artması ilə əlaqədar ola bilər. Ona görə də antropometrik müayinə proqramına dəri-piy qatının qalınlığının xüsusi qurğu – kaliperlə ölçülməsi daxil edilə bilər [4].

Çoxsaylı tədqiqatlar göstərir ki, orqanizmdə piyin yüksək faizi sağlamlıq üçün risk amilidir. Doğrudur, çoxlu sayda tövsiyə olunan pəhrizlər, fitnes-klublarda müxtəlif fiziki məşgələlərdən istifadə etməklə insanlar piylənmə ilə mübarizə aparırlar. Lakin PDT-nin normadan aşağı düşməməsinə də nəzarət etmək lazımdır. Böyüklərin orqanizmində piy toxumasının faizlə orta miqdarı müxtəlif populyasiyalar üçün bədən kütləsinin adətən 10 %-dən 20-30 %-ə qədərini təşkil edir. Göstərilən diapazonun aşağı həddi afrikalı və asiyalılar üçün, yəni aşağı həyat səviyyəsi olan ölkələrin əhalisi, yuxarı həddi isə inkişaf etmiş sənaye ölkələrinin əhalisi üçün xarakterdir [17].

Bizim təqdim etdiyimiz kaliper "Accu-Measure MetaCal"-dur. Kaliper cihazının təlimatında dərialtı piyin 3 qatda toplanması sxeminə görə qalınlığının cəmi 6-8 mm-dən başlamış 177-179 mm-ə kimi göstərilmişdir. Kaliperin təlimatında yaş diapazonu belə verilmişdir : 18-20; 21-23; 24-26; 27-29;30-32; 33-35;36-38;39-41;42-44;45-47;48-50;51-53;54-56;57-59;60-62;63-65. Piy toxumasının daha çox toplandığı qatları müxtəlif sxemlər üzrə ölçürlər : 2, 3,4,7 və 8 qat. Bizim təklif etdiyimiz kaliperin təlimatına görə Jakson (1980) sxemi üzrə həm kişi, həm də qadınlarda 3 qatda ölçmə aparılır. Sxem üzrə göstərilən nahiyyələrdə millimetrlə ölçmə qurtardıqdan sonra cavablar toplanır və təlimatda verilən cədvələ uyğun fərdin dərialtı piy qatının cəmi ilə pasientin yaşının kəsişdiyi nöqtə orqanizmdə piyin faizini göstərəcək.

Kişilərdə kaliperlə 3 qat üzrə ölçmə sxemi belədir: 1. Sinədə: döş gilasi ucu ilə qoltuqaltı hissələrin ortasından önə doğru diaqonal olaraq; 2. Qarında: vertikal olaraq göbəyə yaxın; 3.Budda: budun ortasından vertikal olaraq arxaya.

Qadınlarda 3 qat üzrə ölçmə sxemi belədir: 1. Trisepsdə : çiyin arxası vertikal olaraq, yəni qolun üst tərəfində (triseps) bazu ilə dirsək arasında; 2. Yuxarı qalçada: qalça sümüyü nahiyəsinə vertikal olaraq; 3. Budda: budun ortasından vertikal olaraq arxaya.

Deməli, 2 tip ŞD və piylənməsi olan pasientlərin antropometrik göstəriciləri ilə yanaşı, təqdim etdiyimiz kaliper cihazında yaş diapazonunun geniş spektrdə verilməsi və DPT-nin toplandığı sahələri əhatə etdiyinə görə piyin faizlə miqdarının daha dəqiq ölçülməsində klinik praktika üçün sadə qurğunun, yəni kaliperin rolu əhəmiyyət kəsb edə bilər. Beləliklə, piylənməsi olan şəxslər tərəzidən istifadə etdikləri və ŞD olan xəstələr də şəxsi qlükometrə malik olduqları kimi, müalicə-profilaktik tədbirlər kompleksinə kaliper cihazının da şəxsləndirilmiş praktik tətbiqi vacibdir.

ƏDƏBİYYAT

1.İDF Diabetes Atlas.5 th ed.International Diabetes Association. 2012

2.Соплевенко А.А., Аметов А.С. Гликемический контроль и изменение психоэмоционального состояния больных с различными клиническими характеристиками сахарного диабета // Терапевтический архив, 2012, т.312, с.76-81

3.Руководство для врачей под ред. Дедова И.И., Мельниченко Г.А.: Ожирение: этиология, патогенез, клинические аспекты. М., 2004, с.48-99.

4.Николаев Д.В., Руднев С.Г. технологии и методы определения состава тела человека. М.: «Наука».2006, 248 с.

5. Балаболкин М.И., Дедов И.И. генетические аспекты сахарного диабета // Сахарный диабет, 2000, №1, с.18-20

6.Баранов В.С. Полиморфизм генов, экогенетические болезни и предикативная персонализированная медицина // Экологическая генетика, 2011, №1, X(3), с.3-14.

7. do Carmo J.M., da Silva A.A., Dubinion J. et al. Control of metabolic and cardiovascular function by the leptin-brain melanocortin pathway // IUBMB Life, 2013, v.65(8), p.692-8

8. Frayling T.M. A common variant in the FTO gene is associated with body mass index and predisposes to childhood and adult obesity // Science, 2007, v.316(5826), p.889-894

9.Wang R.M. Common variation in the FTO gene alters diabetes-related metabolic traits to the extent expected given its effect on BMI // Diabetes, 2008, v.57(5), p.1419-1426.

10. Switonski M., Mankowska M., Salamon S. Family of melanocortin receptor (MCR) genes in mammals-mutations, polymorphisms and phenotypic effects // J Appl Genet., 2013, v.54(4), p.461-72.

11. Бондарь И.А., Шабельникова О.Ю. Генетические основы сахарного диабета 2 типа // Сахарный диабет, 2013, №4, с.11-16

12. Бочков Н.П. Клиническая генетика: учебник для вузов.3-е, испр. и доп. изд. М.:Гэтар-Мед, 2004, 480с.

13. Кураева Т.Л. Генетика сахарного диабета: история и современное состояние проблемы // Сахарный диабет, 2005, №3, с.14-16.

14. Окороков П.Л., Васюкова О.В., Воронцов А.В. Методы оценки количества и распределения жировой ткани в организме и их клиническое значение // Проблемы эндокринологии, 2014, №3, том 60, с.53-58.

15. Lloyd-Jones D., Robert J. Adams, Todd M. Brown et al. Executive summary: heart disease and stroke statistics- 2010 update: A report from the American Heart Association // Circulation, 2010, v. 121, № 7. — p.e46-e215

16. The IDF consensus worldwide definition of the metabolic syndrome // International Diabetes Federation. 2006, p. 10-11.

17. Valentin J.Basic anatomical and physiological data for use in radiological protection :reference values.JCRP Publication 89 // Annalls of the JCRP, 2002, v.32, №3-4, p.1-277.

Резюме

Роль изучения ожирения и некоторые антропометрических показателей способом калиперометрии

С.С.Фараджева

Влияние гена *FTO* на ожирение контролируется центральным механизмом –гипоталамусом, при потере контроля гипоталамуса над аппетитом развивается ожирение. Программа антропометрического обследования может включат измерение толщины кожно-жировых складок при помощи прибора – калиперов, что необходимо как глюкометр, весы для профилактики ожирения у больных СД2 т.

Summary

The role of studying obesity and some anthropometric indicators method caliperometry

S.S. Faradjeva

The effect of the FTO gene in obesity is controlled by a central mechanism-control, loss of control of the hypothalamus on appetite develops obesity. The program centered survey may include the measurement of the thickness of skin folds of fat using this instrument is caliper, which is necessary as blood glucose meter, scales for the prevention of obesity in patients with diabetes mellitus 2 type.

Daxil olub: 06.04.2016

ETİOLOJİ AMİLLƏRDƏN ASILI OLARAQ PERİTONİTİN TERMİNAL FAZASINDA KLİNİKAYA DAXİL OLAN XƏSTƏLƏRİN QANINDA MİNERAL KOMPONENTLƏRİN TƏYİNİ

E.Y.Nəsibov

Azərbaycan Tibb Universitetinin II Cərrahi xəstəliklər kafedrası, Bakı

Açar sözlər: peritonit, mineral komponentlər, Ca, Cl, Na, etiologiya

Ключевые слова: перитонит, минеральные компоненты, Ca, Cl, Na, этиология

Key words: peritonitis, mineral components, Ca, Cl, Na, etiology

Peritonit qarın boşluğu üzvlərinin ən qorxulu cərrahi xəstəliklərindən biri olub, tez - tez ölümlə nəticələndiyi üçün cərrahlar arasında bu gündə öz aktuallığını qoruyub saxlamışdır. Ədəbiyyat məlumatlarından bəlli olur ki, peritonitdən ölüm faizi 0,7 - 75% arasında dəyişilmişdir. Peritonit zamanı ölümə səbəb olan əsas faktor inkişaf etməkdə olan endogen intoksikasiya sindromudur (EİS). Peritonitin terminal mərhələsində EİS - nun patogenezində baş vermiş çoxsaylı dəyişikliklər və həyati vacib orqanların funksiyalarının pozulması haqqında çoxlu araşdırmalar aparılsa da ölüm faizinin yüksək səviyyədə qalması effektiv yeni - yeni müalicə üsullarının işlənib hazırlanmasını vacib saymışdır [1,3].

Peritonit zamanı bir sıra endogen və ekzogen faktorların, zülal mənşəli bioloji aktiv maddələrin, asidozun, hipoksiyanın, eksudatla çoxlu miqdarda mayenin, zülalların və mikroelementlərin itirilməsi nəticəsində həyati vacib orqanların həm funksional, həm də morfoloji fəaliyyətində çox ciddi dəyişikliklər əmələ gəlir [1,4,5,6,7].

Aparılmış elmi tətqiqat işlərində bu günə qədər peritonit zamanı endogen intoksikasiyanın qarşısını almaq mümkün olmamışdır. Bu təklif və tədqiqatların heç birində hələ də tam öyrənilməmiş endotoksikozun patogenezində baş vermiş dəyişikliklər: böyrəklərin funksional fəaliyyətinin etioloji amillərdən asılı olaraq pozulması, qanda mineral komponentlərin qatılığında baş vermiş dəyişikliklər nəzərə almamışdır [1,2,4,5].

Buna görə də biz peritonitin gedişi zamanı mikroelementlərin qatılığında baş vermiş dəyişiklikləri onu törədən səbəbdən asılı olaraq öyrənilməsini vacib saymış və tədqiqat işini bu istiqamətdə aparmışıq.

Tədqiqatın məqsədi. Peritonit zamanı etioloji amillərdən asılı olaraq klinikaya daxil olmuş xəstələrin qanında Ca, Cl, qeyri - üzvi P, və Na ionlarının qatılığının öyrənilməsi və müqayisəli təhlilidir.

Tədqiqatın material və metodları. Tədqiqatlar peritonitin terminal fazasında klinikaya daxil olmuş 40 xəstə üzərində aparılmışdır. Xəstələrin hər biri cərrahi əməliyyata məruz qalmış, əməliyyatdan əvvəl bütün xəstələrdə diaqnostik paket müayinələr aparılmış və yanaşı olaraq qanda mineral komponentlərin (Ca, Cl, qeyri - üzvi P, və Na ionları) qatılığı təyin olunmuşdur. Bu müayinələr Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat Mərkəzinin biokimya laboratoriyasında aparılmışdır.

Alınmış nəticələr və onların müzakirəsi: Etioloji amillərindən asılı olaraq xəstələr 5 qrupa, hər qrup da öz növbəsində iki (müqayisə və əsas) yarımqrupa bölünmüşdür.

I yarımqrup müqayisə qrupu adlandırılmış və 20 xəstə təmsil olunmuşdur. Bunlardan 4 xəstə iltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası (İSÇP), 3 xəstə qastroduosenal xoranın perforasiyası (QDXP), 5 xəstə iltihablaşmış öd kisəsinin perforasiyası (İÖKP), 4 xəstə nazik bağırsaq keçməməzliyi (NBK) və 4 xəstə pankreonekroz səbəbindən əmələ gəlmiş peritonitli xəstələr olmuşlar. Cədvəldən göründüyü kimi mineral komponentlərin qatılığında baş vermiş dəyişikliklər aşağıdakı qaydada təmsil olunmuşdur:

Ca (kalsium) - ionunun qatılığı bütün qrup xəstələrdə normadan aşağı həddə olmuş, ən yüksək göstərici 1 nəfər İSÇP səbəbindən əmələ gəlmiş peritonitli xəstədə müşahidə olunmuşdur ki, bu da normanın aşağı həddi (2,1 mmol/l) səvviyyəsindədir. Ən aşağı göstərici 1 nəfər V qrupa (pankreonekroz) aid xəstədə (0,9 mmol/l) müşahidə olunmuşdur ki, buda normadan 2,61 dəfə azdır.

Cl (xlor) - ionunun qatılığı bütün qruplarda normadan aşağı olmuşdur. Ən yüksək göstərici 1 nəfər IV qrupa (NBK) aid xəstədə aşkar olunmuşdur ki, bu da normanın aşağı həddi (95mmol/l) səviyyəsindədir. Ən aşağı göstərici isə yenə də 1 nəfər IV qrupa (NBK) aid xəstədə aşkar olunaraq 84 mmol/l təşkil etmişdir. Bu da normadan 1,22 dəfə aşağıdır.

P (qeyri üzvi fosfor) - ionunun qatılığı bütün qruplarda normadan yüksək olmuş, ən yüksək göstərici isə 1 nəfər V qrupa (Pankreonekroz) aid xəstədə (3,9mmol/l) aşkar olunmuşdur. Bu da normadan 2,2 dəfə yüksəkdir. Lakin II qrup (QDXP) xəstələrdə qeyri üzvi fosforun qatılığı hər 3 xəstədə normadır

Cədvəl 1

Peritoniti törədən səbəblərdən asılı olaraq müqayisə qrupuna aid xəstələrin qanında mineral komponentlərin təyininin nəticələri.

S/S	qrup	Etioloji amillər Xəstələrin sayı (n)	Ca Norma 2,1-2,6mmol/l	Cl Norma 95-110 mmol/l	Qeyri-üzvi fosfor (P) Norma 1,3-2,3mmol/l	Na Norma 132-157 mmol/l
1	I	İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası (İSÇP) n=4	1,8 ± 0,11 Min-1,6 Max-2,1	88,3±0,5 Min-87 Max-89	3,35±0,06 Min-3,2 Max-3,5	132,5±8,2 Min-123 Max-157
2	II	Qastroduodenal xoranın perforasiyası (QDXP) n=3	1,6±0,06 Min-1,5 Max-1,7	89,7±1,5 Min-87 Max-92	1,53±0,15 Min-1,3 Max-1,8	149,0±0,6 Min-148 Max-150
3	III	İltihablaşmış öd kisəsinin perforasiyası (İÖKP) n=5	1,34±0,05 Min-1,2 Max-1,5	91,0±1,3 Min-86 Max-93	3,58±0,07 Min-3,4 Max-3,8	141,4±1,1 Min-138 Max-144
4	IV	Nazik bağırsaq keçməməzliyi (NBK) n=4	1,5±0,09 Min-1,3 Max-1,7	88,0±2,5 Min-84 Max-95	2,95±0,06 Min-2,8 Max-3,1	151,3±7,8 Min-128 Max-160
5	V	Pankreonekroz n=4	1,0±0,04 Min-0,9 Max-1,1	90,3±2,2 Min-86 Max-94	3,75±0,06 Min-3,6 Max-3,9	124,3±0,9 Min-122 Max-126

Natrium (Na) - ionunun qatılığı V qrup (Pankreonekroz) xəstələrdə normadan aşağı olmuşdur. Digər qruplarda normadan aşağı və normal səviyyədə olduğu müəyyən edilmişdir. Ən aşağı göstərici V qrupa aid 1 xəstədə 122 mmol/l olmuşdur ki, bu da normadan 1,2 dəfə aşağıdır. Ən yüksək göstərici IV qrupa (NBK) aid 1 xəstədə (160 mmol/l) müşahidə olunmuşdur ki, bu da normadan 1,1 dəfə yüksəkdir.

II yarım qrup - əsas qrup adlandırılmış və bu qrupda da 20 xəstə müayinədən keçirilmişdir. Cədvəl 2-dən göründüyü kimi əsas qrupda 4 nəfər İSÇP, 3 nəfər QDXP, 5 nəfər İÖKP, 6 nəfər NBK və 2 nəfər Pankreonekroz səbəbindən əmələ gəlmiş peritonitli xəstələrdə mikroelementlərin qatılığı təyin olunmuşdur. Burada da xəstələr etioloji amillərdən asılı olaraq 5 qrupa bölünmüşdür.

Əsas qrup xəstələrdə mikroelementlərin qatılığının təhlili aşağıdakı kimidir.

Cədvəl 2

Peritoniti törədən səbəblərdən asılı olaraq əsas qrup xəstələrin qanında mikroelementlərin təyininin nəticələri

S/S	qrup	Etioloji amillər Xəstələrin sayı (n)	Ca Norma 2,1-2,6mmol/l	Cl Norma 95-110 mmol/l	Qeyri-üzvi fosfor (P) Norma 1,3-2,3mmol/l	Na Norma 132-157 mmol/l
1	I	İltihablaşmış soxulcanabənzər çıxıntının perforasiyası (İSÇP) n=4	1,45±0,05 Min-1,3 Max-1,5	86,0±3,8 Min-79 Max-93	3,38±0,15 Min-3,1 Max-3,9	128,3±0,8 Min-127 Max-130
2	II	Qastroduodenal xoranın perforasiyası (QDXP) n=3	1,70±0,21 Min-1,4 Max-2,1	83,3±1,2 Min-81 Max-85	2,2±0,12 Min-2,0 Max-2,4	152,0±0,6 Min-151 Max-153
3	III	İltihablaşmış öd kisəsinin perforasiyası (İÖKP) n=5	1,62±0,09 Min-1,4 Max-1,9	87,4±3,0 Min-79 Max95	3,68±0,04 Min-3,6 Max-3,8	143,6±1,5 Min-139 Max-147
4	IV	Nazik bağırsaq keçməməzliyi (NBK) n=6	1,52±0,13 Min-1,2 Max-2	83,7±1,3 Min-80 Max-89	2,95±0,16 Min-2,5 Max-3,4	157,2±5,7 Min-129 Max-164
5	V	Pankreonekroz n=2	1,25±0,05 Min-1,2 Max-1,3	88,5±2,5 Min-86 Max-91	4,0±0,0 Min-4,0 Max-4,0	124,0±1,0 Min-123 Max-125

Ca - ionunun qatılığı bütün qrup xəstələrdə normadan aşağı olmuş, ən yüksək göstərici II qrupa aid 1 nəfər xəstədə (QDXP) müşahidə edilmişdir ki, bu da normanın aşağı həddi (2,1 mmol/l) səviyyəsində olmuşdur. Ən aşağı göstərici 1 nəfər IV qrupa (NBK) və 1 nəfər V qrupa (pankreonekroz) aid xəstədə aşkarlanmışdır ki, hər ikisində də 1,2 mmol/l təşkil etmişdir. Bu da normadan 3,9 dəfə aşağıdır.

Cl-ionunun qatılığı 1 nəfər İÖKP səbəbindən əmələ gəlmiş peritonitli xəstədə 95 mmol/l təşkil etmişdir ki, bu da normanın aşağı həddində olmuşdur. Yerdə qalan bütün xəstələrdə normadan aşağıdır. Ən az göstərici isə 1 nəfər I qrupa (İSÇP) və 1 nəfər III qrupa (İÖKP) aid xəstədə müşahidə olunmuşdur ki, hər ikisində də eyni (79 mmol/l) olduğu aşkarlanmışdır. Bu da normadan 1,3 dəfə aşağıdır.

Qeyri- üzvi fosforun (P) qatılığı II qrup xəstələrdə norma daxilində olsa da digər qruplarda normadan yüksəkdir. Ən yüksək göstərici 2 nəfər V qrupa aid (pankreonekroz) xəstədə hər ikisində də eyni olmaqla 4mmol/l təşkil etmişdir. Bu da normadan 2,22 dəfə yuxarıdır. Ən aşağı göstərici 1 nəfər II qrupa aid (QDXP) xəstədə (2,0mmol/) müəyyən olunmuşdur ki, bu da norma daxilindədir.

Natrium- (Na) - ionunun qatılığı I (İSÇP) və V (Pankreonekroz) qrupa aid xəstələrdə normadan aşağı, digər qrup xəstələrdə norma daxilində olmuşdur. 2 nəfər IV qrupa (NBK) aid xəstədə 164 mmol/l olduğu aşkar olunmuşdur ki, bu da bütün qruplarda ən yüksək göstərici olub normadan 1,14 dəfə yüksəkdir. Ən az göstərici 1 nəfər V qrupa (Pankreonekroz) aid xəstədə müəyyən edilmişdir ki, bu da normadan 1,2 dəfə aşağıdır.

Beləliklə, apardığımız müayinələrin nəticələrinə əsasən bəlli olur ki, istər müqayisə, istərsə də, əsas qrup xəstələrdə kalsium və xlorun qatılığı normadan aşağı olmuşdur. Qeyri-üzvü fosforun qatılığı hər iki yarımqrupda mədə xorasının perforasiyası nəticəsində əmələ gəlmiş peritonitli xəstələrdə norma daxilində olmuşdur. Digər qrupların hamısında normadan yüksək olmuşdur. Natriumun qatılığı isə pankreonekroz səbəbindən törənmiş peritonitli xəstələrdə (müqayisə və əsas qrupda) normadan 1,15 dəfə aşağı olmuşdur. Digər qrup xəstələrdə isə demək olar ki, norma daxilində olmuşdur.

ƏDƏBİYYAT

1. Abbasov P.A. Qaraciyər transplantasiyasından sonra microelement və hemodinamik sistemlə əlaqəli ağırlaşmaların xüsusiyyətləri // Sağlamlıq, № 4, 2014, s. 25- 39.
2. Nəcəfov N.A. Xroniki böyrək çatmamazlığında posiyentlərin labarotor müayinəsinin adekvatlığı // Cərrahiyyə, 2015, № 3, s. 51-54
3. Abdullayev İ.Ə. Məhdud peritonitlərin erkən diaqnostikasının müasir aspektləri // Cərrahiyyə, 2009, № 3, s.92-97
4. Abbasov P.A. Microelements in chronic alcoholic liver disease// Azərbaycan Metabolizm Jurnalı, Cild 12, 2014, № 3, s.12- 19
5. Камышников В.С. Исследование минерального обмена. Определение содержания электролитов (калия, натрия, кальция) Справочник по клинико-биохимическим исследованиям и лабораторной диагностике. М., 2009, с. 597-611
6. Клинико-диагностическая значимость наиболее важных лабораторных анализов проводимых в ЛДЦ «ШАФА» / Фосфор неорганический (в крови) (P, Phosphorus), с. 331-332
7. Клинико-диагностическая значимость наиболее важных лабораторных анализов проводимых в ЛДЦ «ШАФА» /Кальции общий (Саб Calcium total), с. 332-334.

Резюме

Определение минеральных компонентов в крови у больных перед поступлением в стационар в терминальной фазе в зависимости от этиологических факторов

Э.Я. Насибов

Несмотря на достигнуты в последние годы успехи в современной медицине, высокие показатели летальности при перитоните показывают сохраняющуюся актуальность решения данной проблемы. Анализ литературных данных показывает, что при изучении патогенеза эндогенной интоксикации, аспектам анализа состава микроэлементов в крови больных с перитонитом (в зависимости от этиологии заболевания) до настоящего времени должного внимания уделено не было. Учитывая вышеуказанное, мы в сравнительном порядке изучили состав микроэлементов крови 40 больных с перитонитом (20 больных из контрольной 20 из основной) в зависимости от этиологии заболевания. Результаты показали, что у всех больных при поступлении их в стационар уровень в крови ионов кальция и хлора было ниже показателя нормы. Уровень неорганического фосфора было в норме лишь у больных с перитонитом, этиологией которого явилась перфорация язвы желудка. У других больных данный показатель превышал показатель нормы, максимальное повышение которого отметалось у больных с перитонитом, причиной развития которого был панкреонекроз. У этих же больных уровень в крови ионов натрия было ниже нормы. У других больных уровень данного показателя в крови было в пределах, либо же незначительно превышал аналогичный показатель нормы.

Summary

Determination of mineral components in the blood of patients before admission to the hospital in the terminal phase depending on etiological factors

E.Y.Nasibov

Despite the progress in recent years, advances in modern medicine, high rates of mortality in peritonitis demonstrate the continuing relevance of this problem. The analysis of data shows that in the study of the pathogenesis of endogenous intoxication, the composition of microelements aspects analysis in blood of patients with peritonitis (depending on the etiology of the disease) to the present time has not been given due consideration. Considering the above, we have studied in a comparative manner the blood microelements 40 patients with peritonitis (20 patients in the control of the core 20) depending on the etiology of the disease. The results showed that all patients on admission to hospital in their blood levels of calcium and chloride ions was lower than normal. Nonorganic phosphorus level was normal but with peritonitis in patients whose etiology was ulcer perforation. In other patients, this indicator exceeded the indicator of the norm, the maximum increase is brushed aside in patients with peritonitis, which was the cause of pancreatic necrosis. These patients had blood levels of sodium ions was low. In other patients the level of this indicator in the blood was within, or slightly higher than the same period the norm.

Daxil olub: 01.04.2016

VƏRƏM ÜZRƏ YÜKSƏK XƏSTƏLƏNMƏ GÖSTƏRİCİSİ OLAN AZƏRBAYCAN RESPUBLİKASINDA MOLEKULYAR GENETİK METOD OLAN GENXPERT ÜSULU İLƏ XƏSTƏLİYİN ERKƏN DİAQNOSTİKASI

A.E. Aslanova, E.N.Məmmədbəyov

Azərbaycan Respublikası SN Elmi Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu

Açar sözlər: Turşuya davamlı mikobakteriyalar, GenXpert, Dərmana Davamlı Vərəm

Ключевые слова: Кислотоустойчивые микобактерии, *GenXpert*, лекарственно-устойчивый *туберкулез*

Key words: Acid Fast Bacilli, GenXpert, Drug resistant TB

Vərəm dünyada yayılmış ən ağır gedişli infeksion xəstəliklərdəndir. Belə ki ,2014-cü ilin statistik göstəricilərinə əsasən 9,6 milyon insan bu xəstəliyə yoluxmuş, 5 milyon isə vərəm xəstəliyindən dünyasını dəyişmişdir. 95% hallarda xəstəlikdən ölüm qeydləri aşağı və orta gəlir səviyyəsi olan ölkələrdə qeydə alınmaqdadır və 15-45 yaşlı qadınların 5 ölüm səbələrindən biri də məhz vərəmlə xəstələnmədir [1].

Qiymətləndirmə üzrə 2014 –cü ildə 1milyon uşaq vərəmlə xəstələnmiş, 140000 ölüm halı qeydə alınmışdır. Dünya masştabı üzrə 480000 Dərmana Davamlı Vərəm halı 2014-cü il statistik işləmələrdə yer almaqdadır [1,2,4].

Ağ ciyər vərəmi geniş yayılmış vərəm törədicisi olan Mycobacterium tuberculosis tərəfindən törədilən və böyük ehtimalla qlobal təhlükə kimi qiymətləndirilən bir xəstəlikdir. Hesablamalara görə Yer kürəsi əhalisinin 1/3 hissəsi Turşuya davamlı mikobakteriyalara (Mycobacterium tuberculosis-ə) yoluxmuşdur [1,4]. Əksər hallarda infeksiya asimptomatik gedişata malik olur, yalnız 10% hallarda kəskin xarakter daşıyır və bu halda geniş spektrli antibiotik rifampicin daxil olmaqla digər vərəm əleyhinə preparatlarla müalicə başlayır [3,4,7]. Böyük təəssüf hissi ilə qeyd edə bilərik ki son illər TDM -ın bəzi ştammları vərəməleyhinə dərmanlara və geniş spektrli antibiotiklərə qarşı davamlılıq nümayiş etdirir. Bu zaman ərzində diaqnostikada istifadə edilən metodlar indiki dövr üçün nisbətdə özünü tam doğrultmur və kifayət etmir. Vərəm bütün bəşəriyyətin səhiyyəsi qarşısında diqqətdə duran ən vacib sahələrindən biridir. Buna görə xəstəliyin vaxtında aşkarlanması əsas vəzifələrdən biridir.

ÇDD vərəmin forması diaqnozu təsdiq olunmayan halları hər il artmaqda davam edir. Əksər hallarda diaqnoz əkmələrin nəticəsinə görə gec qoyulur və ya tam düzgün diaqnostika mümkün olmur [5,8,7],. Gen Xpert mikrobioloji molekulyar üsulla erkən və dəqiq diaqnostika mümkündür hansı ki, törədicini çox qısa müddət ərzində (2 saat) aşkarlayır və davamlı ştam olduğunu müəyyən edir [9,13]. Bu da infeksiyanın yayılması və xəstəliyin ağırlaşaraq ölüm hallarının qarşısını tez alınmasında yardımçı olur . Vərəmin aşkarlanması üzrə istifadə edilən sadə və geniş yayılmış metod olan mikroskopiya çox vaxt aparır və tam həssas göstərici olmadığı üçün vərəmin digər ağ ciyər xəstəlikləri ilə differensial diaqnostikasında çətinliklər yaradır [10,12,11]. Eyni

zamanda sadə yaxma üsulu ilə törədicinin dərmana davamlılığını müəyyən etmək olmur. Digər diaqnostika metodları isə kultural yolla və PZR vasitəsilə təyini mürəkkəb və çətin başa gələn metod olduğu üçün xüsusi avadanlıq və vaxt tələb edir [5,8,6]. Qeyd edək ki yanaşı ko-infeksiya olduğu halda (İİV və vərəm) da sadə mikroskopiya üsulu ilə TDM-rı müəyyən etmək olmur və rentgenoloji diaqnostikada da bəzi çətinliklər yaranır. Çünki İİV-ə yoluxmuş xəstələrdə ağ ciyər xəstəlikləri oxşar klinik –rentgenoloji əlamətlərə malik olur. Digər hallarda xüsusən vərəmlə oxşar mikobakterioz halları da diaqnostik olaraq indiyə qədər təsdiqini tapmaqda çətinliklərlə qarşılaşır. Diaqnostik etapda istifadə edilən HAİN metodu mikobakteriyaların tipini də müəyyən edə bilir [5,8].

Bu məqsədlə istər differensial diaqnostika, istərsə vərəmin tək halda diaqnozunu dürüst və tez zaman ərzində təyin etmək üçün Gen Xpert molekulyar bioloji metodu əvəzsiz hesab edilə bilər. Bu halda hətta qeyri produktiv öskürək olduğu halda tənəffüs yollarını nebulayzer inqalyasiya apparatı ilə qıcıqlandırmaqla əldə olunan materialda TDM –ın ən aşağı faiz nisbətində belə olduğu halda Gen Xpert üsulu ilə həmin materialda TDM-rı müəyyən etmək olur.

Tədqiqatın məqsədi Ağ ciyər vərəmi olan xəstələrdə sadə mikroskopiyanın mənfi nəticəsi zamanı sürətli GenXpert molekulyar –genetik metodun üstünlüklərinin tədqiqi.

Tədqiqatın material və metodları. Araşdırmaya daxil etdiyimiz xəstələr Elmi Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutunun 2016 (yanvar, fevral, mart, aprel)-2015 (noyabr, dekabr) tarixlərdə ambulator-poliklinik müraciət N=31 (40,25%) və stasionarın terapiya şöbələrində müalicə alan N=46 (59,74%), randomizasiya üsulu ilə seçilmiş sadə mikroskopiyası mənfi olan ağ ciyər vərəmli(yaşı 18 -67 arası) xəstələrdən ibarət olmuşdur. Həmin xəstələrə minimal diaqnostik müayinələrdən doş qəfəsinin rentgen müayinəsi, bəlğəmin sadə mikroskopiyası, qanın ümumi analizi, 2TV ilə Mantu sınağı aparılmışdır.

Tədqiqatın nəticəsi: Xəstələrin anamnestik məlumatların təhlili zamanı klinik simptomlardan gecə tərləmələri, intoksikasiya əlamətləri, subfebril hərarət, 2 həftədən artıq çəkən öskürək (produktiv və qeyri-produktiv olmaqla) nisbət etibarilə daha çox üstünlük təşkil edən simptomlardandır. İlkin araşdırma zamanı döş qəfəsi rentgen müayinəsinə cəlb edilmiş xəstələrdə müxtəlif intensivlikli ocaqlar, kiçik dağılma boşluqları, pnevmonik fokus və müxtəlif sahələrdə iltihab elementləri kimi interpritasiya olunmuşdur. Ümumi qan analizinin nəticələrində əsasən EÇS artımı (25-40 mm/saat), limfositlərin faiz etibarilə dəyişilməsi (19%- 48%), Hb göstəricisinin azalması (90-105 q/l) daha çox diqqət çəkməkdədir. 2 TV ilə aparılan Mantu sınağının 72 saat sonra nəticələrinin təhlili 77 xəstənin 58-də (75,32%) müsbət, 7xəstədə (9,09%) şübhəli, 12 xəstədə (15,58%) isə mənfi nəticə olmuşdur.

Ambulator müraciət edən N=31 (40,25%) xəstələrin 1işgünü (6 saat) ərizində diaqnostik məqsədlə icra edilən müayinələrdən əlavə 23(74,19%) xəstəyə molekulyar- genetik metod olan GenXpert müayinəsi həyata keçirilmişdir. Beləki müayinəyə cəlb edilən xəstələrdən öskürəyin qeyri-produktiv olmasını nəzərə alaraq induksiya metodu ilə (hipertonik məhlulla inqalyasiya) əldə edilmiş bəlğəm (17 xəstə -73,91%) və bronx yuyuntusu materialı (6 xəstə - 26,08%) tədqiq edilmişdir. Belə ki, göndərilən 23 bəlğəm materialının tədqiqi zamanı 3xəstədə (13,04%) TDM tapılmadı, 8 xəstədə (34,78%) RİF(rifampisin) DAVAMLI, 12 xəstədə (52,17%) RİF (rifampisin) HƏSSAS olaraq aşkarlandı.Növbəti mərhələdə 8 Davamlı ştammların kultural analizlərinin (MGİT və BACTEC) təhlilində 6 (75%) xəstədə H (izoniazid) DAVAMLI, 2 (25%) xəstədə H(izoniazid) HƏSSAS S (stretomicin) DAVAMLI aşkarlandı. 3xəstədə TDM tapılmadığı halda əlavə diaqnostik instrumental metodların köməyilə (Döş qəfəsi Kompyuter Tomoqrafiyası, Bronxoskopiya müayinəsi və sitoloji təhlil) ağ ciyər xərcəngi aşkarlanmışdır.

Cədvəl 1

Ambulator müraciət edən xəstələrdə GenXpert nəticələri

Xəstələrin sayı (N=23)	Müt.	%
Bəlğəm nümunəsi	17	73,91%
BAL nümunəsi	6	26,08%
Nəticələrin təhlili		
RİF davamlı	8	34,78%
RİF həssas	12	52,17%
TDM tapılmadı	3	13,04%



Şək.1. Ambulator müraciət edən xəstələrin Gen Xpert nəticəsi

Cədvəl 2

Stasionar müalicə alan xəstə nümunələri GenXpert ilə tədqiq

Xəstələrin sayı (N= 41)	Müt.	%
RİF davamlı	14	34,14%
RİF həssas	26	63,41%
Error nəticə	1	2,43%



Şək.2. Stasionar müalicədə olan xəstələrin Gen Xpert nəticəsi

Stasionar müalicədə olan xəstələrdən 41-nin (89,13%) bəlğəm nümunəsi Gen Xpert müayinəsi üçün Milli İstinad Referens laboratoriyasına göndərilmişdir. Alınan bəlğəm nümunəsilərinin təhlili zamanı 41 xəstənin 14-də (34,14%) RİF DAVAMLI, 1xəstədə (2,43%) test ERROR nəticə, 26 xəstədə (63,41%) isə RİF HƏSSAS aşkarlandı. Bu xəstələrin stasionarda müalicə dövrü ərzində kultural əkmə nəticələrinin təhlili zamanı 14 xəstədə aşkar olunan RİF(rifampisin) DAVAMLI ştammların (MGİT və BACTEC) kulturalarında 11 xəstədə (78,57%) H (izoniazid) DAVAMLI olduğu da diqqət çəkməkdədir.

Yekun. Araşdırmaların nəticələrinin təhlili zamanıağ ciyərpatologiyası ilə müraciət edən xəstələrin anamnestik və kliniki təzahürlərinin tədqiqi ilə yanaşı aparılan müayinələrin kopleks məcmusu düzgün və vaxtında diaqnostika üçün başlıca meyardır. Belə ki, sürətli diaqnostika xəstənin daha tez zaman ərzində müalicəyə qoşulması və müalicənin effektivliyinin yüksəldilməsindən ibarətdir. Bizim tədqiqatda diqqət çəkən məqamlardan vərəm - xüsusilə DAVAMLI vərəmin sürətli diaqnostika Gen Xpert vasitəsilə aşkar olunmasıdır. Bu usulla diaqnostika 2aydan 2saata qədər tezləşmiş olur və eyni zamanda törədicinin davamlı və ya həssas olması müəyyən edilir. Eyni zamanda vərəmə oxşar gedişli hallar zamanı TDM tapılmadıqda etaplı olaraq digər müayinlərin vaxtında düzgün seçilməsi xəstəliyin aşkarlanması üçün zəmin yaradır.

Bu iş Azərbaycan Respublikasının Prezidenti Yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir- Qrant EİF/ GAM -3-2014-6(21)-24/19/3

ƏDƏBİYYAT

1. Global tuberculosis control: epidemiology, strategy, financing. WHO report, 2009.
2. Faustini A., Hall A.J., Perucci C.A. Risk factors for multidrug resistant tuberculosis inEurope: a systematic review // Thorax, 2006, v.61(2), p.158-63.
3. Colebunders R, Bastian I. A review of the diagnosis and treatment of smear-negative pulmonary tuberculosis // Int JTuberc Lung Dis. - 2000
4. Francis J. Curry National Tuberculosis Center and California Department of Health Services, 2004: Drug-Resistant Tuberculosis: A Survival Guide for Clinicians.
5. HAIN LIFESCIENCE. - Home page: http://www.hainlifescience.de/en/
6. Şıxlinskaya M.A., Şıxəliyev Y.Ş., Məmmədbəyov E.N., Qurbanova M.B. Turşuya davamlı mikobakteriyaların aşkarlanması üçün mikroskopik tədqiqatların aparılması üsulları. Metodik təlimat. Bakı: "Elm" nəşriyyatı, 2006-cı il, 56 s.
7. American Thoracic Society. Diagnostic standards and classification of tuberculosis / Am Rev Respir Dis 1990.
8. Dye C., Floyd K. In: Disease Control and Priorities in Developing Countries. Second edition. 2006. Oxford University Press.
9. Diagnostic difficulties of lung diseases (Clinical observation) Shainurov M.I., Mashkov N.S., Tyulkina E.A
10. Белова И.Б., Китаев В.М. Ошибки диагностики туберкулеза легких. Медицинская визуализация. 2001, №1, с.45-50
11. Мишин В.Ю., Дейкина О.Н., Назарова Н.В. Дифференциальная диагностика туберкулезаи внебольничной пневмонии // Consilium medicum. 2004, №4.
12. Цебекова Л.А. Дифференциальная диагностика туберкулеза и некоторых других заболеваний органов дыхания. СПб.; 2006.
13. Быстрое внедрение диагностического теста Xpert MTB/RIF. 2011

Резюме

Ранняя диагностика туберкулеза с помощью молекулярно генетического метода genxpert с высоким уровнем заболевания в Республики Азербайджан

А.Е.Асланова, Е. Н.Мамедбеков

Быстрый и эффективный метод диагностики туберкулеза называемый GenXpert MTB/RIF позволяет диагностировать наличие туберкулеза и устойчивости к рифампицину (rifampicin) менее чем за два часа. Он обеспечивает более высокую чувствительность и специфичность чем такие общепринятые методы как микроскопия слюны и мазок. Широко распространенные методы диагностики такие как микроскопия слюны и мазок занимают большое количество времени и недостаточно чувствительны при выявлении туберкулеза, особенно у ВИЧ-инфицированных больных.

Summary

Early diagnosis of tuberculosis with molecular genxpert test in high level of disease in the Azerbaijan Republic

A.E.Aslanova, E. N.Mammedbekov

The Genexpert test is a new molecular test for TB which diagnoses TB by detecting the presence of TB bacteria, as well as testing for resistance to the drug Rifampicin. However the sputum smear microscopy(sputum AFB) test has some problems in HIV-positive patients and children also in patients with low bacterial load.The Xpert MTB/RIF test exhibits high sensitivity and specificity for detecting pulmonary TB disease.

Daxil olub: 02.03.2016

ANADANGƏLMƏ DODAQ-DAMAQ YARIQLARI ZAMANI ORTODONTİK MÜALİCƏ

E.Y.Həsənli
Azərbaycan Tibb Universiteti, Stomatoloji klinikası, Bakı

Açar sözlər: dodaq-damaq yarıqları, diş-çənə anomaliyaları, dişləm, ortodontik müalicə, okklüziya
Ключевые слова: расщелиния губы и неба, аномалии зубов и челюстей, прикус, ортодонтическое лечение, окклюзия
Key words: cleft lip and palate, abnormalities of the teeth and jaws, bite, orthodontic treatment occlusion

Yuxarı dodağın və çənələrin anadangəlmə inkişafdan qalması üz-çənə nahiyəsinin deformasiyalarına səbəb olub, adekvat müalicəsi aparılmadıqda yaş artdıqca anatomik və funksional dəyişikliklər proqressivləşir. Belə patologiyalı uşaqlar və yeniyetmələrin reabilitasiyası tibbin çox çətin məsələlərindən biridir, belə ki, ilkin ortodontik, cərrahi və ortopedik müalicə üsullarının mükəmməl olmaması gənc insanın həyatının dramatik olması ilə sonlana bilər. Müalicə həyatın ilk günlərindən başlayıb, uzun illər sürür, lakin təəssüf ki, həmişə arzulanan sonluqla bitmir [1,2].

Bu patologiya zamanı yalnız müxtəlif ixtisaslı həkimlərin dəqiq qarşılıqlı əlaqəsini nəzərdə tutan kompleks yanaşma ilə optimal müalicə nəticələrini əldə etmək mümkündür [3]. Bu mürəkkəb problem bu günki gündə də aktuallığını itirmir. Anadangəlmə üz-çənə patologiyaları olan uşaqların reabilitasiyasında əsas məqsəd – uşağa və onun ailəsinə göstərilən yardımın müddətini azaltmaq, əlilliyə çevrilmənin qarşısını almaq və həyat keyfiyyətini yüksəltməkdən ibarətdir [4,5].

Belə xəstələrin ortodontik müalicəsi çox vaxt çıxan aparatların tətbiqindən ibarət olur. Lakin qeyd etmək lazımdır ki, bu zaman uğurlu nəticəni əldə etmək heç də həmişə mümkün olmur. Ayrı-ayrı dişlərin qeyri-düzgün vəziyyəti, diş sıralarının daralması və deformasiyası olduğu kimi qalır, diş sıralarının münasibəti tam düzəlmir [6, 7]. Aparatların uzun müddətli gəzdirilməsi və bazisinini yeniləşdirilməsi stomatitlərlə, diş taclarının dağılmaları, kariyesin ağırlaşmaları, ayrı-ayrı dişlərin çəkilməsi və protezləməyə ehtiyacın yaranması ilə nəticələnir [8,9].

Tədqiqatın məqsədi anadangəlmə dodaq-damaq yarığı olan şəxslərdə diş-çənə anomaliyalarının ortodontik müalicəsinin xüsusiyyətlərinin araşdırılması olmuşdur.

Tədqiqatın material və metodları. Azərbaycan Tibb Universitetinin Stomatoloji klinikasına müraciət edən, Bakı şəhərində, həmçinin Azərbaycan Respublikasının digər şəhər və rayonlarında daimi yaşayan, anadangəlmə dodaq-damaq yarığı olan 63 nəfərdə diş-çənə anomaliyalarının ortodontik müalicəsi aparılmışdır.

Tədqiqat nəticəsində alınan nəticələrin orta qiyməti və onların statistik baxışdan dürüstlüyü variasion statistika metodu ilə, parametrik və qeyri-parametrik metodların köməyi ilə: t (Stüdent) və χ^2 (müvafiqlik əmsalı) kriterisindən istifadə etməklə müəyyən edilmişdir.

Tədqiqatın nəticələri. Xəstələri ətraflı müayinə edərək diaqnozu dəqiqləşdirməklə ortodontik müalicə planlaşdırılmış və müalicənin taktikası müəyyənləşdirilmişdir. Bu zaman diş sıraları ayrı-ayrılıqda və ümumilikdə dişləm vəziyyətində qiymətləndirilmiş, dişlərin yerləşmə anomaliyasının xüsusiyyətləri dəqiqləşdirilmiş, qarşıya qoyulan müalicə planının reallığının dəyərləndirilməsi əsasında müalicə sxemi hazırlanmışdır. Ortodontik müalicənin xüsusiyyətləri ondan ibarət olmuşdur ki, dişlərin diş cərgəsində yerləşə bilmə ehtimalını dəyərləndirməklə, ayrı-ayrı dişləri göstəriş əsasında çəkməklə və ya çəkmədən dişlərin diş sırasında normal düzülüşünü yaratmaq üçün sümük toxumasının yenidənqurulma və sorulma proseslərinə mexaniki üsulla təsir etmək olur. Bu zaman istənilən yaşda bu proses aparıla bilər. Çənələrin, o cümlədən diş sıralarının inkişafına yönəldici təsir etməklə çənə sümüklərinin böyümə və formalaşmasına istiqamətləndirici təsiri isə xəstənin aktiv inkişaf dövründə, 15 yaşadək olan müddətdə funksional korrektorlar və funksiya tənzimləyicilərindən istifadə etməklə aparmaq olar. Həmçinin bu yaşadək olan müddətdə çənələrdəki mübadilə proseslərinə, eləcə də çeynəmə, mimiki və dil əzələlərinin inkişafına təsir edən fizioterapevtik prosedurlar, aşızdanxarıc aparatlar tətbiq edilə bilər. Sonda isə ortodontik müalicə nəticəsində aradan qaldırılması mümkün olmayan bəzi hallar – dişlərin struktur anomaliyası, forma və ölçü anomaliyaları müasir ortopedik konstruksiyalarla estetik olaraq bərpa edilə bilər. Dişlərin dəyişilmə dövründə çıxan mexaniki təsirli və funksional təsirli aparatlardan istifadə etməklə dişlərin və çənələrin arzuolunan istiqamətdə inkişafını əldə etmək olduğu halda, daimi dişləm formalaşdıqdan sonra yalnız çıxmayan ortodontik aparatlarla – edjuays-texnika ilə gözlənilən müalicə effekti əldə edilmişdir. Bu zaman lazım gəldikdə ayrı-ayrı dişlər ortodontik müalicə baxımından əsaslandırılmaqla və xəstəyə tam izah edilməklə çəkilmiş, diş cərgələrində sərbəst yer yaradılmışdır. Dişin çəkilməsi planlaşdırılarlən çox vacib şərtlərdən biri də çəkiləcək diş nahiyəsində damaqda və yuxarı alveol qövsündə urano-stafiloplastikadan sonra heç bir yarığın qalmaması olmuşdur. Yalnız bundan

sonra həmin dişlərin çəkilməsinə son qərar verilmişdir. Ümumilikdə, ortodontik müalicə apardığımız 63 nəfər xəstənin 26-da dişlərin çəkilməsinə qərar verilmişdir.

Dəyişən dişləm dövründə dişlərin diş cərgəsində yerləşmə anomaliyalarını vinti olan və itələyici yayı olan ortodontik lövhə ilə aradan qaldırmaq tam mümkün olmur. Aparata öyrəşmənin çətin olması, nitqin çətinləşməsi, yuxarı tənəffüs yollarının tez-tez past gəlinən iltihablaşma halları lövhədən istifadə hallarını çətinləşdirir, çox vaxt uşaqlar bu lövhəni gündüzlər məktəbdə olarkən bəlli səbəblərə görə taxmaqdan imtina edirlər, bu da, sonda, ortodontik müalicə müddətini uzadır, residivlərin yaranmasına səbəb olur. Həmçinin damaq nahiyəsində olan kobud çapıq toxuması aparatın fiksasiyasını çətinləşdirir. Aparatın bazisinin yeniləşdirmə əməliyyatları ağız boşluğunun selikli qişasına qıcıqandırıcı təsir göstərir, dişlərin parodontuna və sərt toxumalarına olan mənfi təsirlərdən patoloji hallar yaranır. Ağız boşluğunda ortodontik aparatın hər hansı bir növü – istər çıxan, istərsə də çıxmayan aparat olan uşaqlarda vaxtlı-vaxtında kompleks remineralaşdırıcı müalicə aparılmalı, fissurlar germetikləşdirilməli və bağlanılmalıdır. Bu səbəbdən çıxmayan ortodontik aparatlarla müalicə sadaladığımız problerin həllində daha məqsədəuyğun olur. Bu zaman aparatın yaratdığı zəif, lakin daimi qüvvələrdən istifadə etməklə dişlərin müxtəlif istiqamətlərə yerdəyişdirilməsi, dartılması, aralanması, yerindən uzadılması və ya əksinə yuvaya qaxılması mümkün olur.

Çıxmayan ortodontik aparatlardan istifadə edərkən qarşımızda olan əsas vəzifələrə ayrı-ayrı dişlərin diş cərgəsində normal yerləşdirilməsinə nail olmaq, diş cərgəsində mövcud olan sıxlığı aradan qaldırmaq, diş sıralarının forma və ölçülərini düzəltmək aid olmuşdur. Bunlardan savayı, okklüziyanın üç müstəvidə – sagital, transverzal və şaquli müstəvidə normallaşdırılmasına nail olmaq əsas vəzifələrdən sayılırdı. Sagital müstəvidə normallaşdırılması üçün əks kəsici diş qapanmasını aradan qaldırmaq, transverzal müstəvidə okklüziyanı normallaşdırmaq üçün sifətin orta simmetriya xəttinin korreksiyasını etmək, şaquli müstəvidə okklüziyanı normallaşdırmaq üçün kəsici diş qapanmasının dərinliyini tənzimləmək nəzərdə tutulmuşdur.

Dodaq-damaq yarıqları olan uşaqların reabilitasiyasında ortodontik müalicə zamanı qövslərin tətbiqinin müəyyən ardıcıllığından istifadə edilmişdir. Əvvəlcə daha elastiki və nazik qövslərdən başlayaraq, daha bərk və breketin pazını tamamilə dolduran qövslərə qədər tətbiq olunmuşdur. Müalicənin sonrakı gedişində bütün qövslər, diş qövsünün genişləndirilməsi üçün və ya qövsdəki dişlərin vəziyyəti normallaşdırmaq üçün olan xüsusi şablonlarla bərabərləşdirilmişdir.

Qövsün dişlərə birləşdirilməsi üçün bütün çıxmayan qövslü aparatlarda ön dişlər və premolyarlarda breketlər, molyarlarda fiksasiya edilmək üçün qıfıllı halqalar tətbiq edilmişdir. Bu sonuncular, aktiv qüvvə yükünün dişə ötürülməsi üçün nəzərdə tutulmuşdur. Üz qövsündən və dodaq bamperindən istifadə etməklə müalicə apararkən da ortodontik halqalar tətbiq edilmişdir, qalan hallarda isə borucuqlu qıfıllar bilavasitə dişin minasına yapışdırılmışdır. Halqaları qoymazdan 7 gün əvvəl, dişlər rentgenkontrakt elastiki separasiya halqaları ilə mexaniki "separasiya" edilmiş, aralarında məsafə yaradılmışdır. Halqalar şüşəionomer sementlə bərkidildikdən sonra, vestibulyar texnikanın breketləri düz üsulla fiksasiya edilmişdir (şəkil 1). Bir qayda olaraq, müəyyən tələblərə cavab verən, sənaye istehsalı olan breketlər tətbiq edilmişdir. Bu tələblər, əsasən, breketin möhkəm olması, formanın stabilliyini qoruması, estetik olması, dişin anatomik formasına uyğun gəlməsi, orqanizmə toksik-allergik və zədələyici təsir göstərməməsi, çıxarıldıqdan sonra dişlərin sərt toxumalarında iz qoymaması, rahat tətbiq edilməli olmasıdır. Breketin dayaq meydançasında müəyyən məsafədə kompensator hündürlükdə yerləşən pazlar daxili hamar səthə malik olmalı, dişlərə və halqalara etibarlı surətdə fiksasiya edilməlidirlər.



Şək. 1. Xəstə M.-də 16 və 26-cı dişlər üzərinə "mexaniki separasiya"dan sonra ortodontik halqalar fiksə edilmişdir

Şək. 2. Xəstə M.-də yuxarı dişlər üzərinə breketlər fiksə edilmişdir

Fərdi bucaq parametrləri (əyilmə və dönmə) və kompensator hündürlük sayəsində hər bir dişin vəziyyəti ortodontik məftil qövsün köməyi ilə düzələrkən, uyğun çənə əsası müstəvisinə əsasən onlara düzgün maillik vermək, həmçinin tətbiq edilən məftilli ortodontik aparatın formasına uyğun olaraq dişləri qövsvari düzmək mümkün olmuşdur. Ayrı-ayrı müalicə sistemlərində breketlərin bucaq parametrlərinin ölçüləri müxtəlifdir. Ona görə də eyni zamanda bir xəstədə müxtəlif sistem breketlərdən istifadə edilməmişdir.

Birinci mərhələ sayılan tarazlama, başqa sözlə, nivelirləmə mərhələsində yuxarı və aşağı çənənin üfüqi və şaquli müstəviləri üzrə "ideal" qövsə yaxınlaşmaq məqsədi ilə, dişlərin həcmli yerdəyişmələri aparılmışdır. Bunun üçün dişlərin şaquli düzləndirilməsi, yəni diş-alveol uzadılması və ya okklüziya müstəvisinə qədər qısaldılma, breketlərin anqulyasiyasına uyğun olaraq meziodistal istiqamətdə əyilmələr aparılmışdır. Bu yerdəyişmələr nəticəsində qövs breketin meydançasında şaquli əyilmələr olmadan fiksasiya edilə bilir. Bundan sonra dişin qövs boyunca yerdəyişməsi, yəni dişlərin üfüqi düzlənməsi aparılmış, "ideal" qövs forması əldə etmək üçün qeyri-düzgün vəziyyətdə olan dişlərin transverzal və sagital istiqamətlərdə yerdəyişdirilməsi aparılmışdır.

Breketlərin fiksasiyası aşağıdakı ardıcıllıqla aparılmışdır. İlk növbədə, diş fırçaları, diş çöküntülərinin təmizlənməsi üçün müxtəlif qarmaqlar, rezin hamarlayıcı kasacıqlar və başlıqlardan istifadə etməklə, dayaq dişləri mexaniki təmizlənmişdir. Ağız boşluğu su ilə yaxalandıqdan sonra iş sahəsi dodaq, dil tutucularının və ya ağız genişləndiricilərin köməyi ilə məhdudlaşdırılmışdır. Əvvəlcədən qurudulmuş dişlərin üzərinə breketlərin yapışdırılacağı yerə nöqtəvi şəkildə duru və ya gel şəklində aşılayıcı turşu qoyulmuş. 30-60 saniyədən sonra su ilə yuyularaq, sıxılmış quru təmiz hava axını ilə qurudulmuşdur. Qurudulduqdan sonra minanın səthi ağ-tabaşirə bənzər rəng almasına xüsusi diqqət yetirilmişdir. Sonra minanın quru səthinə nazik qat şəklində adgeziv çəkilmiş, üzərinə heliolampadan işıq verilmişdir.

Xüsusi əks pinset vasitəsilə əvvəlcədən spirtlə yağsızlaşdırılmış breket götürülmüş və minaya təmas edəcək səthinə birləşdirici maddə çəkilmişdir. Breketi diş səthinə lazımi vəziyyətdə qurmaq üçün iki şərt gözlənilmişdir. Bu zaman breketin şaquli oxu dişin boylama oxu ilə üst-üstə düşməli, bundan başqa, breket pazının ortasından dişin okklüziya səthinə qədər olan məsafə gözlənilməlidir. Breketlərin dişdə qurulması üçün xüsusi vəziyyət təyinediciləri – pozisionerləri tətbiq edilmişdir. Ehtiyac olduqda, breket xüsusi alətin köməyi ilə düzəldilmiş, dişin səthinə sıxılaraq breket ətrafındakı yapışqanın artıqları kənar edilmiş və 20 saniyə ərzində üzərinə heliolampanın işığı verilmişdir (Şək. 2).

Düz qövs texnikası ilə müalicə bu texnikanın tətbiqi edilməsindəki ənənəvi üsulla 5 mərhələyə uyğun aparılmışdır. Birinci mərhələ - tarazlama, ikinci mərhələ- dişlərin düzgün üfüqi və şaquli vəziyyətdə düzlənməsi, üçüncü mərhələ - dartma, dördüncü mərhələ - qaydaya salınma, beşinci mərhələ – retensiya dövrü olmuşdur.

Metal xəlitənin tərkibinə görə aşağıdakı qövslər tətbiq edilmişdir. Qövs üçün ən geniş yayılmış xəlitə olan paslanmayan poladdan olan qövslər girdə, kvadrat və düzbucaqlı formalı en kəsiyinə və müxtəlif ölçülərə malik olmuşdur. Müalicənin başlanğıcında, ortasında və sonunda tətbiq edilən polad qövslər asanlıqla formalaşdırılır, aşağı sürtülmə qüvvəsinə malikdirlər. Düz qövslər, üzərində xüsusi əyriliklərin yaradılması tələb edilməyən qövslər kimi istifadə edilmişdir, lakin bəzi hallarda, məsələn, köpək dişlərin retraksiyasında və molyarların mezial dönməsi zamanı, molyar nahiyəsindəki qövs sahəsində yuxarı və daxilə yönəldilmiş kompensasiyaedici əyrilik yaradılmışdır. Əyriliklərin, məsələn, omeqaşəkilli ilgəklərin hazırlanması üçün xüsusi kəlbətinlərdən istifadə edilmişdir.

Paslanmayan poladın mənfi xüsusiyyətlərindən biri - metalın yorğunluğudur. Uzun müddət ərzində yük altında olan qövs ilkin əyriliyi saxlamaq qabiliyyətinə və tələb edilən təsir gücünə malik deyildir. Metalın yorğunluğu ilə mübarizənin effektiv üsulu spirt lampasının alovunda qızdırılmaq (məftil qızılı-samanı rəng almana qədər qızdırılır) olmuşdur. Bu prosedur xəlitə metallarının kristal qəfəsinin nizamlanmasına və paslanmayan poladın fiziki-kimyəvi xüsusiyyətlərinin bərpasına gətirib çıxarır.

Həmçinin 3-telli və 5-telli girdə və aşağı sərtlik dərəcəsinə malik olan qövslərdən də istifadə edilmişdir. Belə qövslərin tətbiqi zamanı böyük qüvvə yaratmaq mümkün deyil. Dişlər bir-birinə çox sıx yerləşmiş olduqda belə, ağrı azalır: lakin, eyni zamanda, bu qövslər dişlərin nəzərə çarpan yerdəyişməsini təmin etmir. Ona görə də, həmin qövslər müalicənin başlanğıc və orta mərhələlərində və retensiya aparatlarında istifadə edilmişdir (Şək. 3).



Şək. 3. Xəstə M.-də breketlərin üzərinə 0,012" diametrində nitinol qövsü alastiklərlə fiksə edilmişdir



Şək. 4. Xəstə M.-də 25-ci dişi cərgəyə salmaq üçün yaylar tətbiq edilmişdir

Titan xəlitələri əsasında elastik məftil qövslərdə – nikel-titan xəlitəsindən olan məftillərdə qüvvənin əyrilikdən asılılığı aşağı dərəcədədir. Nikel və titandan olan diş qövsləri köpək dişlər ilə premolyarlar arasında əyriliyə malikdirlər. Belə məftillər yaxşı yay xüsusiyyətlərinə malikdirlər, onlarda metal yorğunluğu yoxdur. Qövsün breketin pazına yerləşdirilməsi üçün lazım olan qüvvə, qövsün fiksasiyasından sonra dişə təsir edən qüvvədən daha böyükdür. Bundan başqa, dişlər bir-birinə nə qədər çox sıx yerləşərsə və qövsün əyilmə məsafəsi nə qədər böyük olarsa, onun qüvvə təsiri bir o qədər az olur. Dişlər düzəldikcə, qövsün təsir qüvvəsi artır, qövs deformasiyaya uğramır, ilkin formasına qayıdır. O, müalicənin həm başlanğıc, həm də orta mərhələsində tətbiq edilmişdir.

Qövsün hər bir qıfıla bərkidilməsi üçün metal və elastiki liqaturalardan istifadə edilmişdir. Bundan başqa, breketli çıxmayan ortodontik aparatdan istifadə edərək, əlavə elementlər – kobalt-xrom xəlitəsindən hazırlanmış, diş qövsündə yer yaratmaq üçün sıxılan (açıq) və dişarası məsafələri aradan qaldırmaq üçün dartılan (qapalı) yaylar da tətbiq edilmişdir (şəkil 4.). Daha bir əlavə element olaraq, çənələrarası rezin dartıcı kimi, müxtəlif en kəsiyinə malik elastiki materiallar istifadə edilmişdir, onlar öz arasında dişə göstərdikləri təsir qüvvəsinə görə fərqlənmişlər.

Enqlə görə III sinif okklüziya anomaliyasını düzəldərkən premolyarlar ortodontik göstərişlər əsasında çəkildikdən sonra aşağı kəsici dişlərin retruziyası və köpək dişlərin distal anqulyasiyası aparılmaqla aşağı frontal nahiyədə diş-alveol kompensasiyasını əldə etmək lazım gəlir. Kəsici dişlərin retruziyasını nitinol qövslərdə ara məsafələrin bağlanılması ilə, köpək dişlərin distal tərəfə əyilməsi üçün isə aşağı sağ və sol tərəfdə köpək dişlərin breketlərini dəyişik şəkildə fiksə etməklə əldə edilmişdir. Sağ tərəfin köpək diş breketini sola, sol tərəfdəkini sağ köpək dişə bərkitməklə mezial anqulyasiyanı distal anqulyasiyaya çevirmək mümkün olmuşdur.

Yuxarı çənənin diş sırasının uzadılması və genişləndirilməsi üçün yuxarı kəsici və köpək dişlər arasına nitinol açıcı yaylar qoyulmuşdur. Bu zaman breketlər arasındakı məsafə ilə bir breketin eninin cəmi açıcı yayın uzunluğunu təşkil etmişdir. Aşağı dişlərin təmas səthlərindən çox incə almaz burğacla 0,25 mm separasiya etməklə diş sırasında əlavə olaraq yer yaranmasına imkan vermişdir. Separasiyadan sonra dişlərin üzəri flüor tərkibli laklarla örtülmüşdür.

Rotasiyanın aradan qaldırılması üçün öz oxu ətrafında fırlanmış dişlərin sentrik və ya ekssentrik döndərilməsi həyata keçirilmiş, proses, residivlərdən qaçmaq üçün hiperkorreksiya ilə aparılmışdır. Sonda qövs formasının modelləşdirilməsi, stabilləşmə, birinci molyarlar çəkildiyi halda ikinci molyarların düzlənməsi aparılmışdır.

İkinci mərhələdə, yerdəyişmə fazasında dişlərin üfüqi və şaquli vəziyyətdə düzlənməsinin əldə edilməsi çizimli qövslərin tədbiqilə həyata keçirilmişdir. Müalicənin bu fazasında köpək dişlərin distal yerdəyişməsi, köpək dişlərin mezial yerdəyişməsi, premolyarların sagital yerdəyişməsi, frontal dişlərin lateral yerdəyişməsi, molyarların sagital yerdəyişməsi, əyilmiş dişlərin düzəldilməsi, orta xəttin korreksiyası, frontal şöbədə diş-alveol uzanması və ya qısaldılması mümkün olmuşdur.

Üçüncü mərhələdə, dartma fazasında frontal dişlər blok şəklində bir-biri ilə bağlanaraq sagital istiqamətdə yerləri dəyişdirilmişdir. Bu yolla, distal yerdəyişmiş köpək dişlər ilə yan kəsici dişlər arasında əmələ ələn məsafələr və sagital pillə bağlanılmışdır. Bu tədbiqlər, protrüziya ilə müşayiət olunan I sinifdə və diş cərgəsinin

sıxlığı zamanı birinci premolyar dişlərin çəkilməsi nəticəsində yaranan məsafəni bağlamaq üçün tədbiq edilmişdir.



Şəkil 5. Xəstə M.-in ortodontik müalicənin sonunda ağız boşluğunun fotoşəkili



Şək. 6. Breketlər və ortodontik halqalar çıxarıldıqdan sonra xəstə M.-nin ağız boşluğunun fotoşəkili

Xəstə üçün müalicə taktikası seçilərkən diş sıralarında dişlərin yerləşmə mümkünlüyü dəyərləndirilmiş, kəllənin sifət nahiyəsinin inkişaf tendensiyasının olması nəzərə alınmış, xəstənin yaşı, şikayətləri, ümumi, o cümlədən psixoloji durumu, okklüziya əyrisinin deformasiya dərəcəsinə xüsusi diqqət yetirilmişdir.

Diş sıralarını müayinə edərkən ayrı-ayrı çənələrdə dişlərin sıxlığı, Şpeye əyrisinin forması, diş sıralarının eni, frontal dişlərin dodaq-damaq istiqamətə mailliyi və bu dişlərin inklinasiyası qiymətləndirilmişdir. Diş sıraarında yer azlığı olduqda hesablamalar apararaq mütləq əsaslandırmaqla ayrı-ayrı dişlərin çəkilməsinə qərar verilmiş, dişlərin seçmə separasiyası vasitəsilə ölçüləri dəyişdirilmiş, böyük azı dişlərin önə yaxyd arxaya sürüşdürülməsi aparılmışdır.

ƏDƏBİYYAT

1. Бимбас Е.С., Мягкова Н.В. Особенности ортодонтического лечения взрослых пациентов. Екатеринбург, 2000, 30 с.
2. Bayram M., Nur M. Diş ve Minivida Destekli Yeni Bir Aparey İle Üst Molar Distalizasyonu: Klinik Çalışma. Türk Ortodonti Dergisi, 2010, v.23, №3, p.241-255.
3. Виссарионов В.А., Смирнова А.Ю. Оказание адресной помощи в лечении больных с деформациями и дефектами лица / Актуальные вопросы пластической, эстетической хирургии и дерматокосметологии: Сб. науч. тр. М., 2004, с. 15-18.
4. Кучкина Е.С. Комплексное медико-социологическое исследование качества жизни больных с травмами челюстно-лицевой области. Автореф. дис. ... канд. мед. наук. М., 2011,19 с.
5. Ронь Г.И., Акмалова Г.М. Эстетическая стоматология и качество жизни пациентов. Проблемы стоматологии, 2010, №1, с. 28-30.
6. Bilgic F., Başaran G., Meric P., Hamamcı O. Şiddetli alt və üst yer darlığı olan İskeletsel II Sinifolguda tedavi seçenekleri // Türk Ortodonti Dergisi, 2012, v. 25, №2, p. 146-154.
7. Demir A., Başçiftçi F., Üşümez S., Göyenç Y. Sınif II Malokluzyonun İki Aşamalı Tedavisinin Uzun Süreli Sonuçları // Türk Ortodonti Dergisi, 2010, v. 23, №3, p. 256-267.
8. Дьякова С.В. Специализированное лечение детей с врожденной и наследственной патологией челюстно-лицевой области в системе диспансеризации. Врожденная и наследственная патология головы, лица и шеи у детей: актуальные вопросы комплексного лечения. М.: МГМСУ, 2002,с.91-95.
9. Лебеденко И.Ю., Ибрагимов Т.И., Ряховский А.Н. Функциональные и аппаратурные методы исследования в ортопедической стоматологии. Медицинское информационное агенство. М., 2003, 128 с.

Резюме

Ортодонтическое лечение при врожденных расщелинах губы и неба

Э.Я.Гасанли

Целью исследования явилось изучение особенностей ортодонтического лечения при врожденных расщелинах губы и неба. Было проведено ортодонтическое лечение 63 больных с врожденными расще-

линами губы и неба. Выявлены характерные особенности строения зубных рядов у таких больных, в частности отсутствие центральных или боковых резцов на стороне расщелины, наличие микродентии фронтальных зубов. Полученные данные дают нам основание считать, что у пациентов с врожденными расщелинами губы и неба при лечении зубочелюстных аномалий целесообразно применение несъемной ортодонтической техники, в частности эджуайс-системы.

Summary

Orthodontic treatment of congenital cleft lip and palate

E.Y.Gasanli

The aim of the study was to investigate the characteristics of orthodontic treatment for congenital cleft lip and palate. orthodontic treatment of 63 patients with cleft lip and palate were conducted. The characteristic features of the structure of dentition in such patients, in particular the absence of central or lateral incisors on the cleft side, the presence of mikrodentii front teeth. The data give us reason to believe that in patients with cleft lip and palate in the treatment of dentoalveolar anomalies appropriate use of fixed orthodontic appliances, in particular edzhuays system.

Daxil olub: 01.04.2016

ОТДАЛЕННЫЕ ПОСЛЕДСТВИЯ КЕСАРЕВА СЕЧЕНИЯ НА ЗДОРОВЬЕ РЕБЕНКА

С.Т. Валиева, А.И. Гасанов, Ш.М. Рустамова, Н.А.Гаджиева

Азербайджанского Государственного Института Усовершенствования Врачей им.А.Алиева. Кафедра педиатрии

Açar sözlər: keysəriyyə əməliyyatı, artıq bədən kütləsi, allergiya, döş ilə qidalanma

Ключевые слова: кесарева сечение, избыточная масса тела, аллергия, грудное вскармливание

Keywords: Caesarean section, excess body weight, allergy, breastfeeding.

Увеличение количества кесаревых сечений наблюдается в большинстве развитых стран мира в последние десятилетия. Несмотря на это, ряд важнейших вопросов, касающихся абдоминального родоразрешения с точки зрения неонатологов и педиатров, не получил должного решения. Большинство исследований в этой области в основном посвящены процессам адаптации новорожденного в раннем неонатальном периоде [1-5]. К настоящему времени появились убедительные данные о нарушении кишечной микробиоты у детей, рожденных кесаревым сечением [6-8]. Отдаленные последствия кесарева сечения в виде измененной кишечной микрофлоры сохранялись у детей в возрасте 7 лет [8]. Анализ данных различных исследований и крупного мета-анализа о влиянии оперативного родоразрешения на последующее состояние здоровья детей, показал достоверно более высокий уровень развития аллергии к белкам коровьего молока, астмы, атопического дерматита, диабета 1 типа, целиакии [9-13]. Положительная связь между кесаревым сечением и увеличение индекса массы тела (ИМТ) в возрасте 7 лет продемонстрирована в бразильском исследовании [14]. Все вышеизложенное послужило поводом для проведения данной работы.

Цель исследования: изучить отдаленные последствия кесарева сечения на физическое развитие и соматическое здоровье ребенка.

Материалы и методы исследования. С июня по сентябрь 2013 года обследовано 1283 ребенка в возрасте от 1 до 60 месяцев в трех регионах: Исмаиллинской, Нефтечалинской и Акстафинской областях Азербайджанской Республики. Было выявлено 159 детей рожденных путем операции кесарева сечения. что составило 12,4%. В возрасте до 5 месяцев было 18 (11,3%) детей, 6-11 месяцев - 35 (22%), 12-23 месяца - 37 (23,3%), 24-35 месяцев - 33 (20,7%), 36-47 месяцев - 26 (16,3%) и 48-60 месяцев - 10 (6,3%). Эту группу мы обозначили как 1-ую. Во 2 группу сравнения вошли 1062 ребенка от нормальных родов. Детей родившихся преждевременно в исследование не включали. Характер распределения детей по группам представлен в таблице 1.

Таблица 1

Характер распределения детей по группам

Критерий	Исмаиллинский район	Нефтечалинский район	Акстафинский район	Итого
Общее количество обследованных детей	382	447	454	1283
Группа 1 (дети от кесарева сечения)	17 (4,4%)	20 (4,5%)	122 (26,9%)	159 (12,4%)
Группа 2 (дети от вагинальных родов)	331 (86,6%)	408 (91,3%)	323 (71,1%)	1062 (82,8%)

Проведено анкетирование матерей, клиническое обследование их детей и анализ информации содержащейся в карте 112/у. Для всех детей были установлены антропометрические индикаторы «масса-возраст», «масса-длина тела», «длина тела-возраст». Возраст ребенка рассчитывался по разнице между датой рождения ребенка и датой проведения измерений. Все полученные параметры вносились в программу Всемирной Организации Здравоохранения (ВОЗ) Antro. Это програмное средство, созданное для глобального применения разработанных ВОЗ норм роста детей для мониторинга роста и моторного развития на уровне лиц и популяций (0-60 месяцев). Полученные показатели интерпретировались с помощью классификации, основанной на Z-скор (единицы стандартного отклонения (СО) от среднего стандарта). ВОЗ рекомендует использование порогового значения Z-скор < -2 для обозначения показателей «низкого роста для возраста», «низкой массы для возраста» и «низкой массы для роста» для оценки степени нарушения питания. Стандартное распределение Z-скор для каждого показателя имеет среднее 0,0 и стандартное отклонение 1,0. Границу значения Z-скор равную +2 следует использовать для классифицирования «большей массы длядлина тела» при оценке избыточности масса или ожирения (форм нарушения питания). Значение Z-скор равное-2 соответствует 2,3 перцентилю при стандартном распределении, в то время как Z-скор равный 2, соответствует 97,7–му перцентилю стандартного распределения. Стандартное отклонение Z-скор, обозначенное нами как «±», дает информацию о разнице в распределении и качестве антропометрических измерений, сделанных во время исследования. Стандартное отклонение ниже 0.9 для Z-скор указывает на то, что распределение является более гомогенным или таковым с меньшим разбросом по сравнению с исходным распределением. Значение стандартного отклонения >1,0 и <1,2 для Z-скор указывает на то, что распределение имеет более широкий разброс, чем исходное. Значение стандартного отклонения >1,3 для Z-скор предполагает неточные антропометрические измерения и/или неточную информацию о возрасте.

Анализ остальных параметров проводили с использование пакета «Статистика» в программе Mikrosoft Exell 2010, достоверность данных рассчитывали с использованием дисперсионного анализа в статистической программе «Биостат» по критериям Ньюмана-Кейсла.

Таблица 2

Показатели массы тела по отношению к возрасту и длине тела в зависимости от возраста у детей, рожденных путем операции кесарева сечения

	Масса/возраст %		Масса к длине/росту %			
	% < -2СО	средняя	% < -2СО	% > +1СО	% > +2СО	Средняя
Всего (0-60)	6,3	-0,33±1.07	3,8	22,6	5	0,09±1.2
0-5	0	-0,52±0.52	0	16,7	0	-0.21±0.86
6-11	2,9	-0,45±1.03	2,9	14,3	2,9	-0,09±0.95
12-23	8,1	-0,09±1.12	5,4	32,4	5,4	0,18±1.30
24-35	9,1	-0,38±1.15	6,1	21,2	6,1	0,28±1.21
36-47	3,8	-0,1±1.24	3,8	30,8	11,5	0,4±1.30
48-60	20	-0,86±0.93	0	10	0	-0,44±1.05

Результаты и обсуждение. Характер распределения детей по регионам выявил некоторые особенности. Так, количество родов путем операции кесарева сечения составило по 4,4% и 4,5% в Исмаиллинском и Нефтечалинском регионах, и 26,9% в Акстафинской области (таблица 1). В 80.5% случаев оперативное родоразрешение было проведено в плановом порядке. Средний возраст матерей составил 24,8±4,7 лет и не отличался по регионам. При этом 34 (21,4%) рожавших были старше 30 лет. Средний масса новорожденных составил 3250±590 грамм, детей с массой менее 2500 грамм было 11,3%, более 4000 грамм 8,8%.

Антропометрические данные, полученные у 159 детей, позволили рассчитатьZ-скор для показателей «масса-возраст» и «масса-длина тела». Никакие данные не были удалены после применения значений Z-скор. Стандартные отклонения для всех антропометрических показателей говорят о том, что измерения были сделаны правильно, так как они попадают в допустимые интервалы (таблица 2).

Как видно из таблицы 2, распространенность среди детей низкой массы по отношению к длине тела (текущего дефицита питания) составила 3,8%. В западной литературе термин «гипотрофия» заменяют термином острой белково–энергетической недостаточности. Распространенность этого состояния менее 5% считается нормой для популяции, так как наряду с экзогенными факторами (питанием), может развиваться под влиянием эндогенных факторов (тяжелые врожденные или приобретенные патологические состояния, приводящие к повышению потребностей в пищевых веществах или к нарушению усвоения нутриентов). Низкий Z –скор масса тела /возраст была выявлена у 3,8% детей, что указывает на нарушение гармоничности развития. Избыточная масса тела (ожирение) наблюдалась у 5% обследуемых детей. Количество детей с избыточным массой увеличивалось с возрастом, и в возрасте 36-47 месяцев было в 2 раза больше чем в возрасте 12-23 и 24-35 месяцев, но при анализе средних значений по возрастным группам достоверных различий обнаружено не было. Более выраженные отклонения наблюдались при анализе показателя длина тела/рост к **возрасту, что отражено на диаграмме 1.**



Рис. 1. Показатель длина тела/рост к возрасту у детей, рожденных путем операции кесарева сечения по сравнению со стандартами ВОЗ

Таблица 3

Показатель ИМТ к возрасту у детей, рожденных путем операции кесарева сечения в зависимости от возраста

	ИМТ к возрасту				
	% < -2СО	% > +1СО	% > +2СО	% > +3СО	средняя
Всего (0-60)	5	25,2	6,3	0,6	0,14±1,23
0-5	0	5,6	0	0	-0,33±0,76
6-11	2,9	14,3	2,9	0	-0,13±0,96
12-23	8,1	35,1	8,1	0	0,27±1,30
24-35	6,1	36,4	9,1	0	0,44±1,23
36-47	7,7	30,8	11,5	3,8	0,44±1,30
48-60	0	10	0	0	-0,36±1,07

Как видно из диаграммы 1, низкорослость была обнаружена у 10,7% исследуемых детей, при этом средняя длина тела детей составлял -0,69±1,07 СО. При более подробном анализе этого показателя по возрастам по 15% детей отставало более 2СО в возрастной группе 24-35 и 36-47 месяцев, и 30% детей в

возрасте 48-60 месяцев. При статистическом анализе 2 группы детей от нормальных родов, показатель низкорослости оказался выше и наблюдался у 15% обследованной популяции. Анализ данных ИМТ к возрасту наглядно продемонстрирован подробно по возрастам в таблице 3.

Как видно из таблицы 3, ИМТ к возрасту менее и более 2СО наблюдался у 5% и 6,3% детей соответственно. Известно, что диагноз избыточной массы тела устанавливается после возраста 2 лет. В нашем исследовании, в возрастной категории 24-35 месяцев у 9,1% детей и в возрасте 36-47 месяцев у 11,5% детей наблюдалась избыточная масса тела. Хотя количество таких детей увеличивалось по возрастам, при статистическом анализе средних значений достоверных различий обнаружено не было.

Средние показатели массы тела в зависимости от возраста и длина тела, а также ИМТ в зависимости от возраста в группе детей с оперативным родоразрешением мы сравнили с детьми от нормальных вагинальных родов (таблица 4).

Как видно из таблицы 4, хотя и имеется тенденция к более высоким средним показателям в группе 1, но при статистическом анализе достоверность не обнаружена. Мы решили изучить распространенность избыточной массы тела в возрасте после 2 лет. Избыточная масса тела по отношению к возрасту выше 85 (>+1 Z-скор) перцентили была обнаружена у 30,4±5,5% детей 1 группы после 2 лет. и у 14,4±1.4% (p=0.0001) детей 2 группы.

Таблица 4

Сравнительная оценка средних показателей массы тела в зависимости от возраста и роста, а также ИМТ в зависимости от возраста группы детей с оперативным родоразрешением и нормальных вагинальных родов

	Масса/возраст %	Масса к длине/росту %	ИМТ к возрасту
Группа 1	-0,33±1.07	0,09±1.2	0,14±1,23
Группа 2	-0,5±1,16	-0,09±1,15	-0,03±1,18
	P=0,07	P=0.06	P=0.08

Анализ медицинской документации и клинический осмотр выявил у детей 1 группы рахит в 24,5% случаев, заболевания желудочно-кишечного тракта у 15% детей, срыгивания до 6 месяцев у 33%, затруднения дефекации в грудном возрасте у 27% обследованных, перенесенные кишечные инфекции в 3,7% случаев. Все эти заболевания и состояния с аналогичной частотой встречались во 2 группе обследованных. В литературе [4,5] указывается на высокую частоту рекуррентных заболеваний дыхательных путей и неврологических отклонений у детей после оперативного родоразрешения. В нашем исследовании частые заболевания дыхательных путей диагностированы у 5,6% детей 1 группы и у 5,9% детей во 2 группе. Неврологические диагнозы также были сопоставимы в 1 и 2 группах (9,4% и 8,8% соответственно).

У детей 1 группы достоверно чаще был диагностирован атопический дерматит (25,2±3,44%, p=0,0001), по сравнению с детьми от нормальных родов (17,4±1,16%), и функциональные поносы (22±3,3% и 16,4±1,2% в 1 и 2 группах соответственно; p=0,0001). Сравнительный анализ состояния здоровья детей и перенесенных заболеваний показана на диаграмме 2.



Рис. 2.Сравнительная оценка состояния здоровья и перенесенных заболеваний группы детей с оперативным родоразрешением и нормальных вагинальных родов

Высокая частота функциональных поносов объясняется более поздним формированием микробиоценоза толстого кишечника [3,6,7,8]. Дополнительным фактором неблагоприятного влияния на состав кишечной микробиоты является раннее искусственное вскармливание. Мы изучили характер питания и длительность грудного вскармливания в сравнительном аспекте (диаграмма 3).



Рис. 3. Сравнительная характеристика длительности грудного вскармливания группы детей с оперативным родоразрешением и нормальных вагинальных родов

Как видно из диаграммы 3, в 1 группе в 3 раза больше детей не получали грудного молока (p=0,0001) по сравнению с 2 группой, что можно объяснить более низкими темпами становления лактации к моменту выписки из родильного дома [1], больший процент детей прекратили грудное вскармливание к 6 месяцам (28,3±3,6%; p=0,0001). В 1,5 раза меньше детей вскармливались грудью до 1 года и до 2 лет (p=0,0001). Распространенность грудного вскармливания в 1 группе составила 77,3±3,3%, что было достоверно ниже, чем во 2 группе обследуемых (91,6±0,85%; p=0,0001).

Заключение: В возрасте после 2 лет кесарево сечение ассоциировалось с более высокой распространенностью избыточной массы тела. Мониторинг развития детей выявил, что по нервно-психическому развитию и частоте рекуррентных заболеваний дыхательных путей дети, рожденные оперативным путем, не отличаются от детей после самопроизвольных родов. Оперативное родоразрешение ассоциировалось с увеличением частоты атопического дерматита и функциональных кишечных нарушений этой категории пациентов, снижением распространенности и продолжительности грудного вскармливания.

ЛИТЕРАТУРА

1. Буланов Р.Л. Особенности клинико-микробиологической адаптации новорожденных при оперативном родоразрешении. Автореф. дис. … канд.мед.наук. Архангельск, 2008, 28 с.

2. Ипполитова Л.И. Ранняя адаптация и мониторинг развития детей, извлеченных кесаревым сечением. Автореф. дис. … докт.мед.наук. Воронеж, 2010, 51 с.

3. Mezoff E.A., Aly H. The winding road to understanding the neonatal origins of inflammatory gastrointestinal disorders. J Pediatr. Gastroenterol. Nutr., 2013, v.57(5), p.543-9.

4. Hankins G.D., Clark S.M., Munn M.B. Cesarean section on request at 39 weeks: impact on shoulder dystocia, fetal trauma, neonatal encephalopathy, and intrauterine fetal demise // Semin Perinatol., 2006, v.30(5), p.276-87.

5. Hansen A.K., Wisborg K., Uldbjerg N., Henriksen T.B. Elective caesarean section and respiratory morbidity in the term and near-term neonate // Acta Obstet Gynecol Scand., 2007, v.86(4), p.389-94.

6. Николаева И.В. Микроэкологические нарушения у матери и ребенка: диагностика, прогностическое значение. Автореф. дис. … докт.мед.наук. Казань, 2011,. 62 с.

7. Нетребенко О.К., Корниенко Е.А. Кишечная микробиота и пробиотики в период беременности. Педиатрия. Журнал имени Г. Н. Сперанского. 2012, Т.91, с.87-95.

8. Salminen S., Gibson G., Isolauri E. Influence of mode of delivery on gut microbiota composition in seven year old children // Gut., 2004, v.53, p.1386-1390.

9. Decker E., Engelmann G., Findeisen A. at al. Cesarean delivery is associated with celiac disease but not inflammatory bowel disease in children // Pediatrics, 2010, v.125(6), p.1433-40.

10. Cho C.E., Norman M. Cesarean section and development of the immune system in the offspring // Am J Obstet Gynecol., 2013, v.208(4), p.249-54.

11.Nielsen L., Nielsen M.K., Heltoft K.N., Schlünssen V. It is uncertain if caesarean section is a risk factor to the development of asthma // Ugeskr Laeger, 2011, v.73(9), p.2407-12.

12.Eggesbø M., Botten G., Stigum H. et al. Is delivery by cesarean section a risk factor for food allergy? // J Allergy ClinImmunol., 2003, v.112(2), p.420-6.

13.Bager P.I., Wohlfahrt J., Westergaard T. Caesarean delivery and risk of atopy and allergic disease: meta-analyses // Clin Exp Allergy, 2008, v.38(4), p.634-42.

14.Goldani M.Z., Barbieri M.A., da Silva A.A. et al. Cesarean section and increased body mass index in school children: two cohort studies from distinct socioeconomic background areas in Brazil // Nutr J., 2013, v.12(1), p.104

Xülasə

Keysəriyyə əməliyyatın uşağın sağlamlığına sonrakı təsiri

S.T. Vəliyeva, A.İ. Həsənov, Ş.M. Rüstəmova, N.A. Hacıyeva

Tədqiqatın məqsədi keysəriyyə əməliyyatın uşağın fiziki inkişafına və somatik sağlamlığına sonrakı təsirinin öyrənilməsi olmuşdur. Keysəriyyə əməliyyatı ilə doğulan 1-60 aylıq 159 uşaq müayinə olunmuşdur. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, 2 yaşından sonra keysəriyyə əməliyyatı ilə doğulmuş uşaqların 30,4±5,5% və təbii yol ilə doğulmuş uşaqlarda14,4±1,4% (p=0,0001) artıq bədən kütləsi aşkar olunmuşdur. Nevroloji diaqnozların (9,4%) və tənəffüs yollarının rekurrent xəstəliklərin (5,6%) tezliyinin artması aşkar olunmamışdır. Cərrahiyə yolu ilə doğuş atopik dermatitin (25,2±3,44%; p=0,0001) və funksional bağırsaq pozğunluqlarının (22±3,3%; p=0,0001) tezliyin arması və döş ilə qidalanmanın yayılması (77,3±3,3%; p=0,0001) və davamının azalması ilə asosiasiya olunmuşdur.

.Summary

The remote consequences of Caesarean section on a child's health

S.T. Valiyeva, A.I. Qasanov, Sh.M. Rustamova, N.A.Hajiyeva

Objective of the research: to study the remote consequences of Caesarean section on physical development and somatic health of a child. There were surveyed 159 children aged 1 to 60 months born by Caesarean section. As a result of the conducted researches of children older than 2 years old there was found excess body weight in relation to age in 30,4±5,5% of children born by operation of Caesarean section, and in 14,4±1,4% (p=0,0001) of children *born* through *vaginal birth*. There were not revealed increases in frequency of neurologic diagnoses (9,4%) and recurrent respiratory diseases (5,6%). Operative delivery was associated with an increased frequency of atopic dermatitis (25,2±3,44%; p=0,0001) and functional bowel disorders (22±3,3%; p=0,0001), reduction in the prevalence (77,3±3,3%, p=0,0001) and duration of breastfeeding.

Daxil olub: 01.04.2016

LAPAROSKOPİK RADİKAL NEFREKTOMİYANIN NƏTİCƏLƏRİNİN TÖRƏMƏNİN MƏRHƏLƏSİ VƏ ÖLÇÜSÜNDƏN ASILI OLARAQ TƏHLİLİ

R.N.Nağıyev

Azərbaycan Tibb Universiteti, urologiya kafedrası

Açar sözlər: böyrək şişləri, laparoskopik radikal nefrektomiya

Ключевые слова: *опухоли почки, лапароскопическая радикальная нефректомия.*

Key words: kidney tumors, laparoscopic radical nephrectomy.

İlk dəfə 1990 –cı ildə Clayman və h. tərəfindən aparılmış laparoskopik nefrektomiya əməliyyatından sonra, böyrək xərçəngi zamanı bu əməliyyatın icra edilməsi barədə fikirlər səslənməyə başladı [1]. Ənənəvi olaraq radikal nefrektomiya açıq üsulla aparıldı və disseksiya zamanı şiş toxumalarının disseminasiya qorxusu ilk mərhələrdə laparoskopik üsulun tətbiqini məhtudlaşdırırdı. Lakin, sonrakı illərdə bir çox müəlliflər geniş klinik material üzərində tədqiqatlar apararaq, laparoskopik üsulun onkoloji radikallıq baxımından açıq əməliyyatla eyni olamasını və uzaq nəticələrin fərqlənməməsini sübut etmişdirlər [2,3]. Laparoskopik radikal nefrektomiya (LRN) trasperitoneal və retroperitoneal yanaşma ilə aparılır. Laparoskopik üsulun azinvazivlik, daha az intraoperativ qanaxma miqdarı, gözəl kosmetik effekt, qısa reabilitasiya və hospitalizasiya dövrü baxımından açıq əməliyyatdan üstün olması bu qrup xəstələrin cərrahi müalicəsində seçim əməliyyatı olaraq qəbul edilmişdir [4,5]. Lakin, bu gün ədəbiyyatda LRN-nın şişin hansı mərhələ və ölçülərində aparılması haqqında

müxtəlif fikirlər var. Törəmənin mərhələsi və ölçüsünün konkret hansı hallarda laparoskopik əməliyyatın aparılmasına göstəriş olub olmaması məsələsi açıq olaraq qalır.

Təqdim etdiyimiz tədqiqatın **məqsədi** böyrək şişinin mərhələsi və ölçüsündən asılı olaraq transperitoneal və retroperitoneal yanaşmalar ilə aparılmış LRN intraoperativ və yaxın postoperativ nəticələrinin təhlili aparmaqdır.

Tədqiqatın material və metodları. Tərəfimizdən 2010-2015-ci illərdə Azərbaycan Tibb Universitetinin və İstanbul Universiteti Tibb Fakültəsinin urologiya kafedralarında böyrək şişlərinə görə LRN üsulu ilə cərrahi müalicə almış 185 xəstənin retrospektiv təhlili aparılmışdır. Bunlardan 116(62,7%) kişi, 69 (37,3%) qadın, yaşları: 29-86 arası (orta 57,5±0,9 yaş) olmuşdur. LRN 150 xəstəyə (81,1%) transperitoneal, 30 xəstəyə (16,2 %) retroperitoneal yanaşmalar ilə, 5 xəstəyə (2,7%) isə hibrid texnikası ilə icra edilmişdir. Laparoskopik giriş 34 (28,4%) xəstədə Hasson texnikası ilə, 151 (81,6%) xəstədə isə Veress iyləsi vasitəsi ilə aparılmışdır. Adətən LRN üç port yerləşdirilərək aparılır - 161 (87,0%) xəstə. Lakin, bəzi hallarda orqanın ekartasiyasına ehtiyac olduqda əlavə olaraq dördüncü port yerləşdirilir - 19(10,3%) xəstə. Hibrid texnikası ilə icra edilmiş əməliyyat zamanı 5 xəstələrə (2,7%) 6 port yerləşdirilmişdir [6]. Əvvəl üç port qoyularaq retroperitoneal girişlə girilir, böyrək arteriyası bağlandıqdan sonra daha üç port əlavə edilərək transperitoneal yanaşmaya keçilir. LRN 97 xəstədə (52,4%) sağtərəfli, 88 xəstədə (47,6%) soltərəfli aparılmışdır. 178 xəstədə (96,2%) müayinələr zamanı böyrəkdə bir törəmə, 7 xəstədə (3,8 %) isə çoxsaylı törəmələr (2-8 arası) aşkar edilmişdir. Xəstələrdə böyrək şişlərinin yerləşməsi Cədvəl 1 təqdim edilir.

Cədvəl 1

Böyrək şişlərinin lokalizasiyasına görə xəstələrin təhlili

Törəmənin lokalizasiyası	Xəstələrin sayı	
	Abs.	%
Yuxarı qütb	56	30,2
Orta seqment	61	33,0
Aşağı qütb	68	36,8
Ümumi	185	100

Qeyd etmək istəyirik ki, 106 (57,3%) xəstədə müxtəlif yanaşı xəstəliklər müşahidə olunurdu. 61 (33%) LRN -dan əvvəl, fərqli zamanlarda (2 aydan 25 ilə qədər) müxtəlif əməliyyat keçirmişdirlər. Bu əməliyyatların diapazonu cətinlik dərəcəsinə görə herniaplastikadan- aorta klapanının dəyişilməsi və böyrək transplantasiyasına qədər dəyişirdi. Bu qrup xəstələr anestezioloji risk, əməliyyatın aparılması və əməliyyatdan sonrakı dövrün gedişatı baxımından daha ciddi yanaşma tələb edir, bir çox hallarda digər profilli mütəxəsislərin konsultasiyalarına ehtiyac duyulurdu. Qarın boşluğu və retroperitoneal sahə orqanlarında əməliyyat keçirmiş xəstələrdə LRN aparılan zaman xeyli texniki cətinliklərlə üzləşilir.

LRN apardığımız 16 xəstədə (8,6%) böyrək venasında tromb aşkar edilmiş (Mayo təsnifatı - səviyyə 1), 1 xəstədə (0,5%) isə aşağı boş venanın trombu müşahidə edilmişdir (Səviyyə 2) [7]. Aşağı boş venada trombu olan xəstəyə hibrid texnikası ilə uğurlu LRN əməliyyatı aparılmışdır. Reqionar (limfotik) metastazlar 17 (9,2%) xəstədə, uzaq metastazlar 10 (5,4%) xəstədə olmuşdur.

Xəstələrin qəbulu zamanı əsas şikayyətləri: ağrı- 90 xəstə (48,7%) və hematuriya – 43 xəstə (23,2%) olmuş. 5 xəstədə dizuriya (2,7%), 3 xəstədə (1,6%) hərərətin qalxması, 3 xəstədə (1,6%) isə dispepsiya müşahidə edilmişdir. 36 xəstədə (19,5%) böyrək törəməsi heç bir şikayyətlərin olmadığı halda, təsədüfi tapıntı olaraq aşkar edilmişdir.

Nəticələr. Tədqiqatda LRN əməliyyatı icra edilmiş 185 xəstənin 1 (0,5%) ölüm müşahidə edilmişdir. 80 yaşlı kişi xəstə əməliyyatdan 6 gün sonra poliorqan çatmamazlığından vəfat etmişdir. 12 xəstədə (6,5±1,8%) konversiya – açıq əməliyyata keçid olmuşdur. Bunun səbəbi 6 xəstədə əməliyyat zamanı qanaxma, 4 xəstədə çoxsaylı çapıq toxumaları, 2 xəstə isə böyük ölçülü törəmə (14-15 sm) olmuşdur.

Əməliyyatın müddəti 50 - 215 dəqiqə arası (orta - 108,5±2,2 dəq.), insuflyasiya müddəti 36-205 dəqiqə arası (orta- 96,7±2,2 dəq.) olmuşdur. Əməliyyat zamanı orta qanitirmə miqdarı 143,1±14,4 (10-1500) ml təkil etmişdir. 138 xəstədə (74,6%) makropreparat əlavə Gibson kəsiyi aparılaraq, 33 xəstədə (17,8%) port dəliyi genişləndirilərək, 11 xəstədə (5,9%) lumbotomik kəsikdən, 1 xəstədə (0,5%) Şevron kəsiyinnən 2 xəstədə (1,1%) isə Pfannenştil kəsiyi vasitəsi ilə xaric edilmişdir. 185 xəstədən 10-da (5,4%) xoş xassəli törəmə aşkar edilmişdir. Ümumiyyətlə, histoloji tipə görə- 173 xəstədə (93,5%) keçid-hüceyrəli xərçəng, 1 xəstədə (0,5%) - sarkoma, 4 xəstədə (2,2%)- onkositoma, 4 xəstədə (2,2%) angiomiolipoma, 2 xəstədə (1,1%)- kistoz nefroma müəyyən edilmişdir. Müşahidəmizdəki xəstələrdən birində 3 ədət törəmə aşkarlanb, onlardan biri onkositoma (5,5x4 sm), ikisi isə kistoz formalı keçid-hüceyrəli xərçəng (7,5 x 6 sm; 3,2 x 2,6 sm) olmuşdur. Əməliyyat zamanı 15 xəstədə (8,1±2,0%) müxtəlif fəsadlar olmuşdur.

Tədqiqatdakı 185 xəstədən 175-də bəd xassəli törəmələr olmuşdur. Bunlardan şişlər 78 xəstədə - T1, 59 xəstədə- T2, 38 xəstədə- T3 mərhələsində olmuşdur. Histoloji qradasiya görə 18 xəstədə (10,3%)- Fuhrman1, 92 (52,6%) - Fuhrman 2, 54 (30,8%) - Fuhrman 3 və 11 (6,3%) xəstədə Fuhrman 4 mərhələsində olmuşdur.

Cədvəl 2

I və II qrupdakı xəstələri müqaisəli təhlili

Göstərici		I qrup (n=116)	II qrup (n=69)
Yaş		58,0±1,2 (33-86)	56,7±1,4 (27-79)
Cinsi	K	71 (61,2%)	45 (65,2%)
	Q	45 (38,8%)	25 (34,8%)
Yanaşı xəstəliklər		74 (63,8%)	37 (53,6%)
Keçirmiş əməliyyatlar		43 (37,1%)	18 (26,1%)
Törəmələrin sayı	orta	1,09±0,06 (1-8)	1,10±0,07 (1-5)
Böyrək venasının trombozu		6 (5,2%)	10 (14,5%)
Aşağı boş venasının trombu		-	1 (1,4%)
Reqionar metastazlar		8 (6,9%)	9 (13,0%)
Uzaq metastazlar		5 (4,3%)	5 (7,2%)
Girişin növü	Trans-	93 (80,2%)	57 (82,6%)
	Retro-	22 (19,0%)	8 (11,6%)
	Hibrid	1 (0,9%)	4 (5,8%)
Tərəf	Sağ	64 (55,2%)	33 (47,8%)
	Sol	52 (44,8%)	36 (52,2%)
Konversiya		5 (4,3±1,9%)	7 (10,1±3,6%)
Əməliyyatın müddəti (dəq.)		105,8±2,9 (50-215)	112,9±3,3 (60-182)
İnsuflyasiya müddəti (dəq.)		94,0±2,9 (36-205)	101,0±3,2 (50-170)
Qanitirmə (ml)		123,2±17,1 (10-1500)	176,1±25,5 (10-1500)
Drenaj müddəti (gün)		3,03±0,09	3,43±0,14
Əməliyyat zamanı fəsadlar		5 (4,3±1,9%)	10 (14,5±4,2%)
Əməliyyatdan sonrakı dövrdə fəsadlar		14 (12,1±3,0%)	16 (23,2±5,1%)
Yatış günü		3,79±0,21 (2-18)	4,51±0,31 (2-18)
Törəmənin ölçüsü		5,10±0,12 (2,5-7)	9,53±0,28 (7,1-19)
Lokal metastazlar		1 (0,9±0,9%)	-
Uzaq metastazlar		5 (4,3±1,9%)	8 (11,6±3,9%)
Əməliyyatdan sonrakı dövrdə yaşama keyfiyyəti (EGOC şkalası)	0	76 (66,1%)	51 (73,9%)
	1	32 (27,8%)	15 (21,7%)
	2	7 (6,1%)	3 (4,4%)

Törəmələrin dəqiq ölçüsü, şişin hansı mərhələdə olması patohistoloji raydan sonra müəyyənləşdirilərək. bu parametrlərə görə xəstələrin intraoperativ və əməliyyatdan sonrakı dövrdə yaxın nəticələrinin təhlilini aparmışıq. Törəmələrin ölçüləri 2,5-15 sm arası, orta - 6,75±0,2 sm olmuşdur. Bütün xəstələr şişin ölçüsünə görə 2 qrupa bölünmüşdülər- 1-ci qrup - 7 sm kiçik, 2-ci qrup- 7 sm böyük. I qrup- 116 xəstə (62,7%). II qrup- 69 xəstə (37,3%) təşkil etmişdir. Bu qruplardakı xəstələrin intraoperativ və postoperativ parametlərinin müqaisəsi Cədvəl 2 təqdim edilmişdir.

Şişin böyrək kapsulasına invaziyasına görə xəstələr daha iki qrupa bölünmüşdürlər. Beləki. III qrupa - 137 xəstə (T1-T2 mərhələsi – törəmə böyrək kapsulasını keçmir) və IV qrupa 38 xəstə (T3 mərhələsi – törəmə böyrək kapsulasını keçir) daxil edilmişdir. Bu qruplardakı xəstələrin intraoperativ və postoperativ parametlərinin müqaisəsi Cədvəl 3 təqdim edilmişdir.

Əməliyyatdan zamanı bütün xəstələrə drenləşdirici boru qoyulmuş, müddəti 1-8 gün arası (orta - 3,18±0,08 gün) olmuşdur. Əməliyyatdan sonarkı dövrdə 30 xəstədə (16,2±2,7%) müxtəlif fəsadlar müşahidə edilmişdir (Clavien I-IV). Bunlardan 27 xəstədə yüngül fəsadlar (I-II mərhələ), 3 xəstədə isə ağır fəsadlar (III-V mərhələ) olmuşdur. Hospitalizasiya dövrü 2-18 gün arası (orta 4,06±0,18 gün) təşkil etmişdir.

Əməliyyatdan sonrakı dövrdə xəstələrin ağrı hiss etməsi şkalası ilə dəyərləndirilmişdir. Beləki, 6 (3,3±1,3%) xəstədə 0 bal, yani ağrı olamamışdır, 105 (57,1±3,6%) xəstədə -1 bal (yüngül ağrı), 73(39,7±3,6%) xəstədə 2 bal (orta ağrı) olmuşdur. Müxtəlif müddətdə 1 xəstədə (0,5±0,5%) lokal metastaz, 13 (7,1±1,9%) xəstədə uzaq metastazlar olmuşdur. Əməliyyatın kosmetik effekti xəstələr tərəfindən aparılmış sorğu ilə dəyərləndirilmişdir.

Tədqiqatdakı 185 xəstədən 175-də bəd xassəli törəmələr olmuşdur. Bunlardan şişlər 78 xəstədə - T1, 59 xəstədə- T2, 38 xəstədə- T3 mərhələsində olmuşdur. Histoloji qradasiya görə 18 xəstədə (10,3%)- Fuhrman1, 92 (52,6%) - Fuhrman 2, 54 (30,8%) - Fuhrman 3 və 11 (6,3%) xəstədə Fuhrman 4 mərhələsində olmuşdur.

Cədvəl 2

I və II qrupdakı xəstələri müqaisəli təhlili

Göstərici		I qrup (n=116)	II qrup (n=69)
Yaş		58,0±1,2 (33-86)	56,7±1,4 (27-79)
Cinsi	K	71 (61,2%)	45 (65,2%)
	Q	45 (38,8%)	25 (34,8%)
Yanaşı xəstəliklər		74 (63,8%)	37 (53,6%)
Keçirmiş əməliyyatlar		43 (37,1%)	18 (26,1%)
Törəmələrin sayı	orta	1,09±0,06 (1-8)	1,10±0,07 (1-5)
Böyrək venasının trombozu		6 (5,2%)	10 (14,5%)
Aşağı boş venasının trombu		-	1 (1,4%)
Reqionar metastazlar		8 (6,9%)	9 (13,0%)
Uzaq metastazlar		5 (4,3%)	5 (7,2%)
Girişin növü	Trans-	93 (80,2%)	57 (82,6%)
	Retro-	22 (19,0%)	8 (11,6%)
	Hibrid	1 (0,9%)	4 (5,8%)
Tərəf	Sağ	64 (55,2%)	33 (47,8%)
	Sol	52 (44,8%)	36 (52,2%)
Konversiya		5 (4,3±1,9%)	7 (10,1±3,6%)
Əməliyyatın müddəti (dəq.)		105,8±2,9 (50-215)	112,9±3,3 (60-182)
İnsuflyasiya müddəti (dəq.)		94,0±2,9 (36-205)	101,0±3,2 (50-170)
Qanitirmə (ml)		123,2±17,1 (10-1500)	176,1±25,5 (10-1500)
Drenaj müddəti (gün)		3,03±0,09	3,43±0,14
Əməliyyat zamanı fəsadlar		5 (4,3±1,9%)	10 (14,5±4,2%)
Əməliyyatdan sonrakı dövrdə fəsadlar		14 (12,1±3,0%)	16 (23,2±5,1%)
Yatış günü		3,79±0,21 (2-18)	4,51±0,31 (2-18)
Törəmənin ölçüsü		5,10±0,12 (2,5-7)	9,53±0,28 (7,1-19)
Lokal metastazlar		1 (0,9±0,9%)	-
Uzaq metastazlar		5 (4,3±1,9%)	8 (11,6±3,9%)
Əməliyyatdan sonrakı dövrdə yaşama keyfiyyəti (EGOC şkalası)	0	76 (66,1%)	51 (73,9%)
	1	32 (27,8%)	15 (21,7%)
	2	7 (6,1%)	3 (4,4%)

Törəmələrin dəqiq ölçüsü, şişin hansı mərhələdə olması patohistoloji rəydən sonra müəyyənləşdirilərək, bu parametrlərə görə xəstələrin intraoperativ və əməliyyatdan sonrakı dövrdə yaxın nəticələrinin təhlilini aparmışıq. Törəmələrin ölçüləri 2,5-15 sm arası, orta - 6,75±0,2 sm olmuşdur. Bütün xəstələr şişin ölçüsünə görə 2 qrupa bölünmüşdülər- 1-ci qrup - 7 sm kiçik, 2-ci qrup- 7 sm böyük. I qrup- 116 xəstə (62,7%), II qrup- 69 xəstə (37,3%) təşkil etmişdir. Bu qruplardakı xəstələrin intraoperativ və postoperativ parametlərinin müqaisəsi Cədvəl 2 təqdim edilmişdir.

Şişin böyrək kapsulasına invaziyasına görə xəstələr daha iki qrupa bölünmüşdürlər. Beləki, III qrupa - 137 xəstə (T1-T2 mərhələsi – törəmə böyrək kapsulasını keçmir) və IV qrupa 38 xəstə (T3 mərhələsi – törəmə böyrək kapsulasını keçir) daxil edilmişdir. Bu qruplardakı xəstələrin intraoperativ və postoperativ parametlərinin müqaisəsi Cədvəl 3 təqdim edilmişdir.

Əməliyyatdan zamanı bütün xəstələrə drenləşdirici boru qoyulmuş, müddəti 1-8 gün arası (orta - 3,18±0,08 gün) olmuşdur. Əməliyyatdan sonarkı dövrdə 30 xəstədə (16,2±2,7%) müxtəlif fəsadlar müşahidə edilmişdir (Clavien I-IV). Bunlardan 27 xəstədə yüngül fəsadlar (I-II mərhələ), 3 xəstədə isə ağır fəsadlar (III-V mərhələ) olmuşdur. Hospitalizasiya dövrü 2-18 gün arası (orta 4,06±0,18 gün) təşkil etmişdir.

Əməliyyatdan sonrakı dövrdə xəstələrin ağrı hiss etməsi şkalası ilə dəyərləndirilmişdir. Beləki, 6 (3,3±1,3%) xəstədə 0 bal, yani ağrı olamamışdır, 105 (57,1±3,6%) xəstədə -1 bal (yüngül ağrı), 73(39,7±3,6%) xəstədə 2 bal (orta ağrı) olmuşdur. Müxtəlif müddətdə 1 xəstədə (0,5±0,5%) lokal metastaz, 13 (7,1±1,9%) xəstədə uzaq metastazlar olmuşdur. Əməliyyatın kosmetik effekti xəstələr tərəfindən aparılmış sorğu ilə dəyərləndirilmişdir.

Beləki, 117(63,6±3,5%) xəstə kosmetik effekti "Əla" olaraq, 58 (31,5±3,4%) xəstə "Yaxşı" olaraq, 9 (4,9±1,9%) xəstə isə "Kafi" olaraq dəyərləndirmişdirlər.

Cədvəl 3

III və IV qrupdakı xəstələri müqaisəli təhlili

Göstərici		III qrup (n=137)	IV qrup (n=38)
Yaş		57,6±1,0 (27-86)	59,6±1,7 (39-79)
Cinsi	K	83 (60,6%)	31 (81,6%)
	Q	54 (39,4%)	7 (18,4%)
Yanaşı xəstəliklər		80 (58,4%)	22 (57,9%)
Keçirmiş əməliyyatlar		47 (34,3%)	13 (34,2%)
Törəmələrin sayı	orta	1,12±0,06 (1-8)	1,03±0,03 (1-2)
Böyrək venasının trombozu		1 (0,7%)	15 (39,5%)
Aşağı boş venanın tombozu		-	1 (2,6%)
Reqionar metastazlar		6 (4,4%)	11 (28,9%)
Uzaq metastazlar		6 (4,4%)	4 (10,5%)
Girişin növü	Trans-	114 (83,2%)	32 (84,2%)
	Retro-	22 (16,1%)	3 (7,9%)
	Hibrid	1 (0,7%)	3 (7,9%)
Tərəf	Sağ	75 (54,7%)	18 (47,4%)
	sol	62 (45,3%)	20 (52,6%)
Konversiya		10 (7,3±2,2%)	2 (5,3±3,6%)
Əməliyyatın müddəti (dəq)		106,4±2,6 (50-215)	114,1±5,0 (65-182)
İnsuflyasiya müddəti (dəq)		94,8±2,6 (36-205)	102,0±4,9 (50-170)
Qanitirmə (ml)		146,0±18,7 (10-1500)	147,8±20,1 (10-500)
Drenaj müddəti (gün)	orta	3,10±0,09 (1-7)	3,47±0,18 (2-6)
Əməliyyat zamanı fəsadlar		12 (8,8±2,4%)	3 (7,9±4,4%)
Əməliyyatdan sonrakı dövrdə fəsadlar		19 (13,9±3,0%)	11(28,9±7,4%)
Hospitalizasiya müddəti (gün)		3,84±0,16 (2-18)	4,82±0,57 (2-18)
Törəmənin ölçüsü (sm)		6,29±0,21 (2,5-15)	8,14±0,42 (4,5-14)
Lokal metastazlar		-	1 (2,7±%)
Uzaq metastazlar		8 (5,9±2,0%)	5 (13,2±%)
Əməliyyatdan sonrakı dövrdə yaşama keyfiyyəti (EGOC şkalası)	0	94 (69,1%)	24 (63,2%)
	1	36 (26,5%)	10 (26,3%)
	2	6 (4,4%)	4 (10,5%)

Əməliyyatdan sonrakı birinci ildə xəstələrin yaşama keyfiyyəti– onkoloji xəstələrin yaşama keyfiyyəti (EGOC) şkalası ilə dəyərləndirilmişdir [8].

0-Pasient tam aktivdir, şikayyətləri yoxdur - 127 (69,0%) xəstə.

1-Pasientin fiziki aktivliyi bir qədər məhduddur, lakin ambulator şəraitdə yüngül az hərəkətli işləri görə bilir (ev işləri, ofis işləri) - 47 (25,6%) xəstə.

2-Pasient ambulator şəraitdə öz tələbatlarını tam ödəyir, lakin aktiv hərəkətləri məhduddur - 10 (5,4%) xəstə.

Müzakirə. Bizim tədqiqatdakı xəstələrdə böyrək şişlərin ölçüsü 2,5-dən 15 sm qədər olmuşdur. Bu parametrə görə xəstələri iki qrupa, törəmənin böyrəyin kapsulasına invaziya edib və etmədiyinə görə isə daha iki qrupa bölərək, intraoperativ və yaxın postoperativ göstəricilərinin retrospektiv müqaisəli təhlili aparmışıq. Cədvəl 2-dən göründüyü kimi, törəmənin ölçüsünün 7 sm kiçik olan qrupdakı xəstələrdə (I qrup) əməliyyat və insuflyasiya müddəti ($p<0,05$), intraoperativ qanitirmə miqdarı, hospitalizasiya və drenaj müddəti ($p<0.01$), konversiya, əməliyyatdan zamanı və sonrakı dövrdəki fəsadların faizi ($p<0,05$), reqionar və uzaq metastazlar, böyrək venasının trombozu və kosmetik effekt ($p<0,05$) göstəriciləri ikinci qrupdakı (törəmənin ölçüsünün 7 sm böyük) xəstələrdən daha yaxşı olmuşdur.

Patohistoloji müayyinə nəticəsində LRN icra edilmiş 185 xəstədən 38-də xərçəng hüceyrələrinin böyrək kapsulasına və perinefral toxumalara invaziya etməsi (T3a-T3b mərhələsi) aşkar edilmişdir. Bu xəstələr bir qrupa (IV qrup) birləşdirilərək törəmənin kapsula daxili inkişafı olan (T1a-T2b mərhələsi) xəstələrlə (III qrup) müqaisəli təhlili aparılmışdır. Cədvəl 3-dən göründüyü kimi, əməliyyat, insuflyasiya, hospitalizasiya və drenaj müddətləri, uzaq metastazların əmələ gəlməsi, əməliyyatdan sonrakı dövrdəki fəsadların faizi ($p<0,05$), lokal

metastazların əmələ gəlməsi (p<0,05), reqionar metastazlar (p<0,01), törəmənin ölçüsü (p<0,01), böyrək venasında trombun əmələ gəlməsinə görə (p<0,01) üçüncü qrupdakı (T1a-T2b mərhələsi) xəstələrin göstəriciləri daha yaxşı olmuşdur. Lakin, konversiya, əməliyyat zamanı fəsadlar və törəmələrin sayı IV qrupdakı xəstələrdə daha az olmuşdur. Nəticələrin törəmənin mərhələsinə görə aparılmış müqaisəli təhllində T3a-T3b qrupdaki xəstələrdə konversiya, əməliyyat zamanı fəsadların az olması, fikrimizcə əsasən törəmənin ölçüsündən asılı olduğuna dəlalət edir.

Yekun. Böyrək şişlərinin cərrahi müalicəsində LRN seçim əməliyyatı hesab edilir. LRN texniki olaraq şişin ölçüsündən asılı olmayaraq aparıla bilər, lakin törəmənin ölçüləri 7 sm böyük olduğu hallarda əməliyyatın aparılması texniki cəhətdən daha çətin, əməliyyatdan sonrakı dövr daha ağır keçir. Fikrimizcə, əməliyyatın gedişatına və yaxın postoperativ nəticələrə törəmənin ölçüsü və yerləşməsi əsas təsiredici faktorlardır. Böyrək şişinin hansı mərhələdə olması isə, daha çox uzaq nəticələrin dəyərləndirilməsində rol oynayır.

ƏDƏBİYYAT

1. Clayman R.V., Kavoussi L.R., Soper N.J. et al. Laparoscopic nephrectomy: initial case repor // J Urol., 1991, v.146(2), p.278-282.
2. Ljungberg B., Bensalah K., Bex A.et al. EAU Guidelines on Renal Cell Carsinoma. 2014, p.1-48.
3. Park Y.H., Lee E.S., Kim H.H. et al. Long-term oncologic outcomes of hand-assisted laparoscopic radical nephrectomy for clinically localized renal cell carcinoma: a multi-institutional comparative study // J Laparoendosc Adv Surg Tech A., 2014, v.24(8), p. 556-562.
4. Weikert S., Boeing H., Pischon T. et al. Blood pressure and risk of renal cell carcinoma in the European prospective investigation into cancer and nutrition // Am J Epidemiol., 2008, v.167(4), p.438-446.
5. Laird A., Choy K.C., Delaney H. et al. Matched pair analysis of laparoscopic versus open radical nephrectomy for the treatment of T3 renal cell carcinoma // World J Urol., 2015, v.33(1), p.25-32
6. Öner Şanlı, Murat Tunc, Fırat Zeytun, Tzevat Tefik, Rauf Naghiyev, Mazhar Ortac, Faruk Özcan. Seviye I ve II tümör trombüsü olan ve laparoskopik radikal nefrektomi (LRN) yapılan böbrek hücreli kanserli (BHK) hastaların operativ ve kısa dönem onkolojik sonuçları / 21 Ulusal Üroloji Kongresinin bildiri özetleri kitabı. 30 oktyabr- 3 noyabr 2010. s.46.
7. Guo H.F., Song Y., Na Y.Q. Value of abdominal ultrasound scan, CT and MRI for diagnosing inferior vena cava tumour thrombus in renal cell carcinoma // Chin Med J., 2009, v.122(19), p.2299-302.
8. Laird B.J., Fallon M., Hjermstad M.J. et al Quality of Life in patients with advanced cancer- differential association with performance status and systemic inflammatory response // Clin Oncol., 2016, v.34(23), p.2769-75.

Резюме

Анализ результатов лапароскопической радикальной нефрэктомии в зависимости от размеров и стадии опухолевого процесса

Р.Н.Нагиев

Целью данного исследования явилось изучение результатов лапароскопической радикальной нефрэктомии (ЛРН) выполненной трансперитонеальным и ретроперитонеальным доступами в зависимости от размеров и стадии опухоли. Был проведен ретроспективный анализ результатов лапароскопического хирургического лечения 185 больных с опухолями почки за период с 2010 по 2015 годы. Из них 116 (62,7 %) было мужчин, 69 (37,3 %) женщин, возраст больных колебался от 29 до 86 (средний- 57,5±0,9 лет). ЛРН 150 больным (81,1%) выполнена трансперитонеальным, 30 (16,2%) ретроперитонеальным доступами, 5 больным гибридной техникой (2,7%). В зависимости от размера опухоли больные были разделены на 2 группы - 1 группа с опухолями менее 7 см (116 больных (62,7%)), 2 группа с опухолями более 7 см (69 больных (37,3%)). В зависимости от стадии опухоли - 3 группу вошли 137 больных (T1-T2 - опухоль не прорастает поченую капсулу) и 4 группа 38 больных (T3 - опухоль прорастает поченую капсулу). Время операции колебалось от 50 до 215 мин. (среднее -108,5±2,2 мин), инсуфляции от 36 до 205 мин (среднее - 96,7±2,2 мин), интраоперационная кровопотеря от 10 до 1500 мл (среднее- 143,1±14,4 мл). В зависимости от гистологического типа опухоли больные разделились следующим образом: у 174 (94,0%) - почечно-клеточный рак, у 1 (0,5%)- саркома, у 4- онкоцитома (2,2%), у 4- ангиомиолипома (2,2%) и у 2 - кистозная нефрома (1,1%). Из 175 больных, у которых был выявлен злокачественный процесс, опухоль в стадии T1-78 больных, в стадии T2 - 59 больных, в стадии T3-38 больных. Размеры опухоли колебались от 2,5 до 15 см (средний - 6,75±0,2 см). В 1 случае (0,5%) наблюдался летальный исход, интраоперационные осложнения были у 15 больных (8,1±2,0%), послеоперационные у 30 больных (16,2±2,7%), конверсия у 12 больных. Среднее время госпитализации составило 4,06±0,18 суток (2-18 суток). ЛРН считается методом выбора в лечении больных с опухолями почки и может успешно выполняться не зависимо от размеров опухоли. При опухолях размерами более 7 см она технически

более сложна и течение послеоперационного периода более тяжелое. Стадия же опухолевого процесса оказывает влияние на отдаленные послеоперационные результаты.

Summary

Analysis of results of laparoscopic radical nephrectomy, depending on the size of the tumor and the stage of the process.

R.N.Naghiyev

The aim of this study was to examine the results of laparoscopic radical nephrectomy (LRN) performed by transperitoneal and retroperitoneal accesses, depending on the size and stage of the tumor. A retrospective analysis was carried out of the results of laparoscopic surgical treatment of 185 patients with kidney tumors during the period from 2010 to 2015 years. Amongst the participants there were 116 men (62.7%) and 69 women (37.3%) aged 29-86 (average age of 58.1 years). 150 patients (81.1%) have performed radical nephrectomy by transperitoneal access, while 30 patients (16.2%) experienced identical process through retroperitoneal access, 5 cases (2.7%) hybrid technique was utilized. Depending on the size of the tumor, the patients were divided into 2 groups-group 1 with tumors less than 7 cm (116 patients (62.7%)), 2 group with tumors more than 7 cm (69 patients (37.3%)), depending on the stage of the tumor-3 group included 137 patients (T1-T2-tumor will not germinate kidney capsule) and 4 group 38 patients (T3-tumor grows kidney capsule). The operation time ranged from 50 to 215 min. (average -108.5±2.2 min), insuflation from 36 up to 205 minutes (average-96.7±2.2 min), intraoperative blood loss from 10 to 1500 ml (average-143.1±14.4 ml). Depending on histological type, the patients were divided as follows: 174 (94.0%)-renal cell carcinoma, 1 (0.5%)- sarcoma, 4- oncositoma (2.2%) and 4-angiomiolipoma (2.2%) and 2-cystic nefroma (1.1%). Of the 175 patients which revealed cancer tumor process in stage T1-78 patients, in stage T2-59 patients, in stage T3-38 patients. Tumor sizes ranged from 2.5 to 15 cm (average-6.75±0.2 sm). Only one of the patients (0.5%) suffered a fatal outcome, intraoperative complications were 15 patients (8.1±2.0%), 30 patients have post-operative (16.2±2.7%), conversion of 12 patients have. Average time of hospitalization was 4.06 ± 0.18 days (2-18 days). LRN is considered the method of choice in the treatment of patients with kidney tumors and can be run successfully regardless of the size of the tumor. For tumors larger than 7 cm, it is technically more difficult and the postoperative period more difficult. Same stage of tumorous process has an impact on long-term postoperative results.

Daxil olub: 04.04.2016

MALYARİYA XƏSTƏLİYİNİN BƏRPASINDA VƏ YAYILMASINDA RESPUBLİKA ƏRAZİSİNİN TƏBİİ-İQLİM ŞƏRAİTİ İLƏ YANAŞI ƏHALİNİN MİQRASİYASININ ROLU

İ.A.Hacıyev

V.Axundov adına Milli ET Tibbi Profilaktika İnstitutu

Açar sözlər: miqrasiya; eliminasiya

Ключевые слова: миграция; элиминация

Key words: migration; elimination

Malyariya xəstəliyi Azərbaycanın ölkə patologiyası hesab edilən xəstəliklər sırasındadır. Odur ki, respublika Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış və Səhiyyə Naziri O.Şirəliyev tərəfindən təsdiq edilmiş malyariya xəstəliyinin ölkədə eliminasiyasına nail olunmaq üçün "Milli proqram" əsasında aparılan mübarizə-profilaktika tədbirlərinin nəticəsi olaraq respublikamızda 2013-cü ildə malyariyanın eliminasiyasına nail olunmuşdur.

Lakin, 1960-cı ildə respublikada malyariyanın kütləvi xəstəlik kimi ləğvindən sonra 1970-71-ci illərdə Şirvan, 1980-81-ci illərdə Lənkəran-Masallı və 1995-96-cı illərdə Muğan bölgəsində malyariyanın epidemik alovlanmaları baş verdi [1]. Belə vəziyyət onu göstərir ki, respublika ərazisi malyariya keçiriciləri olan Anopheles ağcaqanadlarının inkişafı, yoluxması və insanları yoluxdurması üçün ilin ən azı 5 ayı əlverişlidir. Digər tərəfdən, alovlanmalar söndürüldükdən sonra tibb müəssisələri tərəfindən profilaktik tədbirlərin zəiflədilməsidir.

Apardığımız elmi araşdırmalar və epidemioloji təhlillər göstərir ki, hansı ərazidə malyariyaya qarşı profilaktika zəifləyirsə, orada xəstəliyin alovlanması baş verir [1,2].

Onu da qeyd etmək lazımdır ki, ölkəmiz müstəqilliyini əldə etdikdən sonra bir çox xarici ölkələrlə diplomatik, iqtisadi əlaqələr yaradılması, eləcə də ölkəmizdə turizmin inkişafı ilə əlaqədar olaraq hər il ölkəyə 10 minlərlə turistin gəlməsi, əhalinin miqrasiyasının intensivləşməsinə səbəb olmuşdur. Bununla əlaqədar

olaraq, son 2 il istisna olmaqla, demək olar ki, hər il xaricdən gətirilmə malyariya hadisəsi qeydə alınmışdır (cədvəl).

Son illər gətirilmə malyariya hadisəsi Bakı, Sumqayıt kimi şəhərlərdə qeyd olunmaqla yanaşı, respublikanın uçqar rayonlarında da qeydə alınır [2, 3, 4].

Cədvəl 1

Xarici ölkələrdən gətirilmə malyariya hadisələrinin dinamikası (1996 - 2013)

Sıra sayı	Ölkələrin adı	Malyariya hadisələri illər üzrə										
		1996	1997	1998	1999	2000	2001	2002	2003	2004	2005	2006
1	Hindistan	1x										
2	İran	1xx	1xx				1xx					1xx
3	Mısır	1x										
4	Əfqanıstan		1					1xx				
5	Pakistan		1xx									
6	Gürcüstan				1x				1xx			1x
7	Sudan				3xx							
8	Mozanbik						1x					
9	Türkiyə								1xx			
10	İsrail											
11	Anqola											
12	İndoneziya											
13	Konqo											
14	Oman											
15	Qvineya											
16	Nigeriya											
17	Siyro Leon											
18	ÇAR											
19	ÇAD											
	Cəmi:	2x 1xx	1x 2xx	-	1x 3xx	-	1x 1xx	1xx	2xx	-	-	1x 1xx

Qeyd: 1.x- üç günlük malyariya 1xx- tropiki malyariya; 2. 15 ildə 27, son 2 ildə 8 xəstə aşkar edilib

Cədvəlin ardı

Sıra say ı	Ölkələrin adı	Malyariya hadisələri illər üzrə								
		2007	2008	2009	2010	15 il cəm i	2011	2012	2013	2 il cəm i
1	Hindistan				0	1	1x			1
2	İran					4				
3	Misir					1				
4	Əfqanıstan					2				
5	Pakistan	1xx		1xx		3	1x			1
6	Gürcüstan					3				
7	Sudan					3				
8	Mozanbik					1				
9	Türkiyə					1				
10	İsrail	1xx	1xx			2				
11	Anqola		1xx			1				
12	İndoneziya		1xx			1				
13	Konqo			1xx		1				
14	Oman				1xx	1				
15	Qvineya				1x	1				
16	Nigeriya				1x	1				
17	Siyro Leon						1xx		3xx	4
18	ÇAR						1xx			1
19	ÇAD						-		1xx	1
	Cəmi:	2xx	3xx	2xx	2x 1xx	27	2x 2xx	-	4xx	8

Hələ keçən əsrin 60-cı illərində akademik V.Serqiyev demişdir: "Nə qədər ki, qlobal miqyasda malyariya problemi həll edilməyib, sağlamlaşdırılmış ərazilərə xəstəliyin gətirilməsi ehtimalı qalır". Sonrakı illərin təcrübəsi bunu bir daha təsdiq etdi [5].

Bu baxımdan qeyd etmək lazımdır ki, 1996-2010-cu illərdə (15 ildə) gətirilmə 27 malyariya hadisəsi qeydə alınmışdırsa, 2011 və 2013-cü illərdə (2 ildə) 8 hadisə qeydə alınıb. qeydə alınan 8 xəstənin 6 nəfəri malyariyanın tropik formasıdır.

ÜST-nın məlumatına görə, hazırda dünyada hər il 200 milyona yaxın malyariya hadisəsi qeydə alınır və onlardan bir milyona yaxın insan dünyasını dəyişir. Dünyanın 19 ölkəsi malyariyaya yoluxma ehtimalı olan ərazi sayılır və 3,3 milyard əhali deməkdir. Bundan başqa, hər il dünya əhalisinin 2 milyardı hava nəqliyyatından istifadə edir. Belə vəziyyət xəstəliyin gətirilməsi ehtimalını daha da artırır. Qeyd etdiklərimizlə yanaşı, xəstəlik infeksiyaya yoluxmuş ağcaqanadlar vasitəsilə də gətirilə bilər [5].

Akademik V.Serqiyev Bakıda olarkən Tibb qəzetinə verdiyi müsahibə zamanı demişdir: "İnfeksiya qadın kimidir, yaddan çıxarılanda inciyirlər". Odur ki, malyariyaya görə epidemioloji nəzarət tədbirləri daim aparılmalıdır.

Hələ keçən əsrin ortalarında tropik xəstəliklərə həsr olunmuş konfransda professor Beklemişev demişdir: "Yanğın olmayan şəhərdə yanğın söndürən komanda hazır olduğu kimi, malyariya ilə mübarizə edən təşkilatlar həmişə hazır olmalıdırlar".

Odur ki, respublikada malyariya xəstəliyinin eliminasiyasına nail olunmasına baxmayaraq, əhali üzərində epidemioloji nəzarət tədbirləri gücləndirilməli, miqrasiya edən əhali isə ərazi tibb idarələrinin nəzarəti altında saxlanmalıdır. Bunlarla yanaşı, əhali arasında malyariyanın profilaktikasına aid çox tərəfli sanitariya maarifi işi aparılmalıdır.

ƏDƏBİYYAT

1. Abdullayev X.İ., Hacıyev İ.A., Əliyev M.İ., Məmmədov S.M. Azərbaycanda 1995-96-cı illərdə malyariyanın baş vermiş epidemiyasının əmələ gəlmə səbəbləri və onun epidemik xüsusiyyətləri. XXI əsrdə klinik mikrobiologiyanın aktual problemləri mövzusunda respublika elmi-praktik konfransın məcmuəsi. Bakı. 2001. s.6-10

2. Hacıyev İ.A., Hacıyeva N.Y., Məmmədov S.M. Respublikanın endemik böigələrində malyariyaya yoluxmuş xəstələrin kənar yerlərdə aşkar edilməsi, həmin ərazilərdə mövcud olan malyarioloji vəziyyətin göstəricisi kimi. V.Axundov adına METTPİ-nin 80 illik yubileyinə həsr olunmuş konfransın materialları. Bakı, 2002, s.135-138

3. Hacıyev İ.A., Abdullayev X.İ., Hacıyeva N.Y. Müasir mərhələdə malyariyaya görə əhalidən qan preparatının məqsədyönlü götürülməsi və müayinəsi haqqında. Fiziki-kimyəvi faktorların makro və mikroorqanizmlərə təsiri mövzusunda elmi konfransın materialları. Bakı, 1996, s.53-54

4. Hacıyev İ.A., Əliyev M.İ., Fərəməzov A.Z. və b. Azərbaycanda üçgünlük malyariya ocaqlarının əmələ gəlmə səbəbləri və onların sağlamlaşdırılması yollarına dair. Akademik V.Axundovun 90 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının məcmuəsi. Bakı, 2006, s.204-206

5. Hacıyev İ.A. Respublikada hazırda mövcud olan malyarioloji vəziyyət və onun epidemioloji cəhətdən qiymətləndirilməsi V.Axundov adına METTPİ-nin elmi əsərləri. Bakı, 2014, cild VII, s.57-65

Summary

The role of migration of spreading and restoration of disease of malaria beside natural elimatic condition of republic area

I.A.Hajiyev

İndicating the natural climatic condition beside increasing of migration though achieving of malaria illumination in the area of republic authors advise to intensify epidemiological control on population and keep the migrant under the control at the area of medical department.

Резюме

Роль миграции населения, рядом природно-климатический условия республики, о восстановление и распределение малярии

И.А.Гаджиев

Авторы, показывая природно-климатический условия республики и увеличения интенсивности миграции населения, считают, что, несмотря на элиминации малярии, необходимо усилить эпидемиологический надзор за населением и мигрирующий держать под контролем мед.учреждения.

Daxil olub: 21.04.2016

DƏRİ MELANOMASININ DİAQNOSTİKASI MƏSƏLƏSİNİN MÜASİR VƏZİYYƏTİ

A.Ə.Xıdırova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: dəri melanoması

Ключевые слова: меланома кожи

Key words: skin malignant melanoma

Dəri şişlərinin diaqnostikası mürəkkəb məsələdir. Belə ki, bu qrupa çoxsaylı nozoloji formalar, o cümlədən xoşxassəli şişlər, prekanserozlar və bədxassəli şişlər daxildir və eyni bir şiş müxtəlif görünüşə malik ola bilir ki, bu da onların diaqnostikası işini çətinləşdirir. Ayrı-ayrı xoşxassəli şişlərin malignizasiya tezliyi o qədər yüksəkdir ki, onları fakultativ prekanserozlar kimi qiymətləndirməyə imkan verir [1,2,3]. Dərinin epitelial şişlərinin öyrənilməsi göstərmişdir ki, klinik diaqnoz histoloji diaqnozla yalnız 72,9% hallarda üst-üstə düşür. Bouen xəstəliyi, dərinin yastıhüceyrəli xərçəngi və dəri artımlarının bədxassəli şişləri zamanı bu göstərici daha az 50-60% olur. Dərinin metastatik şişlərinin diaqnostikası yalnız histoloji müayinənin cavabı alındıqdan və daxili orqanda birincili ocaq müəyyənləşdikdən sonra mümkün olur [2]. Dərinin piqment şişlərinin diaqnostikası daha böyük çətinliklərlə bağlıdır. Belə ki, bu şişlər xeyli müxtəlif klinik gediş formalarına malikdir. Dərinin piqment şişlərinin diaqnostikasının dəqiqliyini öyrənərək, müəlliflər müəyyən etmişlər ki, 60-cı illərin əvvəllərində diaqnostik dəqiqlik 38,0% təşkil etmişdir [5]; 30 ilə yaxın bir dövrdən sonra, 1988-ci ildə histoloji olaraq melanoma diaqnozu təsdiq edilmiş xəstələrdə klinik olaraq 51-58% hallarda melanomaya şübhə olmuşdur [6,7]. 1994-cü ildə histoloji olaraq melanoma diaqnozu təsdiq edilmiş xəstələrdə 34% hallarda klinik olaraq melanomaya şübhə olmamışdır [6]. Ədəbiyyatda hətta dəri melanoması (DM) zamanı səhv klinik diaqnozun 80 %-ə qədər rəqəm təşkil etdiyi barədə məlumatlar vardır (8). Son illər melanomanın müalicəsində müəyyən müvəffəqiyyətlər əldə edilməsinə baxmayaraq,

xəstələrin 5-illik yaşama göstəriciləri yüksək deyil və əsasən xəstəlik qeydə alınan vaxt şiş prosesinin yayılma dərəcəsindən, yəni vaxtında qoyulmuş adekvat diaqnostikadan asılıdır [1].

Hazırda ümumi profilli həkimlərdə birincili dəri melanomasının klinik diaqnostikasının dəqiqliyi cəmi 37% təşkil edir. Çox vaxt hiperdiaqnostika hallarına rast gəlinir və səhv diaqnoz ən çox "nazik", səthi - yayılan şişlərdə müşahidə edilir [8]. Ədəbiyyat məlumatları göstərir ki, birincili DM zamanı klinik hiperdiaqnostika təxminən 60% təşkil edir. Bu vəziyyət onunla izah edilir ki, xəstələr ilk olaraq çox vaxt ümumi profilli həkimlərə müraciət edirlər, onlar da xəstələrdə DM olmasını güman edərək DM əvəzinə bu və ya digər xoşxassəli diş diaqnozu qoyulması və bunun da arzuolunmaz nəticələrə gətirməsi səhvindən ehtiyat edirlər. Məhz belə bir vəziyyət həkimləri müəyyən hallarda əsassız olaraq DM diaqnozu qoymağa məcbur edir. Belə bir hiperdiaqnostika faciəvi nəticələrə gətirmir, lakin bəzən lazımsız geniş həcmli əməliyyatlar aparılmasına və xəstələrin kosmetik qüsurlar almasına, xəstələrin qoyulan diaqnozdan məlumatı olduqda isə ağır psixoloji travma almalarına səbəb olur [6 8,9]; Bəzən belə bir hallara da rast gəlinir ki, ümumi profilli həkimlər DM-in erkən simptomları və fon vəziyyətlər barədə kifayət qədər məlumata malik olmadıqlarından, həqiqi DM bu və ya digər xoşxassəli şiş və ya inkişaf qüsuru kimi qiymətləndirilir [6,8,9]. DM-in diaqnostikasını çətinləşdirən məqamlardan biri də budur ki, baxmayaraq ki, bir sıra müəlliflər hesab edirlər ki, DM zamanı biopsiya və sonra aparılan müalicə pasiyentlərin 5- və 10-illik yaşamasına təsir göstərmir [11,12], əksər klinisistlər melanomanın diferensial diaqnostikasında bu üsuldan istifadə etmirlər. Qeyd etmək lazımdır ki, Xərçəngin öyrənilməsi üzrə Beynəlxalq Agentlik tərəfindən verilmiş dəri şişlərinin təsnifatına uyğun olaraq, dərinin xoşxassəli yenitörəmələrinin sistemləşdirilməsi və diaqnostikası, klinik əlamətlər və müasir instrumental tədqiqatlarla mümkün olursa, bədxassəli şişə şübhə olduqda mütləq morfoloji tədqiqat aparılmalıdır. Əksər (90%) hallarda sitoloji müayinə kifayət edir [13]. Dərinin xoşxassəli yenitörəmələrinin əsas diaqnostika üsulu klinik-anamenstik (82,4%) üsuldur, potensial bədxassəli şişlər üçün sitoloji (83,3%) bədxassəli şişlər üçün sitoloji - (90,6%) müayinədir. Bir sıra şişlərin diferensial diaqnostikası üçün histoloji (8,7%) və immunohistokimyəvi (1,0%) sitoloji və histoloji (0,8%) müayinə aparılmalıdır [14]. M. Jane, Grant-Kels et al. qeyd edirlər ki, bədxassəli melanomanın erkən formalarının diaqnostikası son 40 il ərzində xeyli yaxşılaşmışdır [9]. Əvvəllər melanoma ən bədxassəli gedişə malik və fatal nəticələrə gətirən şişlərdən hesab olunurdusa, son illər melanomanın fatal nəticələrə gətirən bir şiş olması barədə fikirlər təsdiq olunmur [16]. Bu vəziyyət ilk növbədə DM-in erkən müasir diaqnostikası imkanlarının reallaşdırılması ilə izah edilir ki, bu da öz növbəsində effektli müalicəyə və xəstəliyin proqnozunun yaxşılaşmasına gətirir [1]. Belə ki, son illər sübut edilmişdir ki, vaxtında erkən diaqnoz qoyularsa, bədxassəli DM potensial olaraq tam sağalan xəstəlikdir. Xəstələrin yaşama müddəti birbaşa şişin qalınlığından və invaziya dərəcəsindən asılıdır. Tədqiqatlar göstərmişdir ki, 10- illik müşahidə dövrü ərzində I dərəcə invaziya zamanı xəstələrin yaşaması 100% təşkil etmiş , ikinci dərəcə invaziya zamanı bu müddətdə xəstələrin 4%-i, üçüncü dərəcə invaziya zamanı 14%-i, 4-cü dərəcə invaziya zamanı 24%-i, beşinci dərəcə invaziya zamanı isə 40% -i ölmüşdür. 5- illik müşahidə dövründə isə şişin birinci və ikinci invaziya dərəcəsi zamanı xəstələrin yaşaması 96,3%, beşinci invaziya dərəcəsində isə cəmi 42,3 % təşkil etmişdir (17). В.В.Анисимов isə tədqiqatlarında göstərmişdir ki, radikal cərrahi müalicədən sonra xəstələrin 5 illik yaşaması birinci dərəcə invaziya zamanı 100%, həm də şişin qalınlığı Breslow-a görə 1,0 mm-ə qədər olduqda-95% təşkil etmişdir [1]. Hipodiaqnostika bir sıra hallarda diaqnostikada olan həqiqi çətinliklərlə əlaqədar olur. Belə ki, baxmayaraq ki, DM-in klinik əlamətləri mütəxəssislərə yaxşı məlumdur, bəzən bu şişlər xoşxassəli piqment şişlərini xatırladır. Müəyyən edilmişdir ki, 16% hallarda dərinin piqment şişləri melanomanın klassik əlamətlərinə malik olmur. Bu zaman DM əvəzinə xəstələrə çox vaxt nevus, bazalhüceyrəli xərçəng, hemangioma, seboreyalı keratoz, lentiqo, az hallarda isə Bouen xəstəliyi, papilloma, dermatofibroma, piogen qranulema diaqnozları qoyulur [18]. Yuxarıdakı şərhdən aydın olur ki, DM-nin diaqnostikası klinik onkologiyanın aktual məsələlərindən biridir. DM-ə şübhə olduqda pasiyentin vaxtında və adekvat müayinəsi həyata keçirilməlidir. Bu müayinənin əsas vəzifələri DM diaqnozunu təsdiq etməkdən, birincili DM-in erkən diaqnostikasını həyata keçirməkdən, yəni şişi Clark-a görə I dərəcə invaziyada və Breslow-a görə 1,0 mm-ə qədər qalınlıqda aşkar etməkdən və DM-in yerli yayılma dərəcəsini müəyyənləşdirməkdən ibarət olmalıdır [1]. DM-in diaqnostikasında klinik-instrumental və morfoloji müayinə üsullarından istifadə edilir. Klinik müayinəyə sorğu ilə pasiyentin subyektiv şikayətləri və anamnestik məlumatların toplanması, vizual və fizikal müayinə üsulları aiddir. DM-in klinik əlamətləri məlumdur. DM-ə şübhə olduqda xəstələr çox vaxt birincili şiş nahiyəsində qaşınma və ya yanğı hissindən, onun islanması və ya qanamasından, törəmənin həm eni üzrə, həm də ətraf toxuma üzərindən böyüməsindən şikayət edirlər. Sorğu zamanı şişin hansı piqment törəməsi fonunda inkişafı aydınlaşdırılır, melanomanın dəyişilməmiş dəridən və ya anadangəlmə və qazanılma piqment ləkələri (nevuslar) fonunda inkişaf etməsi dəqiqləşdirilir. Həmçinin sorğu ilə uzun müddət davam edən piqment

ləkəsinin hansı səbəbdən dəyişikliyə uğraması aydınlaşdırılır. Xəstənin həkimə ilk müracıatına qədər klinik əlamətlərin davametmə müddəti müəyyənləşdirilir, qadınlarda aybaşının başlanma yaşı, hamiləliyin, doğuşların və abortların sayı, oral kontraseptivlərdən istifadə müddəti aydınlaşdırılır [1,19]. Vizual müayinə zamanı birincili şişin 1 mm dəqiqlikdə 3 proyeksiyada xətti ölçüsü ölçülür, mikroskopik böyümə forması, rəngi, boyanmanın bərabərliyi və depiqmentasiya ocaqları, sağlam dəri ilə sərhəddə şişin kənarlarının xarakteri müəyyənləşdirilir. DM zamanı sinxron birincili-çoxsaylı şişlər də ola bilir ki, buna görə pasiyentin bütün dəri örtüklərinə baxış keçirilir. Həmçinin gözün, saçın və dərinin rəngi dəqiqləşdirilir [1,19]. Klinik müayinədə dərinin piqment nevuslarının maliqnizasiyası əlamətlərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. В.В.Анисимов [1] birincili DM olan xəstələrdə xəstəliyin proqnozunun öyrənilməsinə həsr etdiyi tədqiqatda dərinin piqment nevuslarının klinik əlamətlərinin proqnostik əhəmiyyətini qiymətləndirmiş və bu əlamətləri proqnostik "ağırlığına" görə aşağıdakı ardıcıllıqda təqdim etmişdir:

1. Nevus üzərində dəri şəklinin itməsi.
2. Nevusun parlaq səthinin əmələ gəlməsi.
3. Nevusun formasının dəyişməsi, asimmetriyanın əmələ gəlməsi və ya nevus kənarının qeyri-düzgün şəkil alması.
4. Nevusun horizontal böyüməsi.
5. Nevus sahəsində qaşınma və ya yanğının əmələ gəlməsi.
6. Quru "qabıqlanma"nın əmələ gəlməsi ilə nevus səthinin qabıqlanması.
7. Nevus səthində tük örtüyünün düşməsi və ya olmaması.
8. Nevus–melanomanın rənginin tam və ya hissəvi (qeyri-bərabər) dəyişməsi–depiqmentasiya ilə əlaqədar sahənin əmələ gəlməsi.
9. Nevus–melanoma səthində xırda düyüncüklərin əmələ gəlməsi.
10. Nevus – melanomanın ətraf toxumalar üzərindən vertikal böyüməsi.
11. Palpator olaraq nevus – melanomanın konsistensiyasının dəyişməsi, onun yumşalması.
12. Nevus-melanoma üzərində epidermisin xoralaşması.
13. Nevus-melanoma sahəsində və onu əhatə edən toxumalarda iltihab əlamətləri.
14. Nevus-melanoma səthinin nəmlənməsi.
15. Nevus-melanomanın qanaması.
16. Nevus-melanoma ətrafında piqmentləşmiş qız və ya çəhrayı törəmələrin (satellitlərin) əmələ gəlməsi.

Müəllif qeyd edir ki, göstərilən ardıcıllıqda klinik simptomatika ola bilər ki, müəyyən qədər şərtidir və birincili dəri melanoması olan hər bir konkret xəstədə həmişə olmasın. Lakin klinik simptomların göstərilən ardıcıllıqda artması nevus-melanomada patogenetik dəyişiklikləri əks etdirir, şiş proqressiyası mərhələlərinin klinik əlamətləridir [1]. Fizikal müayinə palpasiya ilə şişin konsistensiyası, altda yerləşən toxumalarda şiş infiltrasiyasının olub-olmaması dəqiqləşdirilir, periferik limfa düyünləri palpasiya edilir, tranzit metastazlar aşkar edilir [1]. Fizikal müayinə zamanı həmçinin bütün pasiyentlərdə per rectum qadınlarda qalça limfa düyünlərində metastazları aşkar etmək üçün əlavə olaraq ginekoloji baxış aparılmalıdır. Qeyd etmək lazımdır ki, fizikal müayinə üsulu (baxış və palpasiya) dəri melanomasının əsas skrininq müayinə üsuludur [1]. DM-in diaqnostikasında istifadə edilən əsas instrumental müayinə üsullarına dermatoskopiya və ya epilyuminessensiya, termometrik və termoqrafik diaqnostika, radioizotopla müayinə, rentgenoloji müayinə və USM aiddir. DM müalicəsi nəticələrinin yaxşılaşdırılması birbaşa erkən diaqnostikadan asılıdır. Erkən diaqnostika məsələsi də öz növbəsində DM-i erkən mərhələlərdə aşkar etməyə imkan verən diaqnostika üsullarından asılıdır. DM-in erkən diaqnostikasında, eləcə də piqment şişlərinin diaqnostikasında effektiv qeyri-invaziv müayinə üsullarının axtarışı mütəxəssislərin daim diqqət mərkəzində duran məsələ olmuşdur. Bunlara epilyuminessent mikroskopiya (dermatoskopiya), infraqırmızı spektroskopiya, konfokal lazer mikroskopiyası, dərinin yüksək tezlikli ultrasəslə tədqiqi, fluoressent dermatoskopiya aiddir [16,22]. Bunların arasında epilyuminessentmikroskopiya (dermatoskopiya) xüsusi yer tutur. Bu üsul DM-in erkən diaqnostikasında köməkçi müayinə üsuludur [1,23,24, 25]. Dermatoskopiyadan əsasən dərinin piqment şişlərinin monitorinqi, dərinin melanoma və bədxassəli qeyri-melanoma bədxassəli şişlərinin diaqnostikası, nevusların morfologiyasının təyini zamanı, eləcə də dərinin bir sıra iltihabi və infeksion xəstəlikləri zamanı köməkçi instrumental müayinə üsulu kimi istifadə edilir [26,27]. Dermatoskopiyanın prinsipi optik sistem dermatoskopdan istifadə etməklə 10-40 dəfə böyütmə ilə epidermisin işıqlandırılmasından ibarətdir. Bu zaman epidermis və dermanın bütün təbəqələrinə baxış keçirmək və adi gözlə görünməyən, yalnız klinik müayinə ilə aşkar edilməyən, lakin DM-in erkən diaqnostikası üçün əhəmiyyət kəsb edən dəyişikləri aşkar etmək mümkündür [13,21 29]. Dermatoskopiya üsulu ABŞ, Kanada, Avstraliya və bir sıra Avropa ölkələrində (İtaliya, Almaniya, Avstriya və s.) xeyli təkmilləşmişdir və praktik səhiyyədə geniş tətbiq edilir. MDB ölkələri arasında birincili DM-in erkən diaqnostikasında yalnız Rusiyada bu üsulun tətbiqi və alınan nəticələr barədə

ədəbiyyat məlumatları vardır [1,31,32]. Baxmayaraq ki, xarici ölkə dermatoloqları iki onillikdir ki, dəri yenitörəmələrinin diaqnostikasında müvəffəqiyyətlə dermatoskopiyadan istifadə edirlər ki, Rusiyada mütəxəssislər üçün dermatoskopiya yeni və az istifadə edilən müayinə üsuludur [13]. Xarici ədəbiyyat mənbələrində dəri şişlərinin, o cümlədən dərinin piqment şişlərinin diferensial diaqnostikasında və DM-in erkən diaqnostikasında dermatoskopiyanın roluna həsr edilmiş tədqiqatlar barədə məlumatlar vardır [33]. Dərinin xoş və bədxassəli şişlərinin dermatoskopik əlamətlərinin öyrənilməsi əsasında ilk diferensial diaqnostik alqoritm 1987-ci ildə H.Pehamberger et al. (36) tərəfindən təqdim edilmişdir. Hazırlanmış alqoritm dermatoskopiya ilə aşkar edilən xarakter vizual əlamətlər əsasında dərinin melanositar və qeyri-melanositar, eləcə də xoş və bədxassəli piqment şişlərinin diferensial diaqnostikasını aparmağa imkan verdi. Aparılan tədqiqatlar dermatoskopiyanın effektivliyini göstərdi. Belə ki, adi klinik baxışla müqayisədə dermatoskopiya zamanı diaqnostik etibarlılığın 30% yüksək olduğu təsdiq olundu [25]. N.Cristofolini et al. (1994) dərinin piqment şişlərinin kliniki diaqnostikasında həssaslığın 85%, spesifikliyin 75% təşkil etdiyini, bunun müqabilində dermatoskopiya zamanı həssaslığın 88%, spesifikliyin isə 79% təşkil etdiyini göstərmişlər. Digər tədqiqatlar da klinik diaqnostika ilə müqayisədə dermatoskopiya zamanı həssaslığın artdığını göstərmişdir [31,36]. Klinik diaqnostika və dermatoskopiya zamanı həssaslıq müvafiq olaraq N.Binder et. al. (1995) tədqiqatlarında 58% və 68%, C.Pazzini et al. (1996) tədqiqatlarında 65% və 88% təşkil etmişdir. A.B. Соколованын tədqiqatları göstərmişdir ki, DM-in diaqnostikasında səthi dermatoskopiyanın tədqiqi zamanı diaqnostik dəqiqlik- 92,4%, həssaslıq 93,7%, spesifiklik 87,8% təşkil edir (38). J.Majer dermatoskopiyanın DM-in diaqnostikasında dəqiqliyinə həsr edilmiş çoxsaylı ədəbiyyat məlumatlarını təhlil edərək klinik diaqnostika ilə müqayisədə dermatoskopiya zamanı həssaslığın 10-27% yüksək olduğunu göstərmişlər. Çoxsaylı tədqiqatlarda dərinin piqment şişlərinin əsas və əlavə dermatoskopiya əlamətləri müəyyən edilmişdir ki, bu əlamətlər operasion materialın histoloji müayinəsi əsasında müəyyənləşdirilmiş morfoloji formalara uyğun gəlir. Müəyyənləşdirilmiş əlamətlər əsasında diaqnostik alqoritmlər işlənib hazırlanmışdır ki, bu da dərinin xoş- və bədxassəli piqment şişləri, eləcə də melanositar və qeyri-melanositar şişləri arasında diferensial diaqnostika aparılmasına imkan verir. Hazırda melanomanın diaqnostikasında istifadə edilən ən çox dərman simptono-komplekslərdən biri 1985-ci ildə R.Friedman tərəfindən təklif edilən ABCD qaydasıdır 39. Bu qaydada piqment şişi 4 parametr üzrə qiymətləndirilir: A- piqment ləkəsinin asimmetriyası; B- sərhədlərinin qeyri-düzgünlüyü; C- rənginin qeyri-bərabərliyi; D- diametrinin 6 mm-dən çox olması. 3 və daha çox əlamət olduqda bədxassəli şiş hesab olunur. 1999-cu ildən əlavə E meyarı daxil edilmişdir. Bu parametr üzrə şişin rənginin, formasının, ölçüsünün dəyişməsi dinamikası qiymətləndirilir. W.Stolz et all. ABCD klinik qaydası əsasında DM aşkar etmək üçün dermatoskopik diferensial-diaqnostik alqoritm işləyib hazırladılar (40). S.Menzies et all. 1996-cı ildə yeni dermatoskopik alqoritm işləyib hazırladılar (35). Bu alqoritm üzrə DM-in diaqnostikasının həssaslığı və spesifikliyi müvafiq olaraq 92 və 71% təşkil etmişdir. 1998-ci ildə isə E.Argenziano et all. (24) dermatoskopik "7 əlamət qaydası" təqdim etdilər; bu qayda üzrə melanomanın həssaslığı və spesifikliyi müvafiq olaraq 95% və 75% təşkil etdi.

Dərinin piqment şişlərinin diaqnostikasında uzun müddətdir radioizotopik müayinəsindən istifadə edilir. Müvafiq ədəbiyyat məlumatlarının təhlili müayinəsinin radioizotopla müayinənin dərinin piqment şişlərinin, o cümlədən DM-in diaqnostikasında mühüm rol oynadığını göstərir [1]. Radioizotop diaqnostika ilə histoloji diaqnozun üst-üstə düşməsi DM zamanı 96,8% təşkil etdiyi halda, xoşxassəli şişlərdə cəmi 28% hallarda müşahidə edilmişdir [1]. Radioizotopla müayinə qiymətli diaqnostika nəticələr verməklə yanaşı qeyd etmək lazımdır ki, çoxlu miqdarda yalançı-müsbət və yalançı-mənfi nəticələr də verir. Bu vəziyyət ilk növbədə onunla əlaqədardır ki, xoşxassəli piqment şişləri də xeyli miqdarda radioaktiv fosfor toplaya bilir. Radioizotopla müayinə zamanı bədxassəlilik meyarı kimi P-32 radioaktiv izotopunun nisbi toplanma dərəcəsi götürülür ki, bu da 200% təşkil edir. Piqment nevusları zamanı bütün tədqiqat dövründə izotopun toplanması 200%-i keçmir, bədxassəli DM zamanı isə 200%-dən yüksək olur, 96 saat sonra isə 400% və daha çox təşkil edir. Lakin bəzi hallarda DM zamanı yalançı-mənfi nəticələr də olur və izotopun toplanması 200%-dən aşağı olur. Eyni zamanda əksinə vəziyyət, xoşxassəli piqment nevusları zamanı yalançı-müsbət də ola bilir [1]. Buna görə radioizotopla müayinənin əhəmiyyətini çox da yüksək qiymətləndirmək lazım deyil. Radioizotopla müayinənin həssaslığı 77,8%, spesifikliyi-76,0%, dəqiqliyi- 76,0% təşkil edir. Buna görə radioizotopla müayinənin digər diaqnostika üsulları ilə kompleksdə istifadə edilməsi tövsiyə edilir [1,13].

Dərinin bədxassəli şişinə, o cümlədən DM-ə şübhə olduqda diaqnozu morfoloji təsdiq etmək üçün aparıcı müayinə üsullarından biri sitoloji müayinədir. Sitoloji müayinə öz həssaslığına görə klinik üsulu 4-7% üstələyir [1]. Sitoloji müayinə dəridə zədələnmənin xarakterini müəyyənləşdirməyə imkan verməklə yanaşı, müalicə taktikasını müəyyənləşdirməyə və xəstəliyin proqnozu barədə fikir söyləməyə imkan verir [13]. Sitoloji müayinə üçün material ya yaxma-iz (мазков-атпечатков), ya şişin xoralaşmış səthindən qaşıntı, şişin səthində xoralaşma olmadıqda isə nazik iynə ilə punksion biopsiya yolu ilə götürülür [1,13]. Dəqiq sitoloji

nəticə alınmadıqda müayinə təkrarlanmalıdır. Bununla yanaşı, klinik və sitoloji dəqnostika arasında 5% hiperdiaqnostika və hipodiaqnostika halları mümkündür; eləcə də ixtisasladırılmış onkomorfoloji laboratoriyalarda birincili DM-in diaqnostikasında histoloji müayinənin həssaslığı 100%-ə yaxın rəqəm təşkil edir [1]. Buradan birincili DM-in morfoloji diaqnostikasının rolu aydın olur. B.B. Anisimov və b. qeyd edilər ki, birincili melanoma zamanı ekssizion (total) bıçaqla biopsiyanın aparılması mümkündür və məqsədəuyğundur. Belə ki, biopsiya olmuş xəstələrdə şiş prosesinin proqressivləşməsi və müalicə nəticələrinin pisləşməsi müşahidə edilməmişdir Bununla yanaşı müəlliflər qeyd edirlər ki, birincili DM zamanı biopsiya yalnız o hallarda aparılmalıdır ki, qalan bütün müayinə üsulları tükənmiş, lakin diaqnozu qoymaq mümkün olmamışdır [1]. Qeyd etmək lazımdır ki, prosesin yalnız morfoloji, bəzən isə immunohistokimyəvi verifikasiyası cərrahi müdaxilənin tək onkoloji radikal yox, həm də hüquqi cəhətdən əsaslandırılmışdır. Bununla yanaşı, həkimlər qeyd edirlər ki, birincili DM zamanı biopsiya yalnız o hallarda aparılmalıdır ki, qalan bütün müayinə üsulları tükənmiş, lakin diaqnozu qoymaq mümkün olmamışdır.

Beləliklə, əldə etdiyimiz ədəbiyyat məlumatlarının təhlili əsasında pratiki olaraq dərinin piqment şişlərinin, o cümlədən DM-in diaqnostikasında istifadə edilən bütün müayinə üsulları barədə məlumat verildi. Ədəbiyyat məlumatlarının təhlili göstərdi ki, yalnız son mərhələdə aparılması tövsiyyə edilən biopsiyadan başqa heç bir müayinə üsulu diaqnozu 100% dəqiqliklə söyləməyə imkan vermir. DM-in erkən diaqnostikası işinin yaxşılaşdırılması, bu patologiya ilə digərləri şişləri, o cümlədən melanositar nevuslar arasında diferensial diaqnostikanın aparılması məqsədilə digər müasir müayinə üsullarının axtarışı və klinik praktikada tətbiqi klinik onkologiyanın aktual məsələlərindəndir.

ƏDƏBİYYAT

1. Анисимов В.В., Вагнер Р.И., Барчук А.С. Меланомы кожи: Часть 1, СПб: Наука, 1999, 107 с.
2. Ламоткин И.А. Клиническая дерматоонкология. М.: Бином 2011, с.19.
3. Дубенский В.В., Редько Р.В., Гармонов А.А. Новообразования кожи в практике дерматовенеролога / Под ред. В.В. Дубенского. Тверь: ООО Изд-во «Триада», 2002, с. 148.
4. Rager E. L., Bridgeford E. P., Ollila D. W. Cutaneous melanoma: update on prevention, screening, diagnosis and treatment // Amer. Family. Physycian. 2012, v. 72, №2, p.269-276.
5. Freeman R.G., Knox J.M. Clinical accuracy in diagnosis of skin tumors // Geriatrics. 1963, p. 546-551.
6. Lindelot B., Hedblat M. Accuracy in the clinical diagnosis and pattern of malignant melanoma at a dermatological clinic // J. Dermatol. 2011, v. 21, p. 461-464.
7. Rhodes A.R. Public education and cancer of the skin: What do people need to know about melanoma and nonmelanoma skin cancer? / Cancer. 1995, v. 75, p. 613-636.
8. Carli P., Campagna per la diagnosi precoce del melanoma/ Quanto e efficace lazione di "filtro" del medito do fanuglia. Ital. Dermatol. Venerol. 1998, v.133, p. 405-410.
9. Grant-Kels Jane M., BasonT., Grin G.M. The misdiagnosis of malignant melanoma. // J. of Am. Academy of Dermatology. 1999, vol. 40, p. 539-549.
10. Lindelot B., Hedblat M. Accuracy in the clinical diagnosis and pattern of malignant melanoma at a dermatological clinic // J. Dermatol. 2011, v. 21, p. 461-464.
11. Casson P.R., Robins P., Garthy G.M., Sanders W.B. Malignant tumors of the skin // Plastic.Surgery/ Ed. 2010, v. 5, p. 3615 -3662.
12. Landthaler M. Excisional biopsy as the first therapeutic procedure versus primary wide excision of malignant melanoma // Cancer. 2012, v. 64, p. 1612.
13. Аксель Е.М. Состояние онкологической помощи населению России и стран СНГ в 2005г.//Вестн.РОНЦ им. Н.Н.Блохина РАМН. 2007, Т.18, № 2 (прил.1),с.8-51.
14. Ключарева С.В. Эпителиальные новообразования и факультативные преканцерозы кожи:эпидемиология, клиника, дифференциальная диагностика и лечение высокоэнергетическим лазерным излучением: Автореф. дисс. ...докт. мед. наук. 2007, 40с.
15. Grant-Kels Jane M., BasonT., Grin G.M. The misdiagnosis of malignant melanoma. // J. of Am. Academy of Dermatology. 1999, v. 40, p. 539-549.
16. Демидов Л.В., Соколов Д.В.,Булычева И.В. и др.Совершенствование методов диагностики меланомы кожи // Вестник РОНЦ им. Н.Н. Блохина РАМН. 2007, Т.18,№1,с. 36-41
17. Паршикова С.М., Хасанов Ш.Р. Морфологические критерии при меланоме кожи // Вопр.онкол. 1991, Т.37, №3, с.283-288.
18. Dal Pozzo V., PodenzaniS., Cavicchini S. A clinical contribution to guideline criteria in the excision of pigmentary lesions // Ital.Dermatol.Venerol. 2010, v. 125, p. 173-177.
19. Фрадкин С.З., Залуцкий И.В. Меланомак кожи: Практ. пособие для врачей. Минск: Беларусь, 2000, с. 221.

20. Lookingbill D.P., Marks J.G., Maschella S.L., Hurley H.L. Principles of clinical diagnosis // Dermatology / Eds. 3 th ed.-Philadelphia: W.B.Saunderson Co. 1992, p. 165-239.

21. Демидов Л.В., Соколов Д.В.,Булычева И.В. и др.Совершенствование методов диагностики меланомы кожи // Вестник РОНЦ им. Н.Н. Блохина РАМН. 2007, Т. 18, №1, с. 36-41.

22. Rigel D.S. – Malignant melanoma: incidence issues and their effect on diagnosis and treatment in the 1990 s. Mayo Clin. Proc. 1997, v.72 (4), p. 367-371.

23. Argenziano G., Soyer H.P., Chimenti S., Talamini R., Corona., Sera F., et al. Dermoscopy of pigmented skin lesions: results of a consensus meeting via the internet . J. Am Acad. Dermatol. 2003, p. 679-693.

24. ArgenzianoG., FabbrociniG.,Carli P., De Giorgi V., Sammarco E., Delfino M. Epiluminescence microscopy for the diagnosis of doubtful melanocytic skin lesions. Comparison of the ABCD rule of dermatoscopy and a new 7 – point checklist based on pattern analysis. Arch Dermatol. 1998, v.134, p.1563-1570.

25. Bafounta M.L., Beachet A., Aegerter P., Saiag P. Is dermotoscopeepiluminescence microscopy useful for the diagnosis of melanoma? Results of a metaanalysis using techniques adapted to the evaluation of diagnostic tests. Arch Dermatol 2001, v. 137, p. 1343-50.

26. Micali G., Lacarrubba F., Massimino D., Schüartz R.A. Dermatoscopy : alternative uses in daily clinical practice. J.Am. Acad. Dermatol., 2011, v.64(6), p.1135-1146

27. Plüddemann A., Heneghan C., Thompson M. et al. Dermoscopy for the diagnosis of melanoma: primary care diagnostic technology update. Br.J. Gen Pract., 2011, v.61 (587), p. 416-7.

28. Аксель Е.М. Состояние онкологической помощинаселению в России и странах СНГ в 2007 г. // Вестник РОНЦим. Н.Н. Блохина. 2009, Т. 20, № 3. Прил. 1, с.8-155.

29. Statistical evaluation at epiluminescence microscopy sriteria in the differential diagnosis of malignant melanoma and pigmented basal cell carcinoma, Melanoma Res. 1997, v.7, p. 307-311.

30. Blum A.,Luedtke H.,Ellwanger U.et. al. Digital image analysis fordiagnosis of cutaneous melanoma. Development of a highly effective computer algorithm based on analysis of 837 melanocytic lesions // Br. J. Dermatol. 2004, v.151, №5, p. 1029-1038

31. Соколов Д.В. Дерматоскопия в ранней диагностике и скрининге меланом кожи. Автореф.дисс. докт. мед. наук. М., 2009, с.28.

32. Фрадкин С.З., Залуцкий И.В. Меланомак кожи: Практ. пособие для врачей. Минск: Беларусь, 2000, с. 221.

33. Esmaeili A., Scope A., Halpern A.C., Marghoob A.A. Imaging techniques for the in vivo diagnosis of melanoma // Semin. Cutan. Med. Surg., 2008, v. 27, p. 2-10.

34. Kawabata Y., Tamaki K. Distinctive dermatoscopic features of acral lentignous melanoma in situ from plantar melanocytic nevi and histopathologic correlation// J. of Cutan. Med. and Surgery. 2011.v. 2, p.199-204.

35. Menzies S.W., Crotty K.A., McCarthy W.H. The morphologic criteria of the pseudopodia in surface microscopy // Arch. Dermatol. 1995, v. 131, p. 436-440.

36. Pehamberger H., Kittler H., Wolff K.,Binder M. (2012) Diagnostic accuracy ofdermoscopy // Lancet Oncol., v. 3(3), p. 159-165.

37. Соколов Д.В. Дерматоскопия в ранней диагностике и скрининге меланом кожи. Автореф. дисс. докт. мед. наук. М., 2009, с.28.

38. Соколова С.В. Клиническая дифференциальная диагностика меланоцитарныхневусов кожи с применением метода поверхностной дерматоскопии: Автореф. дисс. ... канд. мед. наук. М.,2005, с. 176.

39. Friedman R., Rigel D., Kopf A. Early detection of malignanat melanoma: role of physician examination and self-examination of thr skin // CA Cancer J. Of clinicians. 2010, v. 35, p. 130-151.

40. Stolz W., Riemann A., Congetta A.B. et al. ABCD rule of dermatoscopy a new practical method for early recognition of malignant melanoma. Eur/ J/ Dermatol., 1994, v. 4, p. 521-527.

Резюме

Современное состаяние диагностике меланомы кожи

А.А.Хыдырова

На основе анализа литературных данных получена практически вся информация о методах лечения в диагностике пигментных опухолей, в том числе меланомы кожи. Анализ литературных данных показал что не какой метод исследования на 100% не подтверждает диагноз так как рекомендуемая в последней стадии биопсия. Улучшение поиск новых методов диагностики, а также дифференциальная диагностика меланомы с другими опухолями кожи, в том числе меланоцитарными невусами и их внедрение в клиническую практику является актуальной проблемой клинической онкологии.

Summary

Current status of diagnostic of skin malignant melanoma

A.A.Khidirova

Based on an analysis of data from the literature pratically pigment of the skin tumors, as well as the methods used in the diagnosis of skin malignant melanoma was informed about. Literature data analysis showed that the performance of only the last stage of the recommended biopsy diagnosed with any other method of examination do not allow to say with 100% accuracy. To improve the early diagnosis of skin malignant melanoma, with the other pathology of tumors, including differential diagnosis between melanocytar nevi other diagnostic methods for conducting oncology clinical application of topical issues of search and clinical practice.

Daxil olub: 29.04.2016

PRENATAL ONTOGENEZDƏ ETANOLUN YENİDOĞULMUŞ DOVŞANLARIN BAŞ BEYNİN MÜXTƏLİF STRUKTURLARINDA QLUTAMATDEKARBOKSİLAZA VƏ QAYT-TRANSFERAZA FERMENTLƏRİNİN FƏALLIĞINA TƏSİRİ

İ.Ə. Məmmədova, Ə.N. Fərəcov

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Açar sözlər: etanol, qlutamatdekarboksilaza, QAYT-transferaza, baş beyin yarımkürələrinin qabığı, beyincik, beyin sütunu, hipotalamus.

Ключевые слова: этанол, глутаматдекарбоксилаза, ГАМК-трансфераза, коры больших полушарий мозга, мозжечок, ствола мозга, гипоталамус.

Keywords: ethanol, glutamate acid decarboxylase, GABA-transferase, cerebral cortex, cerebellum, brain stem, hypothalamus.

Alkoqol baş beyində neyromediator sisteminə təsir edir, asılılıq sindromun formalaşmasına səbəb olur, orqanizmin daxili orqan və toxumalarına toksiki təsir göstərir. Həmçinin alkoqol valideynlərin alkoqolik olması səbəbindən gələcək nəslə də təsir edir [1]. Hamiləlik zamanı ananın alkoqol qəbul etməsi və onun inkişaf edən dölə toksiki təsiri dünya səhiyyəsi üçün ciddi problemdir. Alkoqol cift və hematoensefalik baryerdən asanlıqla keçdiyinə görə dölün qan dövranına daxil olur. Buna görə döl ananın məruz qaldığı alkoqolun səviyyəsinə məruz qalır [2]. Döl alkoqolu mübadilə edə bilmir və o, amniotik mayedə qalır [3].

Alkoqol qəbul edən hamilə qadınlarda o, birbaşa və dolayı yolla dölə teratogen və fetotoksik təsir göstərir [4]. Alkoqolun təsiri nəticəsində ciftin funksiyasının pozulması baş verir. Alkoqolun təsiri dölün sinir sisteminin əsas mexanizmlərinin formalaşmasına təsir edir, sinir hüceyrələrinin ümumi sayının azalmasına, sinaptogenez zədələnməsinə, neyrotransmitter sistemlərinin formalaşmasının, reseptorların, sintez və katabolizmdə iştirak edən fermentlərin, transduksiya mexanizminin zədələnməsinə səbəb olur [5]. Postnatal ontogenezdə alkoqol bütün QAYTergik sistemə, QAYT/benzodiazepin reseptor kompleksinə və QAYT mübadiləsində iştirak edən fermentlərin fəallığına təsir edir [6,7]. Postnatal ontogenezdə alkoqolun QAYT mübadiləsinə təsiri tədqiq edilsə də prenatal ontogenezdə bu istiqamətdə elmi-tədqiqat işləri aparılmamışdır.

Tədqiqatın məqsədi. Bütün yuxarıdakıları əsas götürərək prenatal ontogenezin böhran (rüşeym və ciftləşmə) dövründə etanolun müxtəlif dozalarının (1 q/kq, 3,5 q/kq və 5,6 q/kq) xroniki təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beynin müxtəlif strukturlarının toxumasında QAYT-ın sintez və parçalanmasında uyğun olaraq iştirak edən QDK və QAYT-T fermentlərinin [8] fəallığının dəyişməsini öyrənməyi qarşımıza məqsəd qoyduq.

Tədqiqatın material və metodları. Təcrübələr laboratoriya şəraitində saxlanılan cütləşdirilən ana dovşanlardan alınmış balalar üzərində aparılmışdır. Mayalanmanın getməsi (vaginal yaxma hazırlamaqla) nəzarətdə saxlanmışdır [9]. Təcrübədə boğaz heyvanlar 4 qrupa ayrılmışdır. I qrup- kontrol dovşanlar; II qrup (təcrübə 1)- 1 q/kq dozada; III qrup (təcrübə 2)-3,5 q/kq dozada; IV qrup (təcrübə 3)- 5,6 q/kq dozada qarınboşluğuna etanol yeridilmiş dovşanlar. II, III və IV qrup heyvanlara etanol mayalanmanın ilk günündən 10-cu gününə qədər gündə 1 dəfə olmaqla qarınboşluğuna yeridilmişdir. Tədqiqatlarda boğaz dovşanlardan alınmış yenidoğulmuş 32 baladan istifadə olunmuşdur. .

Baş beyin strukturlara Paxinos atlasına görə ayrılıb [10]. Bütün eksperimentlərdə beynin müxtəlif strukturlarında QDK və QAYT-T-nin fəallığı təyin edilmişdir. Kağızda elektroforez metodu əsasında [11]

QDK-nın fəallığı A.İ.Sıtinski, T.A.Priyatkina [12], QAYT-T-nin fəallığı Nilova [13] metodu ilə təyin olunmuşdur. Alınan dəlillər statistik araşdırılmışdır [14]. Hər təcrübə seriyasında aşağıdakı əsas kəmiyyətlər təyin edilmişdir: orta arifmetrik kəmiyyət (M), orta kvadratik xəta (m) və t kəmiyyəti hesablanaraq, bunun əsasında fərqin ehtimalı (p) müəyyənləşdirilmişdir.

Nəticələr və onların müzakirəsi. Aparılan təcrübələrin nəticələri göstərdi ki, yenidoğulmuş kontrol dovşan balalarının tədqiq edilən baş beyin strukturlarının - baş beyin yarımkürələrinin qabığı, beyincik, beyin sütunu, hipotalamusun toxumasında QAYT mübadiləsində iştirak edən QDK və QAYT-T fermentlərinin fəallığı eyni səviyyədə deyildir. Yenidoğulmuş kontrol dovşan balalarının baş beyin yarımkürələrinin qabığının toxumasında QDK fermentinin fəallığı 28,2±1,26, beyincikdə 25,1±1,36, beyin sütununda 19,3±1,03, hipotalamusda 26,6±2,06 mkmol QAYT/q·saat olmuşdur. QAYT-T fermentinin fəallığı isə baş beyin yarımkürələrinin qabığının toxumasında, beyincikdə, beyin sütununda, hipotalamusda uyğun olaraq 69,5±1,34, 78,2±1,67, 48,8±1,24, 87,0±1,14 mkmol Qlu/q·saat təşkil edir (cədvəl).

Cədvəl

Yenidoğulmuş dovşan balalarının baş beyin strukturlarının toxumasında QDK (mkmol QAYT/q·saat) və QAYT-T (mkmol Qlu/q·saat) fermentlərinin fəallığına prenatal ontogenezin böhran (rüşeym və ciftləşmə) döyrlərində etanolun müxtəlif dozalarının (1 q/kq, 3,5 q/kq və 5,6 q/kq gündə 1 dəfə olmaqla 10 gün müddətində qarınboşluğuna yeridilməsinin) xroniki təsiri (M±m, n=5)

Beyin strukturları	Təcrübənin şərti	Göstəricilər	QDK	QAYT-T
Baş beyin yarımkürələrinin qabığı	kontrol	M±m	28,2±1,26	69,5±1,34
	1 q/kq	M±m	33,8±0,86**	63,2±1,28**
		%	120	91
	3,5 q/kq	M±m	40,9±1,32***	59,1±1,61**
		%	145	85
	5,6 q/kq	M±m	45,1±1,03***	54,9±1,78***
		%	160	79
Beyincik	kontrol	M±m	25,1±1,36	78,2±1,67
	1 q/kq	M±m	32,1±0,61**	69,6±1,08**
		%	128	89
	3,5 q/kq	M±m	39,4±1,15***	62,6±1,12***
		%	157	80
	5,6 q/kq	M±m	43,9±1,35***	56,3±1,26***
		%	175	72
Beyin sütunu	kontrol	M±m	19,3±1,03	48,8±1,24
	1 q/kq	M±m	24,1±0,58**	44,4±1,15*
		%	125	91
	3,5 q/kq	M±m	30,9±1,29***	37,6±1,64***
		%	160	77
	5,6 q/kq	M±m	36,5±1,52***	33,2±1,67***
		%	189	68
Hipotalamus	kontrol	M±m	26,6±2,06	87,0±1,14
	1 q/kq	M±m	32,7±0,91**	80,0±1,05**
		%	123	92
	3,5 q/kq	M±m	39,9±1,53***	74,0±1,62***
		%	150	85
	5,6 q/kq	M±m	43,1±0,95***	67,9±1,37***
		%	162	78

Qeyd: * - p<0,05; ** - p<0,01; *** - <0,001.

Növbəti təcrübələrdə prenatal ontogenezin böhran dövrlərində etanolun 1 q/kq dozada xroniki təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beynin tədqiq etdiyimiz bütün strukturlarının toxumasında QDK və QAYT-T fermentlərinin fəallığı təyin edilmişdir. Müvafiq şəraitdə QDK-nın fəallığı kontrolla müqayisədə baş beyin yarımkürələrinin qabığının toxumasında 20%, beyincikdə 28%, beyin sütununda 25%, hipotalamusda 23% yüksək, QAYT-T-nin fəallığı baş beyin yarımkürələrinin qabığının toxumasında 9%, beyincikdə 11%, beyin sütununda 9%, hipotalamusda 8% aşağı olur.

Prenatal ontogenezin böhran dövrlərində etanolun 3,5 q/kq dozada xroniki təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beynin strukturlarının toxumasında QDK-nın fəallığı kontrolla müqayisədə baş beyin yarımkürələrinin qabığının toxumasında 45%, beyincikdə 57%, beyin sütununda 60%, hipotalamusda 50% yüksək, QAYT-T-nin fəallığı baş beyin yarımkürələrinin qabığının toxumasında 15%, beyincikdə 20%, beyin sütununda 23%, hipotalamusda 15% aşağı olmuşdur.

Prenatal inkişafın böhran dövründə etanolun yüksək dozasının (5,6 q/kq) xroniki təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının tədqiq edilən baş beyin strukturlarının toxumasında kontrolla müqayisədə QDK fermentinin fəallığı baş beyin yarımkürələrinin qabığında 60%, beyincikdə 75%, beyin sütununda 89%, hipotalamusda 62% yüksək, QAYT-T fermentinin fəallığı kontrolla müqayisədə baş beyin yarımkürələrinin qabığında, beyincikdə, beyin sütununda, hipotalamusda uyğun olaraq 21, 28, 32 və 22% aşağı olur.

Prenatal ontogenezdə etanolun yüksək dozasının xroniki təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beyninin müxtəlif strukturlarının toxumasında QDK və QAYT-T fermentlərin fəallığında baş verən dəyişikliklər onun orta və aşağı dozada, orta dozasının təsirindən sonra aşağı dozada təsiri ilə müqayisədə eyni istiqamətli olaraq daha nəzərə çarpacaq səviyyədədir. Güman edirik ki, etanol dölün orqanizmində formalaşmaqda olan QDK və QAYT-T fermentlərin kofaktoru piridoksal-5-fosfata təsir etməklə onların fəallıqlarının dəyişməsinə səbəb olur.

Etanolun prenatal ontogenezdə xroniki təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beyninin müxtəlif strukturlarının toxumalarında QDK fermentinin fəallığının yüksəlməsi sayəsində QAYT-ın sintezi artır, QAYT-T fermentinin fəallığının aşağı düşməsi əsasında onun parçalanması azalır. Həm kontrol dovşanların, həm də etanolun müxtəlif dozalarına prenatal ontogenezdə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beyninin tədqiq edilən strukturlarında QDK/QAYT-T nisbətini hesablayıb müqayisə etdikdə müvafiq şəraitdə QAYT-ın miqdarının artmasını açıq-aydın görmək mümkündür (şəkil).



Şək. 1. Prenatal ontogenezdə etanolun müxtəlif dozalarının təsirinə məruz qalmış yenidoğulmuş dovşan balalarının baş beynin müxtəlif strukturlarının toxumasında QDK/QAYT-T nisbətinin dəyişməsi

Prenatal dövrdə alkoqolun təsiri orta beynin dofaminergik neyronlarının tükənməsilə nəticələnə bilir [3]. Prenatal ontogenezdə alkoqolun təsiri ilə beyinciyin zədələnməsi nəticəsində hərəkət-davranış pozğunluqları yaranır [15]. Prenatal alkoqolun təsiri nəticəsində davranış və adaptiv problemlərin əsasında duran hipotalamus-hipofiz-böyrəküstü oxun tənziminin pozulması postnatal ontogenezdə qalıcı dəyişikliklərin yaranmasına səbəb olur [16]. Aparılan tədqiqatların nəticələrinə əsasən demək olar ki, etanol döldaxili baş beynin müxtəlif strukturlarının toxumasında QAYT mübadiləsində iştirak edən fermentlərin fəallığına təsir edərək onun miqdarını artıra bilər.

Ədəbiyyatdan məlum olduğu kimi prenatal ontogenezdə alkoqol dofamin sistemində əsaslı dəyişikliklərin yaranmasına səbəb olur. Bizim apardığımız təcrübələrin nəticələri göstərdi ki, fetal alkoqol sindromlu uşaqlarda hərəkət-davranış reaksiyalarında olan pozğunluqların əsasında dofamin sistemi ilə yanaşı QAYT mübadiləsində baş verən dəyişikliklər durur.

ƏDƏBİYYAT

1. Лелевич С.В. Молекулярные механизмы формирование алкогольной и морфиной интоксикации. Автореф.. дис. ... док. мед. наук, 2015, Минск, 47 с.

2. Малахова Ж.Л., Шилко, Бубнов А.А. Фетальный алкогольный синдром у детей раннего возраста, М.: LAP Lambert Academic Publishing, 2012, 164 с.

3. Schneider L., Moore F., Adkins M. The effects of prenatal alcohol exposure on behavior: rodent and primate studies // Neuropsychol. Rev., 2011, № 21 (2), p.186-203

4. Савельева Г. М., Сичинава Л.Г. Акушерство и гинекология: рук. для врачей и студентов /пер. с англ., М. : ГЭОТАР-Медиа, 2010, 738 с.

5. Toso L., Johnson A., Bissell S. et al. , Roberson R., Abebe D., Spong C.Y. Understanding the mechanism of learning enhancement: NMDA and GABA receptor expression // American Journal of Obstetrics & Gynecology, 2007, v.197, №3, p. 267–267

6. Винницкая А.Г. Алкогольная интоксикация и ферменты метаболизма ГАМК в мозге при действии некоторых нейроактивных соединений: Автореф. дисс. … канд. биол. наук. Минск, 1994. 22 с.

7. Канунникова Н.Л. Роль ГАМК в механизмах действия этанола в мозге: Автореф. дис. … док. биол. Наук. Минск, 2000, 37 с.

8. Курбат М.Н., Лелевич В.В. Обмен аминокислот в головном мозге //Нейрохимия, 2009, т.26, №1, с.29-34

9. Западнюк И.П., Западнюк В.И., Захария Е.А. Лабораторные животные, их разведение, содержание и использование в эксперименте, Киев: Медгиз УССР, 1962, 350 с.

10.Paxinos G., Watson C. The rat brain in stereotaxic coordinates // L.Academic Press; New York: 1998

11.Пасхина Т.С. Количественное определение аминокислот при помощи хроматографии на бумаге методом образования медных производных аминокислот с нингидрином Методическое письмо В. 1. АМН. М., 1959

12.Sytinsky I.A., Priyatkina T.N. Effect of certain drugs on gamma-aminobutyric acid system on central nervous system // Biochem. Pharmacol., 1966, v.115, №1, p.49-54

13.Нилова Н.С. Аммиак и ГАМК-трансаминазная активность ткани головного мозга // Докл. АН СССР, 1966, т.2, с.483-486

14.Лакин Г.Ф. Биометрия, М., Высшая школа, 1990, 352 с.

15.Diaz M.R., Vollmer C.C., Zamudio-Bulcock P.A., Vollmer W., Blomquist S.L., Morton R.A., Everett J.C., Zurek A.A., Yu J., Orser B.A., Valenzuela C.F. Repeated intermittent alcohol exposure during the third trimester-equivalent increases expression of the GABA(A) receptor δ subunit in cerebellar granule neurons and delays motor development in rats //Neuropharmacology, 2014, v.79, p.262-274

16.Keiver K., Bertram C.P., Or A.P., Clarren S. Salivary cortisol levels are elevated in the afternoon and at bedtime in children with prenatal alcohol exposure // Alcohol., 2015, v. 49, № 1, p.79-87

Резюме

Влияние хронической интоксикации этанолом на активность ферменты гдк и гамк-т в различных структур головного мозга новорожденных кроликов в пренатальном онтогенезе

И.А.Мамедова, А.Н.Фараджев

Результаты наших исследований показали, что при пренатальной хроническом воздействии различных дозы этанола (1 г/кг, 3,5 г/кг и 5,6 г/кг) происходит повышение активности фермента ГДК и понижение активности фермента ГАМК-Т в тканях различных структур головного мозга новорожденных крольчат по сравнению с контрольными показателями. На основании этих данных можно полагать, что при внутриутробном хроническом воздействии различных дозы этанола увеличение содержание ГАМК происходит с одной стороны за счет усиление синтез ГАМК, с другой стороны за счет уменьшение ее поглощение тканями исследованных структур головного мозга новорожденных кроликов.

Summary

Influence of chronic ethanol intoxication on the activity of enzymes gad and gaba-t in different structures of the brain of the newborn rabbits in prenatal ontogenesis

I.A.Mammadova, A.N.Farajov

Our results showed that prenatal chronic exposure to different doses (1 g/kg, 3.5 g/kg and 5.6 g/kg) of ethanol leads to a increase of GAD activity and inhibition of GABA-T in the tissues of the brain structures of newborn rabbits compared with control. Based on these data, we can assume that in utero chronic exposure to different doses of ethanol increase GABA content occurs on the one hand due to the increase in the synthesis of GABA, on the other hand due to a decrease in its absorption of the tissues investigated brain structures of newborn rabbits.

Daxil olub: 21.04.2016

PEKTİNLƏRİN VƏ ONLARDAN HAZIRLANAN PREPARATLARIN TİBB TƏCRÜBƏSİNDƏ TƏTBİQİ

K.Y. Əliyeva

Azərbaycan Tibb Universiteti, əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası

Pektin maddələri (*Pectine, matieres pectiques*) 1-4 qlikozid əlaqəsi vasitəsilə birləşən D-qalaktouron turşusunun qalıqlarından təşkil olunmuş təbii polimer maddələrdir [1].

Pektin maddələrinin məlum olmasından 200 ildən artıq vaxt keçir. 1790-cı ildə Vaklen tərəfindən meyvə şirəsindən gələbənzər kütlə əmələ gətirmək qabiliyyətinə malik, suda həll olan maddə alınmışdır. Bundan 40 il sonra Brakonno bu maddəni pektin turşusu adlandırmışdır. 1924-cü ildə ilk dəfə Smolenski pektinin polimer maddə olmasını təklif etmişdir. 1930-cu ildə Klayer və Mark bu fikri təsdiq edərək həqiqətən də pektinin polimer təbiətli maddə olduğunu eksperimental yolla sübut etmişlər. 1937-ci ildə Şnayfer və Bokk ilk dəfə pektinin struktur formulunu müəyyən etdiklərinə baxmayaraq yüksək esterli pektinin bundan 50 il, aşağı esterli pektinin 26 il sonra sənaye istehsalı həyata keçirilmişdir [25]. Pektin birləşmələri nəinki meyvə şirələrində, eyni zamanda çoxlu miqdarda giləmeyvə, kök yumruları, kök meyvələr, meyvə qabıqları və bitkilərin gövdələrində də vardır. O ali bitkilərin ilkin hüceyrə divarında lokalizasiya olunur. Pektin yan zəncir vasitəsilə sellüloza lifləri və ya digər heteropolisaxarid molekulları vasitəsilə birləşmiş formada olur [3]. Pektin molekuluna birləşən ramnoza şəkəri polimer zəncirə girinti-li-çıxıntılı forma verir. Ramnozanın molekulunda mövcud olması onun dəqiq ramnoqalakturon adlandırılmasına əsas verir. Digər neytral şəkərlər: arabanqalaktan, ksiloqlikan - yan zəncir əmələ gətirərək sellüloza molekulları ilə birləşir. Pektinin bitki orqanizmində morfoloji və fizioloji rolu hər şeydən əvvəl hüceyrənin struktur elementi olmaqla yanaşı, bitkilərdə su mübadiləsini nizamlamaqdan ibarətdir [4,1].

Sənaye əhəmiyyətli pektin istehsalı üçün əsas xammal mənbəyi kimi alma tullantısından, şəkər çuğundurunun cecəsi, günəbaxanın çiçək səbətindən və sitrus bitkilərinin qabığından istifadə edilir. Göstərilən xammallarda pektin maddəsinin miqdarı uyğun olaraq 10-15, 10-20, 15-25 və 20-35% təşkil edir.

Alma pektini qənnadı məhsulları istehsal edən istehsalçılar tərəfindən çox yüksək qiymətləndirilir. Süd və konserv sənayesi üçün sitrus pektinləri istifadə olunur. Bu ad altında sitrus meyvələrindən alınan müxtəlif növ pektinlər başa düşülür. Bunların içərisində ən keyfiyyətlisi layfmadan (limonun bir növü) alınan pektindir. Həmçinin limondan, qreypfrutdan və naringidən alınan pektin maddələri yüksək qiymətləndirilir. Şəkər çuğundurunun cecəsindən alınan pektin diyetik və əczaçılıq, eləcə də texniki məmulatların istehsalında istifadə olunur. Günəbaxanın çiçək səbətindən alınan pektin yüksək molekul kütləsinə malik olub aşağı esterli pektin maddəsinə aiddir. Şəkər çuğundurundan alınan pektin kimi günəbaxan pektini də müəyyən miqdar asetil qrupları saxlayır. Hazırda günəbaxan pektini yüksək keyfiyyətli kosmetik məhsulların istehsalında istifadə olunur. Bir növ xammaldan alınan pektin klassik pektin adlanır. Buna görə də son illərdə xüsusi xassəli və keyfiyyətli məhsullar istehsal etmək üçün kombinə olunmuş xammal növlərindən pektin maddələrinin alınmasına böyük üstünlük verilir. Fasiləsiz işləyən reaktorlarda pektinin tam ekstraksiyası üçün mineral turşuların sulu məhlullarından istifadə olunur. Əsas ekstraksion parametrlərin optimal balanslaşdırılması zamanı jeleləşmə qabiliyyətini saxlamaqla maksimal miqdarda pektin maddəsini almaq olar (mühitin pH - ı, temperatur və ekstraksiya müddəti) [5].

Alma pektininin esterləşmə dərəcəsi 70-78%-dir, aşağı esterli pektinin istehsalı üçün qatılaşdırılmış maye ekstrakt sonrakı mərhələlərdə deterifikasiya və ya sabunlaşmaya məruz qalır. Bu zaman tələb olunan həddə qədər esterləşmə dərəcəsinin aşağı düşməsinə nəzarət edilir. Bununla yanaşı neytral polisaxaridlərdən ibarət olan pektinin yan zəncirinin hidrolizi baş verir.

Pektin spirtdə həll olur. Onun bu xassəsindən istifadə edərək qatılaşdırılmış ekstraktlardan pektinin çökdürülməsi həyata keçirilir.

Pektin maddələri özlərinin fiziki-kimyəvi və geniş farmakoloji təsir spektrlərinə görə mühüm təbii polimerlərə aid olub, tibbi praktikada istifadəsi olduqca perspektivlidir. Pektin maddələrinin özləri və eləcə də onların əsasında hazırlanan preparatlar klinik praktikada müxtəlif mənşəli xəstəliklərin profilaktika və müalicəsində böyük müvəffəqiyyətlə istifadə olunurlar [6,7,8].

Pektin mədə - bağırsaq traktına düşdükdən sonra gel kütləsinə çevrilir. Pektin kütləsi şişərkən həzm kanalını susuzlaşdırır və bağırsaq boyunca hərəkət edərkən toksiki maddələri adsorbsiya edir [9]. Demetoksilləşmə zamanı azad olan metil spirti bağırsaq divarından sorularaq qana keçir və orqanizmdə metabolizmə uğrayaraq qarışqa turşusuna çevrilir. Qarışqa turşusu sidik vasitəsilə orqanizmdən xaric olur.

Bağırsaqda gel kütləsinə çevrilən pektin xolesterini və öd turşularını yaxşı adsorbsiya edərək bağırsaqdan sorulmasının qarşısını alır. Buna görə də pektinin hipoxolesterinemik effekti meydana çıxır və aterosklerozun profilaktikasında çox əhəmiyyətlidir [10].

Bağırsaq traktında demetoksilləşmə prosesinə məruz qalan pektin ağır metallarla və radionukleoidlərlə həll olmayan kompleks birləşmə əmələ gətirərək onların orqanizmdən uzaqlaşdırılmasını təmin edir.

Radioprotektor və hipoxolesterinemik təsirlərindən başqa pektin immunitetin bir sıra göstəricilərinə, o cümlədən T-limfositlərə və eozinofillərin faqositar fəallığına təsir edir. Müəyyən olunmuşdur ki, bir dəfə şüalanmaya məruz qalmış heyvanlara pektin verdikdə radiasiyadan sonra qanın formalı elementlərinin bərpa olunmasına əlverişli təsir göstərir.

Bağırsaq infeksiyaları törədən mikroorqanizmlərə (psevdomonadlar, klebsiellalar, stafilakoklar və kandida tipli mayayabənzər göbələklər) pektinin antimikrob təsiri bir sıra tədqiqatlarda göstərilmişdir [11,12,13,15]. İn vitro təcrübələrdə müəyyən olunmuşdur ki, pektinin qatılığından və mikrobların sayından asılı olaraq mikroorqanizmlərin çoxalmasının dayandırılması 2 saat və daha artıq müddətdə baş verir. Pektinlərə qarşı həssaslıq klebsiellalarda daha aydın nəzərə çarpdığı halda salmonellalar möhkəm davamlılıq göstərmişlər. Pektinin 2 % - li məhlulunda bağırsaq çöpləri 2 saatlı ekspozisiyada davamlılıqlarını saxlayırlar, stafilokoklar isə bütün pektinlərə həssas olduğu qeyd olunmuşdur.

Pektin maddələrinin müalicəvi mexanizmi tam dəqiqləşdirilməmişdir. Bəzi müəlliflər müalicəvi təsirinin qalakturon turşusunun dezintoksikasiyaedici təsiri ilə, digərləri isə pektin molekulu tərəfindən toksinlərin adsorbsiya olunub orqanizmdən xaric olunması ilə əlaqələndirirlər [16].

Qeyd etmək lazımdır ki, normal fizioloji şəraitdə pektin maddələri yoğun bağırsaqda fermentlərin təsirindən metabolizm prosesinə məruz qalır, lakin bağırsaqda bakterial pozğunluq olduqda pektin maddələrinin fermentativ dəyişikliyə uğraması baş vermir.

1825-ci ildə Brakonno qeyd etmişdir ki, pektin maddələri qankəsici vasitə kimi istifadə oluna bilər. Ancaq onların terapevtik və fizioloji təsirlərinin izahı 100 ildən sonra başlamışdır. 1917-ci ildə Kopaçevski və Mutermilx dəniz donuzları üzərində pektinin inyeksiya məhlulunun təsirini tədqiq etməyə cəhd göstərmişlər. Təcrübələr müvəffəqiyyətsiz olduğundan görə heyvanlar emboliyadan tələf olmuşlar.

İn vitro ilkin olaraq çökdürülmüş aşağı esterli pektinlər *in vivo* təcrübələrdə özləri yüksək esterli pektinlər kimi aparırlar. Onlar aqlomeratlar əmələ gətirmir. Aşağı esterli pektinlərin *in vivo* təcrübələrdə kalsiumla reaksiyası həll olmayan aqlomeratların alınmasına gətirib çıxarmır. Çox ehtimal ki, pektin turşusunun sərbəst karboksil qrupları qanda olan əsas xassəli maddələrlə qarşılıqlı təsirə girərək həll olan kompleks birləşmə əmələ gətirirlər.

A.İ.Polejaeva eksperimental hemofiliyada pektin turşusunun qanın laxtalanmasına təsirini tədqiq etmişdir. Onun eksperimentində pektinin vena daxilinə və dəri altına yeridilməsi zamanı qanın laxtalanma müddəti 2 dəfə artıq azalmışdır. Ancaq bəzi müəlliflər pektinin hemostatik təsirini inkar edirlər. Müəlliflər yaranmış fikir müxtəlifliyini istifadə olunan preparatların quruluşundakı fərqlərlə izah edirlər. Müəyyən kimyəvi tərkibli pektin preparatlarının tədqiqi zamanı onların qankəsici təsirləri aşkar olunmuşdur (esterləşmə dərəcəsi, molekul kütləsi, asetil qruplarının miqdarı, 1 %-li məhlulun pH- ı).

Pektinin C vitamini ilə hazırlanmış təbii preparatı müxtəlif mənşəli xəstəliklərin müalicəsində istifadə olunur. Bura piylənmə, qanda lipidlərin və xolesterin səviyyəsinin yüksəlməsi, ürək – damar xəstəlikləri, infarkt, diabet, mədə - bağırsaq traktı və qaraciyər xəstəlikləri, ətraf mühitin zəhərli amidlərinin zərərli təsiri, alkoqolizm və s.daxildir.

Bu preparatların təsir mexanizmi aşağıdakı amillərlə bağlıdır:

1. Pektin öz fiziki - kimyəvi xassələrinə görə qida maddələrinə daxildir;

2. Pektin suyu özünə hopdurur, həcmi artır və gel əmələ gətirir, özünə ağır metal ionlarını, radionukleidləri, tam oksidləşməmiş və toksiki məhsulları, mikroorqanizmləri və onların toksinlərini birləşdirir. Pektin bağırsaqdan sorulmur, dəyişikliyə uğramadan orqanizmdən xaric olur, bağırsağın motorikasına və evakuasiya funksiyasına müsbət təsir edir, orqanizmin fizioloji funksiyalarını normallaşdırır və çəkisini azaldır;

3. Askorbin turşusu həyati proseslərdə mühüm rol oynayır, universal aktivator kimi hüceyrə metabolizmində fəal iştirak edir. Detoksikasiyanın bir sıra mexanizmlərində iştirak edir və immun reaksiyaları stimullaşdırır. Konyuqatların divarlarının keçiriciliyini azaldır, allergik reaksiyaların və iltihabi proseslərin azalmasına və tamamilə aradan qalxmasına səbəb olur;

4. Müasir şəraitdə orqanizmin ən geniş yayılmış vəziyyətlərindən biri C vitamininin və в qida liflərinin çatışmazlığıdır. Bunların çatışmazlığı digər xəstəliklərlə yanaşı xərçəng xəstəliyinin əmələ gəlməsinə və inkişafına zəmin yaradır.

Pektin maddələrindən qan plazmasını əvəzedici məhsullar da hazırlanır.

Qan plazması əvəzedicilərini hazırlayarkən aşağıdakı tələblərə cavab verən maddələrdən istifadə olunmalıdır:

- orqanizmdə toplanmamalı;

- eritrositlərlə aqlomerasiya və sedimentasiya verməməli;
- ağırlaşmalar törətməməlidir.

Çoxsaylı tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, qana yeridilmiş pektinin çox hissəsi 36 saatdan sonra sidiyə keçir. Bu maddələr toksiki olmayıb, eritrositlərlə sedimentasiya və aqlomerasiya vermir. Bunları nəzərə alaraq tədqiqatçılar pektindən qan plazmasının əvəzedici məhsullarını hazırlamağı məqsədəuyğun hesab etmişlər.

Məlumdur ki, pektinlər bakterisid effektə, adsorbsion fəallığa və reparativ təsirlərə malikdir. Bu təsirlər pektinin çoxsaylı *in vitro* təcrübələrdə peroral qəbulu zamanı təsdiq olunmuşdur. Bundan başqa pektin maddələri zərərsizdirlər və toksiki təsirə malik deyil.

Almə və çuğundurdan alınan pektinlərin 1-2 % - li məhlullarının yerli yanıq müalicəsində istifadəsi zamanı aşağıdakı nəticələr əldə olunmuşdur: istifadə olunan pektin məhlullarının təsirindən tez bir zamanda iltihabi prosesin zəifləməsi müşahidə olunur, II-III A dərəcəli yanıqların epitelizasiyası sürətlənir və III B dərəcəli yanıqların autodermaplastika olunmasına hazırlığın vaxtını 2-4 gün azaldır. Pektinlərin istifadə olunması mikrobla çirklənmənin miqdarını azaldır və göy irin çöpləri ilə yoluxmanı azaldır. Pektinlərin təsiri altında yara əmələ gəlmə prosesi zamanı regenerasiya fazasının sürətlənməsi, iltihab müddətinin qısalması baş verir.

Təxirəsalınmaz cərrahi patoloji xəstələrin kompleks müalicəsi zamanı müəyyən olunmuşdur ki, pektinlər irinli – septik proseslərin gedişinə, mikrobiosenozun vəziyyətinə və immunitetin hüceyrə və humoral hissələrinin göstəricilərinə müsbət təsir edir [7].

Enteral qidalanmanın müasir konsepsiyası enteral qidalanmada böyük əhəmiyyət kəsb edən prebiotiklərdən, o cümlədən pektinlərdən istifadə olunmasını məqsədəuyğun hesab edir. Pektinlər həm bakterisid, həm də mədə - bağırsaq traktının motor – evakuasiya funksiyasını stimullaşdırmaq qabiliyyətinə malikdir.

Neyroreanimasiyalı xəstələrdə pektinlərin 1% konsentrasiyada istifadəsi meningitin, 3-4% konsentrasiyada isə pnevmoniyanın inkişafının qarşısını almağa imkan verir.

Pektinlər həmçinin bir çox dərman formalarının hazırlanmasında köməkçi vasitə hesab olunur: pastilkaların, süngərlərin, suppozitoriyaların alması üçün əsas kimi, hidrogellərin, tabletlərin, yumşaq jelatin kapsulların hazırlanmasında ilkin xammal kimi istifadə olunur. Pektinin dərman preparatlarının tərkibinə daxil edilməsi terapevtik effekti gücləndirə və əlavə təsirləri azalda bilər. Öz xüsusiyyətlərinə görə pektin gellərin, məhlulların emulqatorların və stabilizatorların tərkibində geniş istifadə olunur [17]. Pektin gel əmələgətirmə xüsusiyyətinə malik olduğundan, ondan prolonqasiya təsir üçün dərman preparatlarının daşıyıcısı kimi istifadə etməyə və ya kompozisiyanın tərkibinə aşqar kimi əlavə olaraq daxil etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Оводова Р.Г., Головченко В.В., Попов С.В., и др. Новейшие сведения о пектиновых полисахаридах // Журнал Известия, Институт физиологии Коми НЦ УрО РАН, г.Сыктывкар, 2010. Вып.№ 3 (3). с.37-45
2. Горячий Н.В. Пектин. Технология производства. Обзорная информация, г. Москва, Актуализация 02.2014. 16 с.
3. Михеева Л.А., Тры А. В. Выделение пектина из растительного сырья и изучение его некоторых химических свойств // Фармация, 2013, № 2, с. 53-56.
4. Головченко В.В. Структурно-химическая характеристика физиологически активных пектиновых полисахаридов: Автореф. дисс. докт……наук Сыктывкар, 2013, 39 с.
5. Тры А.В. Михеева Л.А. Влияние различных факторов на выход пектиновых веществ, выделенных из растительного сырья // Журнал: Научные ведомости / Белгородского государственного университета. Серия: Естественные науки, 2014, Выпуск № 23 (194) / том 29, с. 123-128.
6. Марков П.А., Попов С.В., Никитина И.Р. и др. Противовоспалительная активность пектинов и их галактуронанового кора // Химия раст. сырья. 2010 №1, с.21–26.
7. Попов С.В. Иммуномодулирующее действие пектиновых полисахаридов: Автореф. дис….степени доктора биол. Наук., Сыктывкар, 2010, 39 с.
8. Позднякова Т.А., Бубенчиков Р.А. Количественное определение функциональных групп пектиновых веществ травы герани сибирской // Фундаментальные исследования, 2014, № 11, с.110-113
9. Потрясов Н.В. Использование пектина в различных технологиях. // Журнал Инновационная наука, Кубань, 2015, Вып.№ 1-2, с. 20-22.
10. Бутова С.Н., Солдатова С.Ю. Новая технология получения олигосахаридов пектина с повышенной биологической активностью // Вестник российской академии естественных наук, 2011. №2, с.32-34.

11.Валышев А.В. Антимикробная активность пектинов и их производных // Бюллетень Оренбургского научного центра УрО РАН (электронный журнал) 2013, № 3, с.1-6.

12.Портянко А.В., Лыско С.Б., Красиков А.П. и др. Бактерицидное действие пектинов на возбудителей кишечных инфекций птиц // Ветеринарная медицина 2015, №5, с.50-52.

13.Inngjerdingen K.T., Langerud B.K., Rasmussen H. et al. Pectic polysaccharides isolated from Malian medicinal plants protect against Streptococcus pneumoniae in a mouse pneumococcal infection model. Scand. J. Immunol. 2013, v.77(5), p.372-388.

14.Poltavska O.A., Kovalenko N.K. Antimicrobial activity of bifidobacterial bacteriocin-like substances. Mikrobiol. Z. 2012, v.74(5), p.32-42.

15.Tejero-Sariñena S., Barlow J., Costabile A. et al. In vitro evaluation of the antimicrobial activity of a range of probiotics against pathogens: evidence for the effects of organic acids // Anaerobe. 2012. v.18(5), p.530-538.

16.Альмова И.Х., Берикетов А.С., Инарокова А.М., Сабанчиева Ж.Х. Опыт применение пектина при заболеваниях, связанных с вредными факторами производства // Международный журнал прикладных и фундаментальных исследований, 2014, №5, с. 62-65.

17.Əliyeva K.Y., Tağıyev S.Ə., Əliyeva S.Ş. Pektin əsasında furasillin süngərinin alınma texnologiyasının işlənib hazırlanması // Azərbaycan Əczaçılıq və Farmakoterapiya Jurnalı. 2014. №2. 35-38.

Резюме

Применение пектинов и препаратов, приготовленных на их основе в медицинской практике.

К.Я. Алиева

Применение пектиновых веществ как натуральных полимеров в медицинской практике является очень перспективным исходя из широкого спектра их физико-химических и фармакологических свойств. Сами пектиновые вещества, а также препараты, приготовленные на их основе, с большим успехом используются в клинической практике в профилактике и лечении заболеваний различного происхождения.

Summary

The use of pectins and drugs prepared on the basis of their medical practice.

K.Y. Aliyeva

The use of pectin, as a natural polymers, in medical practice is very promising from a wide range of physicochemical and pharmacological properties. Pectin, as well as the medicines made on their basis, with great success used in clinical practice in the prevention and treatment of diseases of different origin.

Daxil olub: 14.04.2016

BURUN ƏMƏLİYYATLARI ZAMANI QOXU HİSSİYATININ VƏZİYYƏTİNİN ÖYRƏNİLMƏSİ

T.A.Hüseynov

"Dokuz Eylül" Univeristeti, Tibb fakultəsi, Qulaq Burun Boğaz bölümü

Açar sözlər: burun əməliyyatları, qoxu hissiyyatı, müayinə

Ключевые слова: операции на носу, обоняние, исследование

Keywords: surgery on the nose, smell, study

Müasir dövrümüzdə insanlar estetik əməliyyatlara üstünlük verməyə başlamışdır. Bu bir sıra səbəblərlə əlaqədardır ki, onların arasında estetik-plastik əməliyyat texnikalarının mükəmmələşdirilməsi və orqanizmə olan əlavə təsir və ağırlaşmaların ehtimalının az olmasıdır. Burun çəpərində əyriliyin olması demək olar ki, 90% insanlarda bu və ya digər dərəcədə rast gəlinir. Burun çəpərinin əyrilik dərəcəsindən asılı olaraq, onun əməliyyat olunmağına göstərişlər də dəyişilir. Burun əməliyyatları zamanı əsas önəm verilməli olan nüanslardan biri də qoxu hissinin vəziyyətinin dəyərləndirilməsidir. Qoxu hissi qoxu sinirləri ilə əlaqədardır. Qoxu sinirləri hissi sinir olub, qoxu beynindən inkişaf etmişlər. Burun boşluğunun qoxu nahiyyəsinin yəni yuxarı 1/3 hissəsinin selikli qişasında yerləşən bipolyar sinir hüceyrələrinin (neyrosensor reseptorların) mərkəzi çıxıntılarından təşkil olunmuşlar. Qoxu lifləri biri-birilərilə birləşmirlər və sinir kötüyü əmələ gətirmirlər (3,4,5). 15-22 nazik qoxu lifləri yaxud sapları şəklində burun arakəsməsinin üzəri ilə yuxarı qalxır,

xəlbir sümüyünün xəlbir səfhəsi üzərindəki qoxu dəliklərindən beyin əsasına çıxır və qoxu soğanağında tamamlanırlar. Bu səbəbdən də kəllə siniri qoxu siniri yox, qoxu sinirləri adlanırlar. Qoxu soğanağında yerləşən ikinci neyronun aksonları qoxu yolunu təşkil edirlər. Üçüncü qoxu neyronu qoxu üçbucağı, şəffaf arakəsmə və ön dəliklənmiş cisimdə yerləşir [3].

Tədqiqatın məqsədi: Burun əməliyyatları zamanı "Sniffin Sticks" testinin köməyilə qoxu hissiyatının vəziyyətinin tədqiqi.

Tədqiqatın material və metodları: Bu tədqiqat İzmir 3 saylı Kliniki Araşdırmalar Etika Qurumunun 18.12.2009 tarixli və 09/08-06 saylı qərarı alındıqdan sonra icra edilməyə başlanmışdır. Tədqiqat yanvar 2010 ilə iyul 2010 tarixləri arasında Türkiyə Respublikası, "Dokuz Eylül" univeristeti, tibb fakültəsi, Qulaq Burun Boğaz və Biofizika bölümlərində icra edilmişdir.

Türkiyə Respublikası, "Dokuz Eylül" univeristeti, tibb fakültəsi, Qulaq Burun Boğaz bölümünə nazal obstruksiya şikayəti ilə müraciət edən, ön rinoskopiya və elastiki endoskopik müayinələrlə burun arakəsməsinin əyriliyi diaqnozu qoyulmuş 35 nəfər xəstə ilə tədqiqata başlanılmışdır. Əməliyyatdan qabaq icra edilən qoxu həddi testində 4 xəstənin göstəricisi ≤1 olduğu üçün bu xəstələr tədqiqatdan kənar edildilər. Bundan başqa, əməliyyatdan 6 həftə əvvələ qədər ağızla və yerli steroidlər istifadə edən, kəskin bakterial və ya virus mənşəli infeksiya və sinusit keçirmiş, daha əvvəl nazal cərrahi porblemləri olmuş və allergik riniti olan xəstələr də tədqiqata daxil edilməmişdir. 31 xəstədən 10-u qadın və 21-i kişi olmuşdur. Xəstələrin yaşları 19-61 arasında (ortalama 35,58) dəyişilmişdir.

Daha sonra xəstələrə "Dokuz Eylül" Üniveristetinin Biofizika Bölümündə "Sniffin Sticks" (Burghart Medizintechnik, www.burghart.net) ilə qoxu testi icra edilmişdir (Şəkil 1). "Sniffin Sticks" testi və ya "Çətin Seçim" testi Avropada ən çox istifadə olunan qoxu testidir [4].

Şək 1. Sniffin' Sticks testinin icra edilməsi.

Bu test qoxu verən maddə hopdurulmuş 16 ədəd qələm olan 3 set icra edilmişdir. Bu testdə istifadə olunan qələmlər daha uzun saxlanma müddətinə, təkrar istifadə olunma üstünlüklərinə sahibdir. "Sniffin Sticks" testi ilə qoxu sərhəddi (hüdudu), qoxunun seçilməsi və qoxunu tanıma (ayırd etmə) göstəricilərinə baxımışdır (4). Qoxunun "sərhəddi" testlərində şəxsin duya ən aşağı konsentrasiyadakı qoxu "sərhəd (hüdud)" göstəricisi kimi qəbul edilir. Testdə 3 qoxu qələmi istifadə olunmuşdur. Bu qələmlərin tərkibində 2 qələmdə "solvent" həlledici və 1 qələmdə n-butanol olmuşdur. Xəstənin gözləri bağlandıqdan sonra ilk əvvəl ən yüksək konsentrasiyalı qoxu qələmi iylədildi və bu qoxunu digər qoxu qələmləri içərisindən ayırd etməsi xahiş olunmuşdur. Xəstədən tərkibində qoxu olan 3-cü qələmi tanıyana qədər ən yüksək konsentrasiyasına malik qələmlərə doğru artırılaraq qələmlər təqdim olunmuşdur. Hər 3 qələm xəstəyə 3 dəfə iylədilmişdir. Xəstə qoxunu hiss etdiyi sərhəd qoxu "sərhəddi" göstəricisi kimi qeyd edilmişdir. Daha sonra təkrarən geriyə, tərkibində az konsentrasiyalı qoxu olan qələmə doğru gedilmişdir. Xəstə qoxunu hiss etdikdən sonra təkrarən bir aşağı qrupa daha az konsentrasiyaya malik 3-lü qələmə keçilmişdir. Xəstənin duyduğu son 4 "sərhəd" göstəricisi toplanaraq 4-ə bölünmüşdür və xəstənin "sərhəd" göstəricisi olmaqla qeydə alınmışdır [1,2,3,4,5,6,7,8].

Qoxunun seşilməsi testi və ya qoxulama testinde sadece kokular arası ayırım yapılır. Hastanın gözleri tekrar kapatılarak 16 koku içeren 3'lü kalemden iki kalemde aynı ve bir kalemde farklı koku içerem kalemler sunuldu. Doğru yanıtların toplamı koku ayırımı skoru olarak kabul edildi [1,2,3,4,5,6,7,8].

Qoxu tanıma testində 16 ədəd qoxu qələmi xəstəyə iylədilib və 4 reaksiya seçimi təqdim olunmuş və düzgün reaksiyanın cəmi identifikasiya göstəricisi kimi qeydə alınmışdır. Qoxu sərhəddi, seçimi və qoxu tanıma göstəriciləri toplanaraq TDI TDI (treshold+discrimination+identification) balı göstəricisi əldə olunur.

Bu bal 0 ilə 48 arasında dəyişilir. TDI balı 15 və daha aşağı göstəricidə əldə olunmuşdursa, xəstə anosmik. 15-30 arasında olduqda hiposmik və bal 30 və daha yuxarı olduqda isə normomik olaraq qəbul edilmişdir [1,2,3,4,5,6,7,8].

Qoxu testlərindən sonra xəstələr əməliyyata cəlb olunmuşdur. Ümumi anesteziya altında xəstələrə septoplastika əməliyyatı tətbiq olunmuşdur. Septoplastikadan sonra burunа ön burun tamponları yerləşdirilmişdir. 48 saatdan sonra ön burun tamponları çıxarılmış və xəstələr 24 saat sonra təkrarən burun arakəsməsindəki hematomaya nəzarət olunması üçün müayinə edilmişlər. Əməliyyatdan sonra 1-ci həftədə xəstələrin nəzarət məqsədilə burunları müayinə olunduqdan sonra 8-ci həftədə də' yünidn müayinə icra edilmişdir

Nəzarət məqsədilə xəstələrdə ön rinoskopiya və elastiki (fleksibl) endoskopiya tətbiq olunmuşdur. Subyektiv qiymətləndirmə üçün 10 sual soruşulumuşdur. Daha sonra nazal hava yolu pik floumetriya və ön rinomonometriya testləri təkrarlanmışdır. Xəstələrə "Sniffin Sticks" testi icra edilməklə əməliyyat öncəsi və sonrakı nəticələr müqayisə olunmuşdur.

Nəzarət qrupu kimi burun əməliyyatındankənar digər səbəblərdən cərrahi müdaxiləyə məruz qalmış 14 xəstə tədqiqata cəlb edilmişdir. Bu xəstələrin 5-i qadın, 9-u kişi olmaqla, yaşları 22-50 arasında olmuşur (ortalama: 36.4). Bu xəsətlərə verilən ümumi anesteziya altında 8 xəstəyə timpanoplastika, 3 xəstəyə timpanomastoidektomiya əməliyyatı, 3 xəstəyə birbaşa larenkospiya tətbiq olunmuşdur. Xəstələrin heç biri daha əvvəl burun əməliyyatı keçirməmişlər. Xəstələrə əməliyyatdan əvvəl "Sniffin Sticks" testi tətb edilmiş və əməliyyatdan sonra 8-ci həftədə yenidən bu test icra edilərək əməliyyatdan əvvəlki və sonrakı göstəricilər qiymətləndirilmişdir.

Tədqiqatda alınan göstəricilərin statistiki analizi asılı qruplarda t testi və Xi kvadratı (Mak Nemar) testləri, qeyri0parametrik olmaqla Wilcoxon işarələnmiş sıralar testi istifadə edilmişdir. Bu testlər ilə əldə olunan göstəricilər və onların ortaq göstəricisi (SD) işlənərək statistika proqramına daxil edilmişdir. Statistiki analizlərin aparılması məqsədilə SPSS 15.0 (SPSS for Windows 15.0 SPSS Inc. 2007, Microsoft) proqramı tətbiq edilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. Septoplastika əməliyyatı icra edilmiş xəstələrə əməliyyatdan qabaq tətbiq edilən "Sniffin Sticks" testinin nəticələri qoxu hissinin hüdudlarının orta göstəricisi əməliyyatdan sonrakı 8 –ci həftədə icra edilən "Sniffin Sticks" testinin nəticələri qoxunun hüdudlarının orta göstəricisi ilə asılı qruplarda t testindən istifadə edilərək müqayisə edilmişdir (Cədvəl 1).

Cədvəl 1

Qoxunun hüdudu (sərhəddi), qoxunun seçilməsi və qoxunun ayırd edilməsi testlərinin orta göstəriciləri

Göstəricilər	Əməliyyatdan əvvəlki orta göstərici ± SD	Əməliyyatdan sonrakı orta göstərici ± SD	p
Qoxu hissinin hüdudları	6.99±2.98	6.8±2.06	>0.05
Qoxunun seçilməsi	12.32±1.98	11.97±2.39	>0.05
Qoxunun ayırd edilməsi	11.55±2.05	12.29 ± 1.9	>0.05

Qoxu hüdudlarının əməliyyatdan əvvəl və sonrakı göstəricilərinin statistiki olaraq müqayisəsinin nəticələrində dürüst fərq aşkar edilməmişdir (p>0,05). Əməliyyatdan əvvəl və sonra icra edilən "Sniffin Sticks" qoxu testindən sonra əməliyyatdan əvvəl və sonrakı qoxu seçmənin orta göstəricisi ilə asılı qruplarda t testi istifadə olunmaqla müqayisə aparılmışdır (cədvəl 1). Qoxunun seçilməsi testinin əməliyyatdan əvvəl və sonrakı nəticələrinin müqayisəsinin nəticəsində statistiki dürüst fərq aşkar edilməmişdir (p>0,05). Xəstələrə əməliyyatdan əvvəl və sonra icra edilən "Sniffin Sticks" qoxu testindən sonra qoxunu ayırd etmə göstəricilərinin orta göstəricisi ilə asılı qruplarda t testi tətbiq olunaraq müqayisə olunmuşdur (cədvəl 1). Əməliyyatdan əvvəlki və sonrakı icra edilən qoxu hüdudu (sərhəddi), seçimi və ayırd edilməsi göstəricilərinin cəm göstəricisi TDI (treshold+discrimination+identification) balı kimi təyin edilmiş və əməliyyatdan öncəki TDI balı ilə əməliyyatdan sonrakı TDI balı ilə asılı qruplarda t testi tətbiq olunaraq müqayisə olunmuşdur (cədvəl 2)

İcra edilən müqayisənin nəticəsində əməliyyatdan qabaq "Sniffin Sticks" testini nəticəsi kimi meydana gələn TDI göstəricisi ilə əməliyyatdan sonra icra edilən "Sniffin sticks" testinin nəticəsi kimi meydana gələn TDI göstəricisi arasında statistiki baxımdan dürüst fərq aşkar edilməmişdir (p>0,05).

Septoplastika əməliyyatı öncəsi xəstələr burun çəpərinin əyilmə yerinə görə alt və üst çəpər əyriliyi olmaqla 2 qrupa ayrıldılar. 31 xəstədən 18-ində alt və qalan 13-də üst burun çəpərinin əyriliyi aşkar edilmişdir. Burun çəpərinin üst tərəfində əyriliyi olan 13 xəstədə əməliyyatdan əvvəl və sonra icra edilən "Sniffin Sticks" testinin nəticəsi qoxunun hüdud göstəricisinin Wilcoxon işarələnmiş sıralar testi icra edilərək onun nəticələri ilə müqayisə edilmişdir (cədvəl 3).

Cədvəl 2

TDI balının qiymətləndirilməsi

Əməliyyatdan qabaq TDI balı ± SD	Əməliyyatdan sonra TDI balı ± SD	p
30.86 ± 5.15	31.06 ± 4.2	>0.05

Cədvəl 3

Üst burun çəpəri əyriliyi olan xəstələrdə əməliyyatdan əvvəl və sonra qoxunun hüdudu, qoxunun seçimi və qoxunun ayırd edilməsi testlərinin orta göstəriciləri

Göstəricilər	Əməliyyatdan qabaqkı orta göstərici ± SD	Əməliyyatdan sonrakı orta göstərici ± SD	p*
Qoxunun hüdudu	6.9 ± 2.83	7.22 ± 1.53	>0.05
Qoxunun seçilməsi	12.5 ± 1.98	11.3 ± 2.25	>0.05
Qoxunun ayırd edilməsi	11.38 ± 2.22	12.38 ± 2.22	>0.05

Qeyd: * Wilcoxon işarələnmiş sıralar testinin nəticəsinə görə

Burun çəpərinin üst tərəfində əyriliyi aşkar edilən xəstələrdə əməliyyatdan əvvəl icra edilən "Sniffin Sticks" testi ilə əldə olunan qoxunun hüdudunun göstəricisi əməliyyatdan sonra icra edilən "Sniffin Sticks" testi ilə əldə olunan qoxunun hüdudu göstərici müqayisə olunduqda onlar arasında statistiki dürüst fərqin aşkarlanmadığını göstərmişdir (p>0,05).

Burun çəpərinin üst tərəfində əyriliyi olan xəstələrə əməliyyatdan əvvəl və sonra tətbiq edilən "Sniffin Sticks" testində qoxunun seçilməsi göstəriciləri t testindən istifadə olunmaqla müqayisə edilmişdir

Əməliyyatdan əvvəl və sonra burun çəpərinin yuxarı hissəsində əyriliyi olan xəstələrdə qoxunun seçilməsi göstəricilərinin orta göstəriciləri müqayisə edildikdə statistiki fərq aşkar edilməmişdir (p>0.05).

Qoxunu ayırd etmə testinin nəticəsi burun çəpərinin yuxarı tərəfində əyriliyi olan xəstələrdə əməliyyatdan əvvəl və sonra test göstəricilərinin orta qiymətinin Wilcoxon işarələnmiş sıralama testindən istifadə etməklə müqayisə edilmişdir (Cədvəl 3). Septoplastika əməliyyatı icra edilmiş burun çəpərinin yuxarı hissəsində əyriliyi olan xəstələrdə icra edilən qoxunu ayırd etmə göstəricilərinin orta qiymətləri müqayisə edilmişdir və statistiki dürüst fərq aşkar edilməmişdir (p>0,05). Burun çəpərinin üst tərəfində əyriliyi olan xəstələrin qoxu hüdudu, qoxu seçimi və qoxunu ayırd etmə göstəriciləri cəmlənmişdir və orta göstəriciləri Wilcoxon işarələnmiş sıralama testlərindən istifadə etməklə qiymətləndirilmişdir (cədvəl 4).

Cədvəl 4

Burun çəpərinin üst tərəfində əyriliyi olan xəstələrdə septoplastikadan əvvəl və sonrakı TDI göstəriciləri

Əməliyyatdan qabaqkı TDI göstəricisi ± SD	Əməliyyatdan sonrakı TDI göstəricisi ± SD	p*
30.75 ± 4.7	30.9 ± 3.72	>0.05

Qeyd:* Wilcoxon işarələnmiş sıralar test

Burun çəpərinin yuxarı (üst) hissəsinin əyriliyi olan xəstələrdə TDI göstəricilərinin əməliyyatdan əvvəl və sonra müqayisənin nəticəsində statistiki dürüst fərq aşkar edilməmişdir (p>0,05).

Qoxunun hüdudu, seçilməsi və ayırd edilməsi testindən əldə olunan balların bir yerdə qiymətləndirilməsi zamanı əldə olunan 30 və daha aşağı balla qiymətləndirilənlər hiposmik. 30-dan yuxarı balla qiymətləndirilənlər isə normosmik kimi qiymətləndirilmişdir. Bu iki kateqoriyalar baxımından əməliyyatdan əvvəl və sonrakı vəziyyətlərdə asılı qruplarda Xi kvadratı (McNemar Xi kvadratı) testindən istifadə edilməklə müqayisə edilmişdir. Bu müqayisə eyni zamanda aşağı və yuxarı burun çəpəri əyriliyi olan xəstələr üçün ayrı-ayrılıqda təkrarən edilmişdir. Əldə edilən nəticələr cədvəl 5 –da təqdim olunmuşdur.

Cədvəl 5

Qoxunun hüdudu, seçimi və ayırd edilməsi testi kateqoriyalarının əməliyyatdan əvvəl və sonrakı vəziyyəti

			Əməliyyatdan sonra		p
			Hiposmik	Normosmik	
Əməliyyatdan əvvəl	Bütün tədqiqat qrupu n=31	Hiposmik	6	8	0.581
		Normosmik	5	12	
	Burun çəpərinin yuxarı tərəfində əyrilik olan qrup (n=13)	Hiposmik	3	3	1.000
		Normosmik	2	5	
	Burun çəpərinin aşağı tərəfində əyrilik olan qrup n=18	Hiposmik	3	5	0.727
		Normosmik	3	7	

Əməliyyatdan əvvəl və sonra TDI kateqoriyaları arasında bütün xəstələr qrupu və yuxarı və aşağı burun çəpəri əyriliyi olan qruplar arasında dürüst fərq aşkar edilməmişdir (p>0.05). Ümumi anesteziya altında burun patologiyalarından kənar səbəblərdən əməliyyat olunan 14 xəstənin əməliyyatdan əvvəl və sonra "Sniffin Sticks" testi tətbiq olunmuşdur. Əməliyyatdan əvvəl və sonra icra edilən qoxu hüdudu, seçimi və ayırd etmə göstəricilərinin orta qiyməti Wilcoxon işarələnmiş sırlama testindən istifadə etməklə müqayisə edilmişdir (Cədvəl 6). "Sniffin Sticks" testindən istifadə etməklə icra edilən qoxu seçimi və ayırd edilməsi göstəricilərinin müqayisəsi nəticəsində statistiki dürüst fərq aşkar edilməmişdir (p>0.05). Ancaq icra edilən qoxu hüdudu göstəricisinin əməliyyatdan əvvəl və sonra müqayisəsinin nəticəsində statistiki dürüst artım müşahidə edilmişdir (p<0,05).

Cədvəl 6

Burundankənar səbəblərdən ümumi anesteziya altında əməliyyat olunan xəstələrdə əməliyyatdan əvvəl və sonra qoxu hüdudu, seçmə və ayırd etmə göstəricilərinin müqayisə edilməsi

	Əməliyyatdan əvvəlki orta göstərici ± SD	Əməliyyatdan sonrakı orta göstərici ± SD	p*
Qoxu hüdudu	6.5 ± 2.8	6.3 ± 1.9	<0,05
Qoxu seçimi	10.86 ± 3.42	12.64 ± 2.02	>0,05
Qoxunun ayırd edilməsi	11.86 ± 1.96	12.43 ± 1.4	>0,05

Qeyd: * Wilcoxon işarələnmiş sıralama testinin nəticələri

Cədvəl 7

Burundankənar səbələrdən ümumi anesteziya altında əməliyyat olunan xəstələrin əməliyyatdan əvvəl və sonrakı TDI göstəricilərinin müqayisəsi

Parametrlər	Əməliyyatdan əvvəlki orta göstərici ±SD	Əməliyyatdan sonrakı orta göstərici ± SD	p*
TDI göstəricisi	29.09 ± 6.62	30.6 ± 4.16	>0.05

Qeyd:* Wilcoxon işarələnmiş sıralama testinin nəticələri

Bu xəstələrdə qoxu hüdudu, seçimi və ayırd edilməsi göstəricilərinin cəmi olan TDI göstəriciləri Wilcoxon işarələnmiş sıralama testindən istifadə etməklə müqayisə edilmişdir (Cədvəl 7).

TDI göstəricilərinin orta qiyməti ümumi anesteziya altında burundankənar səbəblərlə əməliyyat olunan xəstələrdə əməliyyatdan əvvəl və sonrakı göstəricilərinin müqayisəsi zamanı statistiki dürüst fərq aşkar edilməmişdir (p>0,05).

ƏDƏBİYYAT

1. Briner H.R., Simmen D., Jones N. Impaired sense of smell in patients with nasal surgery // Clin Otolaryngol., 2003, v.28, p.417-419
2. Bozena B., Wrobbel B., Leopold A.D. Clinical assessment of patients with smell and taste disorders // Otolaryngol Clin N Am., 2004, v.34, p.1127-1142
3. Damm M., Eckel H.E., Jungehulsing M., Hummel T. Olfactory changes at threshold and suprathreshold levels following septoplasty with partial inferior turbinectomy // Ann Otol Rhinol Laryngol., 2003, v.112(1), p.91-7.
4. Pade J., Hummel T. Olfactory function following nasal surgery // Laryngoscope. 2008. v.118, p.1260-1264
5. Eibenstein A., Fioretti A.B., Lena C. et al. Modern psychophysical tests to assess olfactory function // Neurol Sci., 2005, v.26, p.147-155
6. Hummel T., Sekinger B., Wolf S.R. et al. 'Sniffin' Sticks': Olfactory performance assessed by the combined testing of odor identification, odor discrimination and olfactory threshold // Chem Senses. 1997. v.22, p.39-52
7. Kobal G., Klimek L., Wolfensberger M. et al. Multicenter İnvestigation of 1,036 subjects using a standardized method for the assessment of olfactory function combining tests of odor identification, odor discrimination, and olfactory thresholds // Eur Arch Otorhinolaryngol., 2000, v.257, p.205-211
8. Hummel 2004. Sniffin'Sticks Tutorial. http://www.tu-dresden.de/medkhno/riechen_schmecken/sticks_eng.pdf

Резюме

Изучение состояния обоняния при операциях на носу

Т.А. Гусейнов

Это исследование было проведено в период с января 2010 по июль 2010 года. Обонятельная функция оценивалась у 31 пациентов, перенесших септопластику. Обонятельный функция оценивали субъективные испытания порога запаха, дискриминации и идентификации с использованием "Sniffin Sticks" батареи тестов. Измерения проводились в предоперационный период и 8 недель после операции. В дополнение к анализу всей группы, сравнивали обонятельную функцию между двумя отдельными группами в зависимости от места отклонения перегородки низшие (18 случаев) и превосходящие (13 случаев). Не было обнаружено статистически существенных различий в обеих группах по искривлению ниже/задних отделов носовой перегородки с точки зрения пред- и пост оперативных значений порога запаха, дискриминации и идентификации испытаний и значений TDI, где в комбинации оценивались данные всех трех тестов.

Summary

Assessment the impact of surgical interventions от the state of the nose feeling

T.A. Huseynov

The sense of smell is one of the most important functions can be changed under the influence of various factors. We carried out studies to investigate the importance of the function of charm state in the evaluation septoplasty results. To study, conducted breath tests, and then to the surgery were recruited 35 patients with complaints of nasal obstruction and a diagnosis of a deviated septum, delivered by rhino- and endoscopic methods. Under general anesthesia in patients was performed septoplasty. Re-examination of the nasal cavity was conducted at 1 and 8 weeks after the operation. In the studies also were used methods of fluorimetry and rhinomanometry. Before and after surgery on the subjective evaluation of the results and t-test data showed a statistically significant decrease in parameters.

Daxil olub: 14.04.2016

ACXOX-UN AĞIR GEDİŞATI ZAMANI KARDİORESPİRATOR SİSTEMİN XÜSUSİYYƏTLƏRİ VƏ XƏSTƏLƏRİN SAĞLIĞINDAKI AĞ CİYƏR MAKROSTRUKTURLARINDAKI DƏYİŞİKLİKLƏR

V.A.Abdullayev

Elmi-tədqiqat Ağ ciyər xəstəlikləri İnstitutu, Bakı

Açar sözlər: ağ ciyərlərin xronik obstruktiv xəstəliyi, ürəyin işemik xəstəliyi, rentgenoqrafiya, EKQ, Exo-KQ

Ключевые слова: хронические обструктивные болезни легких, ишемическая болезнь легких, ЭКГ, Эхо-КГ

Keywords: chronic obstructive pulmonary disease, ischemic lung disease, electrocardiogram, echocardiogram

Son iki onillikdə hər beş ildən bir ACXOX nəticəsində ölüm göstəricisi iki dəfə artır və hazırda ölüm səbəbləri strukturunda dördüncü yeri tutur [1]. Bu xəstəlik üçün ağ ciyər ventilyasiyasının şiddətli şəkildə pisləşməsi xarakterikdir ki, bu da çoxillik monitorinqin göstəricilərinə əsasən FEV1 qradinetinin aşağı düşməsi, obstruksiya komponentlərinin tədricən aşağı düşməsi, ventilyasiya-perfuziya pozuntularının şiddətlənməsi ilə özünü göstərir [2]. Bununla yanaşı bir çox tədqiqatçılar xəstəliyin xarakterinin dəyişməsinə, bronxial obstruksiyanın kritik vəziyyətə çatdığı halda (FEV1 norma həddindən 1,5 l və ya 30%-dən olur) nozoloji spesifikliyinin itməsinə xüsusi diqqət yetirirlər [3,4]. Klinik mənzərədə əsas əlamətlər tənfnəfəslik, fiziki aktivliyin məhdudlaşması və bronxial-ağ ciyərinfeksiyasının tez-tez residivləri önə çıxır. Əfsuslar ki, bir çox xəstələr məhz bu mərhələdə ilk dəfə olaraq tibbi yardım üçün müraciət edirlər. Adətən xəstələr əksər xəstələr üçün xoşagəlməz proqnozun olması fikrinə üstünlük verirlər və müalicə-diaqnostika tədbirlərinin çevrəsini daraldırlar, lakin onlar bu zaman təbabətin əsas postulatını udurlar: "müxtəlif hallarda vəziyyət müxtəlif olur". Xüsusuilə kompyutertomoqrafiyasının imkanlarından gemiş istifadə edilmir. Bu metodika ağciyər toxumasında diffuz dəyişikliklərin xarakteri və yayılma dərəcəsi haqında ətraflı informasiya almağa, onun morfoloji quruluşunun dərəcəsini qiymətləndirməyə imkan verir [5,6,7].

Tədqiqatın məqsədi ağır dəcəli ACXOX olan xəstələrdə kardiorespirator sistemin funksional vəziyyəti qiymətləndirilmiş və xəstənin sağlığında ağ ciyərlərin mkrosturktur dəyişiklikləri təyin edilmiş, sonrakı proqnoz və müalicəyə differensasiyedilmiş yanaşma işlənib hazırlanması olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqata 34 (30,1±4,3%) xəstə (31 (91,2±4,8%) kişi və 3 (8,8±4,8%) qadın) müayinə edilmişdir, orta yaş həddi 0,7±11,8 yaş olmuşdur. Onlarda fiziki yükslənməyə tolerantlığın azalması dərəcəsi, tənəffüs çatışmazlığının laborator göstəriciləri, XF dəyişikliklər, ağ ciyər hemodinamikasının pozulması və rentgenmorfoloji göstəricilər müaqayisə edilmişdir. Siqaret çəkmə staji orta hesabla 15 il və daha çox olmuşdur. Tənəffüs çatışmazlığının ümumi qəbul edilmiş klinik meyarları üzrə fiziki yüklənməyə qarşı tolerantlığın azalması dərəcəsindən asılı olaraq, xəstələr 3 qrupa ayrılmışlar: I qrupa 10 (29,4±7,8%) xəstə daxil edilmişdir, onlarda sianoz olmamış, lakin fiziki yüklənmə zamanı tənqnəfəslik yaranmış, gündəlik tənqnəfəslikdən ağır olmuşdur; II qrupda 10(29,4±7,8%) xəstə daxil edilmişdir, onlarda sianoz qabarıq olmamış, əksər gündəlik fiziki yüklənmələr zamanı tənqnəfəslik yaranmışdır; III qrupa 14 (41,2±8,4%) xəstə daxil edilmişdir, onlarda sakit halda da tənqnəfəslik yaranmış, dəqiq şəkildə sianoz izlənmiş, tənəffüs zamanı yardımçı əzələlər iştirak etmişdir. Bütün xəstələrdə XTF müyinə edilmiş. M-holinitiklər (ipratromium bromid) ilə sinaqlar aparılmışdır, ağ ciyər boşluğunun strukturunu və bronxial müqaviməti qiymətləndirmək üçün 12 standart kəsikli EKQ, exokardioqrafiya ilə dopleroqrafik müayinə aparılmış, ürəyin sol və sağ şöbələrinin ölçüləri, sağ və sol mədəciklərin diastolik qlobal yığılma funksiyası (sürətlərin zirvə nisbətlər üzrə Ve/Va), ağ ciyər arteriyasında orta təzyiq qiymətləndirilmişdir. Laborator müayinələr zamanı arteriyalaşmış kapillyar qanın qaz tərkibi təyin edilmiş, ACXOX-un başqa faktorları təyin edilmişdir (Cədvəl 1).

Cədvəl 1

ÜİX ilə yanaşı III dərəcəli ACXOX-lu xəstələrin klinik-anamnestik parametrləri

Qruplar	n	Siqareçəkmə indeksi	Bədən çəki indeksi	FEV1 (l)	ağ ciyərlərin qalıq həcmi (%)	PO2
I qrup	10	140,2±14,8	27,2±3,1	42,4±1,4	115,2±9,7	89,1±17,2
II qrup	10	198,6±16,4	24,6±3,9	40,1±2,0	120,6±8,6	75,6±14,8
III qrup	14	175,3±19,7	21,4±3,4	35,8±1,6	125,3±10,2	53 ,7±10,7

Belə ki, tədqiqata cəlb edilmiş xəstələrdə qanda dəmirin səviyyəsi I qrupla müqayisədə aşağı olduğu(p<0,001), dəmir mübadiləsinin əsas gostəricilərindən olan ferritinin səviyyəsi yüksək (p<0,05), transferrinin doyma faizi aşağı (p<0,01) olmuşdur. Ferritinin səviyyəsinin belə yüksək həddlərdə olması BTDX zamanı anemiyanın yaranmasına xronik iltihabi xəstəliyin səbəb olduğunu güman etməyə imkan verir. Beləliklə, aparılmış tədqiqat işinin nəticəsinə əsasən müəyyən edilmişdir ki, BTDX zamanı immun marker və iltihabın kəskin faza göstəricilərinin xəstəliyin aktiv fazalarında yüksəlməsi anemik sindromun yaranmasına və gedişinə mənfi təsir edir. Bu da özünü Hb, HCT, MCV, MCH, MCHC göstəricilərinin statistik etibarlı dinamikası ilə göstərir.

Beləliklə, BTDX zamanı anemiyanın rast gəlmə tezliyinin belə yüksək (65%) olması, həmçinin anemiyanın toxuma hipoksiyasına, xəstəliyin proqnozunun pisləşməsinə, xroniki böyrək və ağciyər patologiyalarına səbəb olması anemik sindromun aradan qaldırılmasının zəruriliyini artırır.

Bizim tədqiq etdiyimiz xəstələrdə aparılmış aktiv iltihab əleyhinə bazis terapiyadan sonra xəstələrin qan təhlillərində Hb, MCV, MCH, HCT-də müsbət dinamika qeyd edilmişdir ki, bu da anemik sindromun aradan qaldırılmasıda aparılmış iltihab əleyhinə bazis terapiyanın effektivliyini sübut edir.



Şək. BTDX olan uşaqlarda qanın ümumi analiz göstəriciləri

ƏDƏBİYYAT

1.Дронов И.А. Инфекционные осложнения при системных заболеваниях соединительной ткани у детей и пути оптимизации противоинфекционной терапии. Афтореф. дис. ... канд. мед. наук. М.. 2005. с.156

2. Камфуйс S., Сильверман E.D. Распространенность и тяжесть педиатрической выявленной системной красной волчанки // Nat Rev Rheumatol., 2010, v.6, p.538-46

3. Хираки L.T., Benseler C.M., Tyrrell P.H. и др. Этнические различия в педиатрической системной красной волчанки // J Rheumatol. 2009, v.36, p.2539-46.

4. Pons-Estel Г.Дж., Аларкон Г.С., Скофилд Л. и др. Понимание эпидемиологии и прогрессирования системной красной волчанки // Артрит Rheum., 2009, Т.39, с.257-68

5.Johnson S.R., Swiston J.R., Granton J.T. Prognostic factors for survival in scleroderma associated pulmonary arterial hypertension //J Rheumatol., 2008, v.35(8),p.1584-90

6.Martini G., Foeldvari I., Russo R. et al. Systemic sclerosis in childhood: clinical and immunologic features of 153 patients in an international database // Arthritis Rheum., 2006, v.54(12) , p.3971-8.

7.Kowal-Bielecka O., Landewé R., Avouac J. et al. EULAR recommendations for the treatment of systemic sclerosis: a report from the EULAR Scleroderma Trials and Research group (EUSTAR) // Ann Rheum Dis., 2009, v.68(5), p.620-8.

8.Martin N., Krol P., Smith S., Murray K. et al. A national registry for juvenile dermatomyositis and other paediatric idiopathic inflammatory myopathies: 10 years' experience; the Juvenile Dermatomyositis National (UK and Ireland) Cohort Biomarker Study and Repository for Idiopathic Inflammatory Myopathies // Rheumatology. 2011, v.50(1), p.137-145

9.Martin N., Wedderburn L.R., Pilkington C.A., Davidson J.E. A survey of current practice in the management of Juvenile Dermatomyositis in the UK and Ireland. Abstract from the 17th Paediatric Rheumatology European Society Congress // Clin Exp Rheumatol., 2011, v. 29(Suppl.), p.372

10.Chinoy H., Lamb J.A., Ollier W.E.R., Cooper R.G. An update on the immunogenetics of idiopathic inflammatory myopathies: major histocompatibility complex and beyond. Curr Opin Rheumatol., 2009, v. 21(6), p. 588-593

11.Chinoy H., Payne D., Poulton K.V., Fertig N. et al. HLA-DPB1 associations differ between DRB1*03 positive anti-Jo-1 and anti-PM-Scl antibody positive idiopathic inflammatory myopathy // Rheumatology. 2009, v.48(10), p.1213-1217

12.Chinoy H., Platt H., Lamb J.A, Bekeridge Z. et al. The protein tyrosine phosphatase N22 gene is associated with juvenile and adult idiopathic inflammatory myopathy independent of the HLA 8.1 haplotype in British Caucasian patients // Arthritis Rheum., 2008, v.58(10), p.3247-3254

13. Weiss G.,Schett G. Anaemia in inflammatory rheumatic diseases // Nat.Rev. Revmatol., 2013,v.9(4),p.20-5

Резюме

Факторы влияющие на развитие синдрома анемии у детей с диффузными болезнями соединительной ткани

С.М.Сафарова

Представлены результаты исследования проведенного с целю изучения особенностей метаболизма железа и факторов приводящих к развитию анемического синдрома у детей с диффузными болезнями соединительной ткани. Исследование проводились у32 больных детей с ДБСТ в возрасте от 3 до18лет. У всех пациентов изучались показатели общего анализа крови, определялось содержание сывороточного железа, ферритина, трансферрина, процент насыщения трансферрина, уровни фолиевой кислоты, вит.В12, эритропоэтин, прямая реакция Кумбса, АНА, анти-дс ДНК, анти-сс ДНК, СРБ, РФ, АСО. Полученные результаты свидетельствовали о более высоких показателях иммунного воспаления у больных с анемическим синдромом по сравнению с детьми, у которых данный синдром отсутствовал.

Summary

Factors affecting the development of the syndrome of anemia in children with diffuse connective tissue diseases

S.M.Safarova

Presented results of research conducted with the purpose to study the characteristics of iron metabolism and the factors leading to the development of anemia in patients with diffuse connective tissue diseases of children. A study conducted in 32 patients with diffuse connective tissue diseases of children aged from 3 do18 years. All patients were studied blood count indices, defined the content of serum iron, ferritin, transferrin, transferrin saturation percentage, folic acid levels vit.V12, erythropoietin, direct Coombs' test, ANA, anti-ds DNA, anti-ss DNA, CRP, RF ASO. The results showed higher rates of immune inflammation in patients with anemic syndrome, compared with children who have the syndrome was absent.

Daxil olub: 01.03.2016

КЛИНИКО-РЕНТГЕНОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ТЕЧЕНИЯ САРКОИДОЗА

И.А.Мустафаев, Г.Р. Алиева, R.C. Гаджиева, Э.Н.Мамедбеков

НИИ Легочных Заболеваний МЗ Азербайджана

Açar sözlər: Sarkoidoz, döş qəfəsi daxili limfa düyünləri, ağ ciyərlər

Ключевые слова: саркаидоз, лимфатические узлы грудной клетки, легкие

Key words: Sarcoidosis, intrathoracic limf nodes, lungs

Саркоидоз - это мультисистемное заболевание неизвестной этиологии, относящееся к гранулематозам и характеризующееся образованием неказеифицированных эпителиоидно- клеточных гранулем с последующим их рассасыванием или трансформацией в соединительную ткань [1,3]. В настоящее время это одно из наиболее распространенных интерстициальных заболеваний легких неустановленной природы [2]. Согласно последним концепциям, причиной возникновения саркоидоза является сочетание генетических, экологических, инфекционных и иммунных факторов, которые вызывают изменения иммунной системы с активацией макрофагов и лимфоцитов в местах развития патологического процесса [1,5,7]. Активированные макрофаги и лимфоциты продуцируют повышенное количество интерлейкинов и фактора некроза опухоли, участвующих в формировании гранулем [3,5]. Учитывая однотипность, универсальность иммунных реакций и морфологических изменений при саркоидозе, логично предположить их одновременность, возникновении в различных органах и системах [4]. Частота внелёгочных поражений при саркоидозе по данными разных авторов варьирует в широких пределах. Клинические проявления саркоидоза весьма вариабельны. Возможны лихорадка, лимфаденопатия, поражения кожи, костей, глаз и т.д [3,4,8]. Наиболее часто встречаемой формой является саркоидоз внутригрудных лимфатических узлов [6].

Цель исследования. Изучить особенности клинико-рентгенологического течения саркоидоза в Азербайджане

Материалы и метода исследования. Исследование проводилось в отделе пульмонологии НИИ легочных заболеваний. Под наблюдением находились 176 больных в возрасте от 32 до 65 лет. Из них мужчин – 51 женщин-125. Наблюдение за динамикой течения болезни проводилась в течение последних 10 лет. На каждого больного была открыта амбулаторная карта, где отмечались динамика клинического течения заболевания и результаты обследования.

Результаты исследования. Клиническая картина заболевания и степень выраженности его проявлений была довольно разнообразна. Так, в более, чем половине случаев (102-58,5%) наблюдалось несоответствие удовлетворительного общего состояния и обширности поражения легочной ткани и внутригрудных лимфатических узлов (ВЛУ). В данном случае начало заболевания было бессимптомным, постепенным или острым. При отсутствии клинических проявлений, заболевание обычно выявлялось при случайном или профилактическом рентгенологическом обследовании грудной клетки, с последующим выявлением увеличенных ВЛУ у всех 102 (100%) больных и поражение легочной ткани в 8 случаях (8%). У 42 больных (24%) наблюдалось постепенное начало заболевания со скудной клинической симптоматикой: болью в груди, артралгии (24%), сухим кашлем (18%), одышкой при физическом напряжении (15,3%), общим недомоганием (32,3%). Аускультативные изменения в легких отсутствовали. В 33 случаях (18,1%) имело место острое начало заболевания, которое характеризовалось лихорадкой (14%), появлением узловатой эритемы (21,5%), полиартрита (18,1%). Состояние хронической усталости, недомогания имело место в 23,3% случаях. У 12,0% больных наблюдался сухой непродуктивный кашель. При аускультации в легких выслушивалось жесткое дыхание.

Таблица1

Методы исследования при саркоидозе

Методы исследования	Количество исследований
Общий анализ крови (лейкоцитарная формула)	176
Иммунологический анализ крови (игА,М,G, интерлейкины, циркулирующие иммунные комплексы, альвеомуцин)	129
Биохимический анализ крови (трансаминазы, сахар, креатинин, уровень кальция)	172
Фибробронхоскопия	113
Открытая биопсия	46
Цитологический анализ бронхоальвеолярного лаважа	113
Гистологический анализ биоптата	101
Рентгенография легких	176
Компьютерная томография легких	158
Ядерно-магнитный резонанс костей	4
Позитронно-эмерсионная томография костей	2

Таблица 2

Частота клинических проявлений саркоидоза

Клинические признаки	Бессимптомное начало (N=102)	Постепенное начало (N=42)	Острое начало (N=32)
Увеличенные ВЛУ	102-100%	42-100%	32-100%
Поражение легочной ткани	8-8%	23- 55%	
Лихорадка			24-75%
Узловатая эритема		9- 21,4%	29- 91%
Артралгия, боль в груди		10-24%	31-97%
Недомогание		16-38,0%	32-100%
Одышка		24-57,1%	3-9,3%
Кашель		12-28,5%	21-66%
Поражение печени		4-9,5%	
Поражение кожи		9-21,4%	7- 22%
Поражение костей		2 -5,1%	

Сочетанное поражение легких и печени имело место в 4-2,3% случаях. Клиническим проявлением саркоидного поражения печени были изменения в биохимических анализах крови, выражавшиеся в гипербилирубинеми (72,7-93,6 мкмоль/л) за счет непрямого билирубина, повышении концентрации

трансаминаз АСТ и АЛТ до 170 и 236 ед/л. УЗИ брюшной полости выявляло увеличение размеров печени, повышение эхогенности, диффузной неоднородности. Пункционная биопсия выявила саркоидные гранулы. Клиническим проявлением саркоидоза костей были боли в позвоночнике и в кистях. Использование ядерно-магнитного резонанса (ЯМР) и позитронно-эмерсионной томографии (ПЭТ) позволило диагностировать поражения костей. В 21% случаях отмечалось сочетание саркоидного поражения легких и кожи. Благодаря кожным проявлениям болезни, которые привлекали внимания с первых дней появления, лечение заболевания проводилось своевременно с хорошим исходом. Клинически кожные изменения проявлялись в виде узловатой эритемы, саркоидных бляшек и рубцов интенсивно багрового цвета, несколько болезненных при пальпации.

Лучевые методы (Р-графия, КТ, ЯМР, ПЭТ) применялись как с диагностической целью, так и для оценки эффективности проводимой терапии. В большинстве случаев результаты рентгенологического исследования были единственным критерием результатов лечения. Рентгенологические изменения при саркоидозе легких характеризовались увеличением внутригрудных лимфатических узлов (ВЛУ) во всех случаях исследования. Поражение легочной ткани в виде интерстициального пневмофиброза, очаговоподобных теней, локальной эмфиземы выявлялось у18% больных.

Исход заболевания не всегда зависел от проводимой терапии. Так в 11% случаев имело место спонтанное выздоровление без применения медикаментозной терапии. Критерием выздоровления было уменьшение размеров ВЛУ до нормальных значений. У 9 % больных выздоровление наступило на фоне применения антиоксидантов и плазмафереза без использования стероидных глюкокортикоидов. В 58% наблюдений отмечалось полное выздоровление на фоне проводимой адекватной стероидной терапии. В 10 % случаев несмотря на длительную гормональную терапию высокими дозами стероидов нормализации ВЛУ не наступало и дальнейшее наблюдение за больными в течение 2 лет не выявило какой либо отрицательной динамики клинико-рентгенологической картины. Однако, у

Таблица 3

Катамнез больных саркоидозом легких

Исход заболевания	Число больных
Спонтанное выздоровление без лечения	11%
Полное выздоровление на фоне лечения без гормонов	9%
Полное выздоровление на фоне адекватной стероидной терапии	58%
Неполное рассасывание ВЛУ на фоне адекватной стероидной терапии	10%
Хроническое течение заболевания	12%

12% больных, несмотря на комплексное лечение с применением стероидов,

плазмафереза наблюдалась хронизация процесса, при котором периоды обострения чередовались периодами обострения, при попытке отмены стероидов. Эти пациенты находились на длительной гормональной терапии минимальными дозами в течение 3-4 лет.

Таким образом, динамическое наблюдение за больными и анализ медицинской документации позволил сделать выводы:

1.В большинстве случаев начало заболевания было бессимптомным и болезнь диагностировалась при случайном или профилактическом рентгенологическом исследовании грудной клетки.

2. Основным диагностическим критерием были увеличенные ВЛУ

3. Характерный для саркоидоза синдром Лефгрена (узловатая эритема) встречалась лишь у 16.5% больных

3. Полное выздоровление на фоне адекватной стероидной терапии было достигнуто у 58% больных, тогда как в 12% случаев отмечалась хронизация процесса, несмотря на стероидную терапию.

ЛИТЕРАТУРА

1. Визель И.Ю., Визель А.А. Итоги одногодичного наблюдения больных с гистологически верифицированным саркоидозом. // Казанский медицинский журнал, 2010, №6, с.1-6

2. Визель А.А., Исламова Л.В., Амиров Н.Б. и др. Оценка влияния различных режимов лечения на клинические, лучевые и функциональные параметры у больных внутригрудным саркоидозом // Казанский мед. Ж., 2004, № 2, с. 90-95.

3. Зайцев А.А.,Крюков Е.В. и др. Саркоидоз: критерии и инструменты прогноза рецидивирующего течения // Практическая пульмонология, №2, 2015, с.1-3

4. Куклина Г.М., Романов В.В. Клиничес кий пример лечения больного саркоидозом с применением альтернативных методов // Вестник современной клинической медицины, №4, 2010, с.23-25

5. Шмелев Е. И. Саркоидоз // Практичесекая пульмонология, 2000, №2, с.1-8

6. Шахмурадова Д.А., Палеев Н.Р., Горенков Р.В. Эпидемиология саркоидоза // Здоровье и образование в 21 веке, 2007, №4

7. Antoniu S.A. Targeting the TNF-alpha pathway in sarcoidosis // Expert. Opin. Ther. Targets., 2010, v.14, p.21-29.

8. Baughman R.P. Therapeutic options for sarcoidosis: new and old // Curr. Opin. Pulm. Med., 2002, v. 8, p.464-469.

Xülasə

Sarkoidozun gedişinin kliniki-rentgenoloji xüsusiyyətləri

İ.A. Mustafayev, G.R. Əliyeva, R.Hacıyeva

Tədqiqatın məqsədi Azərbaycanda sarkoidozun kliniki-rentgenoloji gedişinin xüsusiyyətlərinin öyrənilməsi idi. 32-65 yaşlı 135 xəstə nəzarət altında olmuşdur. Dinamik müşahidə 10 il ərzində aparılmışdır. Xəstəliyin kliniki gedişi və müayinələrin nəticələri hər bir xəstəyə açılmış ambulator kartada qeyd olunmuşdur. 102 pasiyentdə xəstəliyin başlancığı simptomsuz, 98 nəfərdə kəskin olmuşdur. Xəstəliyin daha çox tezliklə rast gələn kliniki təzahürləri düyünlü eritema, artralgiya, halsızlıq, öskürəkdir. Rentgenoloji şəkil böyümüş döş qəfəsi daxili limfa düyünləri üstünlüyü ilə xarakterizə olunur. Bir çox hallarda (58%) adekvat steroid terapiya fonunda xəstəliyin tam sağalması ilə nəticələnmişdir, 12% xəstələrdə prosesin xroniki formaya keçməsi müşahidə olunmuşdur.

Summary

Clinical and radiological feature of sarcoidiosis

I.A. Mustafayev, G.R. Aliyeva, R.Haciyeva

The goal of investigation is to study clinical and radiological feature of sarcoidiosis in Azerbaijan. 135 patients of the age from 32 to 65 were under the observation. There were no symptom of begining of disease in 102 patients and acute start sarcoudosis in 98 invalids. The most wides symptoms of diseas are nodose erhythema, artralgy, malaise, cough. Radiological picture characterise by increase of intrathoracic limfnodes. In more cases (58%)adequacy stheroid therapy finalisated by complete recovery, in 12% patients took place chronization of dissease.

Daxil olub: 09.03.2016

QALXANVARİ VƏZİDƏ QEYRİ- TOKSİK KİSTOZ DEGENERASİYALI PARENXİMATOZ DÜYÜNLÜ UR ZAMANI KOMBİNƏOLUNMUŞ METODİKANIN SKLEROTERAPİYA VƏ LAZERTERMİYA İLƏ MÜALİCƏNİN NƏTİCƏLƏRİ

M.Məmmədov, A.Əliyev, E.F.Haqverdiyeva

M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi

Açar sözlər: qalxanvari vəzi, düyünlü ur, qeyri-toksik kistoz, skleroterapiya, lazertermiya

Ключевые слова: щитовидная железа, узловой зоб, не токсичный кистоз, склеротерапия, лазертермия

Key words: thyroid, nodular goiter, cystic non-toxic, sclerotherapy, lazertermiya

Klinik endokrinologiyanın ən aktual problemlərindən biri qalxanvari vəzi xəstəliklərinin profilaktika, diaqnostika və müalicəsi məsələləridir [1,3,5,8,9,11,19]. Problemin aktuallığı xəstəliyin yayılma dərəcəsi, son illər gənc və orta yaşlı şəxslərdə urun ağırlaşmış formalarının nəzərə çarpacaq dərəcədə artması əlaqədardır.Qeyri- toksik düyünlü urun, hətta diametri 10 mm-dən böyük olan urun yayılma dərəcəsi ümumi populyasiyada 20-30% təşkil edir və yod defisiti olan ərazilərdə artaraq 50%-ə çatır [2,4,5,6,7,9,17,18]. Beləliklə, qeyri- toksik düyünlü ur Yer kürəsinin bütün regionlarında, eləcə də Azərbaycanda tez- tez rast gəlinən və yüksək artıma meyilliliyi olan xəstəlikdir. Bir qayda olaraq qeyri- toksik düyünlü ur olan xəstələrin böyük əksəriyyəti düyünün ölçüsü 1-3 sm olduqda həkim- endokrinoloqun "nəzər nöqtəsinə" düşür. Bu halda tireoid hormonları və ya yod preparatlarını təyin etmək "artıq gecdir", xəstəni əməliyyat etmək "hələ tezdir" [10,11,13,15]. Belə halda müalicə edən həkim hansı taktikanı seçməlidir? Passiv olaraq düyünün əməliyyat üçün "uyğun" ölçüyə qədər yetişməsinimi gözləməlidir? Bu halda ultrasəs müayinənin nəzarəti altında düyünün böyüməsinin qarşısının alınması üçün azinvaziv metodlar alternativ müalicə ola bilər [8,9,14,15,16]. Ona görə də hazırda ətraf parenximaya təsir göstərməyən, yəni xəstə üçün minimal invaziv

olaraq düyün toxumasında lokal destruksiyaya nail olmağa imkan verən yeni metodların klinik praktikaya tətbiq olunması tələbatı qarşımızda durur.

Tədqiqatın məqsədi. Qeyri- toksik düyünlü urun müalicəsində USM nəzarəti altında punksion LİTT metodikasının düyünün ilkin həcmindən asılı olaraq efektliyinin qiymətləndirilməsi.

Tədqiqatın material və metodları. Tədqiqat işinə 2010-2015-ci illər ərzində müalicə alan qeyri-toksik kistoz degenerasiyalıdüyünlü kolloid ur olan 16 xəstə daxil edilmişdir. Onların müalicəsində minimal invaziv kombinəolunmuş metodika istifadə olunmuşdur. Hazırkı tədqiqat işinin material qismində ambulator kartalardan, xəstəlik tarixçələrindən, klinik- laborator müayinələrin göstəriciləri, LİTT protokolları, qalxanvari vəzinin skleroterapiyası və ultrasəs müayinəsi, sitoloji və histoloji müayinələrin nəticələrindən götürülmüşdür. 9 xəstədə kistoz komponentin aradan qaldırılması üçün skleroterapiya LİTT-dən əvvəl birinci mərhələdə istifadə olunmuşdur. Bu düyünlərdə mayenin miqdarı 0,5-13,0 ml arasında tərəddüd etmişdir. toxuma komponenti ilə müqayisədə 18,2- 46,7 % arasında olmuşdur. Beləliklə, hər bir halda toxuma komponenti üstünlük təşkil etmişdir. 9 nəfərdə düyünün ümumi həcminin orta hesabla 2/3 - ¾-nü təşkil etmişdir (Şək. 1).



Şək.1.Qalxanvari vəzi də düyünün kombinəolunmuş müalicəsindən əvvəl və sonra maye və toxuma komponentlərinin nisbəti

Düyünlərin ilkin həcmi 1,5- 55,0 sm^3 arasında tərəddüd edir, düyünlərin həcminin medianı 2,3 sm^3 azalmışdır. Müalicənin birinci mərhələsindən sonra (skleroterapiya) düyünlərinin həcmin medianının azalması 67,6% təşkil etmişdir. Skleroterapiyadan sonra minimal həcm 0,7 sm^3, maksimal həcmin 39,5 sm^3-a qədər dəyişmişdir. Beləliklə, skleroterapiyadan sonra düyünlərin mütləq azalması 0,1- 15,0 sm^3 arasında tərəddüd etmiş, median 2,8 sm^3 təşkiletmişdir. Etanol ilə inyeksiyasından sonra düyünlərin həcminin orta nisbi azalması 40,2% təşkli etmişdir. Lazertermiyadan əvvəl orta həcmli düyünü olan xəstələrə hər düyünə 2 seans olmaqla 1-4 skleroterapiya seansı aparılmışdır. Skleroterapiya ilə müalicənin birinci mərhələsinin müddəti seansların sayından asılı olmuş və 1-6 ay təşkil etmişdir. Birinci mərhələnin orta davametmə müddəti 2,4 ay olmuşdur.

Kistoz komponent aradan qaldırıldıqdan sonra müalicənin ikinci mərhələsi- LİTT-ə başlanmışdır. Prosedurlar standart sxem üzrə aparılmışdır. Hər xəstəyə orta gücü 2,73 Vt, təsir müddət və enerji medianı 750 san və 2100 C olmaqla 1-3 seans lazer şüalanması aparılmışdır. Ikinci mərhələdə müalicənin orta müddəti 2-3 ay təşkil etmişdir. LİTT- dən sonra düyünlərinin həcminin medianı 2-3 sm^3-dən 1,0 sm^3-a qədər olmuş, yəni 56,5% azalmışdır. LİTT-dən sonra düyünün həcminin mütləq azalma medianı 1,3 sm^3 təşkil etmişdir.

Beləliklə, iki mərhələli kombinə olunmuş müalicədən sonra orta hesabla 5 ay müddətində düyünlərin medianı 1,7 sm^3- dan 1,0 sm^3 -a qədər, yəni 86% azalmışdır.

Skleroterapiya və lazertemiyadan sonra düyünlərinin həcminin azalması statistik dürüst olumuşdur ($p< 0.001$). Müalicədən sonra uzun müddətli müşahidələr zamanı mayeni toplanması və ya düyünün artması qeydə alınmamışdır (Şək.2).

Şək. 2. Xəstə K- ın, 43 yaş qalxanvari vəzisinin sol payının ultrasonoqramı. A-düyün müalicəyə qədər, həcmi- 2,1 sm^3; b- skleroterapiya ilə 1 seans müalicədən sonra sonra maye komponenti yoxdur; düyünün həcmi-1,6 sm^3 c- müalicənin iknici mərhələsindən sonra (LİTT) düyünlü törəmə, düyünün həcmi 0,5 sm^3

6 xəstədə LİTT kursu zamanı və ondan sonra skleroterapiya aparılmışdır. Çünki düyünün toxuması fonunda maye formalaşmışdır. Bu fenomen onunla izah olunur ki, düyün toxumasının lazer destrurksiyasında aseptik iltihab nəticəsində özünü göstərən qabarıq ekssudativ hallar zamanı mayenin sovrulması ləng baş verir. Bu halda aspirasiya düyünün maye tərkibindən başlanılır- bir dəfəyə 1-3 ml seroz- hemorragik ekssudat aradan qaldırılır. Bundan sonra 0,5- 2,0 ml dozada 96%-li etanol inyeksiyası aparılır. Bu prosedur düyünlərin həcminin LİTT- dən sonra 2,8-41,2% azaltmağa imkan vermişdir. Düyünlərinin həcminin azalmasının mütləq rəqəmləri 0,2- 5,2 sm3 , median 0,7 sm3 təşkil etmişdir

Bu qrupda hər xəstədə 2 müalicə metodundan istifadə olunduğu üçün biz skleroterapiya və lazer induksiyaedici müalicə zamanı vizual analoq şkalasının köməkliyi ilə ağrı sindromunun qabarıqlıq dərəcəsini ballarla qiymətləndirərək müqayisə etdik. Nəticələr aşağıdakı kimi olmuşdur. Skleroterapiya zamanı ağrı etanol yeridildiyi anda və punksiya iynəsi qalxanvari vəzinin toxumasından çıxarıldıqda baş vermişdir. Onun müddəti 10-70 saniyə arasında olumuşdur, ballarla intensivlik 35-95 bal arasında olmuş, ağrı sindromunun orta ağırlıq dərəcəsi 68 olmuşdur. Əksər xəstələr baş verən ağrıları çox güclü ağrılar kimi xarakterizə etmişlər və müqayisəli olaraq bu ağrıları təmiz yaraya yod məhlulu düşdükdə baş verən ağrılar və ya ilkin cərrahi işləmə zamanı baş verən ağrılara bənzətmişlər.

Lazer induksiyaedici termoterapiya zamanı çox zaman ağrı müalicə başlandıqdan 1-2 dəqiqə sonra, qalxanvari vəzi kapsulu və onu əhatə edən toxuma qızdıqda baş vermiş və müddəti 5 saniyədən çox olmamışdır, çünki ağrı baş verdikdə biz ya lazeri söndürmüş, ya da işıqötürücüsünün dəstəyinin vəziyyətini dəyişmişdik. Ağrı sindromunun intensivliyi 10-50 bal arasında olmuşdur (orta hesabla 29 bal), bu zaman 5 xəstə öz hisslərini ağrı deyil, təzyiq hissləri kimi xarakterizə etmişlər. Qısa müddətli ağrılar keçirən elə həmin xəstələr onu ya zəif, ya da orta ağrılar kimi xarakterizə etmişlər (Şək. 3).



Şək. 3. Minimal invaziv metodikalar zamanı ağrı sindromlarının intensivliyi: 1-skleroterapiya; 2-lazertemiya

Beləliklə, etil spirti yeridildikdə xəstələr 2,3 dəfə çox güclü ağrılar keçirmişlər, ağrıların müddətin lazer induksiyaedici termoterapiyaya nisbətən 6 dəfə çox olmuşdur.

Şəxsi tədqiqatların nəticələri. Bizim kilinikada yerinə yetirilən bu təqdiqatlar qalxanvari vəzidə kista və düyünlərin müalicəsində skleroterapiyanın yüksək effektivliyində bərabər nəticələrin ədlə olunmasına imkan vermişdir. 90% xəstədə törəmələri 80% azaltmaq mümkün olumuşdur. Kolloid quruluşlu düyünlərin müalicəsində skleroterapiya daha az effektivdir. Yalnız 50% xəstələrdə törəmənin həcmi 50% azlanmışdır. Digər tərəfdən kistoz düyünlərin lazer induksiyaedici metodla müalicəsi cəhdləri zamanı biz kistoz ur olan 4 xəstədə müsbət nəticə əldə etmədik, onlarda lazertemiyadan 1 ay sonra törəmələrin azalması qeydə alınmamışdır.

Ona görə də qarışıq quruluşlu düyünlər zamanı mayeli komponentin aradan qaldırılması üçün skleroterapiya, düyünün parenximasında destruksiyanın aradan qaldırılması üçün lazertemiyanın tətbiq olunması əsaslandırılmışdır.

Qalxanvari vəzidə qarışıq tipli düyünlərin kombinəolunmuş müalicə metodikasından sonra düyünlü törəmələrin həcmi 86% azalmışdır, belə düyünlərin müalicəsində yalnız skleroteraiyadan istifadə olunduqda effekt daha az qabarıq- 65% olmuşdur. Xəstələr qrupunda prosedurlar zamanı ağrı sindromunun qabarıqlığı təhlil olunmuşdur, çünki burada minimal invaziv mülicəinin hər iki metodundan istifadə olunmuşdur. Bu zaman müəyyən olunmuşdur ki, xəstələr lazer terapiyasını daha yaxşı keçirirlər, çünki onlarda ağrı sindromu daha az qabarıq olmuşdur. Bu onunla bağlıdır ki, LİTT zamanı düyündə işıqötürücüsünün dəstəyinə hər zaman nəzarət etmək mümkün olur və xoşagəlməz hisslər baş verdikdə işıqötürücüsünün dəstəyini çevirmək və ya lazeri söndürmək və ağrı sindromunu aradan qaldırmaq mümkündür.

ƏDƏBİYYAT

1.Mishra A. Total thyroidectomy for benign thyroid disorders in an endemic region / A. Mishra, A. Agarwal, G.Agarwal // World J. Surg., 2001, v.25, p.307-310.

2.Monzani F. Surgical and pathological changes after percutaneous ethanol injection therapy of thyroid nodules / F. Monzani, N. Caraccio, F. Basolo // Thyroid., 2000, v.10, N 12, p.1087-1092

3.Mueller-Lisse U.G. Perioperative prediction by MRI of prostate volume six to twelve months after laser-induced thermotherapy of benign prostatic hyperplasia / U.G. Mueller-Lisse, M. Frimberger, P. Schneede // J. Magn. Reson.Imaging., 2001, v.13, № 1, p.64-68.

4.Nikfarjam M. Comparison of 980- and 1064-nm wavelengths for interstitial laser thermotherapy of the liver / M. Nikfarjam, C. Malcontenti- Wilson, C. Christophi // Photomed. Laser Surg., 2005, v.23, № 3, p.284-288.

5.Nikfarjam M., Christophi C. Interstitial laser thermotherapy for liver tumours //Br. J. Surg.- 2003. v. 90, №9, p.1033-1047.

6.Pacella C.M., Bizzarri G., Spiezia S.Thyroid tissue: US-guided percutaneous laser thermal ablation // Radiology. 2004, v. 232, №1, p.272-280.

7.Park J.V., Maisonneuve P., Sheppard M.C. Prediction of all-cause and cardiovascular mortality in elderly people from one low serum thyrotropin result a 10- year cohort study // Lancet, 2001, v. 358, p.861-865.

8.Parle J.V., Maisonneuve P., Sheppard M.C. Prediction of all-cause and cardiovascular mortality in elderly people from one low serum thyrotropin result: a 10-year cohort study // Lancet, 2001, v.358. p.861-865.

9.Puis R., Stroszczynski C., Gaffke G.Laser-induced thermotherapy (LITT) of liver metastases: MR- guided percutaneous insertion of an MRI-compatible irrigated microcatheter system using a closed high-field unit // J. Magn. Reson. Imaging, 2003, v.17, № 6, p.663-670.

10.Reske W., Schneider H. Efficacy of the treatment of euthyroid thyroid cysts with thyroid // Z. Arztl. Fortbild. (Jena), 1981, v. 75, № 10, p. 458-460.

11.Robinson D.S., Parel J.M., Denham D.B. Interstitial laser hyperthermia model development for minimally invasive therapy of breast carcinoma // J. Am. Coll. Surg., 1998, v.186, № 3, p.284-292.

12.Rojdmark J., Jarhult J. High long term recurrence rate after subtotal thyroidectomy for nodular goiter// Eur. J. Surg., 1995, v.161, p.725-727.

13.Марченко Е.В. Роль склеротерапии, выполняемой под ультразвуковым контролем, в лечении узлового зоба: Автореф. дис. ... канд. мед.наук. Обнинск, 2003, 23с.

14.Неворотин А.И. Введение в лазерную хирургию: учеб.пособие. СПб.: СпецЛит, 2000, 175 с.

15.Плешков В.Г., Барсуков А.Н., Коноплев О.А. Возможности склерозирующей терапии при доброкачественных новообразованиях щитовидной железы / Современные аспекты хирургической эндокринологии: материалы восьмого Рос.симп. по хирур. эндокринологии. Казань, 1999, с.245- 248.

16.Привалов В.А., Гиниатуллин Р.У., Ревель-Муроз Ж.А. и др. Разработка, экспериментальное обоснование метода лазерной деструкции в малоинвазивной хирургии щитовидной железы и его клиническая апробация / Лазерные технологии в медицине: Сборник научных работ. Челябинск, 1999, с.136-142.

17.Семиков В.И. Современные принципы лечения больных с узловым зобом // Врач, 2002, №7,с.7-12.

18.Бубнов А.Н., Кузьмичев А.С., Гринева Е.Н. Заболевания щитовидной железы. СПб., 2002, 107с.

19.Ветшев П.С., Чилингариди К.Е., Банный Д.А. Повторные операции на щитовидной железе при узловом зобе: причины и профилактика / Современные аспекты хирургической эндокринологии: материалы одиннадцатого (тринадцатого) Рос.симпозиума с международным участием по хирургической эндокринологии. СПб., 2003, с.64-68

Резюме

Результаты комбинированной методики склеротерапии и лазертермии при паренхиматозных узловых зобов с дегенерацией нетоксического кистоза щитовидной железы

М.Мамедов, А.Алиев, Э.Ф.Агвердиев

Целью исследования явлось оценка эффективности комбинированной методики склеротерапии и лазертермии при паренхиматозных узловых зобов с дегенерацией не-токсического кистоза щитовидной железы под наблюдением УЗИ. В исследование вошли 16 больных с с дегенерацией нетоксического кистозя щитовидной железы. При исследовании выяснилось, что после комбинированного лечения объем узловых образований уменьшилось на 86%, а при склеротерапии это показатель был равен на 65%.

Summary

The results of the combined method of sclerotherapy and lazertermii at parenhimatoz-governmental nodal goiters with cystic degeneration of non-toxic thyroid

M.Mamedov, A.Aliyev, E.F.Agverdiyev

The study yavlos evaluation of the effectiveness of the combined technique sklerotera-FDI and lazertermii with parenchymal nodular goiters with degeneration of non-toxic cystic thyroid gland under ultrasound surveillance. The study included 16 patients with cystic degeneration of non-toxic thyroid. In the study it was found out that after combinatorial treatment Rowan-volume nodules decreased by 86%, while sclerotherapy this figure was 65%.

Daxil olub: 18.04.2016

BARİATRİK CƏRRAHİYYƏDƏ SİMULTAN ƏMƏLİYYATLAR

P.H. Nəcəfquliyeva, P.A.Abbasov

Azərbaycan Tibb Universiteti, II Cərrahi xəstəliklər kafedrası, Bakı

Açar sözlər: piylənmə, boruşəkilli mədə rezeksiyası, bariatrik cərrahiyyə

Ключевые слова: ожирение, вертикальная резекция желудка, бариатрическая хирургия

Key words: obesity, sleeve gastrectomy, bariatric surgery

Piylənmə və onunla yanaşı müşayiət olunan metabolik pozulmaların effektiv müalicə problemlərinin həllinə dair məsələlər müasir cərrahiyyədə aktual müzakirə mövzularındandır. Statistik məlumatlara əsasən, piylənmədən Dünya əhalisinin 7%-i əziyyət çəkir. Qərbi Avropa ölkələrinin əksəriyyətində yaşlı əhalinin 9%-dən 20%-ə qədərinin piylənməsi və 25%-dən çoxunda artıq bədən çəkisi vardır. ABŞ–da isə bu müvafiq olaraq 25% və 50%-dir. Azərbaycanda da əmək qabiliyyətli insanların orta hesabla 10-15%-nin piylənmədən, 15-20%-nin isə artıq çəkidən əziyyət çəkməsi qeyd olunur [1,2]. Faiz göstəricilərinin belə yüksək olması baxımından, piylənmə və onunla yanaşı müşayiət olunan metabolik pozulmaların müalicə və profilaktika məsələləri bu gün də aktual müzakirə mövzusu kimi alimlərin nəzər diqqətini özünə cəlb edir. Piylənmə çox vaxt ağır yanaşı patologiyalarla, o cümlədən metabolik sindrom, 2-ci tip şəkərli diabet, arterial hipertenziya, dislipidemiya, ateroskleroz, ürəyin işemik xəstəliyi, ürək-damar çatmamazlığı, reproduktiv funksiyaların pozulması, öd daşı xəstəliyi, dayaq-hərəkət aparatının xəstəlikləri və s. ilə müşayiət edilir. Piylənmənin əsas səbəbləri həddindən artıq kalorili qidaların, xüsusilə də yağlı qidaların qəbulu, oturaq həyat tərzi, az hərəkətlilik, metabolizmin aşağı səviyyəli olması, yuxusuzluq, stress, genetik amillər və s. hesab edilir [3].

Artıq bədən kütləsi və piylənmənin dərəcəsinin müxtəlif ölçülmə kriteriyaları vardır, lakin universal üsul kimi bədən kütləsi indeksindən (BKİ) istifadə edilir. Bədən kütləsi indeksi (BKİ), bədən kütləsinin kiloqramla

olan ölçüsünün boyun metrlə olan ölçüsünün kvadratına nisbətilə hesablanır. BKİ = kg / m2. Əgər BKİ: 20-25-dirsə "Normal kütlə"; 26 - 29.9 arasında isə "Artıq çəkili"; 30-39.9 arasında isə "Piylənmə": 30-34 - I dərəcəli piylənmə; 35-39 - II dərəcəli piylənmə; 40-dan yuxarıdırsa, III dərəcəli piylənmə "Hədsiz piylənmə" sayılır [4,5]. BKİ 26-35 arasında olan insanlarda dietoloqun nəzarəti altında pəhriz, dərman müalicəsi, fitness ilə arıqlama mümkün olur. BKİ 35-dən yuxarı olan kütlə artıqlığı və şəkərli diabet problemi yaşayan xəstələrdə pəhriz, idman və müxtəlif dərman vasitələrinin tətbiqinə baxmayaraq, şikayətlər çox zaman olduğu kimi qalır. Bu zaman sonuncu və ən güvənli çıxış yolu cərrahi əməliyyat hesab edilir. Artıq kütlənin və şəkərli diabetin müalicəsi istiqamətində tətbiq edilən cərrahi müalicə üsulları "Bariatrik - Metabolik cərrahlıq" adı altında birləşdirilir. Bariatrik cərrahlıq ifadəsi "Baros" (yunanca ağırlıq, köklük) sözündən götürülmüşdür. Bariatrik cərrahiyyə ağırlıq, köklük, artıq çəkinin azaldılması məqsədilə həzm traktı-mədə və bağırsaqlar üzərində aparılan əməliyyat üsuludur [6,7]. Bariatrik cərrahi müalicə növləri müxtəlifdir. Hazırki dövrdə ən effektiv, geniş istifadə olunan əməliyyat "Sleeve qastrektomiya" əməliyyatıdır. Sleeve qastrektomiya "mədənin vertikal rezeksiyası" və ya "boruşəkilli mədə yaradılması" da adlandırılır. Mədənin böyük əyriliyi kəsilib çıxarılaraq həcmi 80-85 % kiçildilmiş bir boruşəkilli mədə yaradılır [8,9]. Boruşəkilli mədə əməliyyatında kütlə itkisi mədə həcminin kiçildilməsi ilə mexaniki məhdudlaşdırma və hormonal təsir hesabına baş verir. Mədənin fundus deyilən üst hissəsindəki oksintik hüceyrələrdən ifraz edilən 28 amino-turşu qalığından ibarət olan hormonal amil qrelin (Ghrelin) adlandırılan maddə istehsal edən mədə toxuması çıxarıldığına görə hormon dəyişikliyi meydana gəlməsi nəticəsində kütlə itkisi olur. Qrelin hipotalamus nahiyəsində aclıq reseptorlarını aktivləşdirməklə iştahanı artırmaq xassəsinə malikdir. Mədəkiçiltmə əməliyyatı zamanı qrelinin ifraz edildiyi hissə, yəni mədənin dib hissəsi çıxarıldığına görə, iştah da azalır və bunun sayəsində arıqlama baş verir [10].

Tədqiqatın məqsədi bədən kütləsi indeksi (BKİ) 35-dən yuxarı olan, piylənmə və bununla bağlı meydana çıxan bir sıra metabolik pozğunluqlarla yanaşı, digər cərrahi patologiyalardan əziyyət çəkən xəstələrdə icra olunan bariatrik cərrahiyyə ilə bərabər simultan əməliyyatların nəticələrinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. ATU-nun Cərrahi xəstəliklər kafedrasının bazalarında 2013-2015-ci illərdə 38 xəstədə bariatrik cərrahiyyə əməliyyatı icra olunmuşdur. Xəstələrdən 4-ü kişi, 34-ü qadın olmuşdur. Yaş etibarilə ən kiçik xəstə 23, ən böyük isə 64 yaşında olmuşdur. BKİ ən azı 35,3 kg/m2, ən çoxu 65.7 kg/m2 olmuşdur. Ən kiçik boylu xəstə 146 sm, ən hündür boylu xəstə 179 sm olmuşdur. Xəstələri bədən çəkisinə görə böldükdə minimal 94 kg, maksimal 193 kg olmuşdur. Piylənmə ilə olan 38 xəstənin 11-də yanaşı olaraq digər cərrahi xəstəliklər müşahidə olunmuşdur. Piylənmə ilə olan 4 xəstədə yanaşı olaraq öd daşı xəstəliyi qeyd olunmuşdur. Statistik məlumatlara əsasən, piylənmə öd daşının əmələ gəlməsinin əsas səbəblərindən biri hesab olunur. Belə hallarda öd turşularının miqdarı normada olsa da, ifraz olunan xolesterinin miqdarı artmış olur ki, bu da öd daşı xəstəliyinin yaranmasına gətirib çıxarır [2,3]. Piylənmə ilə müşahidəmizdə olan 4 xəstədə əməliyyatdan sonrakı ventral yırtıq və 3 xəstədə göbək yırtığı qeyd olunmuşdur. Ədəbiyyat məlumatlarına görə, əməliyyatdan sonrakı yırtıqların baş verməsinə piylənmə xüsusi şərait yaradır ki, bu da əzələ və aponevroz qatının yığılma və karkas funksiyalarının itirilməsi, aponevroz kənarlarındakı tikişlərin arasından piy toxumasının interpozisiyası, infeksiyaya müqavimətin azalması, qarındaxili təzyiqin artması ilə izah olunur [2,3].

II tip şəkərli diabet və qlükozaya tolerantlıq 17 xəstədə müşahidə olunmuşdur. Xolesterin və triqliserid yüksəkliyi 26 xəstədə qeyd edilmişdir. Yuxu apnoesi 23 xəstədə qeydə alınmış və bunların hamısında bədən çəkisi 100 kg-dan artıq olmuşdur. Arterial hipertenziya 20 xəstədə müşahidə edilmişdir. Qanda insulinin miqdarı 17 xəstədə normadan yuxarı olmuşdur. Qadın xəstələrin 34-dən 28-də genital funksiyaların pozğunluğu, o cümlədən yumurtalıqların disfunksiyası, aybaşı pozğunluğu, hormonal disbalans. 2 qadında isə 1 ildən artıq davam edən sonsuzluq müşahidə edilmişdir.

Xəstələr bariatrik əməliyyatdan 24-72 saat əvvəl xəstəxanaya yerləşdirilmişdir. Bariatrik əməliyyatdan əvvəl xəstələrə planlı olaraq ambulator şəkildə aşağıdakı müayinələr aparılmışdır: qanın ümumi analizi, qanın biokimyəvi analizi, hormonal müayinə, kortizolun təyini, qalxanabənzər vəzin hormonal müayinəsi (T3, T4, TSH). EKQ, exokardioqrafiya, qarın boşluğu orqanlarının USM-si, fibroezofaqoqastroduodenoskopiya (FEQDS), aşağı ətraf damarlarının doppleroqrafiyası, spiroqrafiya və digər müayinələr. Xəstələrə əməliyyatdan əvvəl endokrinoloqun, qastroenteroloqun, dietoloqun, psixiatrin (ehtiyac olan hallarda), cərrahın, anesteziologun baxışı olmuşdur. Əməliyyatdan 7-10 gün əvvəl xəstələr maye pəhrizinə girmiş, qatı qidalar qəbul olunmamışdır. Gecə 12-dən sonra qida qəbulu tam dayandırılmışdır. Əməliyyatdan 8 saat əvvəl ağızdan su qəbulu tamamilə dayandırılmışdır. Xəstələrə stasionarda bir gün əvvəl infuzion müalicə aparılmışdır. Əməliyyatdan bir neçə saat əvvəl xəstələrə aşağı ətraflara elastiki corablar geyindirilmişdir. Qeyd olunan xəstələrdə əməliyyat laparoskopik, yəni heç bir kəsik olmadan 4 və ya 5 dəliklə icra edilmişdir. Bu zaman birdəfəlik istifadə üçün olan alətlər tətbiq edilib. Əməliyyat zamanı kəsiləcək hissə markerlərlə izlənilmiş, kəsiləcək sahə tam dəqiqləşdirilmiş, mədəyə 36 Fh ölçülü silikon zond daxil edildikdən sonra onun üzərində kəsilib tikilməklə xaric olunmuşdur. Boruşəkilli mədə rezeksiyası əməliyyatı orta hesabla 90-120 dəqiqə (1.5-2 saat) davam etmişdir. Piylənmə və metabolik sindromdan əziyyət çəkən xəstələrdə icra olunan

bariatrik əməliyyatdan əvvəlki dövrdə aşkar olunan mövcud yanaşı cərrahi patologiya ilə əlaqədar əməliyyat zamanı həmçinin simultan əməliyyatlar icra olunmuşdur. Piylənmə ilə olan 4 xəstədə yanaşı olaraq öddaşı xəstəliyi qeyd olunduğundan, laparoskopik boruşəkilli mədə rezeksiyası ilə yanaşı, laparoskopik xolesistektomiya əməliyyatı icra olunmuşdur. Bu zaman digər 4 və ya 5 dəliklərlə yanaşı, əlavə olaraq bir dəlik də qarnın ön divarının sağ tərəfindən açılmışdır. Əməliyyatın həcmi yalnız 15-20 dəqiqə əlavə vaxt tələb edərək, ümumilikdə 105-140 dəqiqə davam etmişdir. Piylənmə ilə olan 4 xəstədə yanaşı olaraq əməliyyatdan sonrakı ventral yırtıq müşahidə olunduğundan laparoskopik mədənin boruşəkilli rezeksiyası ilə yanaşı, yırtığın ləğvi və qarnın ön divarının alloplastikası əməliyyatı, 3 xəstədə isə yanaşı göbək yırtığı qeyd olunduğundan laparoskopik mədənin boruşəkilli rezeksiyası və göbək yırtığının ləğvi əməliyyatları müştərək şəkildə icra olunmuşdur. Boruşəkilli mədə əməliyyatından sonra xəstələrin reanimasiyada qalma müddəti bir gün olmuşdur. Xəstələr əməliyyatdan ilk 4-5 saat sonra aktivləşdirilmiş, ayağa qaldırılmışdır, xəstələrə bir gün sonra maye qəbuluna icazə verilmiş, iki gün sonra qidalandırılmışdır, bu zaman 8-10 gün ərzində digər mədə-bağırsaq xəstələrində istifadə olunan pəhriz stolundan istifadə edilmişdir. 14 gün sonra isə xəstələrin qidalanmasında, demək olar ki, 70% qidalara məhdudiyyət qoyulmamışdır. 30% məhdudiyyət karbohidratlarla zəngin qidalara bal, dondurma, şokolad, marqarin, qırmızı ət, fındıq, qazlı içkilər, alkoqola tam məhdudiyyət qoyulmuşdur. Antikoaqulyant müalicəyə dərin vena trombozu riski olan 3 xəstədə əməliyyatdan əvvəl, digər xəstələrdə əməliyyatdan 8 saat sonra başlanılmış və 7-28 gün təyin edilmişdir. Xəstələr stasionardan 3 gün sonra evə yazılmışdırlar, yanaşı kardiovaskulyar, ürək xəstəlikləri olan, 50 yaşdan yuxarı xəstələrdən 2-sinin stasionardan evə yazılmaları 4-5 gün sonra olmuşdur. Bariatrik əməliyyat ilə yanaşı simultan əməliyyatlar icra olunmuş 11 xəstədə də həmçinin əməliyyatdan sonrakı dövrdə heç bir fəsad qeyd olunmamış, yara birincili sağalmış, 3 gün sonra stasionardan evə yazılmışlar.

Bütün xəstələrə əməliyyatdan sonrakı dövrdə yavaş-yavaş yemək alışqanlığı, yeməyi çox çeynəmə alışqanlığı, toxluq hissində yeməyi buraxmaq, qatı yemək və mayeləri eyni vaxtda qəbul etməmə alışqanlığı tövsiyə olunmuşdur. Boruşəkilli mədə əməliyyatlarından sonra ümumilikdə xəstələrə 15 gün ev istirahəti məsləhət görülmüşdür. Ağır fiziki iş və idmana başlamaq üçün isə ən azı 30 gün gözləmək məsləhət görülmüşdür.

Nəticələr. Əməliyyatdan sonrakı təqib müddəti 1- 20 ay olmuşdur. 6 ay ərzində kilo azalması artıq çəkinin 70-50%-i, ümumi çəkinin 25-48%-ini təşkil etmişdir. Yuxu apnoesi 19 xəstədə aradan qalxmışdır. Qanda şəkərin miqdarı 16 xəstədə normal miqdarda müşahidə edilmişdir. Təkrar kilo alma qeyd edilməmişdir. Qanda xolesterin miqdarı 18 xəstədə, triqliseridlərin miqdarı 22 xəstədə normal ölçülərdə olmuşdur. İnsulinin qanda miqdari ilk 2 ay ərzində 5 xəstədə, ilk 6 ay ərzində 12 xəstədə normal həddə olmuşdur. Qadınlardan 21-də aybaşı normallaşmışdır. Həmçinin bariatrik əməliyyat ilə yanaşı simultan əməliyyatlar icra olunan xəstələrdə də əməliyyatdan sonrakı təqib dövründə yarada seroma, ödem, irinləmə müşahidə olunmamış, yırtıq residivləri, təkrar kilo alma qeyd edilməmişdir.

Beləliklə, ən çox tətbiq edilən bariatrik cərrahi əməliyyat üsulu kimi laparoskopik boruşəkilli mədə rezeksiyası əməliyyatı geniş istifadə olunmaqda olub, bu əməliyyatın qısa və uzun müddət nəticələri müsbətdir. Kilo itkisinin böyük qismi əməliyyatdan sonrakı birinci ildə, əsasən ilk 6 ayda olur. Boruşəkilli mədə rezeksiyası əməliyyatından sonra 1-2 illik müddətdə artıq kiloların 40-100% itirilir. Həmçinin bariatrik əməliyyat ilə yanaşı icra olunan simultan əməliyyatlar xəstələrin eyni zamanda mövcud olduğu bir sıra cərrahi patologiyalardan bir dəfə ümumi narkoz qəbul edərək eyni vaxtda azad olmasına, əməliyyatdan sonrakı dövrdə tez aktivləşməsinə və qısa müddət ərzində sosial həyata qayıtmasına şərait yaratmaqla yanaşı, iqtisadi baxımdan da xəstələr üçün çox əlverişli hesab olunur.

ƏDƏBİYYAT

1. Thompson C. C.Bariatric Endoscopy. New York: Springer Science, 2013. 245 p.
2. Frühbeck G. Obesity: Screening for the evident in obesity // Nat Rev Endocrinol., 2012, v.8. p.570-572.
3. Melissas J. IFSO guidelines for safety, quality and excellence in bariatric surgery // Obesity Surgery, 2008, v.18(5), p.497-500.
4. Flegal K.M., Kit B.K., Orpana H., Graubard B.I. Association of all-cause mortality with overweight and obesity using standard body mass index categories: a systematic review and meta-analysis // JAMA, 2013, v.309, p.71-82.
5. Flegal K.M., Carroll M.D., Kit B.K., Ogden C.L. Prevalence of obesity and trends in the distribution of body mass index among US adults // JAMA, 2012, v.307, p.491-7.
6. M.Mahir Özmen, T.Tolga Şahin, Serkan Özen ve b. Laparoskopik sleeve gastrektomi / Bariatrik ve Metabolik Cerrahi Kongresi, 2015, 34-35.
7. Lee W.J., Chong K., Ser K.H., et al. Gastric bypass vs. sleeve gastrectomy for type 2 diabetes mellitus // Arch Surg, 2011, v.146, p.143-148.

Heyvanlar üzərində təcrübələr Avropa bioetika cəmiyyətinin qəbul etdiyi 86/09 EEC və UNESCO (Paris) qaydalara uyğun olaraq aparılmışdır. Bu məqsədlə təcrübəyə götürülən heyvanlara inhaliasion efir narkozu verilmiş və tam ağrısızlaşdırılma şəraitində orta kəsiklə qarın boşluğu açılmışdır. Xüsusi alət vasitəsilə qaraciyər yuxarıya qaldırılaraq arteriyanın sağ şaxəsi mobilzasiya edilmişdir. Mobilizasiya edilmiş arteriyanın altından keçirilmiş liqatura vasitəsilə 5 dəqiqə müddətində arteriyanı sıxmaqla onun hövzəsindəki sahədə işemiya yaradılmışdır. Sonra liqaturanı boşaltmaqla qaraciyərdə reperfuziya yaradılmışdır.

Təcrübənin sonunda qaraciyərə gedən və ondan çıxan damarlar bağlanmış və həmin hissədən yuxarıda damarlar və qaraciyəri fiksə edən bağlar kəsilərək qaraciyər qarın boşluğundan çıxarılaraq Petri kasasına qoyulmuşdur. Petri kasasında qaraciyər fizioloji məhlulla yuyularaq damarlarda qalan qandan tam sürətdə təmizlənmişdir. Sonra xırda-xırda doğranaraq homogenezator vasitəsilə homogenat hazırlanmışdır. Homogenat 1:3 nisbətində durulaşdıraraq orada hidrogen peroksidinin (H_2O_2), diyen konyuqantlarının (DK) və malon dealdehidinin qatılığı təyin edilmişdir.

Lipidpeoksidləşməsinin başlanğıc məhsulu olan H_2O_2-ni Graf, Penniston (1980), orta məhsul olan DK-nın qatılığı İ.D.Stalnaya və son məhsul olan MDA-nın qatılığı isə Uchijama və Michara (1978) üsulu ilə təyin edilmişdir. Alınmış kəmiyyət göstəriciləri müasir tövsiyyələr (14,15) əsasında statistik işlənilmişdir.

Alınan nəticələr və onların müzakirəsi. 1-ci qrupa daxil olan təcrübə heyvanlarından alınmış nəticələr göstərmişdir ki, intakt vəziyyətində olan ağ siçovulların qaraciyərində H_2O_2-nin qatılığı 2,46±0,14 ş.v.-ə. MDA-nın qatılığı 1,55±0,02 nmol/mq, DK-nın qatılığı isə 1,418±0,011 E/ml-ə bərabərdir.

5 dəqiqə müddətində qaraciyər arteriyasını sıxmaqla yaradılmış işemiya zamanı qaraciyər toxumasında H_2O_2-nin qatılığı intakt vəziyyətlə müqayisədə 22%, DK-nın qatılığı 5%, MDA-nın qatılığı isə 6% yüksəlmişdir (cədvəl 1). Qeyd olunan artım təcrübəyə götürülmüş heyvanların hamısında müşahidə edilməmişdir. Onların 40%-də H_2O_2-nin, 20%-də DK-nın, 40%-də isə MDA-nın qatılığı normal səviyyəsini saxlamışdır.

Reperfuziyadan 15 dəqiqə sonra qaraciyər toxumasında lipidlərin sərbəst radikallaşması prosesi intensivləşdiyindən homogenatda onun məhsullarının da qatılığı artmaqda davam etmişdir. Belə ki, qaraciyərdən hazırlanmış homogenatda H_2O_2-nin qatılığı intakt vəziyyətlə müqayisədə 28,5%, DK-nın qatılığı 5,5%, MDA-nın qatılığı isə 15% artmışdır. 2-ci qrupla müqayisədə isə qaraciyər toxumasında H_2O_2-nin qatılığının artması 5%, DK-nın qatılığının artması 1%, MDA-nın qatılığının artması isə 8% təşkil edir.

Qaraciyərdə lipidperoksidləşməsi məhsullarının qatılığı normal səviyyədə olan ağ siçovulların sayı kəskin şəkildə azalmışdır. H_2O_2-nin və MDA-nın qatılığı normal olan ağ siçovullar 10%-ə enmişdir. DK-nın qatılığı isə təcrübəyə götürülən heyvanların 100%-də normal səviyyədən yuxarı olmuşdur.

30-cu dəqiqədə qaraciyər toxumasında lipidperoksidləşməsi məhsullarının qatılığı intakt vəziyyətdə olan səviyyədən daha çox fərqlənmişdir. Belə ki, H_2O_2 qatılığı intakt vəziyyətlə müqayisədə 54,5%, DK-nın qatılığı 9%, MDA-nın qatılığı isə 50% artmışdır. Bu artım təcrübəyə götürülmüş heyvanların hamısında qeydə alınmışdır.

2-ci qrupla müqayisədə də lipidperoksidləşməsi məhsullarının qatılığının əhəmiyyətli dərəcədə artması aşkar edilmişdir. Belə ki, H_2O_2 qatılığı 27%, MDA-nın qatılığı 42% yüksəlmişdir. Yalnız DK-nın qatılığında olan artım 4% təşkil etmişdir.

Reperfuziyanın 15-ci dəqiqəsilə müqayisədə isə qaraciyərdə H_2O_2–nin qatılığı 20%, DK-nın qatılığı 3%, MDA-nın qatılığı isə 31% artmışdır.

Reperfuziyadan 1 saat sonra aparılan müayinələrdən alınmış nəticələr göstərmişdir ki, qaraciyər toxumasında lipidperoksidləşməsinin intensvləşməsi davam edir. Lakin lipidperoksidləşməsindən əmələ gəlmiş məhsulların qatılığında fərqli nəticələr alınmışdır H_2O_2-nin qatılığının sürətlə artması 5-ci qrup heyvanlarında bir qədər ləngimiş və hətta 4-cü qrupa nisbətən az olmuşdur (cədvəl 1). Reperfuziyadan 1 saat sonra qaraciyər toxumasında H_2O_2–nin qatılığının artması 52% təşkil etmişdir. Halbuki, reperfuziyanın 30-cu dəqiqəsində qaraciyər toxumasında H_2O_2-nin qatılığı intakt vəziyyətlə müqayisədə 54%, 2-ci qrupla müqayisədə isə 25% artmışdır. Buradan göründüyü kimi reperfuziyadan 1 saat sonra qaraciyərdə H_2O_2 qatılığı 30-cu dəqiqə ilə müqaysədə 1,5% azalmışdır. DK-nın qatılığı ilə MDA-nın qatılığı 4% artmışdır.

Reperfuziyanın 3-cü saatında qaraciyər toxumasında H_2O_2-nin qatılığı intakt vəziyyətlə müqayisədə 37% artmışdır. Lakin qeyd olunan artım heç də bütün təcrübə heyvanlarını əhatə etməmişdir. Onların 20%-də lipidperoksidləşməsinin başlanğıc məhsulunun qatılığı normal səviyyədə qalmışdır. DK-nın qatılığı intakt vəziyyətlə müqayisədə 13%, MDA-nın qatılığı isə 44% artmışdır.

Reperfuziyanın 3-cü saatında qaraciyər toxumasında lipidperoksidləşməsi məhsullarının qatılığı işemiya modeli yaradılmış təcrübə heyvanlarında olduğu səviyyədən də yüksək səviyyəyə qalxmışdır. Onunla müqayisədə H_2O_2-nin qatılığı 12%, DK-nın qatılığı 8%, MDA-nın qatılığı 35% artmışdır.

Reperfuziyanın 15-ci dəqiqəsinə nisbətən 3-cü saatında lipidperoksidləşməsi daha da intensivləşmişdir. Qaraciyər toxumasında H_2O_2-nin qatılığının 6%, DK-nın qatılığının 7% və MDA-nın qatılığının 25% artması

8. Reoch J., Mottillo S., Shimony A., et al. Safety of laparoscopic and open bariatric surgery: a systematic review and meta-analysis // Arch. Surg., 2011, v.146, p.1314-22.

9. Mehmet Kadir Bartın, Muzaffer Önder Öner, Müge Kara Bartın ve b. Vertikal Sleeve Gastrektomi: Erken dönem sonuçlarımız / Bariatrik ve Metabolik Cerrahi Kongresi, 2015, 47.

10.Kalarchian M., Turk M., Elliott J., Gourash W. Lifestyle management for enhancing outcomes afterbariatric surgery // Curr. Diab. Rep., 2014, v.14(10), p.540.

Резюме

Симультанные операции в бариатрическом хирургии

П.Г. Наджафкулиева, П.А.Аббасов

На протяжении 2013-2015 годов у 38 пациентов была проведена бариатрическая хирургическая операция. Среди пациентов 4 мужчин, 34 женщин. Самый низкий ИМТ 35,3 кг/м^2, самый высокий 65,7 кг/м^2. Из 38 пациентов с ожирением у 11 были обнаружены другие хирургические заболевании, как желчекаменная болезнь, послеоперационная вентральная грыжа, пупочная грыжа, по поводу этих заболеваний была проведена бариатрические хирургическии и симультанные операции. Период послеоперационного наблюдения составил 1-20 месяцев. Уменьшение излишнего веса в течение 6 месяцев составило 70-50%; а общего веса 25-48%. Повторный набор веса не зарегистрирован.

Summary

The simultaneous operations in the bariatric surgery

P.H. Najafgulieva, P.A.Abbasov

During 2013-2015 years bariatric surgery was performed in 38 patients. Among patients 4 men, 34 women. The lowest BMI 35.3 kg / m2, the highest 65.7 kg / m2. From 38 patients with obese in 11 were found other surgical disease as gallstone disease, postoperative ventral hernia, umbilical hernia, about these diseases were carried out bariatric surgery and simultaneous operations. The period of postoperative follow-up of 1-20 months. Decreasing unnecessary weight within 6 months was 70-50%; a total weight of 25-48%. Repeated weight gain is not registered.

Daxil olub:30.03.2016

REPERFUZİYADAN SONRA QARACİYƏR TOXUMASINDA SƏRBƏST RADİKALLAŞMA PROSESİNİN VƏZİYYƏTİ VƏ REPERFUZİYANIN MÜDDƏTİNDƏN ASILI OLARAQ ONUN İNTENSİVLİYİNİN DƏYİŞMƏSİ

Q.Ş.Qarayev, M. İ.Mirzəyev

Azərbaycan Tibb Unversiteti, Elmi-Tədqiqat Mərkəzi və Patoloji Anatomiya kafedrası

Tibb elminin sürətli inkişafı bir sıra mürəkkəb cərrahi əməliyyatların texnikasını sadələşdirməklə onların tətbiqinə real şərait yaratmışdır. Belə əməliyyatlardan biri də qaraciyər köçürülməsidir. Qaraciyərin köçürülməsi sayəsində müalicəsi mümkün olmayan bir sıra xəstəlikləri o cümlədən, qaraciyər xərçəngini, müxtəlif mənşəli qaraciyər sirrozunu müalicə etmək mümkün olmuşdur (1,2,3,4,5). Lakin əldə olunan nailiyyətlərə baxmayaraq bu gün qaraciyər köçürülməsindən sonra baş verən fəsadlar cərrahi əməliyyatın nəticələrini qeyri-qənaətbəxş edir. Aparılan kliniki müşahidələr göstərmişdir ki, qaraciyərin köçürülməsindən sonra baş vermiş fəsadların inkişafına səbəb olan amillərdən biri də reperfuzion sindromdur (6,7,8). Müəyyən edilmişdir ki, reperfuzion sindrom zamanı hüceyrənin dağılması müvafiq üzvün funksiyasında neqativ dəyişikliklərə səbəb olur (9,6,10). Qaraciyər transplantasiyasında daha tez-tez rast gəlinən və onun yüksək nəticələrinə mane olan reperfuzion sindromun patogenezinin araşdırılmasının vacibliyini nəzərə alaraq biz bu tədqiqat işini aparmağı vacib hesab etdik.

Tədqiqatın məqsədi. Qaraciyərin qısa müddətli (5 dəqiqəlik) işemiyasından sonra aparılan reperfuziyanın qaraciyər toxumasında lipidperoksidləşməsinin təsrinin və baş vermiş dəyişikliklərin reperfuziyanın müddəti ilə korrelyativ əlaqəsinin olub-olmamasının araşdırılması.

Tədqiqatın material və metodları. Tədqiqatlar 35 baş ağ siçovul üzərində aparılmış və hər birində 5 baş olmaqla 7 qrupa ayrılmışdır.

1-ci qrupa daxil olan ağ siçovullarda heç bir müdaxilə aparılmamışdır. 2-ci qrupa daxil olan təcrübə heyvanlarında isə qaraciyər arteriyasını 5 dəqiqə müddətində sıxmaqla qısa müddətli işemiya modeli yaradılmışdır. 3-cü qrupa daxil olan siçovullarda qısa müddətli işemiya modeli yaratdıqdan sonra 15 dəqiqə müddətində, 4-cü qrupda 30 dəqiqə müddətində, 5-ci qrupda 1 saat müddətində, 6-cı qrupda 3 saat müddətində, 7-ci qrupda 24 saat müddətində reperfuzya aparılmışdır.

lipidlərin sərbəst peroksidləşməsinin intensivləşməsi ilə bağlıdır. Bizim təcrübələrimizdən alınmış nəticələr belə qənaətə gəiməyə imkan verir ki, lipidperoksidləşməsinin orta və son məhsulları başlanğıc məhsula nisbətən daha çox artmışdır.

Lakin 30-cu dəqiqə ilə müqayisə etdikdə məlum olur ki, reperfuziyanın 3-cü saatında lipidperoksidləşməsinin intensivliyi nisbətən səngimişdir. Bunun bariz nümunəsi qaraciyər toxumasında H_2O_2-nin qatılığı 11,5%, MDA-nın qatılığı 5% azalmasıdır. Lakin, lipidperoksidləşməsinin aralıq məhsulu olan DK-nın qatılığı 4% artmışdır.

Reperfuziyanın 1-ci və 3-cü saatlarında DK-nın qatılığı demək olar ki, stabil qalmışdır. Lakin MDA-nın qatılığı 8% azalmışdır.

Beləliklə, reperfuziyanın 3-cü saatından başlayaraq qaraciyər toxumasında lipidperoksidləşməsinin intensivliyinin azalmasına meyllik yaranmışdır.

Reperfuziyanın 24-cü saatında qaraciyərdən hazırlanmış homogenatda H_2O_2-nin qatılığı intakt vəziyyətlə müqayisədə 39%, DK-nın qatılığı 12%, MDA-nın qatılığı isə 35% artmışdır. Lipidlərin sərbəst peroksidləşmə məhsullarının qatılığının artması reperfuziyanın əvvəlki müddətləri ilə müqayisədə bir qədər azalsa da işemiya yaradılmış qrupla müqayisədə H_2O_2-nin qatılığı 14%, DK-nın qatılığı 7%, MDA-nın qatılığı isə 24% yüksək olmuşdur.

Cədvəl 1

5 dəqiqəlik işemiya fonunda aparılan reperfuziyanın müddətindən asılı olaraq qaraciyər toxumasında lipidperoksidləşməsi məhsullarının qatılığının dəyişmə dinamikası

Sıra №si	Qrupların №si	Statistik göstərici	H_2O_2, Ş.v.	DK, E/ml	MDA, nmol/mq
1	1-ci qrup	Min	2.1	1.39	1.5
		Max	2.9	1.45	1.63
		M±m	2.46±0.14	1.418±0.011	1.55±0.02
2	2-ci qrup	Min	2.8	1.45	1.61
		Max	3.2	1.52	1.7
		M±m	3.00±0.07	1.484±0.013	1.6±0.02
3	3-cü qrup	Min	2.9	1.46	1.63
		Max	3.5	1.53	1.93
		M±m	3.16±0.11	1.496±0.014	1.79±0.05
		P<	**	**	0.05
4	4-cü qrup	Min	3.4	1.52	1.95
		Max	4.1	1.56	2.91
		M±m	3.80±0.12	1.546±0.007	2.35±0.19
		P<	0.001	0.01	0.01
5	5-ci qrup	Min	3.5	1.56	1.8
		Max	4	1.65	2.9
		M±m	3.74±0.09	1.606±0.016	2.44±0.23
		P<	0.001	0.01	0.001
6	6-cı qrup	Min	2.9	1.56	1.8
		Max	4	1.64	2.8
		M±m	3.36±0.19	1.602±0.014	2.24±0.19
		P<	0.01	0.01	0.001
7	7-ci qrup	Min	2.9	1.54	1.7
		Max	4	1.64	2.8
		M±m	3.42±0.21	2.10±0.19	1.582±0.018
		P<	0.01	0.05	0.001

Qeyd: P-intakt vəziyyətə əsasən təyin edilmişdir. * P<0,01; ** P>0,05

Reperfuziyanın 30-cu dəqiqəsilə müqayisədə bu fərq bir qədər dəyişmişdir. Belə ki, H_2O_2-nin qatılığı 10%, MDA-nın qatılığı isə 11% azalmışdır. Bunlardan fərqli olaraq lipidperoksidləşməsinin aralıq məhsulu olan DK-nın qatılığı 2% artmışdır. Bu onu göstərir ki, reperfuziyanın 30-cu dəqiqəsində lipidlərin peroksidləşməsi sürətlə getdiyindən aralıq məhsulu daha çox parçalanmış və onun müqabilində DK-nın qatılığı azalmışdır. Reperfuziyanın 24-cü saatında isə lipidperoksidləşməsinin intensivliyi nisbətən zəiflədiyi üçün aralıq məhsulunun (DK-nın) qatılığı yüksək olmuşdur.

Reperfuziyanın 1-ci saatı ilə müqayisədə aşağıdakı nəticələr alınmışdır.

Qaraciyərdən hazırlanmış homogenatın tərkibində H_2O_2-nin qatılığı 9%, DK-nın qatılığı 1,5%, MDA-nın qatılığı isə 14% azalmışdır. Buradan göründüyü kimi reperfuziyanın 24-cü saatında qaraciyər toxumasında lipidlərin peroksidləşməsi artıq zəifləmişdir.

Reperfuziyanın 3-cü saatında aparılan müayinələrin nəticəsi ilə müqayisədə aydın olur ki, qaraciyər toxumasında H_2O_2-nin qatılığı 2%, artmışdır. Lakin DK-nın qatılığı 1%, MDA-nın qatılığı isə 6% azalmışdır.

Beləliklə, bizim apardığımız təcrübələrin nəticəsi belə bir qənaətə gəlməyə imkan verir ki, qaraciyərin 5 dəqiqə müddətində yaradılmış işemiyası zamanı hepatositlərdə sərbəst radikallaşma prossesi intensivləşir və lipidperoksidləşməsindən əmələ gəlmiş toksiki təsirə malik maddələr qaraciyər toxumasına toplaşır. Yaranmış oksidativ stres reperfuziya zamanı daha da şiddətlənir və qaraciyərdə lipidperoksidləşməsi məhsullarının daha çox toplanmasına şərait yaradır. Nəticədə toksiki maddələrin təsirindən hüceyrə membranı dağılır və oksidativ stres induksiya olunur. Lakin reperfuziyanın müddəti uzandıqca orqanizmin adaptasiya etmək imkanı artır və çox güman ki, antioksidant müdafiə sistemi gücləndiyindən oksidativ stresin də intensivliyi nisbətən azalmış olur.



Şək. 1. dəqiqəlik işemiya fonunda aparılan reperfuziyanın müddətindən asılı olaraq qaraciyər toxumasında LPO- məhsullarının qatılığının dəyişməsinin faizlə qrafiki. 1- 5 dəqiqəlik işemiya; 2- reperfuziyanın 15-ci dəqiqəsi; 3- reperfuziyanın 30-cu dəqiqəsi; 4- reperfuziyanın 1-ci saatı; 5 - reperfuziyanın 3-cü saatı, 6 - reperfuziyanın 24-cü saatı.

ƏDƏBİYYAT

1. Цирульникова О.М. Печень в ранние сроки после ее обширных резекций и трансплантации: Автореф. дисс. ... докт.мед.наук. М., 2004, 42 с.

2. Ермолов А.С., Чажо А.В., Чугунов А.О., и др., Трансплантация печени как радикальный метод коррекции портальной гипертензии при циррозах печени / Актуальные проблемы хирургической гепатологии. Материалы XII международной. Конгресс хирургов – гепатологов Росии и страны СНГ и X науч-практ.конф. «Вахидовские чтение 2005» г.Ташкент. Узбекистан 28-30 сент. 2005 // Ann.хирургия. гепатологии, 2005, №2, с.77.

3. Андрейцева О.И., Журавель С.В., Чугунова А.О., Чажо А.В. Трансплантация печени при первичном раке / Тез.док-ов Здоровье столицы. 2008, с.203-204.

4. Aguirrezabalaga J., Fernandez-Selles C, Fraguela J., Otero A. Lipid profiles after liver transplantation in patients receiving tacrolimus of cyclosporin / Transpl. Proc., 2002., p.1555-1552.

5. Ben-Ari Z, Weiss-Schmilovitz H., Sulkes J., Brown M. Serum cholestasis markes as predictors of early outcome after liver transplantation // Clin Transplant, 2004, p. 130-136.

6. Şahbazov R.O. Qaraciyərin işemik-reperfuzion zədələnmələri və onların qarşısının alınması üsulu. Tibb.ü.f.d. ... avtoreferatı. Bakı, 2012, 22s.

7. Ходосовский М.Н., Зинчук В.В. Участие £-аргинин на системы в развитии реперфузионных повреждений печени // Экспериментальная и клиническая фармокология, 2003, № 3. с.39-43.

8. Cowled P.A. Khanna A., Laws P.E. Statinis inhibit neutropil infiltration in skeletal muscle reperfusion injury //J. Surg Res The Journal of surgical research, 2007, №2, p.267-276.

9. Müzəffərzadə A.Ə. Qaraciyərin müxtəlif həcmli rezeksiyaları zamanı reperfuzion zədələnmə sindromunun orqanın parenximasında yaratdığı pozğunluqların ümumi xarakteristikası //Cərrahiyyə, 2011, №2, 99-16.

10.Menger M.D., Steiner D., Messmer K. Mikrovascular ischemia- reperfusion injury in striated muscle: Signaficance of "no-reflow". //Am. J.Physiol. 1992, №6, p.1892-1900.

11.Graf E., Penniston I.T. Metod for determination of hydrogen peroxide with its application illustrated by glucose assay // Clin.Chim., 1980, №5, p.658-700.

12.Стальная И.Д. Метод определения дневьой конюгации ненасыщенных высших жирных кислот //Современные методы в биохимии. М.: Медицина, 1997, с.63-64.

13. Uchiyama M., Michara M. Determination of malon aldehyd cursor in tissues bu thiobarbiturie acid test //Biochem., 1978, №1, P.271-278.

14.Лакин Г.Ф. Биометрия. М.: Высшая школа,1990, 352с.

15.Сергиенко В.И., Бондарева И.Б. Математическая статистика в клинических исследованиях. М.: ГЭОТАР «»Медицина» 2000, 256 с.

Резюме

Состояние образования и изменение интенсивности образования свободных радикалов в зависимости от продолжительности реперфузии при реперфузионных поражениях печени

Г.С.Гараев, М.И. Мирзоев

Целью исследования было определение влияния липидно-пероксидного окисления на печеночную ткань при реперфузии после кратковременной (5 минут) ишемии печени, а также определение коррелятивной связи с продолжительностью реперфузии. Было исследовано 35 белых крыс. У 30 крыс было создано модель ишемии путем пережатия печеночной артерии. Затем проводилась реперфузия в течении 15, 30 минут, 1,3 и 24 часа. После соответствующего времени подопытные животные умерщвлялись и исследовали H2O2 , ДК и МДА в гомогенате печени. Было выявлено что, в течении 5 минутной ишемии процесс образования свободных радикалов увеличивается и образовавшиеся при этом токсические вещества (H2O2 , ДК и МДА) депонируются в печени. При реперфузии увеличивается концентрация токсических веществ и это приводит к увеличению патологических процессов путем образования новых очагов ишемии. Однако с увеличением времени реперфузии адаптационные возможности организма увеличиваются, и интенсивность оксидативного стресса уменьшается.

Summary

Condition of formation free radicals and change in the intensity of free radical formation, depending on the duration of reperfusion in the reperfusion injury of the liver

G.S.Garayev, M.I. Mirzoyev

The aim of the study was to determine the effect of lipid-peroxidation in the liver tissue during reperfusion after a short (5 min) ischemia of the liver, as well as the definition of a correlation with the duration of reperfusion. 35 white rats were studied. In 30 rats had created a model of ischemia by clamping the hepatic artery. Then reperfusion was carried out for 15, 30 minutes, 1.3 and 24 hours. After an appropriate time, the experimental animals were sacrificed and examined H2O2, DC and MDA in liver homogenates. It was found that within 5 min ischemia free radical formation process is increases, and thus the formed toxic substances (H2O2, and DC, MDA) are deposited in the liver. Reperfusion process is increase concentration of toxic substances and leads to an increase in pathological processes by the formation of new foci of ischemia. However, with increasing time reperfusion increase the adaptive capacity of the body, and the intensity of the oxidative stress is reduced.

Daxil olub:30.03.2016

XRONİKİ BÖYRƏK ÇATMAMAZLIQLI XƏSTƏLƏRDƏ ENDOTELİAL DİSFUNKSİYANIN DİAQNOSTİKASINDA ULTRASƏS MÜAYİNƏSİNİN ROLU

A.R. Quliyeva, C.T. Məmmədov, M.M.Ağayev

Azərbaycan Tibb Universiteti, terapevtik və pediatrik propodeftika kafedrası

Açar sözlər: xroniki böyrək çatmamazlığı, hemodializ, endotelial disfunksiya, bazu arteriyasının ultrasəs göstəriciləri

Ключевые слова: хроническая почечная недостаточность, гемодиализ, эндотелиальная дисфункция, ультразвуковое исследование плечевой артерии

Key word: chronic kydney insuffisiensy, hemodyalisis, endothelial dysfunction,ultrasound.

Endotelial disfunksiyanın (ED) diaqnostikasında ultrasəs müayinəsinin (USM) rolunun yüksəkliyi digər instrumental müayinə üsullarından, o cümlədən, angioqrafiyadan fərqli olaraq, qeyri- invaziv olmasına əsaslanır [2,3].

İlk dəfə USM-i endotelial funksiyanın vəziyyətinin qiymətləndirilməsində istifadə etməklə D.S.Celemajer [4] bazu arteriyasında qanın axınının effektiv göstəricilərinə əsaslanmışdır. İndiyədək XBÇ-lı xəstələrdə ED-nın ultrasəs göstəricilərinin proqramlı hemodializdən asılı dəyişikliklərinin nəticələri dağınıqdır və əksərən aparılan tədqiqatlar bir birinə ziddir [5,6]. Bu baxımdan XBÇ-lı xəstələrdə hemodializin ED-nın ultrasəs göstəricilərinə təsirinin öyrənilməsi yeni tədqiqat işinin aparılmasını tələb edir.

Tədqiqatın məqsədi XBÇ-lı xəstələrdə hemodializ fonunda endotelial disfunksiyanın ultrasəs göstəricilərinin dəyişikliklərinin öyrənilməsindən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. XBÇ-li 30 xəstədə hemodializ fonunda ultrasəs müayinəsi ilə bazu arteriyasinda bir sıra göstəricilər öyrənilmişdir. Kontrol qrup kimi 20 sağlam şəxsdə USM bazu arteriyasının öyrənilən dəyişikliklərini qiymətləndirmək üçün aparılmışdır. USM bazu arteriyasının endotelial qişasının müxtəlif funksiyalarını öyrənmək üçün istifadə olunmuşdur.

Endotelin vazorequlyasiya funksiyalarını qiymətləndirmək məqsədi ilə D.S. Celemajer (5)üsulu ilə bazu arteriyasının endoteldən asılı vazodilyatasiyası (EAVD) öyrənilmişdir. Bazu arteriyasının göstəricilərinin USM-i Vivid 7 Dimension (ABŞ) aparatında tədqiq edilmisdir.Müayinə vaxtı bütün damar göstəricilərinin qeydiyyatı diastolanin sonunda aparılmışdır. Bazu arteriyasının ilkin diametri xəstəyə 15 dəqiqə istirahət verdikdən və manjet dekompressiyasından sonra damarın ilkin diametri bərpa olunana qədər hər 60 saniyə ərzində qiymətləndirilmişdir. Bazu arteriyasının ilkin diametrinin bərpa olunduğu vaxt fiksə edilir. Endotelin disfunksiyası manjet dekompressiyasından 60 saniyə sonra, bazu arteriyasının diametrinin artmasının ilkin göstəricisindən 10 % aşağı olması halı hesab edilmişdir. EAVD aşağıdakı formula ilə hesablanır [4].

$EAVD = (BA^2-BA^1):BA^1X100\%$

burada. BA^2- bazu arteriyasının 60 saniyə sonra maksimal diametri;

BA^1- bazu arteriyasının ilkin diametri. Tədqiqat işində eyni zamanda endoteldən asılı olmayan vazodilyatasiya (EAOVD) qiymətləndirilmişdir. EAOVD dil altına 0,5mg nitroqliserin verilməklə həyata keçirilmişdir. Nitroqliserinin qəbulundan sonra bazu arteriyasının dilyatasiya faizi və dilyatasiya indeksi (VDİ=EAVD / EAOD) hesablanmışdır.Normal halda VDİ 1,5-2,0 hesab edilir [1]. Qeyd etmək lazımdır ki, müayinələr prehemodializ (Pre - H), perihemodializ (Peri - H) və posthemodializ (Post - H) dövrlərində aparılmışdır. Hemodializ həftədə 12 saat 3 seansla həyata keçirilmişdir.

XBÇ –lı hemodializ fonunda xəstələrin və eləcə də sağlam şəxslərin bazu arteriyasının USM göstəriciləri müqayisə edilmiş. dəyişikliklər arasındakı statistik fərq aşkar edilməklə müəyyən olunmuşdur. Orta rəqəmlərin müqayisəsində Styudentin t- kriteriyasının nəticələri təhlil edilmişdir.

Tədqiqatın nəticələri. Aparılan tədqiqat işinin nəticələri göstərmişdir ki, XBÇ-lı xəstələrdə hemodializ fonunda endotelin funksional dəyişiklikləri həm xəstələr həm də sağlam şəxslərdə müayinə dövrləri arasında fərqli göstəricilərlə xarakterizə olunurlar. Cədvəl 1-də öyrənilən parametrlərin kontrol və xəstə qrupları üzrə eləcə də dövrlər üzrə statistik təhlili Styudentin t-kriteriyası əsasında aparılmışdır. Burada,$t_{kr} < 2$ olduqda $P > 0,05$, t_{kr} 2-2,66 arasında olduqda $P < 0,05$, $t_{kr} > 2,66$ olduqda $P < 0,01$ və daha aşağı kimi hesablanmışdır. Bu göstəricilər aşağıdakı kimi olmuşdur

Kontrol və Pre-H dövrləri

BA_1: $P< 0,001$ (t_{emp}=6,2)

BA_2: $P < 0,05$ (t_{emp}=2,54)

EAVD:$P < 0,001$ (t_{emp}=13,4)

EAOVD: $P < 0,001$ (t_{emp}=12,8)

Pre və Peri-H dövrləri arasında

BA_1: $P_1 < 0,05$ (t_{emp}=3,1)

BA_2 : $P_1 > 0,05$ (t_{emp}=1,4)

EAVD : $P_1 < 0,001$ (t_{emp}=12,0)
EAOVD : $P_1 < 0,001$ (t_{emp}=7,2)

Peri və Post-H dövrləri arasında

BA_1 : $P_2 > 0,05$ (t_{emp}=0)
BA_2 : $P_2 > 0,05$ (t_{emp}=0,4)
EAVD : $P_2 < 0,01$ (t_{emp}=3,9)
EAOVD : $P_2 < 0,01$ (t_{emp}=4,3)

Pre və Post-H dövrləri arasında

BA_1: $P_3 < 0,05$ (t_{emp}=2,3)
BA_2 : $P_3 > 0,05$ (t_{emp}=0,8)
EAVD : $P_3 < 0,001$ (t_{emp}=6,1)
EAOVD : $P_3 < 0,01$ (t_{emp}=2,8)

Cədvəl 1

XBÇ-lı xəstələrdə bazu arteriyasının endotelinin funksional vəziyyətinin qruplar və dövrlər üzrə xarakteristikası:

Parametrlər	Qruplar			
	Kontrol qrup (n=20)	XBÇ-lı xəstələr (n=30)		
		Pre-H	Peri-H	Post-H
BA_1	3,9±0,02 P<0,001	2,5±0,04 P^1<0,001	2,9±0,03 P^2<0,05	3,0±0,13 P^3<0,05
BA_2	4,2±0,01 P<0,05	2,9+_0,12 P^1>0,05	3,0±0,19 P^2>0,05	2,9±0,07 P^3>0,05
EAVD=[BA_2-BA_1]:BA_1X 100%	13,0±0,012 P<0,001	5,8±0,52 P^1<0,001	8,4±0,96 P^2<0,001	6,9±0,4 P^3<0,05
EAOVD	23,1 ±0,03 P<0,001	11,7±1,4 p^1<0,001	16.1±2,4 p^2<0,001	13,0±1,51 p^3<0,05
VDİ =EAOVD\EAVD	1,77±0,01 p>0,05	1,6±0,11 P^1>0,05	1,8±0,19 P^2>0,05	1,6±1,1 p^3>0.05

Cədvəl 1-dən göründüyü kimi kontrol qrupda bazu arteriyasının (BA1) ilkin diametri 3.9±0.02 təşkil etmişdir. Reaktiv hiperemiyadan sonra(BA2) bu rəqəm --11,3 % artaraq 4,2±0,01 olmuşdur. EAVD isə müvafiq olaraq 13,0±0,012 hesablamışdır. EAOVD isə 23,1±0,03 rəqəmi ilə ifadə olunmuşdur. VDİ EAVD və EAOVD-nun göstəricilərinin nisbətindən alınmaqla 1,77±0,01 hesablanmışdır

Analiz göstərmişdir ki, Pre-H dövründə BA_1- 2,5±0,09 olmuşdur ki, bu da normadan (4,0±0,01) təxminən 30 % aşağıdır. Kontrol qrupu ilə müqayisədə bu rəqəm 1,5 mm(29%) aşağıdır (P<0,001). BA_2 reaktiv hiperemiyadan sonra qiymətləndirilmişdir və 2,9±0,12-ə qalxmaqla BA_1-lə müqayisədə statistik fərqli olmuşdur (p<0,05). BA_2 BA_1-dən12,0 % yuxarı olmuşdur. Eyni zamanda BA_2 kontrol qrupda eyni göstərici ilə müqayisədə aşağı olmuş və bu rəqəm statistik olaraq seçilmişdir (P<0,05). BA_2 hemodializ dövrləri arasında demək olar ki,dəyişmir.Bu hal hemodializin BA_2-yə təsir etmədiyini göstərir. EAVD göstəricisi bazu arteriyasının ilkin və reaktiv hiperemiyadan sonrakı vəziyyətini əks etdirməklə Pre-H dövründə arteriyanın öyrənilən dövrdə olan dəyişikliklərinə uyğun dəyişərək və Pre-H dövründə 5.8±0.052 təskil etmisdir. Bu rəqəm kontrol qrupdan 2 dəfə az qeyd olunmuşdur (P<0,001). Bu göstərici endoteldən asılı dilyatasiyanın XBÇ-lı xəstələrdə çox ləng getdiyini göstərir. EAOVD 11,7±1,4 təskil etmis və bu rəqəm kontrol qrupundakı müvafiq rəqəmdən 2,1 dəfə aşağı olmuşdur. Lakin, EAOVD göstəricisi EAVD göstəricisindən yuxarı səviyyədə qeyd edilmisdir. Bu hal XBÇ-lı xəstələrdə endotel disfunksiyası zamanı endotel dilyatasiyasının digər mənbələrdən aktiv tənzimləndiyini deməyə əsas verir. EAOVD XBÇ-lı xəstələrdə kontrol qrupdan kəskin azdır. Hemodializ intervallarında bu göstərici dövrlərdən asılı olaraq qalxıb enmə tendensiyası ilə xarakterizə edilir. VDİ EAVD və EAOVD göstəricilərinin nisbəti kontrol qrupla müqayisədə cox fərqli secilməmişdir (müvafiq olaraq 1,6 ±0,11 və 1,77±0,01; P>0,05).

Peri-H dövrünün dəyişiklikləri də statistik olaraq tədqiq edilmişdir.Belə ki, bu dövrdə BA_1 Pre- H dövründən qismən yuxarı olmuşdur (müvafiq olaraq 2,5±0,04 və 2,9±0,03; p<0,05). Bazu arteriyasının diametri reaktiv hiperemiya dövründə ilkin dövrlə müqayisədə statistik fərqli olmamışdır (p>0,05). Peri- H dövründə BA_2-3,0±0,019 rəqəmi ilə ifadə olunmuşdur. EAVD göstəricisi Peri-H dövründə 8,4±0,96 olmuş və bu kontrol qrupdakı uyğun rəqəmdən = 1,5 dəfə az, Pre-H dövründəki EAVD göstəricisindən təxminən 45% cox olmuşdur. Həmin hal məhz hemodializin nəticəsində endoteldən asılı dilyatasiyanın artdığını göstərir və

hemodializin effektli olması hesab edilməlidir EAOVD Peri-H dövründə 16,1±2,4 olduğu halda kontrol qrupda eyni göstəricidən 69,7 % aşağı (p<0,001), Pre-H dövründən isə 37,6% yuxarı olmuşdur (p<0,001). VDİ göstəricisi üzrə Peri-H dövrü ilə Pre-H və kontrol dövrlər arasında statistik fərq müşahidə edilməmişdir (p>0,05).

Post-H dovründə BA_1 Pre-H dövrü ilə müqayisədə artmışdır (3,0±0,13; p<0,05).Post-H və Peri-H dövrləri arasında BA_1 göstəricisi üzrə statistik fərqin aşkar edilməməsi (p>0,05) hemodializin bu göstəriciyə təsirinin qısa müddətli olduğunu göstərir. BA_1 və BA_2 arasında statistik fərq müşahidə edilməmişdir (p>0,05). Bu bazu arteriyasının diametrinin XBÇ zamanı ciddi pozğunluğunu göstərməklə, hemodializin damarın strukturuna təsir etmədiyinə dəlalət edir.Post-H dovründə EAVD göstəricisi 6,9±0,4 rəqəmi ilə müşahidə olunur.Bu göstərici kontrol qrupdan demək olar ki, 2 dəfə azdır (p<0,001). Əvvəlki dövrlə müqayisədə Pre-H zamanı uyğun göstəricidən 18,9% çoxdur (p<0,05). Peri-H dovründən isə azdır, lakin, bunlar arasında statistik fərq qeyd edilmir (p>0,05). Bu dinamika onu göstərir ki, hemodializ endoteldən asılı dilyatasiyanı sürətləndirsə də bu proses tədricən enməyə başlayır. Bu hal hemodializin hazırkı təsirinin müvəqqəti olduğuna işarədir. EAOVD bu dövrdə kontrol qrupla müqayisədə 1,8 dəfə aşağıdır (p<0,001). Post-H dövrü ilə Peri-H dövrünün müqayisəsində EAOVD-nın12,3% aşağı düşməsi müşahidə olunur (müvafiq olaraq 16,1±2,4 və 13,0±1,51; p<0,05). Bu onu göstərir ki, EAOVD hemodializin təsirindən artır. Çox güman ki, EAOVD-nın hemodializ dövründə qana" yuyucu "təsiri ilə əlaqədar digər mənbələrdən ifraz olunan vazokonstruktorların neytrallaşması baş verir.VDİ Post-H dovründə digər dövrlərlə və kontrol qrupla müqayisədə dəyişməz qalır.

Beləliklə ,alınan nəticələr göstərir ki, ED-nin qan göstəriciləri XBÇ-lı xəstələrdə kontrol qrupdan kəskin fərqlənir.Bu fərqlər statistik rəqəmlərlə təsdiqini tapmışdır.Hemodializ fonunda 30 gün ərzində aparılan tədqiqat əvəzedici terapiyanın ED-nin göstəricilərinə müxtəlif və fərqli təsirini ortaya çıxarır.

Xülasə

Alınan nəticələr XBÇ-lı xəstələrdə endotelial disfunksiya haqqında bir sıra ədəbiyyat məlumatlarını təsdiq etməklə yanaşı ,hemodializin bu funksiya pozğunluğunda effektli cəhətlərini üzə çıxarmışdır.Məlum olmuşdur ki,hemodializ BA_1-in statistik olaraq artmasına gətirib çıxarmışdır.Lakin bu ancaq Peri-H dövrünü əhatə etmişdir.Post-H dövründə hemodializin bu effekti itməyə başlamışdır.EAVD-nin XBÇ-lı xəstələrdə ləng qalxması aşkar olunmuş və hemodializin bu göstəriciyə təsiri nəticəsində 45% bu rəqəm çox olmuşdur. Post-H dövründə bu rəqəmin aşağı düşməsinin müşahidə edilməsi hemodializin effektivliyinin müvəqqəti olduğunu göstərir.Həmin hal EAOVD-ya da eyni dərəcədə müşahidə olunur.VDİ isə dəyişməmişdir.Peri-H dövründə öyrənilən göstəricilərin yaxşılaşmaya meyilli dəyişiklikləri Post-H dövründə yenidən pisləşmə tendensiyası ilə əvəz olunması ,qanunauyğun şəkildə getməsi əvəzedici terapiyanın bir sıra çatışmayan cəhətləri haqqında düşünməyə əsas yaratmışdır.Dövrlər üzrə baş verən dinamiki dəyişikliklər hemodializin XBÇ zamanı pozulmuş endotelial funksiyaya təsirinin hədsiz qısamüddətli və müvəqqəti olduğunu göstərir.Ona görə XBÇ-li xəstələrdə endotelial disfunksiyanın göstəricilərinin daha qaneedici yaxşılaşdırılması məqsədi ilə yeni vasitələrin tətbiqinə ehtiyac duyulur.

ƏDƏBİYYAT

1. Валахонова Т.В. Ультразвуковое исследование артерий у пациентов с сердечно-сосудистыми заболеваниями: Автореф. дисс. …д-ра мед. наук. М., 2002, 40 с.
2. Лелюк В.Г., Лелюк.С.Э. Ультразвуковая ангиология. М.: Реальное время, 1999, с. 83-124.
3. Соболева Г.Н., Федулов В.К., Карпов Ю.А. Дисфункция артериального эндотелия и ее значение для оценки прогноза у больных сердечно-сосудистыми заболеваниями, 2010, №9 (2), с. 69-73.
4. Смирнова Е.П., Леонова М.В., Белоусов Ю.Б. Вазопротективное и антиатерогенное действие комбинации аторвастатина и клопидогреля у больных каротидным атеросклерозом // Фарматика. 2007, №19, с.64.
5. Celemajer D.S., Sorensen K.E., Gooch V.M. et al. Non-invasive detection of endothelial dysfunction in children and adults at risk of atherosclerosis // Lancet, 1992, v. 340, p.1111-1115

Резюме

Роль ультразвукового исследования в диагностике эндотелиальной дисфункции у больных с хронической почечной недостаточностью

А.Р.Гулиева, Дж.Т.Мамедов, М.М.Агаев

Авторы изучали уровень показателей ультразвукового исследования у 30-и больных с хронической почечной недостаточностью на фоне програмированного гемодиализа. Полученные данные показали что,показатели ультразвукового исследования четко отличаются от контрольной группы. При этом отмечается резкое снижение этих показателей и между ними отмечается в основном высокая статистическая разница (p<0,001). Выполненная работа свидетельствует о том что,в перигемодиализном периоде обнаруживается незначительное и временное улучшение уровней изученных ультразвуковых показателей эндотелиальной дисфункции

Summary

Rule of ultrasound investigations in diagnostics of the endothelial dysfunction patients with chronic kydneys insuffiensy

A.R.Quliyeva, C.T.Mammadov, M.M.Agayev

Authors performed the saintific work in 30 patients with chronic kydney insufiensy in programly hemodialisis. It was studed the level of the ultrasound parametrs of the endothelial dysfunction such as the diametr of brachial artery endoteliodependent and undependent dilatation indexses. The results of the investigation show that the studing parametrs of the endothelial dysfunction is severe differented from the parametrs of the control persons. Equally, it was observed the acute diminishing of this parametrs in depending of periods of the hemodialisis. It was undastood that hemodialisis dont effectivly in endothelial dysfunction.

Daxil olub:30.03.2016

AĞCİYƏR VƏRƏMİ İLƏ YANAŞI GEDƏN ŞƏKƏRLİ DİABETLİ XƏSTƏLƏRDƏ KLİNİK-RENTGENOLOJİ VƏ LABORATOR MÜAYİNƏ NƏTİCƏLƏRİ

Z.T. Qurbanova, A.B. Baxşəliyev, R.İ. Bayramov, C.M. İsmayılzadə

Azərbaycan Tibb universiteti, Ağciyər xəstəlikləri kafedarası, Bakı

Açar sözlər: ağciyər vərəminin diaqnostikası, şəkərli diabet, müayinə metodları, rentgen.

Ключевые слова: диагностика легочного туберкулеза, сахарный диабет, методы исследования, рентген

Keywords: diagnosis of pulmonary tuberculosis, diabetes, research methods, X-ray

Son illər klinik praktikada bir tərəfdən şəkərli diabetlə, digər tərəfdən ağciyər vərəmi ilə xəstələnmənin əhəmiyyətli dərəcədə artması faktı daha çox qeyd olunur. [1,2,3,4] Vərəmin şəkərli diabet fonunda gedişi müalicə zamanı da böyük çətinliklərin meydana çıxmasına səbəb olur. [5,6] Bununla bağlı yaxın illərdə vərəmin effektli müalicəsi, eləcə də proqnozu, belə xəstələrdə yanaşı gedən xəstəliklərin həlli problemi ilə müəyyən ediləcək.

Tədqiqatın məqsədi. Ağciyər vərəmi ilə yanaşı gedən şəkərli diabetli xəstələrdə ağciyərlərin, ürəyin funksional vəziyyəti və ritm dəyişikliklərini erkən aşkar etmək.

Tədqiqatın material və metodları. Bizim müaşhidəmiz altında ATU-nun, "Ağciyər xəstəlikləri" kafedrasının bazası olan Bakı şəhəri 4 saylı Vərəm Əleyhinə Dispaserdə (VƏD) stasionar və ambulator müalicə almış, əsas qrup təşkil edən 90 ağciyər vərəmi olan xəstə götürülmüşdür. Əsas qrupdan 27(30,0%)-si insulindən asılı şəkərli diabetli (İAŞD), 63 (70,0%)-ü isə, insulindən asılı olmayan şəkərli (İAOŞD) diabetli xəstələrdir. Kontrol qrupa şəkərli diabeti olmayan 12 müxtəlif formalı ağciyər vərəmi olan xəstə daxil edilmişdir. Pasientlərin böyük hissəsi 31-50 yaş həddindədir, onlardan 50 nəfəri kişi, 28-i qadındır. Vərəm prosesinin müddəti əsas qrup xəstələrdə 6 aydan 10 ilə qədər və daha çox təsadüf edilir.

Anamnezə əsasən müəyyən edilmişdir ki, yalnız 11(12,2%) pasient vərəmli xəstə ilə kontaktda olmuş, onlardan 3-ü həbsxanada olduğu müddətdə ağciyər vərəmi ilə xəstələnmişdir. Qeyd etmək lazımdır ki, insulindən asılı şəkərli diabetdən (İAŞD) əsas 40 yaşa qədər xəstələr əziyyət çəkiblər. İnsulindən asılı olmayan şəkərli diabetə (İAOŞD) böyük yaş qrupunda rast gəlinmişdir. Şəkərli diabetlə xəstələnmə müddəti 1-15 il və daha çox olmuşdur. 8 xəstədə şəkərli diabet ağciyər vərəmi diaqnozu qoyulduqdan sonra təsdiqlənmişdir. Anamnez əsasında müəyyən edilmişdir ki, xəstələrdə şəkərli diabetin korreksiyası qısa və uzun təsir müddətinə malik insulinlə, şəkərsalıcı preparatlar və eyni zamanda pəhrizlə aparılmışdır. Nəzarət etdiyimiz xəstələrdən 42-də şəkərli diabetlə yanaşı ürək-damar sistemi xəstəlikləri aşkarlanmışdır. Anamnez əsasında müəyyən edilmişdir ki, ürəyin işemik xəstəlikləri 14 xəstədən 6-da şəkərli diabetlə yanaşı, qalan 8-də ürək-damar sistemindəki dəyişikliklər şəkərli diabetin ağırlaşması kimi müəyyən edilmişdir. 14 xəstədən 10-da hipertoniya xəstəliyi şəkərli diabetin ağırlaşması kimi qeyd edilmişdir. Uzun sürən şəkərli diabetli 12 xəstədə miokardın ağır zədələnməsi ilə gedən kardiomiopatiya və ürək kameralarının dilatasiyası müşahidə edilmişdir. Qeyd etməliyik ki, 90 xəstədən 17-də (18,9%), xəstəxanaya daxil olan zaman xronik ağciyər ürəyi vərəmin ağırlaşması kimi aşkarlanmışdır. Onlardan 16-da kompensə olunmuş ağciyər ürəyi, yalnız 1 pasientdə dekompensə olunmuş qan dövranı sağ mədəcik çatışmazlığı əlamətləri müşahidə edilmişdir.

Klinikaya daxil olan xəstələr tənəffüsü orqanları xəstəliklərindən şikayətlə yanaşı, şəkərli diabetdən əziyyət çəkdiklərini qeyd etmişilər. Pasientlər arasında əsas şikayət öskürək olmuşdur ki, bu da 90 xəstədən 79 (87,7%)-da müşahidə edilmişdir. Diqqət tələb edən şikayətlərdən biri də xəstələrdə müşahidə etdiyimiz tənqnəfəslikdir ki, bu əlamət spesifik proses nəticəsində ağciyər parenximiasının zədələnməsi ilə gedən 66 (73,8%) pasientdə müəyyən edilmişdir. Tez-tez rast gəlinən şikayətlərdən biri də qahayxırma və ağciyər qanaxmasıdır ki, bu da 31(34,4%) xəstədə müşahidə olunlmuşdur. Döş qəfəsindəki müşahidə edilən ağrılar 22 (24,4%) xəstədə, onlardan 13-ü birtərəfli, 9-u isə ikitərəfli olmuşdur. Ürək nahiyəsində ağrılar 17 xəstədə qeyd olunmuşdur. Şəkərli diabet üçün xarakterik simptom olan yanğı 61(67,8%), yüksək diurez 43 (47,8%) xəstədə müşahidə edilmişdir. Böyük üstünlük təşkil edən, xəstələrin əksəriyyətində-54 (60,0%)-də tez-tez təsadüf edilən intoksikasiya simptomları: bədən hərarətinin yüksəlməsi, iştahanın pisləşməsi, çəki itkisi, yuxu pozğunluğu, gecə tərləmələri, zəiflik, psixoemosional labillik qeyd olunub. Klinikaya daxil olan 54 pasientin qəbul olan zaman ümumi vəziyyətləri ağır və orta ağır kimi qiymətləndirilmişdir. Ağırlıq dərəcəsi əsas xəstəliyin şikayətləri ilə birlikdə intoksikasiya simptomlarına əsaslanaraq müəyyənləşdirilmişdir.

48 nəfər orta ağır xəstədə fiziki yüklənmə zamanı tənqnəfəslik, qanhayxırma, öskürək kimi şikayətlər. 6 ağır xəstədə sakitlik zamanı tənqnəfəslik, baldır və pəncələrdə ifadə olummuş ödemlər, residivləşən qanhayxırma, ağciyər qanaxması əzablı öskürək nəticəsində çətin ifraz edilən bəlğəm ifrazı olur, hansı ki, belə xəstələrdə əsas proses artıq çətin korreksiya olunan şəkərli diabet və xronik ağciyər ürəyinin dekompensasiya mərhələsi ilə ağırlaşmışdır. Klinikaya daxil olan zaman 52 (57,8%) xəstədə dəri və görünən selikli qişalar avazımışdı. Pəncənin və baldırın periferik ödemi ağır gedişli xəstəliyi olan (dekompensasiya mərhələsində olan ağciyər ürəyi) bir xəstədə müşahidə olunmuşdur. 11 xəstədə müayinə zamanı barmaqların "təbil çubuqları" şəklində dəyişməsi xəstəliyin uzun müddətli olmasını göstərir. Dərinin furunkulyoz şəklində irincikli dəyişikliyi 19 (21,1%) xəstədə müşahidə olunmuşdur. Bundan başqa ayaqlarda mikroangiopatiya fonunda çətin sağalan xoraların ("diabetik pəncə") əmələ gəlməsi ilə gedən trofik pozğunluqlar 10 (11,1%) pasientdə müşahidə olunmuşdur. Sol ayağın quru qanqrenası 1 xəstədə aşkarlanmışdır.

Tənəffüs sistemini qiymətləndirən zaman 52 (57,8%) xəstədə tənəffüsün tezləşməsi 1 dəqiqədə 23-25-dək olmuşdur. Əksər xəstələrdə auskultativ şəkil sərt tənəffüs fonunda quru və yaş xırıltılardan, 19 xəstədə səs titrəməsinin vərəm prosesi nəticəsində zədələnmiş tərəfdə zəifləməsi, 7 xəstədə perkutor səsin kütləşməsi qeyd olunmuşdur. 6 xəstədə döş qəfəsinin tənəffüs aktından geri qalması müşahidə olunmuşdur.

Ürək- damar sistemi tərəfindən dəyişiklik 31 pasientdə sinus taxikardiyası şəklində qeyd olunmuşdur, onlardan 23-də insulindən asılı olmayan şəkərli diabetə, 8 pasientdə isə insulundən asılı şəkərli diabetə rast gəlinmişdir. Ekstrasistolik aritmiya 6 xəstədə, sinus bradikardiyası 2 xəstədə aşkar edilmişdir. Taxiaritmik ritm pozğunluğu 5 xəstədə müəyyən edilmişdir. 11 halda keçiriciliyin pozulması, Hiss dəstəsi ayaqcıqlarının blokadası şəklində qeyd olunmuşdur. 28 xəstədə arterial təzyiq aşağı, 26-da normal. 11 pasientdə isə yüksək olmuşdur.

Tənəffüs orqanlarının müxtəlif xəstəliklərinin diaqnostikası bütün həcmi ilə aparıcı yer tutmuşdur. Eyni zamanda və ya ardıcıllıqla tətbiq edilən müxtəlif müayinə metodları (rentgenoskopiya, rentgenoqrafiya, tomoqrafiya duz, yan, köndələn proyeksiyalarda, nişanlanmış və superekspone edilmiş şəkillər, birbaşa böyüdülmüş rentgenoqramma və tomoqramma, ÜSM müayinə metodu) rentgenoloji diaqnostika metodunun effektivliyinin artırılmasında bizə imkan vermişdir. Xəstələrin yarısında (46) xəstəliyin rentgenoloji şəkili kavernaların çoxluğu ilə xarakterizə olunub. 35 xəstədə kavernalar birtərəfli, 11 xəstədə isə ikitərəfli lokalizə olunmuşdur. Ağciyər toxumasının kompyuter tomoqrafiyası zamanı yuxarı payların zirvə və arxa seqmentlərində tək və çoxlu qalın divarlı dağılma boşluqları aşkarlanmışdır. Boşluqların xarici konturları payarası və paydaxili arakəsmələrin, emfizema sahələrinin, xətti çapıqların kəskin qalınlaşması hesabına qeyri hamardırlar. Nazik divarlı kavernalar 4 pasientdə aşkarlanmışdır. Belə xəstələrin kompyuter tomoqrafik şəkli yuxarı payın bir və ya iki seqmenti hüdudunda formalaşmış, izolə olunmuş, xarici və daxili qatları yaxşı ifadə olunmuş divara malik, dairəvi formalı kavernalarla xarakterizə olunur. Rentgenoloji dəyişikliklər 4 pasientdə çoxsaylı boşluqlar və səpələnmə ilə xarakterizə olunmuşdur. Buna əsasən çoxsaylı dağılma ocaqları və bir neçə nazik divarlı perifokal iltihabı olmayan möhürlənmiş kimi boşluqlar qeyd olunmuşdur. KT-də ağciyərlərin həcmi əhəmiyyətli dərəcədə kiçilmiş, bitişik şöbələr şişmiş vəziyyətdə, bərkimə zonasında bronxoektazlar, emfizematoz boşluqlar və çoxsaylı hissəvi kirəcləşmiş ocaqlar görünür. Kaverna və ocaq ətrafında müxtəlif dərəcəli ifadə olunmuş eksudativ – kataral dəyişikliklər 36 xəstədə müşahidə olunmuşdur. Bizim tərəfimizdən 48 pasientdə ağciyər vərəminin infiltrativ forması aşkarlanmışdır. 27 xəstədə ağciyər vərəminin infiltrativ forması dağılma mərhələsində tapılmışdır. Buna rəğmən 15 xəstədə sağ ağciyərin yuxarı payının

seqmentləri. 12 xəstədə solda zədələnmələr olmuşdur. Rentgenoloji olaraq 14 pasientdə lobit, onlardan 9-da sağda. 5-də solda aşkarlanmışdır. 4 xəstədə çoxsaylı rentgenoqrafiya nəticəsində ağciyərlərin ikitərəfli infiltrativ vərəmi, dağılma fazasında aşkarlamışıq. Ağciyərlərin 2 seqment daxilində dağılmasız infiltrativ dəyişiklikləri 3 xəstədə qeyd olunmuşdur. Qeyd edək ki, tərəfimizdən izlənilən pasientlərdə müxtəlif polimorf ocaqlı dəyişikliklər aşkarlanmışdır.

Xəstələrin qanındakı dəyişikliklər periferik qanın tərkibində olan retikulositlərin və trombositlərin artması ilə gedən qarışıq tipli (meqablastik və dəmirdefisitli) anemiya və leykoqrammada olan müxtəlif birgə meyilliklər şəklində qeyd olunmuşdur. Xəstəliyin müalicəsi zamanı uzun müddətli kimyəvi preparatların istifadəsi qaraciyərin zülal-sintetik funksiyasının pozulmasına səbəb olur. Qanın biokimyəvi öyrənilməsi zamanı 52 xəstədə C-reaktiv zülalın artmasının üzə çıxması ilə disproteinemiya, hipoproteinemiya və qanda fibrinogenin səviyyəsinin qalxması aşkarlanmışdır. Albuminlərin azalması və qlobulinlərin səviyyəsinin qalxması 28 xəstədə qeyd olunmuşdur. Qlobulinlərin qamma fraksiyasının müəyyən qədər artması müşahidə olunmuşdur. Qara ciyərin funksional vəziyyətini öyrənən zaman qanda bilirubinin və onun fraksiyalarının aminotransferaz və şəkərin səviyyəsinin təyini əsas rol oynamışdır: belə ki, 11 xəstədə bilrubinin miqdarı 30mk mol/l olmuşdur. 10 xəstədə aminotransferaz 50-80 y/l, qədər qalxmışdır. Böyrəklərin funksiyasında olan pozğunluğu aşkar etmək üçün bizim tərəfimizdən qalıq azot, sidik cövhəri, kreatinin təyin edilmişdir, hansı ki, 17 xəstədə böyrəklərin ifraz etmə funksiyası pozulmuşdur ki, bu da şəkərli diabetli xəstələrdə nefropatiya ilə əlaqədardır. Bundan başqa sidiyin ümumi müayinəsi zamanı 39 pasientdə sutkada 0,3 qr. qədər zülal ifrazı qeyd olunmuşdur ki, bu da xəstələrdə mikroalbuminuriyanın olmasından və qlomerulosklerozun erkən əlamətindən xəbər verir. Qeyd etməliyik ki, norma ilə müqayisədə amilazanın səviyyəsinin 2-3 dəfə artması xroniki pankreatit olan 5 xəstədə olmuşdur ki, bu da pankreatitin kəskinləşməsini göstərir.

Bizim tərəfimizdən mikrobioloji diaqnostika böyük əhəmiyyət kəsb etmişdir. Daxil olan və müalicə müddətində bütün xəstələrin bəlğəmləri və ya bronx yuyuntuları mikroskopik yaxma metodu ilə vərəm mikobakteriyalarına görə yoxlanılmışdır. Eyni zamanda bərk qidalı Levenşteyn – Yensen mühitində ifraz olunan kulturaların ardıcıllıqla vərəm əleyhinə dərmanlara qarşı həsaslığını müəyyən etmək (Bac Tek MGİT) üçün əkmə aparmışıq. Kimyəvi terapiya dövründə bəlğəmin vərəm mikobakteriyalarına qarşı müayinəsi hər ay bakterioskopiya və eyni zamanda bərk qidalı mühitdə əkmə metodu ilə aparılır. Həmçinin mikobakteriyaların həssaslığını müəyyən etmək üçün sürətli metod da (GEN X pert) tətbiq edilmişdir. Bütün analiz olunan xəstələr basil ifraz etmişlər; onlardan 47 (72,3%) xəstədə daxil olan zaman massiv basil ifrazetmə hər görüş sahəsində 10-50 VMB olmaqla qeyd edilmişdir. Müxtəlif dərman və vərəm əleyhinə preparatlar VMB-nın davamlılığı 36 (55,4%) xəstədə qeyd olunmuşdur. VMB-nin bir dərman preparatına rezistentliyi 9 (25%) pasientdə. 2 dərmana rezistentliyi 12 (33,3%) pasientdə 3 və daha çox dərmana rezistentlik 15 (41,7%) pasientdə aşkarlanmışdır. Bizim tərəfimizdən ən çox izoniazidə 21 (58,3%) xəstə və streptomisinə 15 (41,7%) xəstədə davamlılıq aşkarlanmışdır.

Nəticə: Beləliklə, müşahidəmiz altında olan xəstələrin təqdim olunmuş yaş, cins, anamnez məlumatları, eləcə də tam həcmli şua və laborator müayinə üsullarının nəticələri, döş qəfəsi orqanlarının vərəmlə zədələnməsinin və yanaşı gedən vərəm prosesini fəsadlaşdıran şəkərli diabetin gediş müddətini və yayılmasını göstərir.

ƏDƏBİYYAT

1. Байрамов В.Я., Никитин М.Д., Лидская Н.П. Опыт ведения больных сахарным диабетом при хирургическом лечении туберкулеза легких. // Тер.Арх, 2001, №11, с. 44-48
2. Бобков И.К., Тарараев И.С., Старина В.В. Хирургическое лечение хронического распространенного, осложненного фиброзно-кавернозного туберкулеза легких./ IV съезд научно-медицинской ассоциации фтизиатров (Тезисы докладов). Йошкар-Ола, 1999, с.591
3. Дворецкий Л.И. Туберкулез в практике интерниста // Проблемы туберкулеза и бол. легких, 2000, №6, с. 3-10
4. Елизаров Б.М. Хирургическое лечение туберкулеза легких сахарным диабетом: Автореф. дис. ... канд. мед.наук. М., 1970, 211 с.
5. Елькин А.В. Репни Ю.М. Хирургическое лечение послеоперационных рецидивов туберкулеза легких / IV съезд научно- медицинской ассоциации фтизиатров. Йошкар-Ола, 1999, с.589.
6. Соколов В.А. О выявлении туберкулеза легких в общей лечебной сети // Проблемы туберкулеза и бол. легких, 2000, № 6, с.13-16
7. Liane B., Belhaidas F., Kanbonche F. et.al Tuberculosis and diabetes // Inter.J.Tuberc.Lung.Dis., 2001, v.5, № 11(Suppl.1), p.113

Резюме

Клинико-рентгено-лабораторные методы исследования у больных туберкулезом легких и сопутсвующим сахарным диабетом

З.Т.Гурбанова, А.Б.Бахшалиев, Р.И.Байрамов, Дж.М.Исмаилзаде

Представленные нами, данные анамнеза, пола возраста, а также лучевых (рентгеноскопия, рентгенография, томография в прямой боковой, косой и поперечной проекциях, прицельные и суперэксопонированные снимки, рентгенограммы и томограммы с прямым увеличением, ультразвуковой метод исследования) и лабораторных (общий анализ крови, биохимические показатели крови, микробиологические-микроскопии мазка, посев на плотную питательную среду Левенштейна-Йенсена (ТЛИ)), с последующим определением чувствительности выделенных культур к противотуберкулезным препаратом (BacTek MGIT), ускоренный метод определения чувствительности микобактерии (GEN Xpert) методов исследования в полном объеме у наблюдаемых нами больных свидетельствуют о распространенности и длительности течения, как туберкулезного поражения органов грудной клетки, так и сопутствующего и осложняющего туберкулезный процесс сахарного диабета.

Summary

The results of clinical radiologikal and laboratory examinations in tuberculosis patients concomitant with diabets

Z.T. Gurbanova, A.B. Bahshliyev, R.I. Bayramov, C.M. Ismayılzade

Therefore, the presented data of anamnesis, age and sex, X-ray (roentgenscopy, radiography, tomography in direct lateral side, oblique and transverse projections, roentgengrams and tomograms with a direct increase, ultrasonic research method) and laboratory (general blood analysis, biochemical parameters of blood, microbiological-smear microscopy, inculation of soild growth medium of Lowenstein-Yensen, followed by determination of the sensitivity of isolated cultures to antituberculosis drugs (BacTEk MGIT), rapid method for determining the sensitivity of mycobacteria (GEN Xpert)) methods of research in fall observed of patients by us indicate the prevalence and duration of tuberculous lesions of the chest the concomitant and complicating tuberculous process of diabetes.

Daxil olub:04.04.2016

КЛИНИКО-ФУНКЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ ТЕЧЕНИЯ БРОНХООБСТРУКТИВНОГО СИНДРОМА У БЕРЕМЕННЫХ

Л.Д. Мамедова, С.Г.Султанова

Азербайджанский медицинский университет, кафедра акушерство-гинекологии I, г.Баку

Açar sözlər: bronxial obstruktiv sindrom, klinika, funksional vəziyyət, hamilələr

Ключевые слова: бронхообструктивный синдром, клиника, функциональное состояние, беременные

Keywords: bronchial obstruction, clinical, functional condition, pregnant

Бронхообструктивный синдром (БОС) это симптомокомплекс, связанный с нарушением бронхиальной проходимости функционального или органического происхождения и как известно, является ведущим синдромом в пульмонологии. Несмотря на вполне определенные различия между бронхиальной астмой (БА) и хронической обструктивной болезнью легких (ХОБЛ) по механизмам развития, в клинических проявлениях и принципах профилактики и лечения, эти два заболевания имеют некоторые общие черты. И астма, и ХОБЛ относятся к обструктивным болезням легких.

Актуальной проблемой медицины в настоящее время является высокая заболеваемость БА и ХОБЛ, что обусловлено распространенностью аллергических заболеваний, курением, неблагоприятной экологической средой во многих регионах нашей планеты.

ХОБЛ-характеризуеся неуклонным прогрессированием и постепенным снижением функции легких с развитием хронической дыхательной недостаточности. Обычно заболевание проявляется после завершения репродуктивного возраста. Однако в последнее время происходит «омолаживание » болезни, и диагностирование ее у беременных уже не является редкостью, а ХОБЛ симптомы становятся все явственнее.

К счастью, ХОБЛ у беременных обнаруживается еще на начальной стадии, так как болезнь у них прогрессирует быстрее, а осложнения выражены сильнее. Опасность данного заболевания при беременности выражена в недостатке кислорода в крови будущей мамы, и как следствие кислородное голодание, гипоксия плода.

Частота БА среди беременных колеблется от 0,4 до 6,9% составляя в среднем 4 % [5,9]. В настоящее время во многих странах проводят исследования, направленные на выработку правильной тактики ведения беременных с БА и предотвращения возможных осложнений у матери и плода [4,8]. Наибольший риск для плода представляет недостаточное количество кислорода в крови (гипоксия) которое возникает из-за неконтроллируемого течения бронхиальной астмы. Для рождения здорового ребенка необходимо получать лечение, соответствующее тяжести заболевания, чтобы не допустить учащения появления симптомов и развития гипоксии.

При бронхиальной астме несколько повышен риск как преждевременных родов, так и перенашивания беременности. Это требует тщательного наблюдения гинеколога. Улучшение течения астмы во время беременности наступает примерно в 14% случаев.

Tədqiqatın material və metodları. Bu məqsədlə tədqiqatın ilk mərhələsində tərəfimizdən 25 nəfər əvvəl xolesistektomiya edilmiş, 25 nəfər öd durğunluğundan və 28 nəfər isə həm öd durğunluğu, həm də xolesiststidən əziyyət çəkən ümumilikdə 78 nəfər qadınların dişlərinin sərt toxumalarında dişlərində kariesin və hipoplaziya, hiperesteziya kimi qeyri –karioz zədələnmələrin rast gəlinməsinə görə say və % -lə olmaqla öyrənilmişdir. Stomatoloji müayinələr güzgü və zond vasitəsilə icra edilmişdir.

Tədqiqatın ikinci mərhələsində isə qeyd etdiyimiz qruplardakı qadınlardan ağız suyu nümunələri adi üsulla steril qablarda toplanaraq, ATU –nun Biokimyəvi laboratoriyasına göndərilərək, tərkibində Ca və P kimi makroelementlərin mmol/l olmaqla miqdarlarının müəyyən edilməsi icra edilmişdir.

Alınmış ədədi verilənlər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, hamçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır, nəticələr cədvəlləşdirilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. Tədqiqat nəticəsində əvvəllər xolesistektomiya edilmiş 25 nəfər qadından 17 nəfərində dişlərin kariesinə rast gəlinmişdir ki, bu da ortalama qrup üzrə 68,0±9.33% təşkil etmişdir. Buna baxmayaraq, eyni sayda ancaq öd yolları patologiyalarının ilkin mərhələsi hesab olunan öd durğunluğundan əziyyət çəkən qadınlar qrupunda bu göstərici 21 nəfər olmaqla, 84.0±7.33% olmuşdur.

Daha ağır öd yolları patologiyalarından hesab olunan öd daşı və xolesiststidən əziyyət çəkən 28 nəfər qadından ibarət qrupda isə 26 nəfərdə dişlərdə karioz patologiyalar qeydə alınmışdır ki, bu da digər iki daha yüngül öd yolları patologiyalarında əziyyət çəkən qadınlar qruplarında müşahidə olunan uyğun göstəricilərdən nisbətən yüksək, 92,9±4,87% hesablanmışdır (cədvəl 1).

Cədvəl 1

Müxtəlif öd yolları patologiyalarından əziyyət çəkən qadınlarda dişlərin sərt toxumalarının karioz və qeyri –karioz zədələnmələrinin rast gəlinməsi.

Müayinə qrupları	Qruplardakı xəstələrin sayı	Dişlərin kariesi		Qeyri –karioz zədələnmələr			
				Sistem hipoplaziyası		Hiperesteziya	
		Say	%	Say	%	Say	%
Xolesistektomiya edilmiş	25	17	68,0±9,33	7	28,0±8,98	-	-
Öd yollarında durğunluq olan	25	21	84,0±7,33	9	36,0±9,60	11	44,0±9,93
Öd daşları və xolesistit	28	26	92,9±4,87	17	60,7±9,23	28	100,0

Qruplar üzrə dişlərin sərt toxumalarının qeyri-karioz zədələnmələrinin yayılmasının öyrənilməsi zamanı 25 nəfərdən ibarət əvvəllər xolesistektomiya əməliyyatı icra edilmiş qadınlar qrupunda 7 nəfər qadında sistem hipoplaziyası patologiyasına rast gəlinmişdir ki, bu da qrup üzrə 28,0±8,98% hesablanmışdır. Bu qrupda dişlərin sərt toxumalarının hiperesteziyası hallarına rast gəlinməmişdir. 25 nəfərdən ibarət öd yollarında durğunluq aşkar edilmiş ikinci qrupda sistem hipoplaziyasına 9 xəstədə rast gəlinmişdir ki, bu da qrupda 36,0±9,60% xəstələri əhatə etmişdir. Bu qrupda hiperesteziya 11 nəfərdə qeydə alınmışdır və bu qrup üzrə 44,0±9,93% -ə uyğun gəlir.

Öd yollarının daha ağız xəstəliklərindən yəni öd daşları və xolesiststidən əziyyət çəkən 28 –nəfərlik qrupdan 17 nəfərində yəni qrup üzrə 60,7±9,23% qadınlarda dişlərin sistem xarakterli hipoplaziyasına rast gəlinmişdir. Bu qrupda bütün xəstələrdə hiperesteziya əlamətləri bu və ya digər dərəcədə aşkar edilmişdir. Bu hal hal – hazırda öd daşı və öd yolları patologiyalarından əziyyət çəkən şəxslərin əvvəllər xolesistektomiya əməliyyatı icra edilmiş şəxslərdən daha çox mineral mübadilə pozğunluğuna məruz qalmaqda olduqlarını göstərir. Öd yolları patologiyalarının kəskinlik və ağırlıq dərəcəsi artdıqda karioz və qeyri –karioz zədələmmələrin rast gəlinməsi və yayılması göstəriciləri də yüksək sayda olmuşdur.

Tədqiqatın ikinci mərhələsində əvvəllər xolesistektomiya əməliyyatı icra edilmiş 25 nəfərlik qadınlar qrupundan əldə olunmuş ağız suyu nümunələrində Ca makroelemntinin qrup üzrə orta miqdarı 1,48 ± 0,017 mmol/l olmasına baxmayaraq, öd yollarında durğunluq diaqnozu qoyulmuş 25nəfərədn ibarət qadınlar qrupunda bu göstərici nisbətən aşağı, 1,42 ± 0,009 mmol/l, 28 nəfərdən ibarət daha ağız öd yolları patologiyası olan xolesistit və öd daşı xəstəliyindən əziyyət çəkən qadınlar qrupundan əldə olunmuş bioloji materiallarda isə daha az miqdarda, 0,24 ± 0,016 mmol/l qeydə alınmışdır (cədvəl 2).

P makroelemtinin ağız suyu nümunələrində miqdarlarının öyrənilməsi zamanı isə Ca mikroelemntində qeydə alınandan fərqli tendensiya qeydə alınmışdır.

Cədvəl 2

Müxtəlif öd yolları patologiyalarından əziyyət çəkən qadınlardan götürülmüş ağız suyu nümunələrində Ca və P minerallarının miqdarı (mmol/l-lə)

Qruplar	Ca (mmol/l –la)	P (mmol/l –la)
Xolesistektomiya edilmiş	1,48±0,017	3,43±0,021
Öd yollarında durğunluq olan	1,42±0,009 *	4,77±0,047 *
Öd daşları və xolesistit	0,24±0,016 *,**	3,52±0,029 *,**

Qeyd: * -birinci qrupun göstəricilərinə görə ehtimallılıq ($p < 0,05$), ** -ikinci qrupa görə ehtimallılıq ($p < 0,05$).

25 nəfərlik əvvəllər xolesitektomiya əməliyyatı icra edilmiş qadınlar qrupundan götürülmüş ağız suyu nümunlərində P makroelementinin miqdarı qrup üzrə ortalama 3,43 ± 0,021 mmol/l olduğu halda, eyni sayda öd yollarında durğunluq qeydə alınmış qadınlar qrupunda bu göstərici kifayət qədər yüksək, 4,77 ± 0,047 mmol/l olmaqla aşkarlanmışdır.

Öd yollarının daha ağır patologiyası olan xolesistit və öd daşı xəstəliyindən birlikdə əziyyət çəkən 28 nəfərlik pasiyentlər qrupundan əldə olunmuş bioloji materiallarda isə P elementinin miqdarının orta göstəricisi 3,52±0,029 mmol/l olmuşdur.

Beləliklə, öd yollarının patologiyaları müasir dövrdə ən geniş yayılmış xəstəliklər sırasına daxil olmuşlar. Öd daşlarının meydana gəlməsi minerallaşma prosesləri ilə vəhdətdədir. Öd daşı xəstəliyi kişilərə nisbətən qadınlarda 4-5 dəfə çox rast gəlinir. Minerallaşma proseslərinin bir çox elementlərdən asılı olduğu qeyd edilmişdir ki, bunlardan Ca və P makroelementlərinin biloji materiallardakı miqdarları daha önəmli xarakterlidir. Tədqiqat nəticəsində öd yolları patologiyalarından əziyyət çəkən şəxslərdə karies və hipoplaziyanın daha çox yayılması müşahidə edilmişdir.

ƏDƏBİYYAT

1. Healy C.M., Farthing P.M., Williams D.M. et al. Pyostomatitis vegetans and associated systemic disease: a review and two case reports // Oral Surg Oral Med Oral Pathol., 1994, v.78, p.323-8.
2. Hansen L.S., Silverman S.Jr., Daniels T.E. The differential diagnosis of pyostomatitis vegetans and its relation to bowel disease // Oral Surg Oral Med Oral Pathol., 1983, v.55, p.363-73.
3. Halme L., Meurman J.H., Laine P. et al. Oral findings in patients with active or inactive Crohn's disease // Oral Surg Oral Med Oral Pathol 1993;76:175–81.
4. Plauth M., Jenss J., Meyle J. Oral manifestations of Crohn's disease: an analysis of 79 cases // J Clin Gastroenterol., 1991, v.13, p.29-37.
5. Schnitt S.J., Antonioli D.A., Jaffe B. et al. Granulomatous inflammation of minor salivary gland ducts: a new oral manifestation of Crohn's disease // Hum Pathol., 1987, v.18, p.405-7.
6. Bevenius J. Caries risk in patients with Crohn's disease: a pilot study // Oral Surg Oral Med Oral Pathol., 1988, v.65, p.30—7.
7. Rooney T.P. Dental caries prevalence in patients with Crohn's disease // Oral Surg Oral Med Oral Pathol., 1984, v.57, p.623-4.
8. Meurman J.H., Halme L., Laine P. et al. Gingival and dental status, salivary acidogenic bacteria, and yeast counts of patients with active or inactive Crohn's disease // Oral Surg Oral Med Oral Pathol., 1994, v.77:, p.465-8.
9. Malins T.J., Wilson A., Ward-Booth R.P. Recurrent buccal space abscesses: a complication of Crohn's disease // Oral Surg Oral Med Oral Pathol., 1991, v.72, p.19-21.
10. Siegel M.A. Oral manifestations of gastrointestinal disease:diagnosis and treatment. In: Bayless TM, editor. Current therapy in gastroenterology and liver disease. Burlington (ON), Canada: B.C. Decker; 1989. p. 1-5.
11. Siegel M.A., Balciunas B.A. Medication can cause severe ulcerations // J Am Dent Assoc., 1991, v.122, p.75-7.
12. Dhote R., Bergmann J.F., Leglise P. et al. Orocecal transit time in humans assessed by sulfapyridine appearance in saliva after sulfasalazine intake // Clin Pharmacol Ther., 1995, v.57, p.461-70.

Резюме

Оценка состояния твердых тканей зубов при патологиях желчных путей

Я.А. Самедли, Н.С. Алкишиев, З.Н. Мамедов, В.М. Гасанов

Заболевания желчных путей, были включены в список наиболее распространенных заболеваний в наше время. Процессы минерализации проходят в сочетании с образованием камней в желчном пузыре. Желчнокаменная болезнь в 4-5 раз чаще встречается у женщин, чем у мужчин. Было отмечено, что минерализация это процесс, который зависит от ряда элементов, при этом Ca и P элементы более важные, чем количество биологического материала. При исследовании лиц, страдающих от патологии желчных протоков, наблюдались большие показатели по распространенности кариеса и гипоплазии.

Summary

Evaluation of teeth hard tissues during biliary disorders

Y.A. Samadli, N.S. Alkishiev, Z.N. Mammadov, V.M. Hasanov

Biliary tract diseases have been included in the list of the most prevalent diseases in modern times. Mineralization processes are combined with the formation of gallstones. Gallstone disease is 4-5 times more common in women than men. Mineralization was noted that the process is dependent on a number of elements including Ca and P elements are more important than the amount of biological materials. The study individuals suffering from bile duct pathologies were observed in prevalence of caries and hipoplasy more.

Daxil olub:13.04.2016

TAM QAPAQ ALTINA DİŞLƏRİN YONULMASI

A.İ. Tağıyev, R.R. Şahmuradov, Ə.A. Əliyev, G.E.Kərimova

Azərbaycan Tibb Universitetinin Ortopedik stomatologiya kafedrası

Məqalənin aktuallığı hazırlanan protezlərin uzun müddət istifadə olunmasını təmin etməkdir. Məqalədə verilən məsləhətlər eyni zamanda bir çox məsələləri aydınlaşdırmağa zəmin yaradır. Məqalədə səhvlərin profilaktikasına və qapağın diş ətinə nisbətən necə yerləşməsinə, bu nahiyyənin görünməsinə və ölçü götürülməsində hansı metod və vasitələrdən istifadə olunmasına çox ciddi fikir verilir.

Məqalədə təklif olunan məsləhətlərə fikir verildikdə hazırlanan protezlərin uzun müddət istifadə olunması təmin edilir.

Dişlərin protezlənməsi ağız boşluğunda restavrasiyanın, qapağın, vinirin funksional, anatomik və estetik xüsusiyyətlərinin təmin olunması üçün, çoxsaylı prosedurlar ardıcıllığıdır. Dişlərin yonulması bu prosesin əsas hissəsini təşkil edir. Dişlərin müvəffəqiyyətli bərpası üçün dəqiq ölçü almaq, restavrasiyanı keyfiyyətli hazırlamaq və yaxşı fiksasiyaya nail olmaq lazımdır. Dişlərin yonulması həkimdən maksimal diqqət tələb edən mühüm və geridönməz mərhələdir [1,4].

Yonulma dişin formasının dəyişməsinə və həcminin kiçilməsinə səbəb olur. Bunu nəzərə alaraq, yonulma çox dəqiqliklə həyata keçirilməlidir. Həddindən artıq və ya az yonma qapağın hazırlanmasının dəqiqliyini pozur və ümumi protezlənmənin keyfiyyətinə mənfi təsir edir [3,4,5,8]. Həkim bu işdə yaxşı manual bacarığa malik olmaqla yanaşı, onun görüləcək işlər ardıcıllığı haqqında təsəvvürü olmalıdır [3,4]. Dişlərin yonulması zamanı həkim əsas anatomik yonulma sərhədlərini bilməli və yonmada bunları nəzərə almalıdır [5,6].

Bundan ötrü 4 əsas prinsipə riayət etmək vacibdir [3,4,6,7].

1.Anatomik formaya uyğun olaraq dişin səthinin yonulması mümkün qədər minimal olmalıdır (qapağın hazırlandığı materialdan asılı olaraq)

2.Qapağın möhkəmliyi, davamlılığı təmin olunmalıdır.

3. Qapağın kənarı dişin boyun hissəsinə kip oturmalıdır.

4.Diş toxumaları mümkün qədər qorunub saxlanılmalıdır.

Ortopedik müalicədə dişin sərt toxumalarının yonulması zamanı pulpanın saxlanması vacib şərtlərdəndir [1,3,4].

Qapağın retensiyası dedikdə, onun hərəkəti üçün məhdudiyyət yaratmaq nəzərdə tutulur (qapağın kip yerində oturmasıdır). Qapağın dayanaqlığı, ona təsir edən qüvvələrə, yəni çeynəmə hərəkətlərinə qarşı dözümlüyüdür [6].

Dişlərin yonulması zamanı və restavrasiyanı hazırlayarkən həkim uzun müddət ərzində parodont toxumalarının sağlam vəziyyətini təmin etmək üçün bioloji prinsiplərə əməl etməlidir [2,3,4]. Optimal estetik

nəticə əldə etmək üçün, vestibulyar səthdə yonulmanın minimal dərinliyi qapağın materialından asılı olaraq 1-1,5 mm olmalıdır. Çeynəmə təzyiqinə davamlı olması üçün, yuxarı çənənin frontal dişlərinin damaq səthində minimal yonulma dərinliyi 1 mm olmalıdır. Distal seqmentlərdə isə okklüzion məsafə 2 mm-ə yaxın olmalıdır [1,3,4,8]. Yonulmanın dərinliyi müvəqqəti qapağın qalınlığını təkrar edir [3,4]. Müvəqqəti qapağın (akril plastmasın xüsusiyyətinə görə) boyun nahiyyəsinin qalınlığının 1 mm-dən az yonulmasını vizual olaraq müəyyən etmək çətin olur [5,6]. Yonulmanın dərinliyini təyin etmək üçün kipləşdirilmiş müvəqqəti qapağın qalınlığını mikrometrlə təyin etmək olar [3,4]. Metal-keramik qapaq hazırlanarkən, bu hissənin az yonulması boyun nahiyyəsində rəng uyğunsuzluğuna, tam keramik qapaqlarda isə boyun nahiyyəsinin davamlılığının zəifləməsinə səbəb olur [3,4,6,7].

Dişlərin yonulması zamanı və cərrahi müdaxilədən sonra isə müvəqqəti qapaq hazırlayarkən həkim təxmini yonma aparır [3,4]. Belə yanaşma başlanğıc mərhələlərdə dayaq dişlərin struktur tamlığını saxlanılmasına kömək edir. Eyni taktika dişlərin kliniki uzadılmasından sonra, dişəti kənarının apikal yerdəyişməsi zamanı da istifadə edilir [3,4,6,8].

Yonma zamanı ən çox buraxılan səhvlərdən biri, aproksimal hissələrdə yumşaq toxumaları nəzərə almadan, horizontal istiqamətdə daha çox yonulmadır. Valderhaug göstərmişdir ki, 70% hallarda fiksasiya zamanı görünməz olan dişəti altındakı restavrasiya kənarı bir müddət sonra dişəti resessiyasına görə görünür [3,4,6].

Yonulma sərhəddi daha dərin yerləşdikdə birləşdirici toxuma bağlarının zədələnməsindən və aşağıdakı dolayı səbəblərdən parodontda geridönməz patoloji proseslər ola bilər [2,3,4,8]. Bunlar:

-qapağın kənarının dişə kip oturmaması

-uyğun olmayan qapaq kənarı

-qapaq kənarının nahamar səthi

-sement artıqlarının qalması/

Yuxarıda sadalanan çatışmamazlıqlar yumşaq toxuma altında gələcəkdə fəsadların yaranmasına səbəb olur. Bu, nəticədə mikroblu ərpin yığılmasına, parodontun iltihabına və zədələnməsinə gətirib çıxarır. Parodontun qalın biotipində dişətinin hiperplaziyası müşayiəti ilə parodontal ciblər yarana bilər və az resessiya əlamətləri görünə bilər. Nazik biotipdə isə daha aydın resessiya inkişaf edir [3,4,5].

Yonulma sərhəddini dişəti altında aparan zaman parodontun zədələnməsinin qarşısını almaq üçün epitelial və əsasən birləşdirici toxuma bağlarının travmasından qaçmaq lazımdır [3,4,6,9]. Hətta dişəti cibində yerləşmə zamanı da restavrasiya kənarı parodontun vəziyyətini pisləşdirməməlidir [3,4]. Dişlərin yonulması mərhələlərində, əsasən də retraksiya sapı istifadə edərkən çox vaxt epitelial birləşmənin təsadüfən travma aldığını görmək olar [3,4]. Əgər restavrasiya dəqiq hazırlanmışsa, onda epitelinin nisbətən zəif vaskulyarizasiyası hesabına bu dəyişiklik geridönən olur [3,4,8]. Birləşdirici toxuma bağlarının iri damarlarının travması isə geridönməz ola bilər və dişəti iltihabına və sümükdaxili parodontal ciblərin yaranmasına gətirib çıxara bilər [2,3,4].

Dişəti cibinin dərinliyini bilmək, yonulma sərhədini müəyyən etməyə imkan verir [2,3,4,9]. Dişəti cibinin dərinliyini parodontal zondla, iltihab əlamətini göstərən qanaxmaya da fikir verməklə yoxlamaq lazımdır [3,4,6]. Normada vestibulyar hissədə zondlamanın dərinliyi 0,5-1 mm, dil tərəfdə (1-2 mm) və aproksimal sahələrdə (1-3 mm) təşkil edir [2,3,4]. Beləliklə, cibin ən az dərinliyi, qapağın əsas estetiklik tələb edən vestibulyar hissəsindədir ki, bu da qapaq kənarını effektiv örtməyi daha da çətinləşdirir [3,4,6]. Aproksimal hissələrdə isə dişəti cibinin dərin olması estetik olmayan qara dişarası üçbucaq boşluqların örtülməsini asanlaşdırır [3,4,7].

Retraksiya sapını dişəti dərinliyini müəyyən etdikdən sonra lazımi diametri seçməklə tam dişəti altına salmaq lazımdır [3,4,5]. Yumşaq toxumaların normal vəziyyətində və dayaz dişəti cibi olduqda daha nazik retraksiya sapı istifadə etmək olar [3,4,5]. Birləşdirici toxuma bağlarının zədələnməməsi üçün sapı minimal təzyiq ilə yerləşdirmək lazımdır. Ölçü götürərkən dişəti cibinin daha çox retraksiyası üçün sapı xüsusi məhlulla hopdururlar [3,4,9]. Sapın daxil edilməsi dişətinin müvəqqəti retraksiyasına və dişəti cibinin bir az genişlənməsinə səbəb olur [3,4,5,8]. Bununla vestibulyar səthdə yonulmanın ilkin sərhəddi görünən olur. Yumşaq toxumalar bu zaman 0,2-0,5 mm apikala doğru yer dəyişir. Dişəti cibi daha dərin olan proksimal nahiyyələrdə yumşaq toxumaları daha apikala çəkmək üçün əlavə sap daxil edirlər [3,4,8].

Bu mərhələdə yonulma sərhəddini yeni dişəti səviyyəsində yaradırlar. Yonulma sərhəddinin dəyişdirilməsi bəzən vestibulyar sərhəddə aparılır. Ehtiyac olarsa boyun nahiyyədə yonulma konturunun dəyişməsi, dil səthinə toxunmamaqla ancaq proksimal hissələrə qədər aparıla bilər. Nazik biotipdə geridönməz dişəti resessiyasına səbəb olmaması üçün, vestibulyar nahiyyədə yonulma sərhəddi çox dərin olmamalıdır [3,4,5,7].

Son mərhələ final tamamlama hesab olunur ki, bunu da kiçikdənəli burğaclarla, cilalayıcı rezinlər, həmçinin ucu əyilmiş kəsici əl alətləri (mina bıcağı) ilə həyata keçirmək olar. Tamamlama işini həkim burğacla, yüksəldici ucluğa aşağı dövrlərdə sürət verməklə aparmalıdır. Bu mərhələnin məqsədi hamar, cilalanmış səth

yaratmaqdır. Xırda dənəvərli burğacla hər hansı yonulmuş dişin formasını dəyişmə cəhdi dişin qızması və pulpanın zədələnməsi ilə nəticələnə bilər [3,4,5,6,7,9].

Dişlərin yonulmasının yüksək dəqiqliklə həyata keçirilməsi üçün operasiyon stereomikroskoplardan istifadə olunması tələb olunur. Həkim böyüdücülər altında pillə səthini, uyğun forma və ölçüyə malik mina bıçaqlarından istifadə etməklə hamarlayır. Pillə səthinin hamarlanması vizual nəzarət altında aparılmalıdır. Bu növ prosedurları böyüdücüsüz apardıqda, pillə səthi və perimetri boyunca kələ-kötürlərin (nahamarlıqların) əmələ gəlməsinə səbəb olur ki [3,5], bu da öz növbəsində ölçünün qeyri-dəqiq alınmasına və uyğun olaraq keyfiyyətsiz restavrasiyanın hazırlanmasına səbəb olur. Hər klinikanın bu cür avadanlıqları əldə etməsinin mümkünsüzlüyünü nəzərə alsaq, bizim tərəfimizdən, hamar pillənin yaradılmasının əlverişli üsulu təklif edilmişdir. Bu üsulun mahiyyəti, pillə səthinin suya davamlı flomastrla rənglənməsindən və sonradan kiçik almaz dənəli sarı rəngli burğacıarla rəngləmə izlərinin itirilməsinə kimi hamarlamaqdan ibarətdir. Pillə səthinin üzərindən boyanın silinməsi səthin hamarlanmasının təminatıdır. Pillənin hamar səthi ölçünün asan götürülməsini və qapağın dəqiq oturmasını təmin edir.

Kələ-kötürlük ölçü materialının deformasiyasına da səbəb olur. Son ölçünü yonulmadan bir neçə həftə sonra götürmək məsləhətdir. Bu müddət ərzində restavrasiya kənarının dişətiətrafı yumşaq toxumalara reaksiyasını bilmək və iltihabın olmamasına əmin olmaq olar. Yonulmanın sərhəddinin yeni dişəti səviyyəsinə dəyişdirilməsi, müvəqqəti qapağın yenidən kipləşdirilməsini tələb edir. Yumşaq toxumaların zədələnməməsi üçün retraksiya sapının dişəti cibində 30 dəqiqədən çox qalmasına yol vermək olmaz. Dişəti sapı yonulmanın sərhəddini dəqiq və rahat görməyə imkan verir [3,4,5,6].

ƏDƏBİYYAT

1.Qarayev Z.İ. Ortopedik stomatologiya, 2008

2.Cargiulo A., Wentz F., Orban B. : Dimensions and relations of the dentogingival junction in humans // J Periodontol., 1961, v.32, p.261

3. Массирони Д., Пасчетта Р., Ромео Д. Точность и эстетика. М.: Азбука, 2008. 440с

4. Фрадеани М. Анализ эстетики. Систематизированный подход к ортопедическому лечению. М.: "Азбука", 2007, 335 с.

5. Мартиньони М. Точная припасовка несъемных протезов. Клинические и зуботехнические этапы. М.: Азбука, 2011, 573 с.

6.Herbert T., Shillingburg İr DDS. Основы несъемного протезирования. М.: Квинтэссенция, 2008

7.Irfan A. Эстетика непрямой реставрации. М.: Мед пресс –информ, 2009

8.Şahmuradov R.R., Əliyev Ə.A.,Məmmədov A.M. Diş ətinin retraksiyası. Metodik göstəriş. Bakı, 2012, 40s.

9. Spear F. DDS.MSD. "Restorative design workshop" Speareducation USA 2014

Резюме

Препарирование зубов под полные коронки

А.И. Тагиев, Р.Р. Шахмурадов, А.А. Алиев, Г.Е.Керимова

Для достижения высокой точности при обточке зубов требуется использование операционной стереомикроскопии. Врач для сглаживания уступа в эмали под увеличителем использует эмалевые ножи различной формы и размеров. Шлифовка области уступа должна осуществляться под визуальным контролем. Проведение процедур такого рода без увеличителя приводит к формированию неровностей в области уступа, что приводит к получению неточного слепка и, как результат, к приготовлению некачественных реставраций.

Summary

Preparation of teeth for full crowns

A.I. Tagiyev R.R. Shakhmuradov, A.A.Aliyev, G.E.Kerimov

To achieve high precision in the turning of the teeth requires the use of an operating stereomicroscopy. Doctor to smooth the ledge in the enamel under the magnifier uses enamel knives of various shapes and sizes. Grinding of ledge area must be carried out under visual control. Holding such procedures without extension leads to the formation of irregularities in the shoulder, resulting in inaccurate impression and as a result, to the preparation of low-quality restorations.

Daxil olub:04.03.2016

POTERİUM POLYGAMUM W. ET K. BİTKİSİNİN XAMMALININ MORFOLOJI-ANATOMİK DİAQNOSTİK ƏLAMƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

Y.B. Kərimov, A.R. Əkbərova

Azərbaycan Tubb Universiteti, farmakoqnoziya və botanika kafedrası, Bakı

Açar sözlər: Poterium polygamum, hüceyrə, epidermis, tükcük

Ключевые слова: Poterium polygamum, епидермис, волоски, клетка

Key words: Poterium polygamum, cells, epidermis, hairs

Poterium polygamum (Poterium sanguisorba)- çoxqardaş başlıot çoxillik ot bitkisi olub, gülçiçəkkimilər *Rosaceae* fəsiləsinə aiddir.[3] Dünya florasında başlıot- *Poterium* cinsinə aid 30 bitki növü, florasında Azərbaycan florasında isə 2 bitki növü: *P. Polygamu*- çoxqardaş başlıot və *P. Lasiocarpum*- tüklümeyvə başlıot yayılmışdır. *P. Polygamum*- hündürlüyü 40-80sm olan çoxillik ot bitkisidir. Yarpaqları sərt, sarımtıl və ya abıyaçalar qızılı rənglidir. Gövdəsi dikdir, tamamilə çılpaqdır. Çiçəklənməsi elliptik formadadır. May-iyun aylarında çiçəkləyir. Şərq Avropa hissəsi, Orta Asiya və yaxın Şərq, Qafqaz o cümlədən Azərbaycanda yayılmışdır. Çəmənliklərdə, daşlıq, gillik bölgələrdə, çılpaq torpaqlarda, meşə və yolların kənarlarında bitir [1,2,4]. Xammal kimi əsasən yarpaqlarından istifadə olunur. Bitkinin tərkibində aşı maddələri, kök və kökümsovunda triterpenoidlər (kakugenin və poternozid), kardenolidlər, saponinlər, alkaloidlər, flavanoidlər (kversetin, izokversitrin, avikulyarin, astraqalin) vardır. Toxumlarının tərkibində tsiklitol və onun törəmələri (fitin 2%), steroidlər, karbohidratlar, yağ turşuları, fosfolipidlər, triqliseridlər, ali yağ turşularının hidrolizatları (palmitin, stearin, araxin, olein, linolen) vardır [6].

Yarpaqlarından tibbdə şəkərli diabet xəstəliyi zamanı və başqa səbəblərdən yaranan irinli yaralarda yarasağaldıcı kimi istifadə olunur. Bundan başqa *P.Poterium* ekstraktından ətriyyat və kosmetologiya sahəsində də istifadə olunur [7].

Tədqiqatın material və metodları. Poterium polygamum bitkisi 2014-cü ilin iyul ayında Qusar rayonunda, Yasab kəndi ətrafında toplanmışdır. Mikroskopik tədqiqat müvafiq üsullara uyğun həyata keçirilmişdir. Tədqiqat zamanı "BİOLAM-C" markalı mikroskop, "MBC-1" markalı binikulyar və Samsung "L74WİDE" markalı fotoaparatdan istifadə edilmişdir.

Nəticə və müzakirə. *Poterium polygamum* bitkisinin yarpaq və çiçəklərinin anatomik quruluşundakı fərqli xüsusiyyətləri müəyyənləşdirmək üçün mikroskopik analiz həyata keçirilmişdir. Bunun üçün bir neçə üsuldan istifadə edilmişdir. İlk olaraq bitkinin yarpağı sınaq şüşəsinə yerləşdirilir, üzərinə 3 ml 5 %-li NaOH məhlulu əlavə edilir. Spirt lampasında 2-3 dəq müddətində aradabir qarışdırmaqla qaynadılır. Sonra sınaq şüşəsindəki yarpaq su ilə bir neçə dəfə yaxalanır. Əşya şüşəsinin üzərinə 2-3 damcı su damızdırılır, içərisinə *P.polygamum* yarpağının bir hissəsi yerləşdirilir və mikroskopun müxtəlif böyütmə dərəcələrində müşahidə aparılır. Daha sonra sınaq şüşəsinə yerləşdirilmiş bitki yarpağı üzərinə duru nitrat turşusu və kalium-bixromat əlavə olunaraq rəngsizləşdirilir. Sonra sınaq şüşəsindəki yarpaq su ilə bir neçə dəfə yaxalanır. Əşya şüşəsinin üzərinə 2-3 damcı su damızdırılır, yarpağının bir hissəsi yerləşdirilir və mikroskop altında tədqiq olunur [5].

Bitkinin yarpaqları üçün bu anatomik xüsusiyyətlər müəyyən edildi: yarpaq torvari damarlanmaya malikdir; üst epidermis hüceyrələri müəyyən dərəcədə əyridivarlıdır yarpaq ayası boyunca uzanır, azsaylı tükcüklərlə örtülmüşdür.

Tükcüklər əsasən damarların ətrafında yayılmışdır. Iki tip tükcüklərə rast gəlinir: a)sadə, çoxhüceyrəli, nazik divarlı tükcüklər; b)çoxhüceyrəli başcıqlı tükcüklər;



Şək. 1. Yarpağın üst səthindəki tükcüklər



Şək.2.Damarların səthində olan tükcüklər



Şək. 3. Yarpağın üst səthindəki ağızcıqların görünüşü.

Şək. 4-5. Damarların səthində olan druzların müxtəlif görünüşü

Ağızcıqlar 4 ağızcıqətrafı hüceyrələrlə əhatə olunmuşdur və anomosit tiplidir (Şək.1,2).

Epidermisin altında damarların səthində çoxsaylı druzlar olan qat müşahidə edilir (Şək.3).

Alt epidermis hüceyrələri çox xırda olub, dalğavari quruluşludur. Tükcüklər müşahidə olunur. (şəkil 3-6). Yarpaq saplağında da tükcüklər vardır (şək. 6). Çiçək ləçəklərində də sadə və başcıqlı tükcüklərə rast gəlinir (Şək. 7).



Şək. 6.Yarpaq saplağının səthində olan tükcüklər



Şək. 7.Çiçək ləçəyinin səthindəki tükcüklər



Şək. 8.Erkəkcik tozluğu



Şək.9.Toxumun binikulyar altındakı görünüşü

Beləliklə, aparılmış mikroskopik tədqiqat nəticəsində *P. polygamum* bitkisinin yarpaqları və çiçəkləri üçün bu diaqnostik əlamətlər müəyyən edilmişdir: üst epidermis hüceyrələri əyribucaqlıdır, uzun, nazik divarlı, iki cür tükcüklərlə örtülmüşdür; damarların səthində kalsium-oksalat kristalları olan qat yerləşir. Alt epidermis hüceyrələri dalğavari quruluşdadır, tükcüklər müşahidə olunur; ağızcıqlar 4 ağızcıqətrafı hüceyrələrlə əhatə olunmuşdur və anomosit tiplidir.



Şək.10.Yarpaq səthindəki xəznələr

Şək.11.Çiçəkqrupu

Yarpaq saplağında da tükcüklər müşahidə edilir. Çiçək ləçəklərində sadə və başcıqlı tükcüklərə rast gəlinir. Bu fərqli diaqnostik əlamətlər bitkinin eynilik təyinində istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Флора Азербайджана. Баку, Изд-во АН Аз ССР, т. 5, 1954, с.143-144.
2. Шукюров ДЖ. З. Лекарственные растения Азербайджана, применяемые при сахарном диабете. 1981. с.28-35.
3. Черепанов С.К. Сосудистые растения России и сопредельных государств. СПб: «Мир и семя-95» 1995. с.871
4. Acheampong-Boateng, Owoahene. 1991. The nutritive value of sainfoin (Onobrychisviciifolia), sheeps' burnet (Sanguisorba minor) and lucerne (Medicago sativa). Pretoria, South Africa: University of Pretoria. 197 p. Thesis.
5. Kərimov Y. B., Xəlilov C.S., İslamova N.A. və b.Botanika Praktikumu. Bakı, 2000, s. 8-9.
6. Соколов П.Д. Растительные ресурсы СССР. Ленинград: Изд-во «НАУКА», 1987, с.69-70.
7. http://www.medherb.ru/pot_po.htm

Резюме

Изучение диагностических признаков анатомического строения сырья растения Poterium polygamum

Ю.Б. Керимов, А.Р. Акперова

В результате микроскопического исследования, выявлены следующие диагностические особенности для цветков и листьев растения *Poterium polygamum:*

-стенки клеток эпидермиса верхней листовой пластинки извилистые;

-устьица встречаются крайне редко, тип устьиц ранункулоидный;

-волоски немногочисленные, в основном расположены вдоль жилки листа;

-волоски двух типов: простые многоклеточные, тонкостенные и многоклеточные головчатые;

-вдоль жилок просматриваются многочисленные друзы.

Стенки клеток эпидермиса, нижней стороны листовой пластинки, более мелкие и сильноизвилистые, имеются многочисленные устьица. Волоски отсутствуют. Эти диагностические особенности могут использоваться в определении подлинности растительного сырья.

Summary

The study of morfological anatomycal signs in the raw materials of Poterium polygamum

Y. B. Kerimov Aysel R. Akbarova

The results of microscopic studies in the leaves and flowers of Poterium polygamum have been identified following diagnostic properties:

-Lower epidermis cells are snaking, long, covered by 2 types hairs

-On the surface of veins located calcium oxalate crystals

-Upper epidermis cells are undulated, observed 2 types hairs: a) simple hairs, b) multicellular capitated hairs

-The type of stoma is anomosyt

The hairs are located in the blade of leaves. The simple and capitated hairs are found in the petals of flowers.

These difference diagnostic properties can be used in identification reactions of plants.

Daxil olub: 09.03.2016

ОПЫТ ПРИМЕНЕНИЯ ЛАРИНГОСКОПА AIRTRAG У БОЛЬНЫХ С ОПУХОЛЯМИ ГОЛОВЫ И ШЕИ

А.Д. Алиев, З.Ш. Везирова, Ф.Г. Мамедъярова

Национальный центр онкологии, г. Баку, Азербайджан

Açar sözlər: boyun və baş şişləri, larinqiskop airtrag

Ключевые слова: опухоли головы и шеи, ларингоскоп airtrag

Keywords: head and neck tumors, laryngoscope airtraq

Наиболее проблемным вопросом анестезиологического пособия при хирургических вмешательствах у больных с опухолями головы и шеи является обеспечение проходимости дыхательных путей.

Опухоли головы и шеи, нарушающие нормальную анатомию и топографические ориентиры, создают трудности для визуализации голосовой щели [1]. Особую категорию составляют пациенты с опухолями головы и шеи после радиотерапии. Как известно, результатами послелучевого фиброза являются ограничение движения нижней челюсти, ригидность шеи, поражение субмандибулярного пространства, смещение гортани вперед. Вышеуказанные факторы в совокупности усугубляют трудности обеспечения проходимости дыхательных путей у данной категории больных (9). «Золотым стандартом» в этих случаях признано применение фибробронхоскопической интубации в сознании. Однако необходимыми условиями для выполнения данной процедуры являются доступность эндоскопического оборудования и специальные навыки анестезиолога.

В настоящие время в клиническую практику широко внедряются методы видеоларингоскопии. Использование данной методики при сложной интубации трахеи внесено в протокол европейского Общества «Трудных Дыхательных Путей» (DAS) как альтернативный вариант обеспечения проходимости дыхательных путей [2,3]. На сегодняшний день имеется широкий выбор оптических ларингоскопов (Airtrag, AWS и др) и различного типа видеоларингоскопов-модификаторов клинка Макинтоша (C-Max, Glide-Scope).

Оптический ларингоскоп Airtrag позволяет визуально наблюдать за ходом интубации с помощью оптической системы, встроенной в корпус прибора (рис. 1).

Рис 1. Ларингоскоп Airtrag

Постоянный изгиб рабочей части клинка в 90° обеспечивает полный обзор голосовой щели без необходимости в выравнивании оси, проходящей от верхних резцов, глотки и гортани, что исключает переразгибание шейного отдела позвоночника и дает возможность интубировать больных с иммобилизацией шеи [4].

В современной литературе имеются данные, демонстрирующие возможности использования оптического ларингоскопа Airtrag как при нормальных, так и при «трудных дыхательных путях». Так, S.K. Ndoko и R. Amathieu в своем исследовании пришли к выводу, что использование данной аппаратуры у больных с морбидным ожирением имеет значительные преимущества перед традиционной интубацией ларингоскопом Macintosh, заключающиеся в сокращении количества неудачных попыток, времени интубации и уменьшении гемодинамического ответа на интубацию (7).

В своей работе Maharaj Ch. и Higgins B. доказывают эффективность интубации ларингоскопом Airtrag на манекенах при моделировании ситуаций «трудных дыхательных путей» (5), в последующих же исследованиях авторы приводят данные об успешном применении его при интубациях у больных с «трудными дыхательными путями» и в реальных условиях [6].

Учитывая вышеперечисленные характеристики ларингоскопа Airtrag, мы предположили, что использование данной модели у больных с опухолями головы и шеи при наличии "трудных дыхательных путей", может оптимизировать процесс интубации и стать как основным методом обеспечения проходимости дыхательных путей у этой категории больных, так и вариантом резерва.

Целью нашего исследования явилось изучение возможности и целесообразности использования оптического ларингоскопа Airtrag в ходе обеспечения проходимости «трудных дыхательных путей» у пациентов с опухолями головы и шеи.

Материалы и методы исследования. Исследование выполнялось на базе отделений опухолей головы и шеи и анестезиологии Национального Центра Онкологии, г Баку.

В исследование включено 6 пациентов в возрасте от 43 до 60 лет, из них 3 мужчин, 3 женщин. Всем больным планировалось проведение хирургических вмешательств по поводу опухолей головы и шеи.

Физический статус, оценивавшийся по шкале ASA, составил I-II класс. Предоперационная оценка состояния дыхательных путей выполнялись как по шкале LEMON (8), так и на основании данных инструментальных, радиологических методов исследования, а именно, компьютерной томографии глотки, гортани и верхних дыхательных путей. Характеристика больных в соответствии с результатами объективных и инструментальных методов исследования представлена в таблице 1. Индукция в анестезию выполнялась на основе пропофола в дозе 2,3 мг/кг и фентанила в дозе 1,2 мкг/кг без использования миорелаксантов. Поддержание анестезии проводилось на основе изофлюрана (MAC 1.1%), фентанила в дозе 0,8-1.0 мкг/кг/час и мышечного релаксанта эсмирона (рокуроний бромид) в дозе 0,6 мг/кг.

Результаты и обсуждение. Оротрахеальная интубация всех представленных в работе пациентов выполнялась при помощи ларингоскопа Airtrag с первой попытки. У 4 больных с нарушениями подвижности шейного отдела позвоночника изгиб рабочей части клинка в 90° позволил достичь обзора голосовой щели без переразгибания шеи. Наличие системы линз, расширяющей угол обзора голосовой щели, предоставило возможность проведения интубации с первой попытки у 4 больных с классом 3 по тесту Mallampati. При этом не было необходимости в использовании улучшенного положения Джексона, что было особенно актуально для больных с ограничением подвижности шейных позвонков. Увеличенное изображение голосовой щели и окружающих структур, в частности измененного в результате опухоли надгортанника, значительно оптимизировало процесс интубации у

больного раком гортани с распространением в область надгортанника. Особого внимания заслуживает следующий клинический пример. Больная Н., 43 года, диагноз: аденома околоушной слюнной железы. Пациентке запланировано проведение левосторонней паротитэктомии (Рис. 2).

Из анамнеза: в 41 год больная перенесла оперативное вмешательство по поводу перелома нижней челюсти. В связи с возникшими в ходе обеспечения проходимости дыхательных путей трудностями, связанными как с основным заболеванием, так и с анатомическими особенностями, больной была проведена трахеостомия.

Учитывая анамнестические данные, с целью прогнозирования возможных осложнений, в предоперационном периоде нами выполнена оценка состояния дыхательных путей по шкале LEMON (таб. 2).

На основании полученных результатов было принято решение о проведение интубации с помощью оптического ларингоскопа Airtrag. В качестве резервного метода выбрана интубация с помощью гибкого фибробронхоскопа.

После вводной анестезии выполнена оротрахеальная интубация ларингоскопом Airtrag с первой попытки. Характерной особенностью ларингоскопии Airtrag является возможность проведения его по средней линии неба, что позволило выполнить манипуляцию в условиях ограниченной степени открывания рта. После визуализации гортани, через специальный канал в корпусе ларингоскопа проведена эндотрахеальная трубка N 7. После успешной интубации была выполнена паротитэктомия. Длительность операции составила 1 час 40 мин. Экстубация выполнена спустя 10 минут после наложения последнего кожного шва.

Таблица 1

Характеристика обследованных больных

Пациент. возраст	Диагноз	Выявленные нарушения дыхательных путей (шкала Lemon)	Выявленные нарушения дыхательных путей (данные КТ)
Т., 52 г.	Рак щитовидной железы, ревмотоидный артрит	1.Разгибание шеи невозможно 2.Тест Mallampati класс 3	Деформация CIII-CVI позвонков
Д. 48 л.	Аденома паратироидной железы, паратироидная остеодистрофия	1. Разгибание шеи невозможно 2.Тест Mallampati класс 3	Деструкция CIII-CVI позвонков
С., 54 г.	Аденома паратироидной железы, паратироидная остеодистрофия	1.Разгибание шеи невозможно 2.Тест Mallampati класс 2.	Деструкция CIII-CVI позвонков
Н., 43 г.	Аденома околоушной слюнной железы	1.Деформация нижней челюсти, после перенесенного оперативного вмешательства 2.Открывание рта - 2 пальца 3.Расстояние от подъязычной кости до подбородка - 2 пальца 3.Выдвижение нижних резцов невозможно. 4.Тест Mallampati класс 3	КТ без патологий
К., 60 л.	Рак гортани, II стадия T2N0M0, состояние после лучевой терапии	1.Разгибание шеи невозможно 2.Тест Mallampati класс 3	Образование в области левой, голосовой связки, распространяющееся в переднюю комиссуру размером 0.8 см
Д., 57 л.	Рак гортани, III стадия T3NxM0	1.Тест Mallampati класс 2	Образование в области в правой голосовой связки, распространяющееся в область надгортанника размером 1см

Выводы. Таким образом, вышеописанные клинические наблюдения подтверждают мнение ряда авторов о том, что внедрение оптического ларингоскопа Airtrag значительно улучшает возможности решения проблемной оротрахеальной интубации, особенно связанной с ограничением открывания рта и подвижности в атлантозатылочном сочленении. Данная техника может быть рекомендована как альтернативный метод интубации при "трудных дыхательных путях" у больных с опухолями головы и шеи.

Рис 2. Проведение левосторонней паротитэктомии

Таблица 2
Оценка дыхательных путей больной Н. по шкале LEMON

L - look externally/ Внешний вид	Деформация в области нижней челюсти
E - evaluate the 3-2-1 rule Оценка правила 3-2-1	Открывание рта - 2 пальца Расстояние от подъязычной кости до подбородка - 2 пальца. Выдвижение нижних резцов невозможно
M - Mallampati test Тест Маллампати	3 степень - визуализируется только мягкое и твердое небо
O - obstruction Выявление признаков обструкции	Наличие храпа во сне
N - Neck mobility Оценка подвижности шейного отдела позвоночника	Разгибание шеи более 35°

ЛИТЕРАТУРА

1. Зайцев А.Ю., Светлов В.А. Опухоль корня языка. Тактика интубации трахеи // Анестезии и реанимации. 2014. N1, с. 63-65.
2. Зайцев А.Ю., Светлов В.А., Дубровин Видеоларингоскопия и ретромолярная эндоскопия в практике челюстно-лицевой хирургии // Анестезиология и реаниматология. 2013, N2, с.55-58.
3. Henderson J.J., Popat M.T., Latto I.P. Difficult Airway Society guidelines for management of the unanticipated difficult intubation // Anaesthesia, 2004, v.59, p.675-694.
4. Maharaj C.H., O'Croinin D., Curley G. et al. A Comparison of tracheal intubation using the Airtraq or the Macintosh laryngoscope in routine airway management: A randomised, controlled clinical trial // Anaesthesia, 2006, v.61(11), p.1093-9
5. Maharaj C.H., Higgins B.D., Harte B.H., Laffey JG. Evaluation of intubation using the Airtrag or Macintosh Laryngoscope by anaesthetist in easy and simulated difficult laryngoscopy- a mankin study // Anaesthesia. 2006, v.61(5), p.469-477
6. Maharaj C.H., Costello J.F., Harte B.H., Laffey J.G. Evaluation of the Airtraq and Macintosh laryngoscopes in patients at increased risk for difficult tracheal intubation // Anaesthesia, 2008, v.63(2), p.182-8.
7. Ndoko S.K., Amathieu R., Tual L., Polliand C., Kamoun W. Tracheal intubation of morbidly obese patients: a randomized trial comparing performance of Macintosh and Airtrag Laryngoscopes // Br J Anaesth., 2008, v.100(2), p.263-8
8. Reed M.J., Dunn M.J., Mc Keon D.W. Can an airway assessment score predict difficulty at intubation in the emergency department? // Emerg Med J., 2005, v.22, p.99-102
9. Juneja R., Lacey O. Anaesthesia for head and neck cancer surgery // Current Anaeshesia & Critical Care, 2009, v.20, p.28-30

Summary

The experience of using airtrag laryngoscope in patients with head and neck tumors

A.J. Aliyev, Z.S. Vezirova, F.G. Mammadyarova

The Airtrag laryngoscope is a novel intubation device which allows visualization of the vocal cords without alignment of oral, pharyngeal and tracheal axes. It is also supplied with lenses, which improves view of vocal cords significantly. Our study describes six successful intubations in patients with head and neck tumors and "difficult airways". Results of study allow to conclude that the Airtrag laryngoscope facilitates intubation in patients with immobilization of cervix and reduced incisor distance.

Xülasə

Baş və boyun şişləri olan xəstələrin airtrag laringoscopun istifadəsi təcrübəsi haqqında

Əliyev Ə.C., Vəzirova Z.Ş., Məmmədyarova F.G.

Məqalədə çətin tənəffüs yollu, baş və boyun şişləri olan xəstələrdə altı müvəffəqiyyətli intubasiya əməliyyətlərin həyata keçirilməsi təsvir edilmişdir. Bir daha təsdiq edilmişdir ki, laringoskop Airtrag-ın istifadəsi orotraxial intubasiyasinin imkanlarini genişləndirir. Bu, ələlxüsus, ağız boşluğun açılmasında məhdudiyyəti olan və atlantopeysər oynağında labilliyi olmayan hallarda görünür.

Daxil olub: 29.03.2016

ИСПОЛЬЗОВАНИЕ МУЛЬТИМОДАЛЬНОЙ ПРОГРАММЫ В ХИРУРГИЧЕСКОМ ЛЕЧЕНИЕ ГИНЕКОЛОГИЧЕСКИХ БОЛЬНЫХ

Г.Ш. Абдуллаева, М.И. Мазитова, Е.Ю.Антропова

ГБОУ ДПО Казанская государственная медицинская академия МЗ России

Açar sözlər: laparoskopik cərrahiyyə, əməliyyatdan sonrakı ağrı, ginekoloji xəstəliklər

Ключевые слова: лапароскопическая хирургия, послеоперационная боль, гинекологические заболевания.

Key words: laparoscopic surgery, postoperative pain, gynecological diseases

Улучшение методов диагностики гинекологических заболеваний, внедрение малоинвазивных технологий, а именно эндовидеокирургии, способствовали увеличению в последнее время оперативных вмешательств. Использование лапароскопических операций, несмотря на уменьшение травмы передней брюшной стенки, не может решить всех проблем послеоперационного восстановления пациенток, зависящего как от хирургического стресса так и от обезболивания.

Хирургическая травма и, связанный с ней, болевой синдром запускает целый каскад метаболических, эндокринных и воспалительных реакций. От послеоперационной боли по данным специалистов, страдают не менее 35% пациентов, перенесших плановые и экстренные хирургические вмешательства, в 87% случаев интенсивность послеоперационной боли определена как средняя и высокая, а 17% пациентов отметили, что интенсивность ее превысила ожидаемую [1]. Неадекватное обезболивание в раннем послеоперационном периоде может стать причиной нарушения функционирования различных систем: сердечно-сосудистой, дыхательной, пищеварительной, мочевыделительной, а так же нейроэндокринных и метаболических процессов, что незамедлительно оказывает влияние на процесс заживления тканей и общего послеоперационного восстановления пациентов.

Небезразлично для многих жизненно важных функций организма и повышение внутрибрюшного давления (ВБД), что является особенностью лапароскопической хирургии, требующей создание искусственного пневмоперитонеума. Инсуффляция газа в брюшную полость приводит к нарушению местной гемодинамики за счет сдавления нижней полой вены с нарушением циркуляции в ее бассейне, нарушения кровотока в артериях и венах брюшной полости и забрюшинного пространства, это способствует повышению давления в спинномозговом канале и желудочках мозга [2]. Отмечается дисфункция почек, обусловленная компрессией почечных вен и прямой компрессией самих почек, что приводит к повышению уровня антидиуретического гормона и неблагоприятно сказывается на других органах [3]. Эндохирургам хорошо известно, что углекислый газ (CO_2) способен вызвать боль после операции. Точный механизм этой боли, присущей только для карбоксиперитонеума еще не объяснен, но принято считать, что она возникает в результате раздражения брюшины угольной кислотой,

образуемой при растворении CO_2 в плазме и перитонеальной жидкости, это ограничивает использование CO_2 при вмешательствах под региональной анестезией [4]. При проведении длительных оперативных вмешательств с применением углекислого газа, воздействие его на жизненно важные системы организма становится выраженным, а у пациентов с сопутствующей патологией может привести к тяжелым осложнениям [5].

Задачами хирургов при выполнении оперативных вмешательств являются адекватный объем и квалифицированная техника манипуляций с минимизацией хирургической травмы и длительности операции. Цели анестезиолога-реаниматолога во время операции: минимизация хирургического стресса, анальгезия, достаточный уровень седации и надежная миорелаксация [6]. Уменьшить травматичность оперативного вмешательства сегодня позволяет использование современных технологий, таких как миниинвазивные эндовидеохирургические вмешательства. Ведущей тенденцией в современной периоперационной терапии является применение мультимодального обезболивания. С позиций ускоренной послеоперационной реабилитации наибольший интерес представляют следующие постулаты многокомпонентной аналгезии: оптимизация применения опиатов, широкое одновременное использование современных нестероидных противовоспалительных средств и парацетамола, регионарная анестезия, установка специальных катетеров в послеоперационную рану для непрерывного введения местных анестетиков, ранний переход на таблетированные анальгетики. При этом доказано, что наибольший обезболивающий эффект достигается при синхронной реализации указанных принципов [7,8].

Целью данного исследования явилось улучшение реабилитации гинекологических больных после операций на придатках матки.

Материалы и методы исследования. С целью уменьшения объема хирургической травмы передней брюшной стенки и послеоперационной боли у пациенток нами выполнены лапароскопические операции трансумбиликальным доступом в изопевматическом режиме, т.е. при механической элевации передней брюшной стенки, с применением мультимодального обезболивания, включающего в себя дистальную регионарную аналгезию в виде transversus abdominis plane block - поперечный плоскостной межфасциальный блок (ТАР-блок).

